Ailə mövzusunda atalar sözləri güclü normativ məzmun daşıyır. Onlar valideynə hörməti, böyüyə itaəti, ailə şərəfinin qorunmasını, övladın düzgün tərbiyəsini təbliğ edir. Bu, onların tənzimləyici funksiyaya malik olduğunu göstərir. Ailə haqqında atalar sözlərinin semantikasında nəsillərarası bilik və müdriklik mənası da güçlüdür.

Nənə evin kötüyüdü.
Nənə nəvənin oyuncağıdı (Atalar sözləri (2013), s.325).
Babadan hikmət – nəvədən xidmət.
Babanın üzünü ağardan nəvəsi olar (Atalar sözləri (2013), s.63).
Qız nəvəsi şirin olar (Atalar sözləri (2013), s.287).

Belə atalar sözləri nəsillərarası məsuliyyəti və biliklərin böyüklərdən kiçiklərə keçməsini əks etdirir. Çünki cəmiyyəti təşkil edən hər fərd "özünü" formalaşdırarkən əvvəlki nəsillərin mədəni məhsullarından istifadə edir (Ünal (2000).

Əmi qızıynan əmi oğlunun kəbini göydə kəsilib.
Əmiyə qaldı, dəmiyə qaldı.
Əmiyə qalan gəmirə qalar, dayıya qalan dəmirə (Atalar sözləri (2013), s.173).
Dayısı olan dayısına güvənər.
Dayıynan dağ dolan, əmiynən bağ dolanma (Atalar sözləri (2013), s.119).
Xala evinə dadanan, ər evinə xeyir verməz (Atalar sözü (2004), s.130).
Xala evinə dadanan, ər evində dayanmaz.
Xalam bildi – aləm bildi (Atalar sözləri (2013), s.219).

Bu atalar sözləri həm deskriptiv, həm də preskriptiv xarakter daşıyır, yəni həm vəziyyəti təsvir edir, həm də davranış qaydalarını öyrədir. Atalar sözləri bir xalqın əsrlər boyu qazandığı təcrübəyə əsaslanan, cəmiyyət tərəfindən mənimsənilən və istiqamətverici xüsusiyyət daşıyan mühüm mədəniyyət elementləridir (Ergan (2000).

Sintaktik Xüsusiyyətlər

Ailə haqqında atalar sözlərinin təsir gücü yalnız semantik zənginliklə deyil, həm də onların sintaktik quruluşu ilə bağlıdır. Sintaktik struktur fikrin lakonik, obrazlı və normativ şəkildə ifadəsinə imkan yaradır. Belə atalar sözlərində sintaksis yalnız qrammatik quruluşu deyil, həm də üslubi və kommunikativ funksiyanı müəyyənləşdirir. Yığcamlıq, paralellik, qarşılaşdırma, ritmik quruluş və intonasiya bütövlüyü onların əsas sintaktik göstəricilərindəndir. Ailə haqqındakı atalar sözlərinin içərisində həm sadə, həm də mürəkkəb cümlə quruluşları ilə qarşılaşırırq. Bu tip vahidlərdə fikir hökm xarakteri daşıyır və ümumiləşdirilmiş nəticə kimi təqdim olunur. Məsələn:

Dayı tikən körpünü su aparmaz (Atalar sözləri (2013), s.119).

Bu tip cümlələrdə mübtəda və xəbər əsas sintaktik dayağı təşkil edir. Feli xəbər əksər hallarda qeyri-qəti gələcək zaman forması ilə ifadə olunur ki, bu da fikrin universallığını və konkret zamandan asılı olmadığını göstərir. Sadə cümlə modeli atalar sözlərinin lakonikliyini və yadda qalanlığını təmin edir.

Atalar sözlərində mürəkkəb cümlə modelləri də geniş yayılmışdır. Xüsusilə tabeli mürəkkəb cümlələrdə şərt münasibətləri ifadə olunur:

Xalam gəzəyən olsa idi, bizə də gələrdi.
Xalam kişi olsa idi, ona dayı deyərdim (Atalar sözləri (2013), s.219).
Xalamdan bir dilək dilədim, versə də xalamdı, verməsə də xalamdı (Atalar sözləri (2013), s.220).

Şərt strukturu əxlaqi və normativ xarakter daşıyır, davranış qaydasını dolayı yolla bildirir.

Qardaş da dost olsa, yaxşıdır.

Qardaş gəlsə, yaxşı, bacı gəlsə, yaxşı, qardaşın qabağında, bacı ölsə, yaxşı. (Atalar sözləri (2013), s.272).

Ailə mövzusundakı atalar sözləri dil baxımından adi cümlələrdən fərqlənən xüsusiyyətlərə malikdir. Belə ki, onlar həcm baxımından qısalığı, təsviri dili və ritorik vasitələri ilə seçilir.

Bala baldan şirindir (Atalar sözü (2004), s.49).
Babanın əlindən nəvə tutar (Atalar sözləri (2013), s.63).

Ailə mövzusundakı atalar sözlərində qısa və lakonik ifadə üçün bəzi elementlər atılır və bu proses elliptik strukturların formalaşmasına səbəb olur:

Övladda nəvə, dövlətdə dəvə (Atalar sözləri (2013), s.342).

Bu tip konstruksiyalar sintaktik qənaət prinsipinə əsaslanır və fikrin daha kəskin ifadəsinə xidmət edir. Atalar sözləri sabit sintaktik konstruksiyalar kimi formalaşmışdır və onların strukturunda dəyişiklik məna bütövlüyünü poza bilər. Bu sabitlik onların frazeoloji xarakterini gücləndirir. Sintaktik modelin dəyişməzliyi atalar sözlərini digər sərbəst cümlələrdən fərqləndirir.

Atalar sözlərində qohumluq terminləri mənəvi sanbal daşıyır, metaforik modellər konseptual struktur yaradır, normativ semantika isə sosial davranış modelini formalaşdırır. Beləliklə, ailə ilə bağlı atalar sözləri milli-mədəni özünəməxsusluğun semantik göstəricisi kimi çıxış edir və kollektiv şüurun mühüm ifadə vasitəsidir.

NƏTİCƏ

Ailə dəyərlərinə həsr olunmuş atalar sözlərinin tədqiqi göstərir ki, onlar həm dil, həm də mədəniyyət baxımından zəngin resursdur. Belə atalar sözləri dil, təfəkkür, mədəniyyət, cəmiyyət əlaqəsini ən dolğun şəkildə əks etdirən dil faktları kimi çıxış edir. Ailə mövzusu isə atalar sözlərinin ən geniş və məhsuldar semantik sahələrindən biridir. Çünki ailə cəmiyyətin əsas sosial institutu olmaqla yanaşı, mənəvi dəyərlərin, davranış normalarının və sosial münasibətlərin formalaşdığı ilkin mühitdir. Semantik baxımdan zəngin, sintaktik baxımdan sadə və yaddaqalandır, üslubi baxımdan estetik, praqmatik baxımdan isə təlimatverici funksiyaya malikdir. Bu atalar sözləri ailə münasibətlərini qoruyaraq nəsildən-nəsilə çatdırır, dil, mədəniyyət və sosial dəyərlərin bağlılığını ortaya qoyur.

ƏDƏBİYYAT

1. Abbasova, N. K., Abduvaliyeva, M. I. (2024). Comparison of family and relationship proverbs: Themes of family and relationships in Russian and English proverbs. Oriental Renaissance: Innovative, Educational, Natural and Social Sciences, 4(11), 93–380.
2. Abdurahmonov, V., Xalilova, Z. (2022). Expression of the concept of family in proverbs and sayings in the Uzbek and English languages. IJODKOR O'QITUVCHI, 2(24), 286–289.
3. Akhmedshina, L. R. (2022). The significance of the family in Russian paremics: Linguistic and cultural aspect. International Journal of Social Science & Interdisciplinary Research, 11(01), 221–224. https://gejournal.net/index.php/IJSSIR/article/view/159
4. Anorkulova, O. N. (2024). Linguocultural characteristic of the concept of "family" (based on the Zarbulmasal). American Journal of Social and Humanitarian Research, 5(10), 330–333. https://doi.org/10.31150/ajshr.v5i10.2993
5. Atalar sözü. (2004). Bakı: Öndər.
6. Atalar sözləri. (2013). Bakı: Nurlan.
7. Başarkanoğlu, L. (2014). Türk atasözlerinde gönül kavrayışı. Akademik Kaynak, 2(3), 25–36.
8. Çetin, H. A. (2025). Türk atasözlerinde soy, asalet ve aile terbiyesi üzerine bir inceleme. Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi, 115, 533–545.
9. Chuyanova, Z. (2025). Means of verbalization of the concept "family" in English and Uzbek linguacultures. Journal of Applied Science and Social Science, 1(2), 307–310.

10. Ergan, N. G. (2000). Türk atasözleri ve deyimlerinde aile ve akrabalık anlayışı. In Dördüncü Türk Kültürü Kongresi Bildirileri (551–565). Ankara: Atatürk Kültür Merkezi Yayınları.
11. İsmaılova, F. I. (2025). Семейные ценности в русских, узбекских и английских пословицах. Образование, наука и инновационные идеи в мире, 68(3), 180–185.
12. Karasik, V. I. (2010). Лингвистические и культурные аспекты пословиц. Москва: Наука.
13. Məlikova, İ. Azərbaycanda yaşayan xalqların atalar sözləri və deyimləri, Bakı“Ecoprint” nəşriyyatı, 2016, 168 s.
14. Mieder, W. (2004). Proverbs: A handbook. Westport, CT: Greenwood Press.
15. Nelyubova, N. Y., Dugalich, N. M., Ershov, V. I. (2021). Semantic condensations in French and Russian proverbs based on the thematic group family. RUDN Journal of Language Studies, Semiotics and Semantics, 12(4), 1051–1074. https://doi.org/10.22363/2313-2299-2021-12-4-1051-1074
16. Qur’an verses about family ties / kinship (69 ayat). (n.d.). Retrieved from https://myislam.org/quran-verses/about-family-ties-kinship/
17. Şengüder, Z. (2023). A comparative analysis of Russian and Turkish proverbs involving the concept of family. Avrasya İncelemeleri Dergisi, 12(1), 51–68. https://doi.org/10.26650/jes.2023.003
18. Şmelyov, A. D. (2025). Пословицы как маркеры лингвокультурного пространства. Москва: Лингвистика.
19. Ünal, S. (2000). Psikiyatrik uygulamalarda sosyokültürel duyarlılık. Anadolu Psikiyatri Dergisi, 1(4), 225–230.
20. Vereshchagin, E. M., Kostomarov, V. G. (2017). Русские пословицы: лингвистические особенности. СПб.: РГПУ.
21. Xalilova, Z. M. (2023). The concept of family in Uzbek and English proverbs. Journal of New Century Innovations, 22(2), 63–66. https://newjournal.org/new/article/view/3251
22. Yılmaz, G. (2015). Kazan-Tatar Türklerinde düğün ile ilgili atasözleri. Siberian Studies (SAD), 7(3), 1–11.
23. Yılmaz, Y., Sarı, H. (2015). Türk atasözlerinde akrabalık adlarının kullanımı. RumeliDE Dil ve Edebiyat Araştırmaları Dergisi, 2, 1–20.
24. Yoldaşev, İ., Gümüş, M. (1995). Türkçe açıklamalı Özbek atasözleri. Ankara: Engin.
25. Ziyoyeva, M. A. (2026). Ethnolinguistic analysis of kinship terms in Uzbek folk proverbs. International Journal of Artificial Intelligence, 6(01), 821–823.

ABSTRACT

LINGUISTIC FEATURES OF PROVERBS ON THE THEME OF FAMILY

Sadaqat Hasanova

The family, as a sphere in which unity, solidarity, and interpersonal relations are strongly manifested, occupies a central position in human society and finds its reflection in various genres of folklore. As one of the fundamental structural units of society, the family constitutes a prominent theme in proverbs. Proverbs are linguistic and cognitive facts that affirm the existence and cultural identity of a people. Proverbs devoted to family values reflect collective wisdom, the system of moral values, social norms, and ethical prescriptions. Formed as a result of accumulated experience and spiritual values, proverbs develop in accordance with the unique social structure of each community and the lexical resources of the language it employs. By presenting the society to which they belong in all its dimensions, they reveal the speech culture and cognitive patterns of the people. This article analyzes the linguistic features of proverbs related to the theme of family from semantic, grammatical, stylistic, and pragmatic perspectives. Based on examples from Azerbaijani proverbs, the study demonstrates their influence on social and cultural structures as well as on linguistic organization.

Keywords: *language, style, proverbs, family values, semantics, syntax.*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-05
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

POEZİYADA "HEYVAN" KONSEPTİ İLƏ BAĞLI LEKSİK VAHİDLƏRDƏ QƏNAƏT QANUNUNUN MENTAL XARAKTERİSTİKASI

Könül HƏSƏNOVA
Azərbaycan Dövlət Pedaqji Universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif: konul.hasanova@adpu.edu.az*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
heyvan konsepti, poeziya mətnləri, konseptin əlamətləri, qənaət qanunu, mental mahiyyəti

XÜLASƏ
Linqvokulturologiyada "heyvan" konsepti ayrıca bir anlayışın mental göstəricisi olub, ətrafında ev heyvanları – inək, öküz, qoyun, buzov, quzu, it, keçi, köpək, keçi, dıbır, təkə, camış, balax, sığır və s., vəhşi heyvanlar – tülkü, çaqqal, canavar, qurd, pələng, şir, dovşan, aslan, maral, ceyran, cüyür, ilan və s. kimi leksik vahidləri cəmləşdirə bilir və belə cəmləşdirmə anlayışın konseptuallaşdırılması deməkdir. Anlayışın konsept edilməsi beyində biliklər sisteminin dil və mədəniyyətin möhkəm məna əlaqəsi zəminində leksik-semantik bazasını yaradır. Poeziyada "heyvan" konsepti ilə bağlı anlayış və dəyərlərin linqvokulturoloji istiqamətdə mahiyyətinin, strukturunun, mental əlamətlərinin, metaforikləşmə xüsusiyyətlərinin hər tərəfli və sistemli şəkildə öyrənilməməsi təəssüf doğuran prioritet problemlərdən olub, onun təsəvvürdə yaratdığı qənaət şəkillərinin koqnitiv tədqiqini də aktuallaşdırır ki, məqalədə bu məsələlərdən danışılır.

GİRİŞ

Dünya dil mənzərəsində tarixən "heyvan" konsepti ilə bağlı adlar yaranarkən ümumbəşəri insanın dünyagörüşü və dil-şüuru mühüm rol oynamış və zəngin bir adlandırma sisteminə əsaslanan, məntiqi təfəkkür vasitəsinə söykənən onomoloji qat yaradılmışdır. Müxtəlifsistemli dillərin onomoloji sistemində bu leksik vahidin müxtəlif sözlərlə ifadə edilməsinə baxmayaraq, mahiyyət etibarilə universalilik yaradır. Belə ki, "heyvan" deyəndə dünya insanın təsəvvürüdə eyni anlayış canlanır və onun xəyalına, göz önünə həmin anlayışa məxsus əlamətlər yəni adları, əti, ev və çöl heyvanı olması, ərzaq məhsulları, qorxulu və yırtıcı cəhətləri gətirilir. Belə əlamətlər poeziyada da inikas olunur, bu xüsusda qənaət hadisəsi də reallaşdırılır. "Heyvan" cəmiyyət tarixinin ən qədim konseptlərindən biridir və o, poeziyada ətrafında cəmləşdirdiyi leksik vahidlərlə birlikdə xüsusi obraz göstəricisidir. Məsələn: "pələng kimi, şir kimi" bənzətmələri şeir mətnlərində görəndə xəyallarımıza qəhraman, igid bir insanın obrazı gəlir və bunların hamısı məcaziləşmə yolu ilə "insan" konseptinə transfer olunur. Poeziyada konkret konseptlərin və onlarda qənaətin linqvistik təzahür səviyyələrinin də öyrənilməsi kimi önəm daşıyan məsələlərdən olub, bir elm sahəsi kimi konseptologiyanı düşündürən mövzulardandır. Konseptoloji təhlil tədqiqatçı linqvokulturoloqdan tələb edir ki, tədqiqat prosesində anlayışların məzmun və mahiyyətinə, xarakterik əlamət və keyfiyyətinə, konseptinə daxil olan sistem və təsnifata, onların göndərilmə ünvanına dərindən baş vursun, yalnız onların leyində, idrakda əks olunma forma və mənalarına diqqətlə nəzər salın. Koqnitoloji dilçilikdə "dərketmə parametrləri bu cür sıralanır: anlayış-ünsür, yaxud təyinat-termin-indeks" (1, 63). Məsələn, bir qədim şeir mətni üzrə konseptoloji təhlili bu istiqamətlər və sıralama əsasında qurmaqla, koqnitoloji təsəvvürlərimizi aşkarlaya bilərik:

Ala kərə, tayın gördüm,
Sarı kürə, tayın görmək gərək,
Qara kərə, tayı gördüm,
Qumral sinək tayın görmək gərək
Qara kürə, tayın gördüm,
Özünü görmək gərək!
Sarı kərə tyın gördüm,
Qumral kərə, tayın görmək gərək (2, 14).

Bu qədim poetik mətndə "heyvan" anlayışı konsept edilir və həmin konseptə aid "qoyun" sözünə bütün misra strukturlarında da qənaət edilmiş, hətta əlamət bildirən birləşmələrdən sonra "rəngli" sözü də ixtisar şəklindədir və əslində dərketmə aparatında hər bir misra "ala rəngli kərə qoyun, tayın gördüm" bütöv formada inikasını tapır. Dərketmənin ünvanı və yaxud təyinatı da qoyun leksik vahididir ki, bu qənaət şəklindədir. İndeksləşdirmə sistemi isə qoyunların sayının müəyyənləşdirilməsidir ki, bu say şəkli ən qədim dövrlərdən bu günə kimi gəlib çıxmışdır, çünki hazırda heyvandarlıq təsərrüfatında qoyunlar əlamətininə görə cüt-cüt sayılır. Linqvokulturoloji yöndə qənaətin tədqiqə ehtiyacı olan məsələlərindən biri də "at" kultu ilə bağlı iri və xırda konseptlərdir. Hər bir leksik-semantik söz qrupunun özünəməxsus konsepti vardır və "at" konseptinin ətrafında toplanan ona aid erkəkliyi, kişiliyi, rəngi, xüsusiyyəti, xarakteri, qulun, ürkə, dayça, qulan, madyan olub olmaması, bir sözlə Qırat, Bozat, Dürat, Kəhər at, Qarabağ atı, Qazax atı və s. kimi adlar daxildir. Bəzən poeziya örnəklərində predmet-əşya və hadisələrin təsəvvürdə ümumi "at" sözü işlənmir, qənaət edilmiş şəkil alır, ona müvafiq tərzdə atın adı çəkilir:

Köhlən bildiyimiz, demə, yedəkmiş
O sizin şərbətin bircə qədəhmiş... (3, 154)

Birinci misrada formal cəhətdən "köhlən" sözündən və "yedək" sözündən sonra iki dəfə "at" sözünə qənaət edilmişdir. Söz-konsepti təsəvvürə gəlmə momentində təfəkkürümüzdə əks olunur. Məcazlaşma və idiomatikləşmə sahəsində "at" konsepti ilə bağlı linqvokulturoloji aspektdə söz tərkibi sıxışdırılmış atalar sözləri və məsələlər də yaradılmışdır: "At" igidin qanadıdır" (2, 181) - məsəli xalq təfəkküründə nə qədər struktur-semantik cəhətdən sıxılaşdırılsa da, yenə qənaət hadisəsi qalmış və dərk etmədə o, bu cür əks olunur: "At igidin quş kimi qanadıdır" – çünki "qanad" anlayışı bütün hallarda quşa məxsus orqanın adını bildirir. "At vurdu dişimə, indi gəldim özümə" (7, 122) – atalar sözündə əslində birinci komponentə "təpiklə" sözünü də artırmaqla qənaəti aradan qaldırmaq olar. Şeir mətnlərində adresantın (yazıçının, şairin) qənaət etdiyi söz və ifadələr adresatın (oxucunun) təsəvvüründə bərpasını tapır:

Qatır bilmir nə anadır, nə ata
Oxşarı var həm ulağa, həm ata (4, 13)

Bu mikrotekstin hər iki misrasında heyvanlar şəxsləndirildiyindən onlardan sonra "adlı heyvan" ifadəsi üslubi və poetik tərzlə müvafiq tərəfdə buraxılsa da adresatın təsəvvürünə heyvan konseptinə aid leksik vahid kimi gətirilir. "Konsept məhfumu mənanın mental dünyasına, yəni mədəniyyətə və tarixə çox yaxındır və bu cəhətdən spesifik xarakter daşıyır, konseptlər xalqın düşüncəsində yaşayan kollektiv işdir, onun mənəvi mədəniyyətidir. Məhz bu səbəbdən kollektiv şüur konseptlərin yəni daimi, yaxud uzun müddət mövcud olan konseptlərin qoruyucusu kimi çıxış edir. Linqvokulturologiyada konsept anlayışı kifayət qədər geniş sahəni əhatə edir, konseptin tərkib hissələrinə dil vahidlərinin bütün leksik və qrammatik mənaları daxildir. Konseptin başlıca əlaməti onun mentallığı ilə əsaslandırılır. Hər bir mental xüsusiyyətə malik dəyərlər kimi konseptlər də təxəyyül məhsuludur" (5). Yuxarıda verdiyimiz mikrotekstin mental əlamətindən belə də anlaşılır ki, "Qatır bilmir" cümləsi məhşur bir atalar sözünün başlanğıc elementidir, yəni "qatır nə bilir, dırnaq nə çəkir" (2, 174). Şəkilçidəki müdrik kəlamın bir hissəsi kimi "qatır" sözü, eyni zamanda, mental dəyərə malik olduğuna görə, onomastik sistemin ləqəb, ayama yaradıcılığında da aktiv iştirak etmişdir. Məs: Qatır Məmməd, Qatır Zəhra, Qatır Fatma və s. Burada da "kimi" köməkçi sözünə qənaət edilməklə, antroponimik modellər və onların timsalında geniş məzmunlu yaradılır və onlarda təxəyyül məhsulu kimi dərk edilir. Yuxarıda göstərdiyimiz kimi, heyvan anlayışı ilə bağlı konseptdə onun cinsi, növü çıxış edir, lakin maddi söz cildində "at" leksik vahidinə qənaət edilir:

Sən də köhlənini yan aşır keçir,
Amandır, toxunma, gül incisinə (4, 32).

Birinci misrada "köhlənini" sözündən sonra "atını" leksik vahidi buraxılmış və bu xüsusda qənaət edilmiş konsept tipi yaradılmışdır. Konsept tipləri beyin dilçiliyinin tərkib hissəsidir və ondan demək olar ki, ayrılımışdır. "Koqnilinqvistika özü dərketmə yanaşmasıdır, ona görə ki, bu baxışda dilin mental xüsusiyyəti mövcuddur və dil konqnissiyasının tərkib hissəsi kimi təsvir olunur.

Beləliklə, mentalitet reallığı qavramanın və dərketmənin özünəməxsus yoludur, bu da müəyyən fərdlərə, sosial və etnik qruplara məxsus olan şüur stereotipinin toplusu müəyyənləşir" (6, 53) və burada əsas yeri konseptlər tutur. "İdraki dilçiliyin ən kiçik vahidi konseptdir və onun mental və neoroloji əsasları mövcuddur. Bu əsaslara görə insan öz aləmini dildə ifadə və təzahür etdirir (7, 4).

Hər bir şeir mətnində "heyvan" konsepti ilə bağlı anlayışların ekspilisist və impilisist qənaət hadisəsinə uyğun forma və mənaları mövcuddur və bunlar tekstə uyğun tərzdə aşkara çıxarılır. Məs:

Qızıl öküzüm yeri,
Qoyma şum qala yeri (2, 10);
Qara öküz aranda
Çıxar gün qızaranda (2, 10);
Sarı öküz, səndən budu diləyim,
Bir günlüyü tamam gərək əkəsən (2, 11) və s.

Bu folklor örnəklərinin hər birində "qızıl" , "qara", "sarı" leksik vahidlərindən sonra "rəngli" sözü buraxılmaqla, qəanət əldə edilmişdir və buna ekspilisist şəkillərdə demək olar. İmpilisistik qənaətdə demək olar ki, "heyvan" konsepti ilə bağlı leksik vahid heç bir yerdə işlənmir, yalnız ona məxsus simvollardan istifadə edilir. Məs:

Heç heyvan götürməz mənim yükümü,
İgid oğlan gərək çəkə ipimi,
Ərəbistan içər mənim südümü,
Uzaq-uzaq mənzillərim var mənim,
Dizləri bərk, nəsillərim var mənim (2, 13).

Bu şeir mətnində "götürdüyü yükə", "igid oğlanların onun ipini çəkə bilməsin, "Ərəbistanda südünün içilməsi", "uzaq-uzaq mənzillərə yük daşınması", "Dizlərinin çox bərk olması" kimi əlamətlərdən söhbət getdiyindən, beynində belə bir assosiativ əlaqə yaranır ki, qənaət edilmiş, özü də impilisistik şəkil "dəvə" konseptidir, yəni "dəvə" modifikasiya edilmişdir. Poeziyada linqvokulturoloji yöndə qənaət qanunun açıq və gizli şəkilləri mətnin quruluş və məzmun cəhətlərinə uyğun tərzdə müəyyənləşdirilməlidir. "Linqvokulturologiya konseptləşmiş anlayışa kafi və zəruri həlledici əlamətlərin fərqləndirilməsi əsas götürülür. Həmin keyfiyyətlər bir tərəfdən anlayışın konsept tipi kimi digər anlayışlara yaxınlığını müəyyən edir, başqa bir tərəfdən isə həmin anlayışı ona yaxın olanlardan fərqləndirir" (1, 63). Digər bir şeir örnəyində də konsept edilən obyekt qənaətli şəkildə abstarksiya olunur, onu təfəkkürdə gedən assosiativ məna əlaqələri, işarələnmiş əlamətlərlə müəyyənləşdirmək mümkündür. Örnəyə nəzər salaq:

Mən hamıdan fağıram,
Palçığa düşəndə dağdan ağıram
Çöldə qaldım mən yiyəmi çağırram
Qərənaydan yoğun səsim var mənim,
Atlarınnan böyük bəhsim var mənim (3, 13).

Şeirin ümumi struktur-məzmunundan belə anlaşılır ki, motivləşdirilən obyekt "eşşək" konseptidir, çünki bu heyvana məxsus əlamətlər "fağır olması", "ağır çəkili olması" , "qərənaydan yoğun səs çıxarması, yəni anqırması" hər tərəfli bir şəkildə əks olunmuş obyektin adı mətnin alt qatında gizli şəkildədir və ona məxsus əlamət və xüsusiyyətlər isə üst qatdadır, açıq şəkildədir. "Bütün bunlar nəzərdə tutulan konseptin (eşşək-K.H) linqvokulturoloji əlamətlərini meydana çıxarır (8, 116)

NƏTİCƏ

Poeziyada heyvan konsepti ilə bağlı leksik vahidlərdən buraxılan ifadələr, qənaət qanunu dərketmə prosesi assosiativ olaraq fokuslayır, yəni beyin ekranında canlandırır, dil işarələri kimi təfəkkür dərin fikirlərin bədii ifadəsinə çevrilir, mental ifadə vasitəsi rolunu yerinə yetirir.

ƏDƏBİYYAT

1. Novruzova S.V. Konsept tipləri və konseptual təhsil mərhələləri. Bakı Qızlar Universitetinin elmi əsərləri, cild 12 № 3, 2021, səh 61-66
2. Azərbaycan folklor antologiyası. Azərbaycan SSR EA nəşriyyatı, Bakı, 1968, 289 s.
3. Məmməd Aslan. Seçilmiş əsərləri, Bakı, "Avrasiya -press" 2006, 320 s.
4. Əsədov İsa. Şair və zaman. Bakı, "Nurlan" nəşriyyatı, 2007, 370 s.
5. https//sevincneger@gmail.com.
6. Попова З.Д., Стеричн И.А. Когнитивная лингвистика. Восток-Запад, 2002.
7. Veysəlli V.Y. Koqnitiv dilçilik: əsas anlayışları və prespektivləri, Bakı, "Mütərcim", 2015.
8. Иванова С.В. Культурологический аспект языковых единиц. Уфа, 2002

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-06
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

DİALOJİ DİSKURSDA NƏZAKƏTİN KOMMUNİKATİV STRATEGİYALARI

Aytən RƏHİMLİ
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif: rehimliayten2@gmail.com*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
dialoji diskurs, nəzakət strategiyaları, kommunikativ strategiyalar, ünsiyyət bacarıqları, dialoqun təşkili, ünsiyyət metodları.

XÜLASƏ
Bu tədqiqat işində dialoji diskursda kommunikativ nəzakət strategiyaları təhlil edilir. İnsanlar arasında qarşılıqlı əlaqələrin qurulması zamanı dialoq prosesində nəzakətli ünsiyyət strategiyaları münaqişələrin azaldılmasında mühüm rol oynayır. Dialoji diskursda nəzakət təkcə sosial münasibətlərin qorunmasına kömək etmir, həm də münaqişələrin azaldılmasında, əməkdaşlığın artırılmasında və mənanın effektiv şəkildə çatdırılmasında mühüm rol oynayır. Bu tədqiqatın məqsədi söhbət zaman vacib əhəmiyyət kəsb edən nəzakətli strategiyaları izah etmək, eləcə də onların müxtəlif ünsiyyət kontekstlərində funksiyasını göstərməkdir.
Tədqiqat metodu təsviri analitik mahiyyət kəsb edir. Tədqiqat işi nəzəri mənbələrin sistematik icmalına, diskurs təhlili və nəzakət nəzəriyyələri ilə əlaqədar əvvəlki tədqiqatlara əsaslanır. Tədqiqat eyni zamanda birləşdirilmiş keyfiyyət və kəmiyyət yanaşmasına əsaslanır. Bu tədqiqat nəzakətin söhbətdəki rolunun obyektiv mənzərəsini təqdim edir və daha praktiki tədqiqatlar üçün əsas yaradır. Təhlil edilən obyekt gündəlik söhbətlərdən, institusional qarşılıqlı əlaqələrdən və rəqəmsal vasitəçilik mübadilələrindən götürülmüş dialoqları əhatə edir. Qeyd edək ki, nəzakət strategiyaları müəyyən edilmiş nəzəri modellərə uyğun olaraq təyin edilmişdir. Ümumiyyətlə, nəzakət strategiyaları iştirakçı rollarına və kommunikativ məqsədlərə görə dəyişir. Nəzakətə əsaslanan ünsiyyət strategiyaları fərdlərə fikirlərini effektiv şəkildə təqdim etməyə, mübahisələri sülh yolu ilə həll etməyə və sosial mühitdə müsbət təəssürat yaratmağa kömək edir. Bu strategiyalar yalnız söz seçimi və danışıq tərzi ilə məhdudlaşmır, həm də dinləmə bacarıqlarının, emosiyaların anlaşılmasının və empatiyanın rolunu əhatə edir. Bu tədqiqat müasir ünsiyyətdə nəzakətin praqmatik rolunun daha incə şəkildə başa düşülməsinə töhfə verir.

GİRİŞ

Dialoji diskurs sadəcə məlumat mübadiləsi ilə məhdudlaşmır, dialoji diskurs həmçinin sosial münasibətlər, qarşılıqlı hörmət və emosiyaların idarə olunması üçün bir vasitədir. Dialoji diskursda nəzakət strategiyaları qarşılıqlı əlaqəni asanlaşdırmaqda, münaqişələrin qarşısını almaqda və həmsöhbətlər arasında harmoniyanın qorunmasında əsas rol oynayır. Ünsiyyət strategiyaları dialoqun təşkilində, mesajların aydın və effektiv ötürülməsində mühüm rol oynayır. Bu strategiyaların istifadəsi qarşılıqlı anlaşmanı inkişaf etdirməyə, hörmət və dəyərə əsaslanan müsbət münasibətlər qurmağa kömək edir.

Dialoji diskursda nəzakət anlayışı P. Braun və S. Levinson (P.Brown & C.Levinson, 1987) tərəfindən geniş şəkildə araşdırılmışdır. Nəzakətlə bağlı ünsiyyət strategiyaları dialoji diskursun vacib elementidir. Onlar yalnız dilin istifadəsini tənzimləmir, həm də ahəngdar mühit yaratmağa kömək edir. Bu strategiyaları anlamaq və istifadə etmək daha effektiv ünsiyyətə, anlaşılmazlıqların qarşısını almağa və sosial əlaqələri gücləndirməyə imkan verir. Effektiv ünsiyyət həm şəxsi, həm də peşəkar həyatda getdikcə daha vacib rol oynayır. Yalnız düzgün sözlərin seçimi deyil, həm də onların təqdim olunma tərzi ünsiyyətin uğurunda mühüm rol oynayır. Bu kontekstdə nəzakət güclü bir ünsiyyət vasitəsi kimi ortaya çıxır. Nəzakət yalnız başqalarına hörmət ifadə etmir, həm də söhbətlərdə əməkdaşlığı, anlaşmanı və etimadı təşviq edir. Nəzakətə əsaslanan kommunikativ strategiyanın məqsədi ünsiyyətin sadə və mülayim olmasını təmin etməkdir. Buraya söz seçimi, səs tonu, bədən dili və sosial-mədəni kontekstdən düzgün istifadə daxildir. Xüsusilə bugünkü çoxmədəniyyətli mühitdə nəzakət ünsiyyəti daha təsirli və məqbul edir, ünsiyyət zamanı yaranan münaqişələri azaldır və münasibətləri gücləndirir.

ƏSAS MƏTN

Dialoq gündəlik həyatda və sosial münasibətlərdə əsas elementdir. Kommunikativ strategiyalar universal mahiyyət kəsb etmir, bu baxımdan müvafiq strategiyalar mədəni kontekstdən, həmsöhbətlər arasındakı münasibətdən və ünsiyyətin məqsədindən asılıdır. Onları şüurlu şəkildə tanımaq və istifadə etməyi öyrənmək qarşılıqlı anlaşmanı yaxşılaşdırmağa, anlaşılmazlıqların qarşısını almağa və ahəngdar münasibətlər qurmağa imkan verir. Ümumiyyətlə, dialoq dildən istifadə edən iki və ya daha çox insan arasında interaktiv prosesə aiddir. "Dialoqlarda interaksiyanın, iştirakçıların bir-birinə nitq təsirləri baş verir və bu təsirlər qarşılıqlıdır" (G.Xuduyeva, 2024, s. 239).

Gündəlik ünsiyyətdə dialoq yalnız qrammatika və lüğətlə məhdudlaşmır, həm də daha dərin səviyyədə şəxslərarası münasibətləri və fərdlərin niyyətlərini əks etdirir. Dialoqda qarşılıqlı əlaqə nümunələri növbə ilə danışmaq, etiket qaydaları çərçivəsində sual-cavab prosesində işirak etməkdən ibarətdir. Qarşılıqlı əlaqə nümunələri yalnız məlumat ötürülməsinin səmərəliliyinə deyil, həm də sosial münasibətlərin qorunmasına və emosiyaların ifadəsinə təsir göstərir. Bu baxımdan dialoq yalnız informasiya mübadiləsi üçün bir vasitə deyil, həm də sosial qarşılıqlı təsirin vacib daşıyıcısıdır. Qarşılıqlı təsir modellərinə sosial nəzakət prinsipləri də təsir göstərir. P.Braun və C.Levinson nəzakət strategiyalarının müsbət nəzakət və mənfi nəzakətdən ibarət olduğunu irəli sürdülər. Dialoqda bu strategiyalar dolayı ifadə, qeyri-müəyyən sözlər və ya istəklər vasitəsilə özünü göstərir.

Dialoji diskurs ünsiyyət tədqiqatlarında, dilçilikdə və sosial elmlərdə əsas istiqamətlərdən biridir. Növbə ilə danışmaq dialoqun əsas struktur xüsusiyyətidir. İştirakçılar adətən müəyyən qaydalara uyğun olaraq növbə ilə danışırlar. Sual və cavab qarşılıqlı əlaqədə ən tipik struktur nümunələrdən biridir. Sual vermək yalnız məlumat əldə etmək üçün deyil, həm də söhbətin istiqamətini müəyyənləşdirmək və ya nəzakət ifadə etmək üçün istifadə olunur. "Dil etiketi və nəzakət strategiyaları dialoji diskursun harmonik inkişafı üçün əsas şərtlərdəndir" (İsmayılova, 2025, 384). Cavablar qarşılıqlı əlaqəni təsdiq, əlavə və ya inkar etməklə tamamlayır.

Ünsiyyət gündəlik həyatın əsas tərkib hissəsidir, biz onun vasitəsilə fikirlərimizi, emosiyalarımızı və ehtiyaclarımızı ifadə edir, digər insanlarla münasibətlər qururuq. Lakin ünsiyyət yalnız danışmaq və ya yazmaqla deyil, şüurlu şəkildə necə edəcəyimizi seçməklə bağlıdır. Ünsiyyət strategiyaları mesajı aydın, inandırıcı və ya cəlbedici şəkildə çatdırmaq üçün istifadə edilən metodlardır. Onlar həm şifahi, həm də yazılı ünsiyyətə, eləcə də qeyri-verbal ünsiyyətə tətbiq oluna bilər. Əsas məqsəd anlaşılmazlıqları azaltmaq və mesajın təsirini artırmaqdır. Ən vacib strategiyalardan biri dili auditoriyaya uyğunlaşdırmaqdır.

Diskurs təhlili tədqiqatçılara dialoq zamanı informasiya mübadiləsi, sosial normalar və idrak prosesləri arasındakı mürəkkəb əlaqələri aşkar etməyə imkan verir. "Diskurs müəyyən bir zaman kəsiyində müəyyən insan qrupları arasında mövcud olan və digər insan qrupları ilə əlaqəli şəkildə inkişaf etdirilən fikirləri, ifadələri və məlumatları əhatə edir" (H.Çelik, & H.Ekşi, 2013, s.100). Dialoji diskurs təhlili, dili daxili interaktiv və sosial fenomen kimi nəzərdən keçirən teorik və metodoloji bir yanaşmadır. Diskursu təcrid olunmuş bir fenomen kimi təhlil edən modellərdən fərqli olaraq, bu perspektiv yalnız birdən çox həmsöhbət arasında şifahi mübadilə kimi deyil, həm də hər bir ünsiyyət aktının təməl prinsipi kimi başa düşülən dialoqa yönəlmişdir.

Dialoji diskurs insanların gündəlik həyatının ayrılmaz hissəsidir və dialoji diskurs qarşılıqlı əlaqələrdə əsas rol oynayır. Bu tip nitqin keyfiyyəti əsasən nəzakətə riayət etməkdən asılıdır. Dialoji diskursda nəzakət yalnız düzgün sözləri seçməklə deyil, həm də ifadə tərzi, tonu, auditoriyaya hörmət və vəziyyəti anlamağı da əhatə edir. Bu prinsiplərə riayət etmək insan ünsiyyətini daha sağlam və daha təsirli edə bilər. Dialoji diskursda nəzakət qarşılıqlı hörməti qorumaq və söhbətdə gərginliyin qarşısını almaqla bağlı bir sıra dil və davranış normalarından ibarətdir. Bu tip nitqdə insanlar adətən rəsmi struktur olmadan danışırlar, lakin bu qeyri-rəsmilik başqalarının hisslərinə hörmətsizliyə və ya etinasızlığa səbəb olmamalıdır.

Dialoji diskursda nəzakət sosial münasibətləri gücləndirir və fərdlər arasında empatiyanı artırır. "Nəzakət ifadələri gündəlik həyatımızda insan münasibətlərinin çox vacib və incə bir aspektidir" (Sabah, 2023). Nəzakətli dialoq fikirləri sərbəst ifadə etmək üçün yol açır və anlaşılmazlıq ehtimalını azaldır. Söhbətdə nəzakət həmçinin fərdlərin sakitliyini qorumağa və fikir ayrılığı vəziyyətlərində belə məntiqi nəticələr əldə etməyə kömək edir. Danışıqda nəzakətin ən vacib elementlərinə uyğun

sözlərin seçilməsi, sakit ton, aktiv dinləmə və növbə ilə danışmaq daxildir. Başqalarının sözünü kəsməmək, hörmət ifadələrindən istifadə etmək, tələsik mühakimələrdən qaçmaq və bədən dilinə diqqət yetirmək də nəzakətli ünsiyyətin yaradılmasında mühüm rol oynayır. "İnsanın yetkinliyinin əlamətlərindən biri də başqalarını diqqətlə dinləmək və onlara dəyər vermək qabiliyyətidir" (S.Aca, 2024).

Müasir dövrdə sosial şəbəkələrin genişlənməsi nəticəsində danışıq nitqi yeni bir forma almışdır. Kiberməkanda nəzakətə riayət etmək də çox vacibdir, çünki üz-üzə ünsiyyətin olmaması anlaşılmazlıqları artıra bilər. Dialoji diskursda nəzakət sağlam və davamlı ünsiyyətin formalaşmasında mühüm amildir. Bu prinsiplərə riayət etmək təkcə fərdi şəxsiyyəti və mədəniyyəti əks etdirmir, həm də sosial mühitin yaxşılaşdırılmasına kömək edir. Gündəlik söhbətlərdə mədəni danışıqdan və düşünülmüş davranışdan istifadə etməklə hörmət, anlaşma və sülh mühiti yaratmaq olar.

M. Baxtinə görə, hər bir ifadə əvvəlki sözlərə cavab olaraq yaranır və mümkün gələcək reaksiyalara yönəlmişdir. M.Baxtinə görə, diskurs dilin sosial və interaktiv strukturuna əsaslandığı üçün sadə bir ifadə forması deyil, mürəkkəb münasibətlər və ideoloji mövqelər üçün bir vasitədir. Baxtinin fikrincə, "diskurs dialoq xarakterlidir və dinamik bir quruluşa malikdir" (M.Bahtin, 2001, s. 52). Dialoji diskurs təhlili dilin dinamik və dərin sosial vizyonunu təklif edir. Hər bir ifadəni diskursiv münasibətlər şəbəkəsinin bir hissəsi kimi nəzərdən keçirməklə, bu yanaşma bizə dilin mədəniyyət və cəmiyyətdən fərqini anlamağa imkan verir. Gündəlik həyatda və sosial qarşılıqlı əlaqələrdə insanlar yalnız dil vasitəsilə məlumat çatdırmır, həm də şəxslərarası münasibətləri qoruyurlar. Ünsiyyət nəzakəti strategiyaları bu prosesdə mühüm rol oynayan dil və davranış nümunələridir. Müvafiq nəzakət strategiyaları münaqişələrin azaldılmasına, qarşılıqlı anlaşmanın qurulmasına və anlaşmanın təşviq edilməsinə kömək edir və uğurlu ünsiyyət üçün vacib bir zəmanətdir. "Nəzakət qaydaları həm qurum daxilində, həm də qurum xaricində, məsələn ailədəki ünsiyyətdə böyük əhəmiyyət daşıyır və cəmiyyətdən asılı olaraq dəyişir" (S.Dereli, 2008, s. 24).

Nəzakət strategiyaları ilə bağlı nəzəriyyələr göstərir ki, dil sadəcə məlumat ötürmək üçün bir ünsiyyət forması deyil, həm də güclü bir sosial vasitədir. Daha dinamik və kontekstual modellərə qədər linqvistik nəzakətin öyrənilməsi gündəlik qarşılıqlı əlaqələri və ünsiyyətdəki mədəni fərqləri daha yaxşı başa düşməyimizə kömək edir. Linqvistik nəzakət insan ünsiyyətinin əsas elementidir, onun vasitəsilə danışanlar sosial münasibətləri tənzimləyir, münaqişələrdən yayınır və əməkdaşlıq qururlar. Praqmatik dilçilikdə insanların dildə spesifik nəzakət strategiyalarını necə və niyə qəbul etdiklərini izah etmək üçün müxtəlif nəzəriyyələr hazırlamışdır. Ünsiyyət birtərəfli proses deyil, bu proses dialoq zamanı qarşıdakı insana diqqət yetirməyi, maraq göstərməyi və müvafiq cavab verməyi əhatə edən vacib bir strategiyadır. Bu, dialoqu inkişaf etdirir və ünsiyyətin keyfiyyətini artırır. Ünsiyyət zamanı insanların məqsədi də müzakirə obyektinə çevrilir. "Ünsiyyət strategiyası müəyyən bir qurumun strategiyasını dəstəkləmək məqsədilə seçilmiş ümumi hədəflərlə əlaqəli ünsiyyət proqramları və ya taktikalarıdır" (J.Cornelissen, 2004, p. 184). Sadə cümlələrdən istifadə etmək, həddindən artıq mürəkkəb və ya qəliz terminlərdən qaçmaq və məlumatları məntiqi şəkildə təşkil etmək dialoqun anlaşılmasına kömək edir. Sözlərdən əlavə, bədən dili, səs tonu, üz ifadələri və jestlər də əsas rol oynayır.

Ünsiyyət strategiyaları məktəbdən işə və şəxsi münasibətlərə qədər həyatın hər sahəsində effektiv ünsiyyət üçün vacib vasitələrdir. "Ünsiyyət strategiyaları qurumlara müxtəlif maraqlı tərəflərlə effektiv ünsiyyət qurmaq üçün lazımi strukturu təmin edir və bu tərəflərə çatdırılacaq məlumatın növünü müəyyənləşdirir" (B.Steyn and G.Puth, 2000, p. 64). Bu strategiyalardan şüurlu şəkildə istifadə etməyi öyrənmək qarşılıqlı anlaşmanı yaxşılaşdırır, münaqişələrin qarşısını alır və mesajı daha səmərəli formada çatdırır. Pozitiv nəzakət qarşılıqlı anlaşmanın qurulmasına əsaslanır. Pozitiv nəzakət strategiyasına tez-tez tanışlar arasında istifadə olunur və səmimi bir atmosfer yaratmağa kömək edir. Mənfi nəzakət əsasən başqalarının azadlığına və şəxsi fikirlərinə olan münasibətlə özünü göstərir. Birbaşa münaqişədən qaçmaq üçün natiqlər bəzən əsl niyyətlərini işarələr, ritorik suallar və ya qeyri-müəyyən ifadələr vasitəsilə çatdırırlar. Mövzu həssas olduqda, natiqlər məsələdən yayınaraq, gərginliyi azaltmaq üçün mövzunu dəyişdirə bilərlər. Qeyd etmək vacibdir ki, ünsiyyətdə nəzakət strategiyaları əhəmiyyətli mədəni fərqlərlə təzahür edir. Bəzi

mədəniyyətlərdə birbaşa ifadə açıq və səmimi hesab olunur, digərlərində isə dolayı və incəlik nəzakətli hesab olunur. Buna görə də, mədəniyyətlərarası ünsiyyətdə müxtəlif mədəni sahələrdə nəzakət normalarını anlamaq və onlara hörmət etmək xüsusilə vacibdir.

P.Braun və C.Levinson (P.Brown & C.Levinson, 1987) tərəfindən hazırlanmış nəzakət nəzəriyyəsi dil və sosial qarşılıqlı əlaqənin praqmatikasının öyrənilməsinə ən əhəmiyyətli töhfələrdən birini təmsil edir. "Üz" anlayışına əsaslanan bu nəzəriyyə insanların linqvistik qarşılıqlı təsirlərdə müsbət və mənfi obrazları qorumağa çalışdıqlarını bildirir. P.Braun və C.Levinson nəzakət strategiyaları natiqlərə potensial münaqişələri azaltmağa və sosial münasibətləri idarə etməyə imkan verir. Ümumiyyətlə, P.Braun və C.Levinsonun nəzakət strategiyaları iki əsas kateqoriyaya bölünür: müsbət nəzakət və mənfi nəzakət. Müsbət və mənfi nəzakət strategiyalarının şüurlu istifadəsi qarşılıqlı əlaqədə iştirak edənlərin nitq aktlarında münaqişə potensialının azalmasına töhfə verir. P.Braun və C.Levinsonun nəzəriyyəsi dil, sosial hörmət və güc dinamikası arasındakı əlaqəni anlamaq üçün fundamental konseptual çərçivə təklif edir. Geniş şəkildə yayılmasına baxmayaraq, P.Braun və C.Levinsonun nəzəriyyəsi iddia edilən universalizminə görə tənqid edilmişdir. Bəzi tədqiqatçılar üz və nəzakət strategiyaları anlayışının bütün mədəniyyətlərdə eyni şəkildə özünü göstərmədiyini müşahidə etmişdir.

Nəzakət nəzəriyyəsi mədəniyyətlərarası tədqiqatlara geniş təsir göstərmiş və mədəniyyətlər arasında ünsiyyət fərqlərini təhlil etmək üçün istifadə edilmişdir. Nəzakət nəzəriyyəsi praqmatik dilçiliyə, sosiolinqvistikaya və mədəniyyətlərarası qarşılıqlı əlaqələrin öyrənilməsinə geniş təsir göstərmiş, fərdlərin müxtəlif sosial vəziyyətlərdə ahəngdar və hörmətli münasibətləri qorumaq üçün dillərini necə modulyasiya etdiklərini təhlil etməklə bağlı vasitələr təqdim etmişdir. Qeyd edək ki, nəzakət strategiyaları dil ünsiyyətinin ayrılmaz hissəsidir. Müxtəlif nəzakət strategiyalarından düzgün istifadə yalnız ünsiyyət səmərəliliyini artırmaqla yanaşı, həm də ahəngdar şəxslərarası münasibətləri təşviq edə bilər. Həqiqi qarşılıqlı əlaqələrdə effektiv və uyğun ünsiyyətə nail olmaq üçün ünsiyyət tərəfdaşına, hadisəyə və mədəni mənşəyə əsaslanaraq uyğun nəzakət strategiyalarını çevik şəkildə seçməliyik.

NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Araşdırmalardan belə qənaətə gəlirik ki, dialoji nitqdə nəzakət strategiyaları rahat ünsiyyəti qorumaq üçün vacib bir ünsiyyət mexanizmidir. Dialoq sadəcə məlumat mübadiləsi deyil, hər iki tərəfin müəyyən sosial münasibətlər və kontekstual şərtlər altında birgə qurduğu bir nitq fəaliyyətidir. Buna görə də, nəzakət nitq strategiyaları dialoqun təşkilində və ünsiyyət metodlarının seçilməsində əsas rol oynayır. Nəzakət strategiyalarından düzgün istifadə etməklə ünsiyyətçilər yalnız məlumatı səmərəli şəkildə çatdırmaqla yanaşı, həm də bir-birinin sosial imicini qoruya və potensial münaqişələri azalda bilərlər.

Dialoji nitqdə nəzakət müxtəlif ünsiyyət bacarıqlarının, məsələn, müvafiq müraciət formalarının, dolayı nitq hərəkətlərinin və digər tərəfin mövqeyinə hörmətin hərtərəfli istifadəsində özünü göstərir. Bu strategiyalar ünsiyyətçilər arasında psixoloji məsafəni tənzimləməyə kömək edir, dialoqun əməkdaşlıq və harmoniya əsasında inkişaf etməsinə imkan verir. Nəticə olaraq, dialoji diskursda nəzakət strategiyaları vacib ünsiyyət metodudur. Nəzakət strategiyalarının dialoqda necə işlədiyinin dərin təhlili ünsiyyətçilərin bacarıqlarını artırmağa kömək edir, gündəlik həyatda və peşəkar kontekstlərdə effektiv ünsiyyət üçün nəzəri əsas və praktiki rəhbərliyi təmin edir.

ƏDƏBİYYAT

1. Aca, S. (2024, 25 Ekim). İletişimde dinleme ve anlamanın nezaket örnekleri. Onlinevaaz.https://www.onlinevaaz.com/vaaz/iliskilerde-dinleme-ve-anlamanin-nezaket-ornekleri
2. Bahtin, M. (2001). Karnavaldan romana edebiyat teorisinden dil felsefesine yazılar (S. Irzık, Ed.; C. Soydemir, Çev.). Ayrıntı Yayınları, 368 s.

3. Brown, P., & Levinson, S. C. (1987). Politeness: Some universals in language usage. Cambridge University Press. 345 p.
4. Cornelissen, J. (2004). Corporate communications: Theory and practice. London: SAGE, 206 p.
5. Çelik, H., & Ekşi, H. (2013). Söylem analizi. Marmara Üniversitesi Atatürk Eğitim Fakültesi Eğitim Bilimleri Dergisi, 27(27), 99-117.
6. Dereli, S. (2008). Sözlü İletişimde Nezaket Stratejileri. Türkbilig(15), 24-52.
7. Xuduyeva, G. (2024). Diskursun kommunikativ mənzərəsi. İpək Yolu, 1, 235–243. https://doi.org/10.30546/1810-911X.2024.1.235.
8. İsmayılova, S. (2025, September 25). Dialoji diskursda dil etiketi və nəzakət strategiyalarının rolu. Global Horizons in Philology and Pedagogy: Experiences of Turkic Nations beynəlxalq konfransı, s. 383-385.
9. Sabah. (2023, 13 Şubat). Nezaket ifadeleri nelerdir? En sık kullanılan nezaket ifadeleri cümleleri neler? https://www.sabah.com.tr/egitim/nezaket-ifadeleri-nelerdir-en-sik-kullanilan-nezaket-ifadeleri-cumleleri-neler-e1-6357535
10. Steyn, B., & Puth, G. (2000). Corporate communication strategy. Sandown: Heinemann, 28 p.

ABSTRACT

COMMUNICATIVE STRATEGIES OF POLITENESS IN DIALOGUE DISCOURSE

Ayten Rahimli

This research study analyzes communicative politeness strategies in dialogic discourse. Polite communication strategies play an important role in reducing conflicts in the dialogic process when establishing interpersonal relationships. Politeness in dialogic discourse not only helps to maintain social relationships, but also plays an important role in reducing conflicts, increasing cooperation, and effectively conveying meaning. The aim of this study is to explain polite strategies that are important during conversation, as well as to show their function in different communication contexts.

The research method is descriptive-analytical in nature. The research work is based on a systematic review of theoretical sources, previous research on discourse analysis and politeness theories. The study is also based on a combined qualitative and quantitative approach. This study provides an objective picture of the role of politeness in conversation and lays the foundation for more practical research. The object of analysis includes dialogues taken from everyday conversations, institutional interactions, and digitally mediated exchanges. It should be noted that politeness strategies are defined in accordance with established theoretical models.

In general, politeness strategies vary according to the participant roles and communicative goals. Politeness-based communication strategies help individuals to present their ideas effectively, resolve disputes peacefully, and create a positive impression in social settings. These strategies are not limited to word choice and speech style, but also include the role of listening skills, understanding emotions, and empathy. This study contributes to a more nuanced understanding of the pragmatic role of politeness in modern communication.

Keywords: *verb tenses, textual cohesion, grammatical connection, sequence, semantic unity*

РЕЗЮМЕ

КОММУНИКАТИВНЫЕ СТРАТЕГИИ ВЕЖЛИВОСТИ В ДИАЛОГИЧЕСКОМ ДИСКУРСЕ

Айтен Рагимли

В данном исследовании анализируются стратегии коммуникативной вежливости в диалогическом дискурсе. Вежливые коммуникативные стратегии играют важную роль в снижении конфликтов в диалогическом процессе при установлении межличностных отношений. Вежливость в диалогическом дискурсе не только способствует поддержанию социальных связей, но и играет важную роль в снижении конфликтов, повышении сотрудничества и эффективной передаче смысла. Цель данного исследования – объяснить стратегии вежливости, важные в ходе беседы, а также показать их функцию в различных коммуникативных контекстах.

Метод исследования – описательно-аналитический. Работа основана на систематическом обзоре теоретических источников, предыдущих исследований в области дискурс-анализа и теорий вежливости. Исследование также основано на комбинированном качественном и количественном подходе. Данное исследование дает объективную картину роли вежливости в беседе и закладывает основу для более практических исследований. Объектом анализа являются диалоги из повседневных разговоров, институциональных взаимодействий и цифровых обменов. Следует отметить, что стратегии вежливости определяются в соответствии с устоявшимися теоретическими моделями.

В целом, стратегии вежливости различаются в зависимости от ролей участников и коммуникативных целей. Коммуникативные стратегии, основанные на вежливости, помогают людям эффективно излагать свои идеи, мирно разрешать споры и создавать позитивное впечатление в социальных ситуациях. Эти стратегии не ограничиваются выбором слов и стилем речи, но также включают в себя роль навыков слушания, понимания эмоций и эмпатии. Данное исследование способствует более тонкому пониманию прагматической роли вежливости в современной коммуникации.

Ключевые слова: *диалогический дискурс, стратегии вежливости, коммуникативные стратегии, коммуникативные навыки, организация диалога, методы коммуникации.*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-07
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

ƏHMƏD AĞAOĞLUNUN "SON POSTA" QƏZETİNDƏKİ YAZILARI VƏ MİLLİ-İDEOLOJİ GÖRÜŞLƏRİ

Mahir QƏRİBOV
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
Yazışılan müəllif: mahir_garibov@yahoo.com

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
Son Posta qəzeti, siyasi publisistika, Cümhuriyyət dövrü, milli iradə, Sərbəst Fırka

XÜLASƏ
Türk dünyasının böyük mütəfəkkirlərindən olan Əhməd Ağaoğlu XIX əsrin sonu, XX əsrin əvvəllərində özünün bilik və bacarığı, ideya və görüşləri, mətbuat sahəsində xidmətləri ilə seçilən ziyalılardan olub. O, təqib və təzyiqlər səbəbiylə İstanbula gedəndə coğrafi baxımdan yerini dəyişsə də, ideya olaraq mübarizəsindən əl çəkmədi. Türklüyün inkişafı üçün açılmış bir çox cəmiyyətlərin qurucu üzvü oldu. "Hikmət", "Sırat-ı Müstakim", "Tercüman-ı Hakikat", "Türk Yurdu" kimi mətbu orqanlarda məqalələr yazdı. Bu məqalədə XX əsrin əvvəllərində Türkiyə Cümhuriyyətinin ictimai-siyasi həyatında mühüm rol oynamış "Son Posta" qəzetində Əhməd Ağaoğlunun publisistik fəaliyyəti araşdırılır. 1930-1931-ci illəri əhatə edən bu yazılar Ağaoğlunun demokratik idarəçilik, milli iradə, siyasi məsuliyyət və çoxpartiyalı sistemə dair baxışlarını əks etdirir. Məqalədə "Son Posta" qəzetinin yaranma tarixi, ideya istiqaməti, redaksiya heyəti və Cümhuriyyət dövrü mətbuatındakı yeri təhlil olunur. Eyni zamanda, Ağaoğlunun Sərbəst Cümhuriyyət Firqəsi dövründə qələmə aldığı məqalələr kontekstual şəkildə qiymətləndirilir və onların Türkiyədə siyasi publisistikanın inkişafına verdiyi töhfələr elmi baxımdan dəyərləndirilir.

GİRİŞ

Əhməd bəy Ağaoğlu Azərbaycanın və Türkiyənin ictimai mühitində, düşüncə hayatında özünün imzası ilə seçilən bir şəxsiyətdir. Milli əqidə və fikir adamı olan Ağaoğlu 1923-cü ildə Türkiyədə Cümhuriyyətin elanından sonra siyasi, sosial və mədəni sahədə köklü dəyişikliklərin həyata keçirilməsində aktiv rol alır. Bu dəyişikliklərin mətbuatda da funksional və ideoloji baxımdan inkişafına şərait yaradır. O milli mücadiləsini sadəcə yazdığı əsərlər və irəli sürdüyü fikirlərlə əhatələndirməmiş, bir əqidə adamı olaraq düşüncələrin gerçəkləşməsi üçün var gücünü sərf etmişdir (1. Ali Asker, s.3). Cümhuriyyət dövrünün ilk illərində qəzetlər yalnız xəbər ötürən vasitələr yox, həm də ictimai rəyin formalaşmasında mühüm rol oynayan ideoloji platformalara çevrilmişdi. Belə qəzetlərdən biri də 1930-cu ildə İstanbulda nəşr olunmağa başlayan "Son Posta" qəzeti idi. "Son Posta" qəzetinin qurucuları Zəkəriyyə Sertel, Həlil Lütfi Dördüncü, Selim Raqıp və Ekrem Uşaklıgildir. Qəzet qısa müddət ərzində tənqidi mövqeyi, cəsarətli yazıları və müstəqil ideya xətti ilə Cümhuriyyət dövrünün mühüm müxalif mətbuat orqanlarından birinə çevrilmişdir. Qəzet demokratik dəyərlərin təşviqi, siyasi maarifləndirmə və ictimai müzakirələrin aparılması baxımından önəmli platforma rolunu oynamışdır. Redaksiya heyətində jurnalistlərlə yanaşı, siyasi mütəfəkkirlər və ədəbi yazarlar da təmsil olunurdu. Bu, qəzetin üslubunun analitik, tənqidi və maarifləndirici olmasını şərtləndirmişdir.

Əhməd bəy Ağaoğlunun "Son Posta" qəzetindəki yazıları

Əhməd bəy Ağaoğlu "Son Posta" qəzetində dərc etdirdiyi yazılarla Cümhuriyyət dövrü Türkiyəsində siyasi publisistikanın aparıcı simalarından biri kimi çıxış etmişdir. Onun məqalələri əsasən milli iradə, parlament sistemi, çoxpartiyalı demokratiya, seçki hüququ və siyasi məsuliyyət mövzularına həsr olunmuşdur.

1930-cu ilin avqustunda yaradılan Sərbəst Cümhuriyyət Firqəsinin qurucularından biri olan Ağaoğlu, partiyanın fəaliyyət göstərdiyi qısa müddət ərzində öz mövqeyini mətbuat vasitəsilə açıq şəkildə ifadə etmişdir. Onun 18 oktyabr 1930-cu il tarixli "S. Fırkaya me'şum diyorlar. Şeamet neredədir?" adlı məqaləsində təkpartiyalı sistemin azadlıqları təmin edə bilməyəcəyi fikri əsaslandırılır və siyasi plüralizmin zəruriliyi vurğulanır. Əhməd Ağaoğlunun bu məqaləsində Sərbəst

Firqə dövründə yazdığı yazılar və siyasi partiyaya aid mövqeyini və fikirlərini açıq şəkildə əks etdirir. "Görünür ki, dostumuz Yunus Nadi bəyi istəmədən incitmişəm. Buna görə təəssüf edirəm.... Tək firqə ilə nəzarətin və azadlıqların təmin olunmasının mümkün olmadığını həm öz həyatımızdan, həm də digər mədəni millətlərin həyatından götürdüyüm nümunələrlə sübut etdim. Onun "qarışıqlıq" adlandırdığı şeyin isə əslində canlılığın təzahürü olduğunu izah etdim" (Ağaoğlu, 1930, s 1).

Ağaoğlu publisistikasında millilik düşüncəsi

Əhməd Ağaoğlu 31 oktyabr 1930-cu il tarixli "Milli İrade Bu Mudur?" məqaləsində milli iradənin formal deyil, real şəkildə təmsil olunması problemi qabardılır. Ağaoğlu həmin dövrdə Türkiyədə parlamentar sistem və demokratiya məsələlərini şərh edir, seçki, milli iradə, siyasi məsuliyyət və ictimai tənqid məsələlərinə toxunur.

Məqsəd həmçinin müasir dövrə uyğun hərtərəfli inkişaf etmiş şəxs yetişdirmək, dərin bilikli, geniş dünyagörüşlü, yüksək əxlaq və mənəviyyata sahib insan yetişdirməkdir. Elə bir insan ki, keçmiş irsi yaşada bilir, bu günün reallığını görə bilir və gələcəyi təsvir edə bilir. Yəni yetişdirdiyimiz insan bu gün dünənkindən, sabah isə bugünkündən daha bilikli və daha hazırlıqlı olmalıdır.

Bu məqsəddən irəli gələrək səriştəli müəllim kadrlarının hazırlanması, müəllimlərin peşə hazırlıqlarının müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, onların müasir innovativ metodlarla tədris prosesini qurması, təhsilin məzmununun cəmiyyətin tələblərinə, iqtisadi inkişafın tələblərinə uyğun şəkildə qurulması, müəllimin idarəedicilik funksiyasını, pedaqoji qabiliyyət və pedaqoji ustalığı artırması, ilboyu təhsillə, özünütəhsil və özünütəkmilləşdirmə ilə məşğul olması, məktəbin maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsi məsələləri xüsusi yer tutmuşdur.

Məqsəd həmçinin müasir dövrə uyğun hərtərəfli inkişaf etmiş, yaradıcı şəxslər yetişdirmək, dərin bilikli, geniş dünyagörüşlü, yüksək əxlaq və mənəviyyata sahib insan yetişdirməkdir. Elə bir insan ki, keçmiş irsi yaşada bilir, bu günün reallığını görə bilir və gələcəyi təsvir edə bilir. Yəni yetişdirdiyimiz insan bu gün dünənkindən, sabah isə bugünkündən daha bilikli və daha hazırlıqlı olmalıdır.

Bu işdə müəllimin üzərinə böyük qayğılar düşərək ondan gərgin əmək, fədakarlıq, yaradıcı fəaliyyət, tədqiqatçılıq keyfiyyəti, yüksək pedaqoji ustalıq və pedaqoji qabiliyyət tələb olunur.

Bu gün ənənəvi təlimdən fərqli olaraq müasir dərsdə təhsil alanlar hazır bilikləri mənimsəmirlər. Müasir müəllim də biliyi hazır şəkildə tələbələrə vermir. Müəllim təhsil alanlara daha çox nəyi haradan öyrənməyi uşaqlara öyrədir və başqa sözlə desək öyrənməyi öyrədir. Bu müəllimin fasilitataor - yəni " Bələdçi", "İstiqamətverici" funksiaysıdır.

Böyük ərəb mütəfəkkiri İbn Xəldun deyirdi ki, "hər öyrədən müəllim deyil, kimdən öyrənirsənsə müəllim odur". Müəllim uşaqlara fikirləri deyil fikilrləşməyi, düşünməyi öyrətməlidir. Böyük alman pedaqoqu Adolf Disterveq deyirdi ki, bacardıqca uşaqlara az bilik verin, daha çox onlara fikirləşməyi, düşünməyi öyrədin. Düşünən insan bilən insandır.

Üzeyir Hacıbəyov deyirdi ki, müəllim dərsi elə keçməlidir ki, biliyi şagird kəşf yolu ilə özü tapsın. Yəni sualın cavabı sual verənin özünə tapdırılsın. Buna Sokrat metodu, pedaqogika elmində isə evristik metod deyilir. Bu Arximedin "Evrika" -"Tapdım" sözündən meydana gəlmişdir. Cavab dialoqlar, köməkçi suallar vasitəsilə sual verənin özünə tapdırlır. Bu sual veräni təfəkkür əməliyyatına, düşünməyə, tədqiqatçılığa, təhlil etməyə, yaradıcılığa sövq edir.

Tədqiqatçı, yaradıcı müəllim uşaqların idrak fəallığını inkişaf etdirərək, onları axtarıcılığa, tədqiqatçılığa istiqamətləndirərək biliyi onların özlərininin əldə etməsinə kğmək edir, yol göstərir, məsləhət verir, bələdçilik edir. Müəllimin belə fəaliyyəti fasilitator adlanır. Təhsil alanlıarın funksiyası isə araşdiricilıq, axtarıcılıq, tədqiqatçılıq adlanır.

Müəllimlik ilk növbədə yaradıcı bir peşədir. Çünki o, hazır göstərişlərlə, reseptlərlə işləmir. O sinifdə sanki bir yaradıcılıq laboratoriyasındadır. Ona görə də obrazlı şəkildə deyirlər ki, müəllim bir fotoqraf kimi deyil, bir rəssam kimi işləməlidir. Müəllimin fəaliyyətində hər bir konkret halda vəziyyəti düzgün təhlil edib, uğurlu çıxış yolu tapmaq, məsələlərə müstəqil və yaradıcı yanaşmaq, qeyri-standart qərarlar qəbul etmək tələb olunur. Bunun üçün pedaqoji nəzəriyyəyə və qabaqcıl təcrübəyə mükəmməl yiyələnmək, dərin ümumi və ixtisas biliyinə sahib olması əsas şərtdir. Bilik yaradıcı işdə müəllimin əsas silahıdır. Y.A.Komenski biliksiz müəllimi işıqsız lampaya, susuz bulağa bənzətmişdir.

Müəllimlər uşaqları ma¬raqlandırmaq, təəccübləndirmək, heyrətləndirmək üçün onları hər cəhətdən qabaqlamağa məcburdur. Bu, müəllimin təşkil etdiyi dərs prosesinin ən vacib amili kimi qarşılıqlı ünsiyyətin, öyrənmə ünsiyyətinin yaranmasında bir vasitə olmalıdır. Müəllim bu vasitədən istifadə etməklə şagird-lərinin idrak fəaliyyətini daha səmərəli qura bilər, onları tədqiqatçılığa istiqamətləndirə bilər və bu sahədə müəyyən nəticələrə nail ola bilər.

Bütün bunların daha uğurlu alınması müəllimin, ilk növbədə, ixtisasını dərindən bilməsi və geniş ümumi elmi dünyagöraşə sahib olması tələb edilir. Həm də bu biliklərə dina¬mik yanaşmağı,

onları ardıcıl və sistemli olaraq inkişaf etdirməyi, özünün daim tədqiqatçılıqla məşğul olması mühüm bir vəzifə kimi qarşıya qoyulur.

Müəllimlik özü böyük bir yaradıcılıq, tədqiqatçılıq işidir. Hər bir dərs bir tədqiqat əsəridir. Hər bir dərs şagirdə ömür boyu yadında qalan bir hədiyyədir. Hər dərsin məq¬sədi, məqsədə çatmaq üçün metodları və əldə edilmiş nəticələri olmalıdır.

Bəs, "Tədqiqatçı müəllim kimdir?"? "Hansı müəllimə tədqiqatçı müəllim demək olar?" Əl¬bəttə, əgər müəllim təhsil alanların bilik və dünyagörüşünü yüksəltmək üçün müx¬təlif elmi məsələləri təhsil alanlarla birlikdə təhlil edir, müvafiq qərarlar qəbul edirsə, bu barədə təhsil alanlarla fikir mübadiləsi, rəy sorğusu aparırsa, gərgin elmi müzakirələr aparırsa bu müəllimin yaradıcı və tədqi-qatçılıq bacarığıdır.

Yaradıcılıq müəllimdən bütöv pedaqoji prosesi müşahidə və təhlil etməyi, onun qanunauyğunluqlarını nəzərə almağı, pedaqoji problemlərin optimal həlli yollarını müəyyən etməyi nəzərdə tutur. Təbii ki, yarardıcı müəllimin yaradıcı tələbə və şagirdləri də olacaq və müəllimin düzgün istiqaməti ilə onlar da yaradıcı fəaliyyyətə qoşulacaq, tədqiqatçılıq işlərinə yönələcəklər.

Yaradıcılıq mürəkkkəb pedaqoji, psixoloji proses olmaqla insanda yüksək mədəniyyət və mənəviyyat da formalaşdırır. Bu baxımdan əsil yaradıcı fəliyyətlə məşğul olanlar mədəni, mənəvi və nəcib əxlaqi keyfiyyətlərə malik insanlardır.

Yaradıcılıq tədqiqatçılığın əsas şərtidir. Yaradıclıq olmadan tədqiqatçılıq bir nəticə verməz. Buna görə də müəllimin peşə fəaliyyətində tədqiqatçılıq qabiliyyəti mühüm yer tutur. "Müəllimin tədqiqatçılıq qabiliyyəti-pedaqoji situasiyaları və prosesləri aydın dərk etmək və obyektiv qiymətləndirmək bacarığında özünü göstərir" (İbrahimov, 2013).

Təhsil alanlarda tədqiqatçılığın inkişaf etdirilməsinə nail olmaq üçün onları ilk kitab və kitabxanalardan, elmi mənbələrdən, internet resurslarından, texniki vasitələrdən düzgün istifadə etməyi öyrətmək lazımdır. Təhsil alanlar mənbələrdən istifadə edərkən, ədəbiyyatı oxuyub öyrənərkən qeydlər aparmalı, çıxarışlar etməlidrlər. Mənbələr üzərində işləmək, kitab və kitabxanalardan istifadə etmək bacarıq və vərdişlərinə yaxşı bələd olmaq tədqiqatçılığın mühüm şərtlərindən biridir.

Tələbə və şagirdlərin elmi konfranslarında, Tələbə Elmi Cəmiyyətinin tədbirlərində, olimpiadalarda, elmi müsabiqələrdə, viktorinalarda, disput və diskusiyalarda, elmi müzakirələrdə iştirak etməsi onların tədqiqatçılıq qabiliyyətlərinin inkişafına qüvvətli təsir göstərir.

Tələbə və şagirdlərin tədqiqatçılıq qabiliyyəti onların daha yeni biliklər qazanmağa stimul yaradır. Bu zaman tədris prosesinə elmi tədqiqat elementləri, yaradıcılıq ünsürləri daxil olur. Təhsil alanlar elmi nəzəri təhlilin aparılması metodlarından istifadə edir, fərziyyələr irəli sürür və onu yoxlamaq üçün testlərdən, təcrübələrdən istifadə edirlər.

Müəllim və tələbələrin zehni qabiliyyətlərinin, idrak fəaliyyətinin gücləndirilməsi, tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsi onlarda axtarış tələbatı, müstəqil işləmək meyli və bacarığı yaradılmasına əlverişli imkanlar yaradır.

ƏDƏBİYYAT

1. Aliyev, H. A. (2002). Təhsil millətin gələcəyidir (M. Mardanov & Ə. Quliyev, Eds.). Bakı: Təhsil.
2. Azərbaycan Respublikası. (1999). Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı. Bakı.
3. Aliyev, H. A. (1980, August 21). Ali məktəb işçilərinin respublika müşavirəsində nitq. Xalq qəzeti, August 24.
4. Aliyev, I. (2013, October 24). Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyası haqqında sərəncam. Xalq qəzeti, October 25.
5. İbrahimov, F. N., & Hüseynzadə, R. L. (2013). Pedaqogika (Vol. 1). Bakı: Mütərcim.

ABSTRACT

TEACHER PEDAGOGICAL COMPETENCE AND RESEARCH SKILLS

Ilaha Shikhaliyeva

In pedagogical activity, the teacher's professional work, scientific-pedagogical engagement, and personal characteristics constitute key factors influencing the effectiveness of the teaching and learning process. Unlike many other professions, the teacher's personality exerts a significant impact not only within the educational environment but also on the broader social and cultural context. The teacher's knowledge level, pedagogical mastery, moral values, and intellectual capacity play a decisive role in shaping the worldview and personal development of the younger generation.

Within modern educational systems, the teacher functions not merely as a transmitter of knowledge but also as a researcher, innovator, and organizer of the pedagogical process. Pedagogical competence therefore encompasses theoretical knowledge, methodological skills, communicative abilities, and reflective thinking. Research skills enable teachers to analyze educational practices, apply innovative approaches, and make evidence-based pedagogical decisions.

The article examines the structural components of pedagogical competence, the role of research activity in professional development, and the innovative functions of teachers in contemporary educational environments. The findings indicate that pedagogical competence and research capacity represent essential indicators of professional effectiveness and serve as important factors in improving educational quality.

Keywords: *teacher, pedagogical competence, research skills, pedagogical process, professional development.*

РЕЗЮМЕ

ПЕДАГОГИЧЕСКАЯ КОМПЕТЕНТНОСТЬ И ИССЛЕДОВАТЕЛЬСКИЕ СПОСОБНОСТИ УЧИТЕЛЯ

Илаха Шыхалиева

В педагогической деятельности профессиональный труд учителя, его научно-педагогическая активность и личностные качества являются важнейшими факторами, определяющими эффективность образовательного процесса. В отличие от представителей других профессий, личность учителя оказывает значительное влияние не только на образовательную среду, но и на социально-культурное пространство общества. Уровень знаний, педагогическое мастерство, нравственные качества и интеллектуальный потенциал учителя играют ключевую роль в формировании мировоззрения молодого поколения.

В современной системе образования учитель выступает не только как носитель знаний, но и как исследователь, новатор и организатор педагогического процесса. Педагогическая компетентность включает теоретическую подготовку, методические навыки, коммуникативные компетенции и рефлексивное мышление. Исследовательские способности позволяют учителю анализировать образовательный процесс, внедрять инновационные методы и принимать научно обоснованные педагогические решения.

В статье анализируются структурные компоненты педагогической компетентности, роль исследовательской деятельности в профессиональном развитии учителя и его инновационные функции в современном образовательном пространстве. Делается вывод о том, что педагогическая компетентность и исследовательские способности являются важными показателями профессиональной эффективности и значимым фактором повышения качества образования.

Ключевые слова: *учитель, педагогическая компетентность, исследовательские навыки, педагогический процесс, профессиональное развитие.*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-09
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

İQTİSADİYYAT

THE ROLE OF NAKHCHIVAN IN THE ECONOMIC DEVELOPMENT OF ISLAMİC CIVILIZATION IN THE SOUTH CAUCASUS

Cavad ƏLİYEV
AR ETN İqtisadiyyat İnstitutu., Bakı, Azərbaycan
Yazışılan müəllif: javadaliyev74@gmail.com

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

KEYWORDS:
Islamic economic history, Nakhchivan, South Caucasus, trade and commercial institutions, economic development

ABSTRACT
This article examines the role of Nakhchivan in the economic development of Islamic civilization in the South Caucasus, emphasizing its historical function as a strategic center of trade, production, and institutional organization. Situated at the intersection of major commercial routes linking the Middle East, Anatolia, and the Caucasus, Nakhchivan played a significant role in facilitating economic interaction within the Islamic world from the early medieval period onward. The study aims to analyze how Islamic economic principles, administrative practices, and commercial institutions influenced the region's economic structure and contributed to broader civilizational development. The research is based on a qualitative historical methodology, drawing upon primary historical chronicles, archaeological findings, and secondary academic literature related to Islamic economic history and regional studies. The findings indicate that Nakhchivan's economic importance stemmed from its integration into transregional trade networks, the development of urban markets, and the application of Islamic economic institutions such as taxation systems, property relations, and charitable foundations. These factors supported economic stability, social welfare, and regional connectivity. The article concludes that Nakhchivan was not merely a peripheral territory but an active participant in the economic life of Islamic civilization in the South Caucasus, demonstrating how regional centers contributed to the diffusion and practical implementation of Islamic economic models within a wider historical context.

INTRODUCTION

The South Caucasus has historically served as an important bridge between the Islamic world, Eastern Europe, and Central Asia, facilitating economic, cultural, and institutional exchanges across civilizations. Within this broader regional context, Nakhchivan occupies a distinctive position due to its strategic geographical location, long-standing urban traditions, and early integration into Islamic political and economic systems. From the early Islamic period onward, the region functioned as a vital node in transregional trade networks connecting Anatolia, Persia, and the broader Middle East, thereby contributing to the economic development of Islamic civilization in the Caucasus.

The expansion of Islamic rule into the South Caucasus did not merely introduce new religious norms but also reshaped existing economic structures through the diffusion of Islamic legal principles, fiscal practices, and market institutions. Islamic economic thought, grounded in ethical norms such as justice, property rights, and social responsibility, provided a framework for regulating trade, taxation, and production. In Nakhchivan, these principles were reflected in the organization of urban markets, land tenure systems, and mechanisms of public finance, including taxation and charitable endowments. As a result, the region developed an economic structure that was closely aligned with broader Islamic economic practices while remaining responsive to local conditions.

Despite its historical importance, Nakhchivan's economic role within Islamic civilization has received limited attention in mainstream economic history literature, which often prioritizes major imperial centers. This article seeks to address this gap by examining Nakhchivan not as a peripheral territory, but as an active regional center that contributed to economic integration, commercial exchange, and institutional continuity within Islamic civilization. By situating Nakhchivan within the wider economic landscape of the Islamic world, the study highlights the significance of regional hubs

in sustaining long-distance trade, supporting urban economies, and facilitating the transmission of Islamic economic institutions.

The purpose of this research is to analyze the economic functions of Nakhchivan in the historical development of Islamic civilization in the South Caucasus, with particular attention to trade networks, institutional arrangements, and administrative practices. Through this approach, the article contributes to a more nuanced understanding of how Islamic economic models operated beyond imperial capitals and how regional centers such as Nakhchivan played a meaningful role in shaping the economic history of the Islamic world.

MATERIALS AND METHODS

This study employs a qualitative economic–historical research design to analyze the role of Nakhchivan in the economic development of Islamic civilization in the South Caucasus. The methodological approach is grounded in institutional economics and economic history, which emphasize the role of formal and informal institutions in shaping long-term economic performance (North, 1990; Greif, 2006). This framework is particularly suitable for examining pre-modern Islamic economies, where legal norms, administrative practices, and ethical principles played a central role in economic organization (Chapra, 2000).

The research materials consist of both primary and secondary sources. Primary sources include medieval Islamic chronicles, administrative records, legal texts related to taxation and property rights, and archaeological evidence documenting urban development, trade activity, and production in Nakhchivan. These materials provide insights into market organization, fiscal practices, and economic governance during different periods of Islamic rule. Secondary sources comprise scholarly works on Islamic economic institutions, regional trade networks in the Caucasus, and the economic history of the Islamic world, which are used to contextualize and interpret the primary evidence (Udovitch, 1970; Kuran, 2011).

The analytical method follows a comparative–institutional approach. First, key Islamic economic institutions—such as market regulation mechanisms, taxation systems, land tenure arrangements, and charitable foundations—are identified based on the existing literature (Lewis, 1999; Islahi, 2014). Second, these institutions are examined within the historical context of Nakhchivan to assess their functional role in facilitating trade, supporting production, and ensuring economic stability. Where relevant, Nakhchivan's economic characteristics are compared with those of other regional centers in the South Caucasus and the broader Islamic world to highlight similarities and region-specific features (Pamuk, 2015).

In addition, the study applies elements of qualitative network analysis to evaluate Nakhchivan's position within transregional trade routes linking Anatolia, Persia, and the Caucasus. This approach allows for an assessment of the region's role as an intermediary in the movement of goods, capital, and economic institutions across Islamic territories (Abu-Lughod, 1989). The findings are synthesized through logical induction, linking institutional arrangements to observed economic functions and development outcomes. This methodology ensures consistency between historical evidence and economic interpretation while remaining aligned with the objectives of the study.

RESULTS

The analysis reveals that Nakhchivan played a substantive role in the economic development of Islamic civilization in the South Caucasus through its integration into Islamic institutional frameworks and transregional trade networks. One of the key findings is that the region's economic vitality was closely linked to its strategic geographic position, which facilitated long-distance trade between Anatolia, Persia, and the broader Caucasus. Historical evidence indicates that Nakhchivan functioned as a commercial intermediary, enabling the circulation of agricultural products, artisanal goods, and raw materials within the Islamic economic space (Abu-Lughod, 1989; Pamuk, 2015).

A second major result concerns the operation of Islamic economic institutions in Nakhchivan. The implementation of Islamic legal norms related to property rights, contracts, and taxation contributed to a relatively stable and predictable economic environment. Fiscal mechanisms,

including land-based taxation and trade-related levies, supported public administration while avoiding excessive extraction that could hinder economic activity. This institutional balance aligns with broader patterns observed in Islamic economic governance, where revenue generation was combined with legal constraints and ethical considerations (Lewis, 1999; Kuran, 2011).

The findings also highlight the importance of urban markets and production structures in Nakhchivan's economy. Organized marketplaces served as centers for exchange and price formation, while artisanal production supported both local consumption and regional trade. Market regulation mechanisms, consistent with Islamic principles of fairness and transparency, helped reduce transaction costs and foster trust among economic actors. Such institutional arrangements are widely recognized as contributing to commercial expansion in Islamic societies (Udovitch, 1970; Greif, 2006).

In addition, the study finds that charitable economic institutions, particularly endowment-based mechanisms, played a complementary role in economic development. These institutions supported infrastructure, social welfare, and public services, indirectly enhancing labor productivity and urban sustainability. This redistributive function reflects the broader Islamic economic emphasis on social balance and collective responsibility, reinforcing economic stability at the regional level (Chapra, 2000; Islahi, 2014).

Overall, the results demonstrate that Nakhchivan was not a passive recipient of Islamic economic influences but an active regional center where Islamic institutions, trade networks, and production systems interacted to support economic development. These findings underscore the importance of regional hubs in sustaining the economic coherence of Islamic civilization beyond major imperial capitals.

DISCUSSION

The findings of this study reinforce the view that regional centers played a critical role in the economic functioning of Islamic civilization, complementing major imperial capitals rather than merely depending on them. In this context, Nakhchivan's economic significance can be interpreted through the lens of institutional economics, which emphasizes the importance of legal norms, governance mechanisms, and market structures in shaping long-term economic performance (North, 1990). The evidence suggests that Islamic economic institutions in Nakhchivan were not symbolic or peripheral but functionally embedded in everyday economic activity, supporting trade, production, and fiscal stability.

From a comparative perspective, the economic characteristics observed in Nakhchivan are consistent with patterns identified in other regions of the Islamic world, where integration into trade networks and the application of Islamic legal frameworks facilitated commercial expansion and urban growth (Udovitch, 1970; Pamuk, 2015). However, the case of Nakhchivan also demonstrates the adaptability of Islamic economic institutions to local conditions. While adhering to general principles such as property protection, contractual enforcement, and ethical market conduct, these institutions were shaped by regional geography, production structures, and political realities. This supports the argument that Islamic economic systems were neither monolithic nor rigid, but capable of regional differentiation within a coherent civilizational framework (Kuran, 2011).

The role of trade identified in the results aligns with world-systems and network-based interpretations of pre-modern economic development, which emphasize the importance of intermediary regions in facilitating long-distance exchange (Abu-Lughod, 1989). Nakhchivan's position along key commercial routes enhanced its role as a connector between economic zones, allowing it to capture economic rents from transit trade while simultaneously fostering local market development. This intermediary function contributed to regional economic resilience and reduced isolation, a factor often associated with sustained economic activity in pre-modern societies.

Furthermore, the presence of charitable economic institutions highlights the redistributive dimension of Islamic economic thought. The support of public infrastructure and social services through endowment-based mechanisms reflects an economic logic that integrates efficiency with social responsibility (Chapra, 2000; Islahi, 2014). Rather than constraining economic growth, these

institutions appear to have enhanced economic stability by mitigating social inequalities and supporting human capital formation. This finding contributes to ongoing debates regarding the relationship between ethical norms and economic performance in historical Islamic economies.

Overall, the discussion confirms that Nakhchivan's economic role within Islamic civilization should be understood as structurally significant rather than marginal. By combining institutional stability, market integration, and redistributive mechanisms, the region exemplifies how Islamic economic models operated effectively at the regional level. These insights contribute to a more balanced understanding of Islamic economic history and underscore the importance of incorporating regional case studies into broader theoretical discussions on economic development and institutional evolution.

CONCLUSION

This study has analyzed the role of Nakhchivan in the economic development of Islamic civilization in the South Caucasus from an institutional and economic–historical perspective. The findings demonstrate that Nakhchivan functioned as an active regional economic center rather than a peripheral territory, contributing to the integration and sustainability of Islamic economic systems. Its strategic geographical position enabled the region to participate in transregional trade networks, facilitating the movement of goods, capital, and economic practices across Islamic territories.

The research shows that Islamic economic institutions played a decisive role in shaping Nakhchivan's economic structure. Market regulation mechanisms, taxation systems, property rights arrangements, and charitable economic institutions provided an organized framework for economic activity and supported both commercial growth and social stability. These institutional arrangements reduced uncertainty, encouraged productive investment, and aligned economic behavior with ethical norms rooted in Islamic economic thought.

Furthermore, the case of Nakhchivan highlights the importance of regional centers in the broader economic development of Islamic civilization. By supporting trade, production, and redistribution at the local level, such regions reinforced the functionality of the Islamic economic system beyond major political capitals. This study contributes to the literature by emphasizing the economic relevance of regional hubs and demonstrating how Islamic economic principles were practically implemented within diverse local contexts. Overall, Nakhchivan's historical experience illustrates the adaptability and institutional effectiveness of Islamic economic models in promoting regional economic development within the South Caucasus.

REFERENCES

1. Abu-Lughod, J. L. (1989). Before European hegemony: The world system A.D. 1250–1350. Oxford University Press.
2. Chapra, M. U. (2000). The future of economics: An Islamic perspective. The Islamic Foundation.
3. Greif, A. (2006). Institutions and the path to the modern economy: Lessons from medieval trade. Cambridge University Press. https://doi.org/10.1017/CBO9780511791307
4. Islahi, A. A. (2014). History of Islamic economic thought. Edward Elgar Publishing. https://doi.org/10.4337/9781782547380
5. Kuran, T. (2011). The long divergence: How Islamic law held back the Middle East. Princeton University Press. https://doi.org/10.1515/9781400836017
6. Lewis, B. (1999). The Middle East: A brief history of the last 2,000 years. Scribner.
7. North, D. C. (1990). Institutions, institutional change and economic performance. Cambridge University Press. https://doi.org/10.1017/CBO9780511808678
8. Pamuk, Ş. (2015). A monetary history of the Ottoman Empire. Cambridge University Press. https://doi.org/10.1017/CBO9781139048690
9. Udovitch, A. L. (1970). Partnership and profit in medieval Islam. Princeton University Press.

10. Yusufov, E. M. (2012). Economic life of medieval Nakhchivan in the context of regional trade relations. Journal of Caucasian Studies, 4(2), 45–60.Yusufov, E. M. (2012). Economic life of medieval Nakhchivan in the context of regional trade relations. Journal of Caucasian Studies, 4(2), 45–60.

XÜLASƏ

CƏNUBİ QAFQAZDA İSLAM SİVİLİZASİYASININ İQTİSADİ İNKİŞAFINDA NAXÇIVANIN ROLU

Cavad Əliyev

Bu məqalədə Cənubi Qafqazda İslam sivilizasiyasının iqtisadi inkişafında Naxçıvanın rolu araşdırılır və regionun ticarət, istehsal və institusional təşkilatlanma baxımından tarixi funksiyası təhlil edilir. Yaxın Şərq, Anadolu və Qafqazı birləşdirən əsas ticarət yollarının kəsişməsində yerləşən Naxçıvan erkən orta əsrlərdən etibarən İslam dünyası daxilində iqtisadi qarşılıqlı əlaqələrin formalaşmasında mühüm rol oynamışdır. Tədqiqatın məqsədi İslam iqtisadi prinsiplərinin, inzibati təcrübələrin və kommersiya institutlarının regionun iqtisadi strukturuna təsirini və daha geniş sivilizasiya kontekstində rolunu müəyyən etməkdir. Araşdırma keyfiyyət yönümlü tarixi metodologiyaya əsaslanır və ilkin tarixi mənbələrə, arxeoloji materiallara və İslam iqtisadi tarixinə dair müasir elmi ədəbiyyata istinad edir. Nəticələr göstərir ki, Naxçıvanın iqtisadi əhəmiyyəti onun transregional ticarət şəbəkələrinə inteqrasiyası, şəhər bazarlarının inkişafı və vergi mexanizmləri, mülkiyyət münasibətləri və xeyriyyə institutları kimi İslam iqtisadi institutlarının tətbiqi ilə bağlı olmuşdur. Bu amillər iqtisadi sabitliyin, sosial rifahın və regional inteqrasiyanın təmin edilməsinə xidmət etmişdir. Məqalə nəticə olaraq göstərir ki, Naxçıvan Cənubi Qafqazda İslam sivilizasiyasının iqtisadi həyatında fəal iştirak edən regional mərkəz olmuş və İslam iqtisadi modellərinin praktik tətbiqində mühüm rol oynamışdır.

Açar sözlər: *İslam iqtisadi tarixi, Naxçıvan, Cənubi Qafqaz, ticarət və kommersiya institutları, iqtisadi inkişaf*

РЕЗЮМЕ

РОЛЬ НАХЧЫВАНА В ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ ИСЛАМСКОЙ ЦИВИЛИЗАЦИИ НА ЮЖНОМ КАВКАЗЕ

Джавад Алиев

В статье исследуется роль Нахчывана в экономическом развитии исламской цивилизации на Южном Кавказе с акцентом на его историческую функцию в сфере торговли, производства и институциональной организации. Расположенный на пересечении ключевых торговых путей, связывающих Ближний Восток, Анатолию и Кавказ, Нахчыван с раннесредневекового периода играл важную роль в формировании экономических связей внутри исламского мира. Целью исследования является анализ влияния исламских экономических принципов, административных практик и коммерческих институтов на экономическую структуру региона и их значение в более широком цивилизационном контексте. Методологической основой работы является качественный историко-экономический подход с использованием первичных исторических источников, археологических данных и современной научной литературы по истории исламской экономики. Результаты исследования показывают, что экономическое значение Нахчывана определялось его интеграцией в трансрегиональные торговые сети, развитием городских рынков и применением исламских экономических институтов, включая налоговые системы, имущественные отношения и благотворительные фонды. Эти факторы способствовали экономической стабильности, социальной поддержке и региональной интеграции. В заключение делается вывод о том, что Нахчыван был не периферийной территорией, а

активным региональным центром, сыгравшим важную роль в экономической жизни исламской цивилизации на Южном Кавказе.

Ключевые слова: *история исламской экономики, Нахчыван, Южный Кавказ, торговые и коммерческие институты, экономическое развитие*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-10
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

RƏQƏMSAL MALİYYƏ BAZARLARINDA FİNTEK TRANSFORMASİYASI: RİSKLƏR VƏ STRATEJİ İMKANLAR

Mehriban İMANOVA [1], **Xanım MUSTAFAYEVA** [1]
[1]*Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan*
**Yazışılan müəllif: imanovamehriban0@gmail.com*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
Rəqəmsal maliyyə, Fintek, risklərin idarə olunması, kibertəhlükəsizlik, innovasiya, blokçeyn, tənzimləmə.

XÜLASƏ
Rəqəmsal maliyyə bazarlarında sürətlənən transformasiya prosesləri Fintek ekosisteminin genişlənməsi, yeni maliyyə xidmətlərinin formalaşması və risklərin idarə olunması mexanizmlərinin yenilənməsi üçün fundamental zəmin yaratmışdır. Bu dəyişikliklər nəticəsində maliyyə əməliyyatlarının avtomatlaşdırılması, süni intellekt əsaslı analitik modellərin tətbiqi və blokçeyn texnologiyalarının inteqrasiyası rəqabət üstünlüyünün əldə edilməsində mühüm rol oynayır. Bununla belə, kibertəhlükəsizlik təhdidləri, məlumatların məxfiliyi riskləri, əməliyyat dayanıqlığının zəifləməsi və tənzimləyici çərçivələrin yetərsizliyi rəqəmsal mühitdə yeni çağırışlar yaradır. Müasir şəraitdə risklərin idarə olunması yalnız ənənəvi maliyyə riskləri ilə məhdudlaşmır, eyni zamanda texnoloji, strateji və reputasiya risklərini də əhatə edir. Bu səbəbdən Fintek əsaslı xidmətlərin inkişafı üçün çevik tənzimləmə modeli, riskə həssas idarəetmə strukturu və dayanıqlı innovasiya mühiti zəruri hesab olunur. Məqalədə rəqəmsal maliyyə bazarlarında risklərin idarə olunmasının aktual istiqamətləri, transformativ imkanları və tətbiqdə qarşıya çıxan praktiki çətinliklər sistemli şəkildə təhlil edilir.

GİRİŞ

Texnologiyanın sürətli inkişafı və rəqəmsallaşma təhsildən sağlamlığa, iqtisadiyyatdan maliyyəyə, mediadan ünsiyyətə qədər həyatın bütün sahələrinə təsir göstərməkdədir. Bu dəyişikliklər təkcə fərdi fəaliyyət sferalarımızı deyil, eyni zamanda müəssisələrin iş fəaliyyətini və biznes modellərini də əhəmiyyətli dərəcədə formalaşdırır. Dünyada internetə çıxış imkanlarının genişlənməsi və ağıllı cihazların istifadəsinin artması rəqəmsal mühitdə yaranan dağıdıcı innovasiyaları təşviq etməklə yanaşı, onların tətbiqini müəyyən mənada zəruri edir. Bu tendensiyalar nəticəsində iqtisadi və institusional strukturların öz fəaliyyətlərini yeni texnoloji tələblərə uyğunlaşdırması, rəqabət qabiliyyətini qoruması və davamlı inkişaf strategiyalarını yenidən formalaşdırması vacib hala gəlmişdir.

"Fintech" anlayışı dilimizə "maliyyə texnologiyaları" kimi tərcümə edilsə də, praktikada daha çox "fintek" formasında işlədilir. Bu termin üçün tam şəkildə qəbul olunmuş vahid tərif mövcud olmasa da, fintek dedikdə müxtəlif maliyyə məhsul və xidmətlərini özündə birləşdirən geniş məzmunlu, çətir xarakterli bir konsepsiya nəzərdə tutulmalıdır.

Fintekin tarixi təkamülü çox qədim dövrlərə qədər uzansa da, yaxın keçmişdə baş verən iki mühüm hadisə bu ekosistemin sürətlə genişlənməsinə zəmin yaratmışdır. Birinci hadisə 2008-ci il Qlobal Maliyyə Böhranıdır. Həmin böhranın nəticəsində sərt tənzimləmə tələbləri ilə üzləşən maliyyə sektoru müştərilərin tələblərini və gözləntilərini qarşılamaqda çətinlik çəkmişdir. Kredit məhdudiyyətləri, risk siyasətlərinə uyğunlaşma kimi öhdəliklər ənənəvi maliyyə qurumlarını müştəri ehtiyaclarına çevik reaksiya verməkdən uzaqlaşdırmışdır. Bu şərait isə rahatlıq və inklüzivlik vəd edən fintek yönümlü təşəbbüslərin meydana çıxmasına şərait yaratmışdır. İkinci mühüm inkişaf 2019-cu ildə baş verən Covid-19 pandemiyasıdır. Müxtəlif dövrlərdə tətbiq edilən küçəyə çıxma məhdudiyyətləri və cəmiyyətə ünvanlanan "Evdə qal" çağırışı təkcə fərdlərin deyil, həm də müəssisələrin internet əsaslı texnologiyalara adaptasiyasını sürətləndirmişdir. Fiziki təmasdan qaçınma tələbi nəğd pul istifadəsini azaltdığı halda, təmassız ödənişlərin, e-ticarət platformalarının, internet və mobil bankçılıq xidmətlərinin geniş tətbiqini stimullaşdırmışdır. Bu proses texnologiyanın gündəlik həyatın müxtəlif sferalarına daha dərindən inteqrasiyasını qaçılmaz etmişdir.

Maliyyə sistemi və rəqəmsallaşma

Maliyyə sisteminin əsas funksiyası yığımları investisiyalara yönəltməklə iqtisadiyyatda resursların səmərəli şəkildə bölgüsünü təmin etməkdir. Maliyyə vasitəçiləri bu prosesə mane ola biləcək informasiya asimmetriyalarını (moral risk və invers seçmə) və kommunikasiya uyğunsuzluqlarını aradan qaldırmağa fokuslanırlar. Onlar məlumat mübadiləsində ixtisaslaşmaqla yanaşı, informasiya asimmetriyalarını aradan qaldırmaq üçün investisiya qərarı vermək bacarığına malik olmayan yığım sahibləri adından risk təhlillərini həyata keçirir və yatırımları monitorinq edirlər (Boot və başqaları, 2021).

Maliyyə vasitəçiləri əməliyyat xərclərinin azaldılmasında və əməliyyat imkanlarının genişləndirilməsində adətən mühüm rol oynayırlar. İqtisadi əməliyyatlarda vasitəçilər, qarşı tərəflərin bir-birini tapmasına, etimad formalaşdırmasına və razılaşmaları yekunlaşdırmasına yardım edir. Vasitəçilər olmadıqda, əməliyyat iştirakçıları arasında əlaqənin qurulması, müqavilə şərtləri üzrə danışıqların aparılması və ya öhdəliklərin icrası çətinləşə bilər. Bununla yanaşı, vasitəçilər iqtisadi əməliyyatların formalaşmasına təsir göstərən əhəmiyyətli gücə malik ola bilər və bu gücdən bəzən öz maraqlarını maksimumlaşdırmaq üçün istifadə edə bilərlər. Bu isə maliyyə vasitəçilərinin potensial monopol gücləri ilə bağlı narahatlıqları artırır (Chen və Bellavitis, 2020). Sahəyə girişin çətin olması, informasiya və kommunikasiya asimmetriyalarının aradan qaldırılmasının yüksək ixtisas tələb etməsi, müştəri sədaqəti və etibarının mühüm rol oynaması kimi amillər maliyyə xidmətləri sektorunu daha az rəqabətçi etmişdir. Lakin 1990-cı illərdə informasiya texnologiyalarında baş verən inqilab və internetin geniş yayılması əməliyyat xərclərinin azalmasına, məlumatın əlçatanlığının artmasına, rəqabət səviyyəsinin yüksəlməsinə və bank işçi sayının azalmasına səbəb olmuşdur (Boot və b., 2021).

Rəqəmsal iqtisadiyyata keçid prosesində maliyyə texnologiyaları (fintek) ənənəvi maliyyə institutlarının həyata keçirdiyi bəzi funksiyaları icra etməyə başlamışdır. Bəzi hallarda rəqəmsal texnologiyalar əməliyyat xərclərini azalda, əməliyyatların əhatə dairəsini genişləndirə və özünütənzimləyən (P2P) əməliyyatları gücləndirə bilər. Fintek, maliyyə institutlarına olan asılılığı müəyyən qədər azaltsa da, vasitəçiləri tamamilə aradan qaldırmamışdır. Çox zaman bir vasitəçinin (məsələn, maliyyə qurumunun) yerini digər bir vasitəçi – texnologiya şirkəti tutur. Mərkəzləşmənin azalması və vasitəçiliyin zəifləməsi tendensiyası davam edərsə, blokçeyn texnologiyasına əsaslanan mərkəzləşdirilməmiş maliyyə (DeFi) bu inkişafın növbəti mərhələsi kimi formalaşa bilər (Chen və Bellavitis, 2020).

Rəqəmsal maliyyə, böyük məlumat və bulud hesablama kimi texnologiyalardan istifadə etməklə kredit verənlərlə kredit alanlar arasındakı informasiya asimmetriyasını azaltmaq və əməliyyat xərclərini minimuma endirməklə ənənəvi maliyyə sistemindən kənarda qalan şəxslərə xidmət göstərmək baxımından böyük potensiala malikdir (Yue və b., 2022). Blokçeyn texnologiyası isə gələcəyin əsas texnologiyalarından biri kimi qiymətləndirilir. Satoshi Nakamoto tərəfindən 2008-ci ildə irəli sürülmüş bu model etibarlı vasitəçiyə ehtiyac olmadan iki tərəf arasında birbaşa əməliyyat aparmağa imkan verən kriptoqrafik elektron ödəniş sistemidir. Bir çox beynəlxalq təşkilat və müxtəlif ölkələrin mərkəzi bankları biznes modellərini köklü şəkildə dəyişdirmə potensialına malik olan bu texnologiya üzərində araşdırmalarını davam etdirirlər (Arıcı, 2021).

Maliyyə Texnologiyalarının Tarixi Təkamülü

Maliyyə texnologiyalarının tarixi inkişafı ilk transatlantik kabelin çəkilməsindən günümüzə qədər izlənilə bilər. Lakin daha yaxın dövrlərdəki texnoloji yenilik dalğaları nəzərdən keçirildikdə, informasiya sahəsində baş verən irəliləyişlərin 1980-ci illərdə passiv investisiya alətlərinin yüksəlişinə, 1990-cı illərdə isə kredit skorlaşdırması və qiymətli kağızların sekuritizasiyası inqilabına səbəb olduğu göstərilə bilər. Eyni şəkildə, kommunikasiya sahəsindəki yeniliklərə 1970-ci illərdə ATM-lərin tətbiqi, 1980-ci illərdə telefon bankçılığı, 1990-cı illərdə İngiltərədə Walmart və Tesco kimi böyük pərakəndə şəbəkələrinin bankçılıq sektoruna daxil olma cəhdləri və 2000-ci illərdə onlayn bankçılığın, həmçinin pərakəndə elektron ödənişlərin istifadəsində artım daxildir. Bu yeniliklər maliyyə sistemində tarazlığı bankalardan bazarlara və ixtisaslaşmış iştirakçılara doğru yönəltmiş, lakin bütün dəyişikliklərə baxmayaraq, banklar maliyyə sektorunun mərkəzi aktoru olaraq qalmağa

davam etmişdir (Philippon, 2015). Bununla belə, son onillikdə baş verən inkişafların maliyyə sektorunun quruluşunda daha dərindən dəyişikliklərə yol açacağı gözlənilir (Boot və b., 2021).

Fintek 1.0 adlandırılan ilkin mərhələ, mors əlifbasının (teleqrafın) icadı və ilk transatlantik kabelin çəkilməsi ilə mümkün olan ilk elektron pul transferi ilə başlamış və maliyyə məlumatlarının, habelə ödənişlərin sürətli ötürülməsini xarakterizə edən 1866–1967-ci illəri əhatə edən dövrü ifadə edir. Fintek 2.0 mərhələsi (1967–2008) ənənəvi maliyyə qurumları tərəfindən məhsul və xidmətləri artırmaq məqsədilə informasiya texnologiyalarından istifadə olunmağa başlandığı dövrdür. Bu mərhələ ATM-lərin tətbiqi, elektron ödəniş və klirinq sistemlərinin formalaşdırılması, eləcə də onlayn bankçılıq xidmətlərinin genişlənməsi ilə səciyyələnir. 2008-ci ildən günümüzə qədər olan dövr isə Fintek 3.0 adlandırılır və ən müasir texnoloji yeniliklərdən istifadə etməklə maliyyə xidmətlərinin vasitəçilər olmadan birbaşa müştərilərə təqdim edilməsini, bununla da maliyyə institutları üçün tamamilə yeni rəqabət mühitinin formalaşmasını ifadə edir.

Palmie və başqaları (2020) maliyyə texnologiyalarının inkişafını müxtəlif dövrlər və təsiredici amillər əsasında qiymətləndirərək bu prosesi üç dalğa ilə xarakterizə edirlər. Birinci dalğa elektron ödənişlər dalğasıdır. İnternetin və ağıllı telefonların inkişafı nəticəsində onlayn bankçılıq və mobil ödəniş vasitəsilə elektron vəsait transferləri daha geniş yayılmış və böyük populyarlıq qazanmışdır. İkinci dalğa blokçeyn və kriptovalyutalarla əlaqələndirilir. Blokçeyn, Bitcoin və digər kriptovalyuta növlərini dəstəkləyən texnologiya kimi tanınan paylaşılan verilənlər bazasıdır. Blokçeyn şirkətləri bu texnologiyanın inkişafını və tətbiqini genişləndirərkən, kriptovalyuta şirkətləri kriptoaktivlərin alqı-satqısı və saxlanması kimi məhsul və xidmətlər təqdim edirlər. Maliyyə sektoru isə əməliyyatların sadələşdirilməsi və xidmət çeşidinin genişləndirilməsi potensialına görə blokçeyn texnologiyasının inkişafına böyük maraq göstərmişdir. Üçüncü dalğa süni intellektlə bağlıdır. Bu mərhələdə fintek ekosistemi süni intellekt tərəfindən transformasiyaya məruz qalır. Maliyyə sektorunda süni intellekt anlayışı, verilmiş tapşırıqları şərh edib anlaya bilən və həmin maliyyə funksiyalarını icra etmək üçün fəaliyyət göstərə bilən sistem və cihazlara fokuslanır. Müştərilərin bu texnologiyaya adaptasiyası artdıqca, süni intellekt yönlü yeni növ müştəri tələbatları formalaşmağa başlayır.

Fintek anlayışı ilk dəfə 1972-ci ildə akademik bir məqalədə* "bank ixtisasını müasir idarəetmə elmi metodları və kompüterlə birləşdirən maliyyə texnologiyası mənasını verən bir qısaltma" kimi tərif edilmişdir. Milian və başqaları (2019) çoxsaylı akademik məqalələri təhlil edərək fintek terminini "maliyyə sektorunda fəaliyyət göstərən, kommunikasiya imkanlarından, internetin geniş yayılmasından və məlumatın avtomatik emal olunması potensialından istifadə edən innovativ şirkətlər" kimi müəyyənləşdirmişdir. Bu anlayış 2018-ci ilin son rübündə Merriam–Webster lüğətinə də daxil edilərək "bankçılıq və maliyyə xidmətləri sektorunda yeni yaradılmış rəqəmsal və onlayn texnologiyalardan istifadə edən məhsul və şirkətlər" kimi izah olunmuşdur. Ödəniş təşkilatları, kredit təmin edən qurumlar, alternativ maliyyə platformaları, bankların rəqəmsal maliyyə tətbiqləri, sığorta texnologiyaları, həmçinin kriptovalyuta və blokçeyn əsaslı tətbiqlər də fintek anlayışının tərkib hissəsi sayılır (Yazıcı, 2022).

Fərqli tərifl ərdən də göründüyü kimi, fintek anlayışı (Çağıl və Candemir, 2019) aşağıdakı məzmunları ifadə edir:

- maliyyə sektorunda istifadə olunan innovativ texnologiyaları,
- innovativ texnologiyalar vasitəsilə yaradılan maliyyə məhsul və xidmətlərini,
- həmin texnologiyalardan istifadə edərək yeni maliyyə məhsulları hazırlayan və xidmətlər təqdim edən şirkətləri.

Fintek adətən texnologiya və innovasiyadan yararlanaraq mövcud maliyyə qurumlarını aradan çıxarmaqla elektron (onlayn) kanallar vasitəsilə ixtisaslaşmış xidmətlər təqdim edir (Nicoletti, 2017). Thakor (2020) finteki əsasən yeni və təkmilləşdirilmiş maliyyə xidmətləri göstərmək üçün texnologiyanın istifadəsi kimi xarakterizə edir. Onun meydana çıxmasında əsas motivasiya isə informasiya texnologiyalarının bir çox sahədə xərcləri azaltması və funksionallığı artırmasına baxmayaraq, maliyyə vasitəçiliyinin vahid xərcinin yüz ildən artıqdır ki, demək olar dəyişməz qalması ilə izah olunur.

Fintek anlayışı bəzən çevik və innovativ iş modeli ilə seçilən startap tipli şirkətləri təsvir etmək üçün, bəzən isə həmin şirkətlərin təqdim etdiyi yeni texnologiyaları, məhsul və xidmətləri ifadə edən

çətir termin kimi istifadə olunur (Deloitte, 2020). Fintek startapları xüsusilə ənənəvi bankçılıq xidmətlərinə çıxışı məhdud olan əhali qruplarını və kiçik və orta sahibkarlıq subyektlərini (KOBİ-ləri) maliyyə sisteminə cəlb etməklə maliyyə inklüzivliyinə mühüm töhfə verir (KPMG, 2024). Finteklərin əsas xüsusiyyətləri müştəriyönümlü olmaları, innovativ, rəqabətçi və sürətli fəaliyyət göstərmələri, həmçinin ənənəvi maliyyə məhsul və xidmətlərindən fərqlənmələridir. Tələbatı mərkəzə alan bu yanaşmanın formalaşmasında ənənəvi bank xidmətlərinin ağır və çevik olmayan strukturu, eləcə də sistemdəki yüksək əməliyyat xərcləri həlledici rol oynayır (Canbaz və Erbaş, 2021).

Distribyutiv (yıxıcı) innovasiya ekosistemi – iyerarxik idarəetmə strukturuna malik olmadan, yalnız müştərilərin tarixi olaraq dəyər verdiyi ölçülərdə performansı yaxşılaşdırmaqla kifayətlənməyən, həm də indiyədək diqqətdən kənarda qalmış ən azı bir istiqamətdə əlavə üstünlük yaradan bir innovasiya ətrafında birgə inkişaf edən, qarşılıqlı asılı aktorlardan ibarət iqtisadi bir mühit kimi xarakterizə olunur. Bu aktorlar (təşkilatlar və fərdlər) sözügedən innovasiya ilə bağlı məhsul və/və ya xidmətlərin istehsalı və/və ya istehlakında bir-birini tamamlayan davranışlar nümayiş etdirirlər (Palmie və b., 2020).

Fintek ekosistemi beş əsas ünsürdən ibarətdir (Lee və Shin, 2018):

- **Fintek Startapları:** Ödəniş xidmətləri, sərvət idarəçiliyi, borclandırma, kütləvi maliyyələşdirmə, kapitallaşma bazarı və sığorta yönümlü fintek şirkətləri;
- **Texnologiya İnkişaf etdiriciləri:** Böyük data analitikası, bulud hesablama, kriptovalyutalar və sosial media infrastrukturu hazırlayan texnoloji qurumlar;
- **Maliyyə Müştəriləri:** Fərdlər və təşkilatlar;
- **Dövlət:** Maliyyə tənzimləyiciləri və qanunverici orqanlar;
- **Ənənəvi Maliyyə Qurumları:** Banklar, sığorta şirkətləri, brokerlik təşkilatları və risk kapitalı investorları.

Son illərdə populyarlığı artan fintek startaplarının sürətli inkişafını stimullaşdıran amilləri anlamaq da mühüm əhəmiyyət kəsb edir. “Baby boomer” nəslinin əmək fəaliyyətindən çəkilməsi, rəqəmsal nəsil hesab olunan X və Y nəslinin iqtisadiyyatda aparıcı mövqelər tutmağa başlaması, eləcə də Z nəslinin yüksək rəqəmsal bacarıqlara malik olması ənənəvi müştəri profilini tamamilə dəyişməkdədir. Bank sektorunun müştəriyə fərdiləşdirilmiş həllər təqdim etməkdə çətinlik çəkməsi, şəxsi gözləntilərin çox vaxt nəzərə alınmaması və sektorun ağır, çevik olmayan strukturu müştəriyönümlü fintek şirkətlərinin yüksəlişinə şərait yaradır. Müştərilər maliyyə xidmətlərinə daha asan, daha ucuz və daha ağıllı çıxış tələb edirlər. İnformasiya və texnologiya sahəsində baş verən inkişaflar nəticəsində formalaşan yeni biznes modelləri, fiziki təmas tələb etmədiyi üçün yaranan xərc üstünlüyü, bazarların niş istiqamətlərə yönəlməsi, kibertəhlükəsizlik sahəsində irəliləyişlər, maliyyə böhranlarının maliyyə vasitəçilərinə olan inamı zəiflətməsi, müştərilərin ehtiyaclarının ənənəvi sektor tərəfindən ödənilməməsi, tənzimləyici normaların bankçılıq sistemini ciddi nəzarətdə saxlaması və texnologiya sayəsində maliyyə resurslarına birbaşa çıxışın mümkün olması fintekləri yeni və güclü rəqabət meydanına çevirir (Anagnostopoulos, 2018).

Maliyyə xidmətlərində rəqəmsal transformasiya ödəniş sistemləri, süni intellekt dəstəkli maliyyə həlləri, kredit və sığorta xidmətləri kimi bir çox sahədə köklü dəyişikliklər yaratmaqdadır. Fintek ekosisteminin formalaşması daha səmərəli maliyyə bazarlarının və sistemlərinin qurulmasını asanlaşdıran texnoloji yenilikləri təşviq edən mühüm amillərdən biridir (Palmie və b., 2020). Ənənəvi nağd puldan rəqəmsal pula keçid pul və məlumat arasındakı sərhədləri daha da qeyri-müəyyən etmişdir. Finteklərin maliyyə xidmətləri sisteminə gətirdiyi yeni texnologiyalar, biznes modelləri, məhsullar və proseslər əməliyyat xərclərinin azalması, xidmətlərin fərdiləşdirilməsi, əməliyyat müddətlərinin qısalması, alternativ məhsulların təqdim olunması və müştəri tələblərinin prioritetləşdirilməsi kimi sahələrdə əhəmiyyətli üstünlüklər yaradır və bununla da bankların sistemdəki ənənəvi vasitəçilik rolunu sual altına alır (Çöllü, 2019). Bu vəziyyət bankçılığın gələcəyi üçün bir tərəfdən yeni imkanlar açsa da, digər tərəfdən əhəmiyyətli risklər və təhdidlər formalaşdırır. Finteklər ənənəvi maliyyə sistemində “oyun dəyişdirici” aktorlar kimi meydana çıxmışlar. Lakin onların ənənəvi bankçılıq sistemindən istifadə etməyən və ya həmin sistemdən kənara itilmiş fərdlər

üçün də çevik, həll yönümlü və sürətli xidmətlər təqdim etməsi ölkələrin iqtisadi artımına müsbət təsir göstərə bilər.

Finteklər sayəsində istehlakçılar bu gün əvvəlkindən daha çox ödəniş üsuluna çıxış əldə edirlər. İnternet üzərindən pul köçürmələrində tətbiq olunan yeni texnologiyalar həm bizneslər, həm də hökumətlər üçün yeni imkanlar yaradır. Bu texnologiyalar beynəlxalq rəqəmsal ticarət üçün daha əlverişli mexanizmlər təqdim edir və daim genişlənən yeni mobil iş qüvvəsinin formalaşmasına şərait yaradır (Palmie və b., 2020). Bu texnoloji yeniliklərə sürətlə uyğunlaşa bilən bankaların fintek inkişaflarından müsbət təsirlənəcəyi gözlənilir. Finteklərin təqdim etdiyi böyük data, süni intellekt, əşyaların interneti və blokçeyn kimi texnologiyalar bankalara göstərdikləri xidmətlərin keyfiyyətini artırmaq və informasiya texnologiyaları üzrə bacarıqlarını daha da inkişaf etdirmək imkanı yaradır. Bu sayədə daha səmərəli xidmət modeli formalaşdıran bankalar yeni bazarlara çıxış, fərqli biznes modelləri yaratmaq, filial sayını azaltmaq və mənfəət marjlarını yüksəltmək kimi əhəmiyyətli üstünlüklərə sahib ola bilərlər. Bununla belə, finteklərin üstünlüklərinə baxmayaraq, uzunmüddətli və sabit fəaliyyət tarixinə malik olan ənənəvi bankların da rəqabət mühitində güclü tərəfləri mövcuddur. Məsələn, müştərilər üçün etibarlı tərəfdaş kimi qəbul olunmaları, qanunvericilik tələblərinə uyğunluq və risk idarəetməsi sahəsində yüksək ekspertiza, yeni texnologiyaların biznes modellərinə inteqrasiyası üzrə təcrübə, həmçinin geniş maliyyə resurslarına malik olmaları bu üstünlüklərin əsasını təşkil edir (Çöllü, 2019).

Fintek Trendləri və Strateji Hədəflər

Mövcud elmi mənbələrdə fintek texnologiyalarının maliyyə sektoruna təsiri geniş müzakirə olunsa da, bu texnoloji meyillərin maliyyə institutlarının strateji məqsədləri ilə ardıcıl və strukturlaşdırılmış şəkildə əlaqələndirilməsi sahəsində boşluqlar qalmaqdadır. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə fəaliyyət göstərən maliyyə institutları üçün fintek trendlərinin strateji istiqamətlərə necə təsir göstərdiyini hərtərəfli şəkildə qiymətləndirən tədqiqatların sayı məhduddur.

Tərtib edilmiş analiz cədvəli fintek trendləri ilə strateji hədəflər arasında əlaqəni, eyni zamanda maliyyə nəticələrini, potensial riskləri və performansın qiymətləndirilməsi üçün istifadə olunan əsas göstəriciləri vahid strukturda təqdim edir (Cədvəl 1).

Cədvəl 1.

Fintek Mühitində Yeni Trendlər və Strateji Hədəflər

Fintek Trend	Açıqlama	Strateji Hədəf	Maliyyə Təsiri	Risklər	Ölçmə Göstəriciləri (KPI)
Açıq Bankçılıq	API əsaslı bank–fintek inteqrasiyası	Müştəri bazasının genişlənməsi	Gəlir diversifikasiyası	Məlumat təhlükəsizliyi	API istifadəsi, aktiv istifadəçi sayı
Rəqəmsal Ödənişlər	Mobil və kontaktsız ödənişlər	Tranzaksiya sürətinin artması	Komissiya gəlirləri	Sistem kəsintisi	Tranzaksiya həcmi
Süni İntellekt	Risk və kredit analizi	Riskin azaldılması	Problemli kreditlərin azalması	Alqoritmik səhvlər	Default rate
Blockchain	Şəffaf əməliyyat sistemi	Xərc azaldılması	Əməliyyat xərclərinin azalması	Tənzimləmə riski	Əməliyyat müddəti
Interqrasiya olunmuş maliyyə	Maliyyənin platformalara inteqrasiyası	Yeni bazarlara çıxış	Yeni gəlir axınları	Platforma asılılığı	Platforma gəlirləri

Kiber Təhlükəsizlik	Məlumatların qorunması	Etibarın artırılması	Maliyyə itkilərinin qarşısı	Kiber hücumlar	İnsident sayı

Mənbə: *Gomber et.al., 2018; Arner et al., 2016; Chen et.al.,2019; Deloitte Insights, 2021; Zetzsche et.al., 2020*

Fintek mühitində müşahidə olunan yeni trendlər maliyyə institutlarını ənənəvi əməliyyat modellərindən strateji çevikliyə əsaslanan rəqəmsal transformasiya modelinə keçməyə məcbur edir. Açıq bankçılıq, süni intellekt və embedded finance kimi innovativ yanaşmalar maliyyə institutlarının rəqabət qabiliyyətini artırmaqla yanaşı, risklərin idarə olunmasında da yeni strateji hədəflərin formalaşmasına səbəb olur

Təklif olunan metodoloji yanaşma bir tərəfdən akademik araşdırmalar üçün konseptual və analitik baza formalaşdırır, digər tərəfdən isə maliyyə institutlarında strateji planlaşdırma və qərarvermə proseslərində praktik alət kimi istifadə oluna bilər.

NƏTİCƏ

Maliyyə texnologiyası (fintek) – maliyyə, texnologiya və innovasiya idarəçiliyini bir araya gətirən multidissiplinar bir sahə (Leong və Sung, 2018) olaraq son illərdə qlobal maliyyə sistemində əhəmiyyətli transformasiya yaratmışdır. Xüsusilə pandemiya dövründən etibarən sürətli yüksəlişə keçmiş və maliyyə sisteminin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Fintek ekosistemi böyük verilərə əsaslanan istehlakçı davranışlarını təhlil edə bildiyi üçün fərdiləşdirilmiş həllər təklif edir və müştərilərə daha təkmil bankçılıq təcrübəsi təqdim edir (Anagnostopoulos, 2018). Bu yolla finteklər maliyyə xidmətlərinin qavranılması, hazırlanması, tanıdılması, göstərilməsi və istifadəsi proseslərində köklü dəyişikliklər yaradır. Sürətlənən innovasiya impulsu isə ikili nəticələr doğurur: fintek bir tərəfdən maliyyə arxitekturasını modernləşdirir və davranışsal dəyişiklikləri təşviq edir, digər tərəfdən mövcud iş modellərini, xidmət strukturlarını və tənzimləyici çərçivələri sarsıdır (Mention, 2021). Sahədəki yeni startapların müştəriyönümlülük, sürət və aşağı xərc kimi üstünlükləri ənənəvi bankları strategiyalarını yenidən nəzərdən keçirməyə və daha innovativ həllər formalaşdırmağa məcbur edir. Digər tərəfdən finteklər geniş miqyaslanma və müştəri etimadı qazanmaqda müəyyən çətinliklərlə üzləşirlər. Banklar isə infrastruktur, tənzimləyici uyğunluq və risklərin idarə edilməsi baxımından öz güclü mövqelərini qorumaqda davam edirlər. Bu səbəbdən, yeni fintek təşəbbüsləri ilə ənənəvi maliyyə institutları arasında sırf rəqabətə əsaslanan münasibətdən daha çox əməkdaşlıq yönümlü yanaşmanın tətbiqi həm sektor, həm də müştərilər üçün daha məqsədəuyğun hesab olunur.

Finteklər maliyyə inklüzivliyini artıraraq dezavantajlı qrupların iqtisadi baxımdan güclənməsinə dəstək olur. Bir çox ölkədə maliyyə inklüzivliyinin sistemdən kənarda qalan əhali qrupları – xüsusilə qadınlar və aztəminatlı yetkinlər üçün əhəmiyyətli faydalar yaratdığına dair sübutlar getdikcə artmaqdadır. Bir çox ölkələrin siyasətçiləri maliyyə inklüzivliyini iqtisadi səlahiyyətlənmənin əsas açarı və artan yoxsulluq səviyyələrinə qarşı bir həll kimi qəbul etmişlər (Ozili, 2021). Qlobal maliyyə sektorunun genişlənməsi nəzərə alındıqda, fintek tətbiqlərinin və xidmətlərinin effektiv şəkildə tənzimlənməsi üçün milli tənzimləyici qurumlar arasında daha çox, daha yeni və daha inkişaf etmiş beynəlxalq əməkdaşlığa ehtiyac duyulacağı proqnozlaşdırılır. Fintek sahəsində getdikcə daha aydın görünən reallıq isə budur ki, tənzimləyicilər daim bazarın bir addım gerisində qalırlar. Fintek tətbiqlərinin eksponential inkişafı isə bu sualları gündəmə gətirir: mövcud tənzimləyici səlahiyyət və mexanizmlər kifayət edirmi, bu səlahiyyətlər hansı istiqamətdə təkmilləşdirilməlidir və yeni səlahiyyətlərin yaradılması zərurətə çevrilirmi (Chatzara, 2020). Finteklərin təqdim etdiyi imkanlar ətraf mühitlə bağlı xərclərlə də sıx bağlıdır. Enerji istehlakının artması, elektron tullantıların çoxalması və təbii resursların tükənməsi hökumətləri texnoloji innovasiyaları təşviq etməklə ekoloji davamlılığı təmin etmək arasında çətin seçimlə üz-üzə qoyur (Tao və b., 2022). Bu baxımdan qlobal ekoloji siyasətlə uyğunlaşdırılmış, balanslı və məsuliyyətli texnologiya siyasətinin formalaşdırılması böyük əhəmiyyət daşıyır. Nəticə etibarilə fintek yalnız maliyyə sektorunu transformasiya etməklə kifayətlənməmiş, həm də texnologiya, media və

telekommunikasiya kimi sahələrlə inteqrasiya olunaraq sektorlararası sərhədləri bulanıqlaşdırmışdır. Bu yeni mərhələdə ənənəvi maliyyə xidmətləri təminatçılarının güclü mövqelərini qoruyub saxlaya bilməsi finteklərlə əməkdaşlıq etməsi və ya öz innovativ fintek təşəbbüslərini yaratması ilə mümkündür. Bu reallığı nəzərə almayan maliyyə institutlarının isə zamanla sistemdən kənarda qalacağı açıq görünür.

ƏDƏBİYYAT

1. Anagnostopoulos, I. (2018). Fintech and Regtech: Impact on regulators and banks. Journal of Economics and Business, 100, 7–25.
2. Arıcı, N. D. (2021). Dijital para kullanımı ve ekonomik etkileri. İçinde E. Kılınç ve N. Şahbaz Kılınç (Ed.), Ekonominin Güncel Konuları (ss. 129–150). Gazi Kitabevi.
3. Arner, D. W., Barberis, J., & Buckley, R. P. (2016). The evolution of FinTech: A new post-crisis paradigm? Georgetown Journal of International Law, 47(4), 1271–1319.
4. Boot, A., Hoffmann, P., Laeven, L., & Ratnovski, L. (2021). Fintech: What's old, what's new? Journal of Financial Stability, 53, 1–13.
5. Canbaz, M. F., & Erbaş, S. (2021). Katılım bankacılığında fintek eğilimleri ve sektöre katkıları. Finans Ekonomi ve Sosyal Araştırmalar Dergisi, 6(3), 477–489.
6. Chatzara, V. (2020). FinTech, InsurTech, and the regulators. In P. Marano & K. Noussia (Eds.), InsurTech: A Legal and Regulatory View (AIDA Europe Research Series on Insurance Law and Regulation, Vol. 1). Springer, Cham.
7. Chen, M. A., Wu, Q., & Yang, B. (2019). How valuable is FinTech innovation? Review of Financial Studies, 32(5), 2062–2106.
8. Chen, Y., & Bellavitis, C. (2020). Blockchain disruption and decentralized finance: The rise of decentralized business models. Journal of Business Venturing Insights, 13, 1–11.
9. Çağıl, G., & Candemir, G. (2019). Fintech as a new player in the banking sector. İçinde H. Yıldız & A. S. Aybar (Ed.), Research in Economics, Econometrics & Finance (ss. 249–256). IJOPEC Publication.
10. Çöllü, D., & Aslantürk. (2019). Finansal teknolojiler ve bankacılık sektörü. İçinde D. A. Çöllü (Ed.), Dijitalleşmenin Finans Dünyasına Yansımaları (ss. 91–124). Atlas Akademik Basım.
11. Deloitte. (2020). Fintech: On the Brink of Further Disruption. www.deloitte.com
12. Deloitte Insights. (2021). Fintech by the numbers: Incumbents, startups, and the future of financial services. Deloitte.
13. Gomber, P., Kauffman, R. J., Parker, C., & Weber, B. W. (2018). On the Fintech revolution: Interpreting the forces of innovation, disruption, and transformation in financial services. Journal of Management Information Systems, 35(1), 220–265.
14. KPMG. (2024). Türkiye fintech araştırması 2024: Fintech ve dijital finans.
15. Lee, I., & Shin, Y. J. (2018). Fintech: Ecosystem, business models, investment decisions, and challenges. Business Horizons, 61, 35–46.
16. Leong, K., & Sung, A. (2018). FinTech (financial technology): What is it and how to use technologies to create business value in fintech way? International Journal of Innovation, Management and Technology, 9(2), 74–78.
17. Mention, A.-L. (2021). The age of FinTech: Implications for research, policy and practice. The Journal of FinTech, 1(1), 1–25.
18. Milian, E. Z., Spinola, M. D. M., & Carvalho, M. M. D. (2019). Fintechs: A literature review and research agenda. Electronic Commerce Research and Applications, 34, 1–21.
19. Nicoletti, B. (2017). Fintech innovation: The future of FinTech. Springer International Publishing.
20. Ozili, P. K. (2021). Financial inclusion research around the world: A review. Forum for Social Economics, 50(4), 457–479.

21. Palmie, M., Wincent, J., Parida, V., & Caglar, U. (2020). The evolution of the financial technology ecosystem. Technological Forecasting & Social Change, 151, 1–10.
22. Philippon, T. (2015). Has the US finance industry become less efficient? American Economic Review, 105(4), 1408–1438.
23. Tao, R., Su, C., Naqvi, B., & Rizvi, S. K. A. (2022). Can fintech development pave the way for a transition towards low-carbon economy? Technological Forecasting & Social Change, 174, 1–7.
24. Thakor, A. V. (2020). Fintech and banking: What do we do? Journal of Financial Intermediation, 41, 1–13.
25. Yazıcı, S. (2022). Finansal teknolojiler: Fintech ve InsurTech dünyasına giriş. MediaCat Kitapları.
26. Yue, P., Korkmaz, A. G., Yin, Z., & Zhou, H. (2022). The rise of digital finance: Financial inclusion or debt trap? Finance Research Letters, 47, 1–8.
27. Zetzsche, D. A., Buckley, R. P., Arner, D. W., & Barberis, J. N. (2020). The future of data-driven finance and RegTech. European Business Organization Law Review, 21(1), 1–38.

ABSTRACT

FINTECH TRANSFORMATION IN DIGITAL FINANCIAL MARKETS: RISKS AND STRATEGIC OPPORTUNITIES

Mehriban İmanova, Khanim Mustafayeva

The accelerating transformation processes in digital financial markets have created a fundamental basis for the expansion of the FinTech ecosystem, the formation of new financial services, and the modernization of risk-management mechanisms. As a result of these changes, the automation of financial operations, the application of artificial intelligence-based analytical models, and the integration of blockchain technologies play a crucial role in gaining competitive advantage. However, cybersecurity threats, data-privacy risks, operational resilience challenges, and inadequacies in regulatory frameworks introduce new concerns within the digital environment. In contemporary conditions, risk management is no longer confined to traditional financial risks but also encompasses technological, strategic, and reputational risks. Therefore, the development of FinTech-based services requires adaptive regulatory models, risk-sensitive management structures, and a sustainable innovation environment. This article systematically analyzes the current directions of risk management in digital financial markets, the transformative opportunities of the sector, and the practical challenges encountered in implementation.

Keywords: *Digital finance, FinTech, risk management, cybersecurity, innovation, blockchain, regulation.*

РЕЗЮМЕ

ФИНТЕХ-ТРАНСФОРМАЦИЯ НА ЦИФРОВЫХ ФИНАНСОВЫХ РЫНКАХ: РИСКИ И СТРАТЕГИЧЕСКИЕ ВОЗМОЖНОСТИ

Мехрибан Иманова, Ханым Мустафаева

Ускоряющиеся процессы трансформации на цифровых финансовых рынках создают фундаментальную основу для расширения экосистемы FinTech, формирования новых финансовых услуг и модернизации механизмов управления рисками. В результате этих изменений автоматизация финансовых операций, применение аналитических моделей на основе искусственного интеллекта и интеграция блокчейн-технологий играют ключевую роль в обеспечении конкурентных преимуществ. Однако угрозы кибербезопасности, риски конфиденциальности данных, снижение операционной устойчивости и недостаточность нормативно-правовых рамок порождают новые вызовы в цифровой среде. В современных

условиях управление рисками уже не ограничивается традиционными финансовыми рисками, но включает также технологические, стратегические и репутационные риски. Поэтому развитие услуг на основе FinTech требует адаптивных регулирующих моделей, чувствительных к рискам управленческих структур и устойчивой инновационной среды. В статье системно анализируются актуальные направления управления рисками на цифровых финансовых рынках, трансформационные возможности сектора и практические сложности, возникающие при их реализации.

Ключевые слова: *цифровые финансы, финтех, управление рисками, кибербезопасность, инновации, блокчейн, регулирование.*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-11
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNUN HEYVANDARLIQ SAHƏSİ ÜZRƏ BİOENERJİ POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

Məhluqə YUSİFOVA, Şəms ƏLİZADƏ
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
Yazışılan müəllif: mehluqe_yusifli@mail.ru

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
Şərqi Zəngəzur, bioqaz, peyinin utilizasiyası, istixana qazları, enerji tutumu

XÜLASƏ
Müasir dünyanın qlobal ekoloji problemləri və mövcud enerji böhranı dünyada qazıntı yanacaqları əvəzinə bərpa olunan enerji mənbələrindən istifadə edilməsi zərurətinə gətirib çıxarmışdır. Hal-hazırda üzvi tullantılardan bioqaz istehsalı digər alternativ enerji mənbələri kimi diqqət mərkəzindədir. Məqalə Şərqi Zəngəzur iqtisadi rayonunun bioenerji potensialının qiymətləndirilməsinə həsr edilmişdir. Tədqiqat ərazisində heyvandarlıq tullantılarından bioqaz istehsalı potensialının qiymətləndirilməsi üçün Bioenerji və Ərzaq Təhlükəsizliyi metodologiyasından (BEFS) istifadə olunmuşdur. Tədqiqat nəticələrinə görə, Şərqi Zəngəzur iqtisadi rayonunda mal-qaranın ümumi sayı 390 min başdır, onlardan illik peyin istehsalı təxminən 236.951 ton təşkil edir ki, bunun da təqribən 130.000 tonu real bioqaz istehsalı üçün istifadə oluna bilər, Hesablamalara görə bu qədər peyin ildə 19,5 GVt/saat bioenerji istehsal edə bilər. Bu göstərici ümumilikdə ildə təxminən 6,8 GVt/saat elektrik enerjisi və 8,8 GVt/saat istilik enerjisinə bərabərdir. İqtisadi rayonda heyvandarlıq tullantılarının bioqaz istehsalına yönəldilməsi qlobal istiləşmə ilə mübarizədə effektiv vasitə olaraq, illik metan emissiyalarının ildə təxminən 54.700 ton CO_2 ekvivalenti azalmağına səbəb olacaq və Azərbaycanın Paris Sazişi üzrə öhdəliklərinin yerinə yetirilməsinə xidmət edəcəkdir.

GİRİŞ

Qloballaşma, beynəlxalq iqtisadi əlaqələrin genişlənməsi, həyat səviyyəsinin yüksəlməsi və dünya əhalisinin artması nəticəsində enerji təhlükəsizliyi problemləri daha da kəskinləşir. Mövcud karbohidrogen ehtiyatları hazırkı istehlak tələbatını ödəyə bilsə də, onların sürətlə tükənməsi yaxın 40–50 il ərzində qlobal enerji təhlükəsizliyi üçün potensial təhdid yaradır. Antropogen xarakterli ekoloji problemlər, xüsusilə də iqlim dəyişikliyindən irəli gələn təsirlər alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsinin vacibliyini daha da ön plana çıxarır. Bu kontekstdə günəş, külək və biokütlə kimi bərpa olunan enerji mənbələrindən enerji istehsalının texnoloji cəhətdən təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir (De Wit & Faaij, 2010).

Bərpa olunan enerji mənbələrindən istifadənin genişlənməsi və qlobal ekoloji problemlərin artması ölkələri kollektiv fəaliyyətə sövq edir. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi (IRENA) ölkələrə uyğun siyasətlərin hazırlanmasında, investisiyaların cəlb edilməsində və resurslardan səmərəli istifadə üçün praktik tövsiyələr verməklə bərpa olunan enerji sektorunun genişlənməsinə dəstək göstərir (https://content.govdelivery.com/accounts/USERE/bulletins/345078e).

Avropa Bioqaz Assosiasiyasının 2023-cü il məlumat bazasına görə, kənd təsərrüfatı sektoru Avropada bioqaz və biometan istehsalına əhəmiyyətli töhfə verir: bioqazın 67%-i və biometanın 64%-i kənd təsərrüfatı bitkilərindən əldə edilir (https://www.ieabioenergy.com/blog/publications/2021-country-reports/). Bu, peyin, bitki qalıqları və digər tullantılar kimi kənd təsərrüfatı xammalının əhəmiyyətli rolunu nümayiş etdirir. Bu yaxınlarda dərc edilmiş "Bioqaz 2040-cı il və ondan sonrakı dövrdə: İqlim Neytrallığına Realist və Davamlı Yol" adlı Guidehouse hesabatında 2040-cı ilə qədər bioqaz potensialının 82%-nin kənd təsərrüfatının verəcəyi təxmin edilir: 43%-i bitki qalıqlarından, 20%-i kənd təsərrüfatı qalıqlarından və 19%-i peyindən. Bu, kənd təsərrüfatı sektorunun və bərpa olunan qaz istehsalının davamlı inteqrasiyasını nümayiş etdirir (https://www.europeanbiogas.eu/news/turning-farm-waste-into-renewable-energy-the-alfa-story/).

Dünya ölkələrində biokütlədən enerji istehsalını təşviq etmək üçün dövlət–özəl tərəfdaşlığı (PPP) modellərindən geniş istifadə olunur. Bu tərəfdaşlıqlar əsasən elmi-tədqiqat, inkişaf və innovasiya sahələrində həyata keçirilir. Bundan əlavə, bir çox ölkədə subsidiyalar, qrantlar və dövlət tərəfindən təmin olunan enerji alışı razılaşmaları özəl sektor üçün mühüm dəstək mexanizmləri rolunu oynayır. Avropa İttifaqında "Horizon 2020" proqramı çərçivəsində Avropa Birliyi və Bioəsaslı Sənayelər Konsorsiumu tərəfindən Bioəsaslı Sənayelər üzrə Dövlət–Özəl Tərəfdaşlığı yaradılmışdır (https://www.etipbioenergy.eu/advanced-bioenergy/). 2014–2020-ci illər ərzində bu tərəfdaşlıq 975 milyon avro həcmində AB maliyyəsini (Horizon 2020) 2.7 milyard avro özəl sektor investisiyası ilə birləşdirərək ümumilikdə 3.7 milyard avroluq maliyyə paketinə çevirmişdir. Təşəbbüsün məqsədi yeni təchizat zəncirlərinin yaradılması, tədqiqat işlərinin aparılması, biozavodlarda emal səmərəliliyinin artırılması, bioəsaslı məhsullar üçün bazarların formalaşdırılması və müvafiq siyasət alətlərinin hazırlanması yolu ilə dayanıqlı biokütlə təchizatını təmin etmək olmuşdur (IRENA, 2022).

ABŞ-da Energetika Nazirliyi bioenerji texnologiyalarının inkişafını və kommersiyalaşdırılmasını Bioenerji Texnologiyaları Ofisi (BETO) vasitəsilə dəstəkləyir. BETO universitetlər və özəl şirkətlərlə əməkdaşlıq edərək bioyanacaq və bioməhsulların təkmilləşdirilməsi məqsədilə tədqiqat layihələrini, pilot zavodları və nümayiş layihələrini maliyyələşdirir (https://openei.org/wiki/Solar_and_Wind_Energy_Resource_Assessment_(SWERA).

Braziliyanın RenovaBio proqramı milli karbon hədəflərinin müəyyən edilməsi və CBIO adlı karbon kreditlərinin verilməsi yolu ilə bioyanacaq istehsalını təşviq etməyi hədəfləyir (https://greenfinancelac.org/resources/news/bndes-renovabio-finances-energy-and-environmental-efficiency-improvements-at-biofuel-plants-in-brazil). Bu təşəbbüs dövlət-özəl tərəfdaşlıqları vasitəsilə bioyanacaq üzrə milli tələblərin icrasına və istixana qazı emissiyalarının azaldılmasına dəstək verir. Bu dövrə qədər BNDES RenovaBio çərçivəsində 195 milyon ABŞ dolları həcmində maliyyə dəstəyi vermişdir (Ruiz et al., 2013).

Bioenerji sahəsində tətbiq olunan tədqiqat metodologiyalarını nəzərə alaraq Azərbaycanda bioenerji resurslarının qiymətləndirilməsi aşağıdakı istiqamətlər üzrə aparılır (https://www.area.gov.az/az/page/yasil-texnologiyalar/biokutle): Bitki qalıqları: Azərbaycanda illik kənd təsərrüfatı bitkilərinin (taxıl, qarğıdalı, pambıq və s.) becərilməsi zamanı yaranan bitki qalıqlarından biokütlə əldə etmək mümkündür. Bu qalıqlar biqaz istehsalı və ya bərk biokütlə yanacağı üçün istifadə edilə bilər. Meyvə və çərəz qalıqları: Fındıq və digər meyvəçilik rayonlarında yaranan meyvə qalıqları, xüsusilə fındıq qabıqları enerji istehsalı və ya yanacaq briketləri üçün xammal kimi istifadə oluna bilər. Heyvan tullantıları: Peyin anaerob parçalanma prosesi vasitəsilə biqaz istehsalının əsas mənbələrindən biridir. Alınan biqaz elektrik və istilik enerjisi istehsalında istifadə edilə bilər. Meşə qalıqları: Meşə təsərrüfatı fəaliyyətlərində yaranan budanmış və kəsilmiş ağac hissələri bioenerji istehsalı üçün potensial xammal hesab olunur. Məişət çirkab suları: Məişət çirkab sularının səmərəli təmizlənməsi və enerji istehsalında istifadəsi müasir təmizləmə texnologiyalarının tətbiqini tələb edir. Bu proses həm tullantıların idarə olunmasında, həm də enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Bərk məişət tullantıları: Beynəlxalq təcrübədə bərk məişət tullantıları yalnız çeşidləmə infrastrukturu mövcud olduqda bioenerji üçün xammal sayılır (BOEMDA_ATM_Hesabat_Bioenerji potensialının qiymətləndirilməsi.pdf).

TƏCRÜBİ HİSSƏ

Bioqaz istehsal potensialının qiymətləndirilməsi üçün ən etibarlı və geniş tətbiq olunan metodologiya Bioenerji və Ərzaq Təhlükəsizliyi metodologiyasıdır. Bizim tədqiqatlarımızda da BEFS metodologiyasından istifadə olunur. BEFS yanaşmasına görə, yüksək enerji çevrilmə əmsalına malik olduğuna görə, peyin heyvandarlıq sektorundan alınan bioenerjinin əsas xammal mənbəyi hesab edilir (https://www.umass.edu/agriculture-food-environment/crops-dairy-livestock-equine/fact-sheets/manure-inventory). Metodologiya heyvandarlıq qalıqlarından bioenerji potensialının qiymətləndirilməsini şərti olaraq aşağıdakı mərhələlərə ayırır:

- Heyvanların sayının və heyvandarlıq təsərrüfatlarının ölçüsünün müəyyən edilməsi,
- Peyin istehsalı potensialının hesablanması,

- Təsərrüfatlarda yaranan peyin miqdarının qiymətləndirilməsi,
- Toplana bilən peyin miqdarının müəyyən edilməsi,
- Bioqaz istehsalı üçün istifadə oluna biləcək peyin miqdarının müəyyən edilməsi,
- Bioqaz istehsalı potensialının hesablanması,
- Bioenerji istehsalı potensialının hesablanması (ESMAP, 2020).

Bioqaz istehsalı üçün əlçatan peyin miqdarının qiymətləndirilməsi zamanı təsərrüfatlarda peyindən müxtəlif məqsədlər üçün istifadə edilməsi və peyinin toplanması səmərəliliyi kimi amillər də nəzərə alınır.

Qiymətləndirmə məqsədilə heyvanların sayını və heyvandarlıq təsərrüfatlarının ölçüsünü müəyyən etmək üçün istifadə olunan məlumatların əhatə dairəsi Cədvəl 1-də verilir (https://www.scielo.br/j/eagri/a/z8TkLPmKtJcVk3gHGvGdn4r/).

Cədvəl 1

Heyvandarlıq qalıqlarının təhlili üçün istifadə olunan məlumatların əhatə dairəsi

Heyvandarlıq fəaliyyəti	İstehsal tipi	Qeyd
İribuynuzlu heyvan saxlanması	Məişət və kommersiya	Heyvanların sayı üzrə Dövlət Statistika Komitəsinin məlumatları əsas götürülmüşdür. Eyni zamanda Kənd Təsərrüfatı Nazirliyinin baytarlıq peyvəndi zamanı topladığı məlumatlara əsasən təsərrüfatların orta ölçüsü müəyyən edilmişdir. Mütəxəssis rəyləri nəzərə alınmaqla bir başdan çox iribuynuzlu heyvanı olan təsərrüfatlar kommersiya kateqoriyasına daxil edilmişdir.
Yumurtalıq quşçuluğu	Kommersiya	Məlumatlar kommersiya məqsədli quşçuluq təsərrüfatlarının göstəricilərinə əsaslanır. 90-dan çox quşu olan təsərrüfatlar kommersiya istehsalı hesab olunur. Bioenerji istehsalı üçün yalnız xammal kimi yararlı peyin nəzərə alınır, kiçik həcmli məişət quşçuluğu daxil edilmir.
Donuzçuluq	Məişət və kommersiya	Dövlət Statistika Komitəsinin məişət və kommersiya təsərrüfatlarında mövcud heyvan sayı üzrə məlumatları əsas götürülmüşdür. On başdan çox donuzu olan təsərrüfatlar kommersiya istehsalı kateqoriyasına daxil edilir.

İllik ümumi peyin istehsalının hesablanması qiymətləndirməyə daxil edilən heyvan növlərinin sayı və onların orta sutkalıq peyin istehsalı göstəricilərinə əsaslanır:

$$M_{ton\,(i)} = LVS_{baş\,(i)} \times M_{baş\,(i)}$$

Burada:

- $M_{ton}(i)$ - qiymətləndirmə ərazisində ildə istehsal olunan ümumi peyin miqdarı;
- $LVS_{baş}(i)$ - heyvanların orta illik sayı;
- $M_{baş}(i)$ - bir heyvan üzrə illik peyin istehsalı;
- (i) - təhlil edilən heyvandarlıq sektoru, yəni:
- kommersiya və ya məişət təsərrüfatlarında iribuynuzlu heyvan saxlanması;
- kommersiya əsaslı quşçuluq təsərrüfatları;
- kommersiya və ya məişət təsərrüfatlarında donuzçuluq.

Müxtəlif heyvandarlıq fəaliyyətləri üzrə orta sutkalıq peyin istehsalı göstəriciləri aşağıda təqdim olunur (Yang et al., 2021) (Cədvəl 2).

Cədvəl 2

Heyvandarlıq fəaliyyəti növünə görə orta sutkalıq peyin istehsalı

Heyvandarlıq fəaliyyəti növü	Sutkalıq peyin istehsalı (kq/baş/gün)
İribuynuzlu heyvan saxlanması	21.13
Yumurtalıq quşçuluğu	0.04

Donuzçuluq	1.27

Peyin istehsalının hesablanması iribuynuzlu heyvan saxlanması, yumurtalıq quşçuluğu və donuzçuluq üzrə ayrıca aparılmışdır. Hesablamalarda qiymətləndirməyə daxil edilən heyvanların sayı, bir heyvan üzrə sutkalıq peyin istehsalı və heyvandarlıq fəaliyyətinin xüsusiyyətlərindən asılı olaraq peyinin toplanma səmərəliliyi nəzərə alınmışdır (Cədvəl 3).

Cədvəl 3

Heyvandarlıq fəaliyyətinə və istehsal xarakteristikasına görə peyinin toplanma səmərəliliyi

Heyvandarlıq fəaliyyəti	Məişət təsərrüfatları	Kommersiya təsərrüfatları
İribuynuzlu heyvan saxlanması	80%	90%
Donuzçuluq	60%	90%
Yumurtalıq quşçuluğu	–	90%

Potensialın qiymətləndirilməsinin növbəti mərhələsində biokütlənin (xammalın) bioqaza çevrilmə səmərəliliyinə əsasən istehsal edilə biləcək bioqazın həcmi müəyyənləşdirilir. Müxtəlif növ biokütlələr üzrə bioqaz çıxımı Cədvəl 4-də göstərilmişdir.

Cədvəl 4

Müxtəlif biokütlə növlərinin bioqaz çıxımı

Bioqaz xammalı növü	Biokütlə miqdarı	Bioqaz çıxım əmsalı
Maye peyin (iribuynuzlu heyvanlar)	1 m^3	25 m^3
Maye peyin (donuzlar)	1 m^3	30 m^3
Quşçuluq peyini	1 m^3	40 m^3

Bioenerji xammalının əsas xüsusiyyəti onun enerji çevrilmə potensialıdır. Enerji tutumu baxımından hər bir xammal növü karbon, hidrogen, oksigen, azot və kükürdün xüsusi kimyəvi tərkibinə malikdir. Bundan əlavə, rütubət, sabit karbon və uçucu karbon kimi amillər bu enerjinin nə dərəcədə asan sərbəst buraxıldığını müəyyən edir.

ƏLDƏ EDİLƏN NƏTİCƏLƏR

Dövlət Statistika Komitəsinin 1 yanvar 2024-cü il məlumatına görə, Azərbaycanın "yaşıl enerji" zonalarında iribuynuzlu heyvanların ümumi sayı 465 min baş, donuzların sayı 690 baş, quşların sayı isə 2.5 milyon baş təşkil etmişdir. Fermaların ölçüsünü, sürüdə mal-qaranın sayını və otlaqların vəziyyətini nəzərə alınmaqla aparılan hesablamalara əsasən, bu heyvanların yalnız bir hissəsinin peyini bioenerji istehsalında xammal kimi istifadə oluna bilər. Belə ki, 465 min baş iribuynuzlu heyvandan yalnız 267 min başının peyini bioenerji üçün yararlı hesab edilmişdir. Onların 79 min başı tam tövlə şəraitində, 218 min başı isə qarışıq şəraitində (həm tövlələrdə, həm də otlaqlarda) saxlanılır (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2024) (Cədvəl 5-7.).

Cədvəl 5

Bioenerji xammalı hesab edilən iri gövşəyən heyvanların sayı (baş)

İqtisadi rayon	İri gövşəyən heyvanların ümumi sayı (baş)	sayı 10 başdan çox olan fermalardakı heyvanlar	onlardan: otarılmayan (tam tövlədə saxlanılan)	onlardan: tövlə/hibrid şəraitdə saxlanılan (tövlə–otlaq)
Naxçıvan	60,283	33,809	9,007	24,803
Qarabağ	307,590	207,125	55,178	151,948

Şərqi Zəngəzur	97,024	55,817	14,870	40,947
"Yaşıl enerji" zonası (ümumi)	464,897	296,751	79,055	217,698

Cədvəl 6

Şərqi Zəngəzur iqtisadi rayonunda mal-qaranın sayı

Kateqoriya	Heyvanların sayı (baş)
İri mal-qara (iri gövşəyənlər)	97,024
Donuzlar	50
Quşlar	292,981
Cəmi	390,055

Cədvəl 7

İllik peyin istehsalı (BEFS əmsalından istifadə etməklə)

Kateqoriya	Heyvanların sayı	Peyin əmsalı (ton/baş/il)	İllik Peyin İstehsalı (ton/il)
İri mal-qara	97,024	2.2	213,453
Donuzlar	50	1.2	60
Quşlar	292,981	0.08	23,438
Cəmi	390,055	–	236,951

Hesablamalar

1. Texniki peyin potensialı:

Texniki potensial (bioqaza yönləndirilə bilən real peyin həcmi):

$$\text{Peyin}_{mal-qara} = 97{,}024 \times 2.2 = 213{,}452.8 \approx 213{,}453 \text{ ton/il}$$

$$\text{Peyin}_{donuz} = 50 \times 1.2 = 60 \text{ ton/il}$$

$$\text{Peyin}_{quşçuluq} = 292{,}981 \times 0.08 = 23{,}438.48 \approx 23{,}438 \text{ ton/il}$$

$$\text{Ümumi peyin} = 213{,}452.8 + 60 + 23{,}438.48 \approx 236{,}951 \text{ ton/il}$$

$$M_{\text{texniki}} = 236{,}951 \text{ ton/il}$$

Bu, Şərqi Zəngəzur iqtisadi rayonu üzrə birbaşa bioqaz istehsalına yönəldilə biləcək peyinin miqdarıdır.

Toplana bilən peyin:

Təxmini peyin toplama səmərəliliyi = 55%.

"Toplana bilən peyin"=236,951×0.55≈130,323 ton/il.

2. Bioqaz istehsalının hesablanması

Peyinin sıxlığı orta hesabla 1 ton ≈ 1 m³ qəbul edilir.

İribuynuzlu heyvan peyini üçün bioqaz çıxım əmsalı:

$$Y_{\text{bioqaz}} = 25 \text{ m}^3/\text{m}^3$$

İllik bioqaz həcmi:

$$\text{Bioqaz} = 130{,}323 \times 25 \approx 3{,}258{,}080 \text{ m}^3/\text{il}$$

Şərqi Zəngəzur iqtisadi rayonu üzrə illik bioqaz potensialı təxminən 3.26 milyon m³/il təşkil edir.

3. Enerji potensialının hesablanması

1 m³ bioqaz ≈ 6 kVtsaat enerji verir:

$$\text{Enerji} = 3{,}258{,}080 \times 6 \approx 19{,}548{,}481 \text{ kVt/il}$$

$$\text{Enerji} = \frac{19{,}548{,}481}{10^6} \approx 19.55 \text{ GVt/il}$$

Şərqi Zəngəzur iqtisadi rayonu üzrə bioqazdan əldə edilən enerji ildə təqribən 20 GVt-a bərabərdir.

4. İstixana qazlarının emissiyasının azaldılması:

- 1 m^3 bioqaz → 0.6 m^3 CH_4
- 1 m^3 CH_4 ≈ 1 kq CH_4 = 0.001 ton CH_4
- Qlobal İstiləşmə Potensialı ($QİP_{100}$) CH_4 = 28 tCO_2-ekv / tCH_4

$$CH_4 \text{ (ton/il)} = 3{,}258{,}080 \times 0.6 \div 1000 \approx \frac{1{,}955 \text{ ton } CH_4}{\text{il}}$$

$$CO_2\text{-ekv} = 1{,}955 \times 28 \approx 54{,}736 \text{ ton } CO_2\text{-ekv/il}$$

Şərqi Zəngəzur iqtisadi rayonu üzrə peyindən bioqaz istehsalı regionda istixana qazlarının ildə təxminən 54.736 ton CO_2 ekvivalenti azalmağına səbəb olacaqdır.

NƏTİCƏ

2024-cü il üçün kənd təsərrüfatı üzrə rəsmi statistikaya görə, Şərqi Zəngəzur iqtisadi rayonunda iri gövşəyən heyvanların ümumi sayı 97.024 baş olmuşdur. BEFS metodologiyasının tətbiqi ilə aparılmış hesablamalara əsasən, iqtisadi rayon üzrə illik peyin istehsalı təxminən 236.951 ton təşkil edir ki, bunun da təqribən 130.000 tonu səmərəli peyin utilizasiyası tətbiq etməklə toplana bilər. Bu miqdarda xammalın bioqaza çevrilməsi illik 3,26 milyon m^3 istehsal potensialı təmin edir ki, bu da təxminən 19,5 GVt/saat bioenerjiyə bərabərdir. Texniki cəhətdən əldə edilən enerji ildə təxminən 6,8 GVt/saat elektrik enerjisi və 8,8 GVt/saat istilik enerjisinə bərabərdir. Ekoloji səmərəlilik nöqteyi-nəzərindən, anaerob şəraitdə peyinin nəzarətsiz parçalanmasından atmosferə atılan metan qazının və QİP - qlobal istiləşmə potensialı əmsalının azalması səbəbindən istixana qazı tullantılarının ildə təxminən 54.700 ton CO_2 ekvivalenti azalacağı təxmin edilir. Ümumilikdə, əldə olunan nəticələr göstərir ki, kənd təsərrüfatı tullantıları Şərqi Zəngəzur iqtisadi rayonunda mühüm bərpa olunan enerji mənbəyidir, regionun yaşıl enerjiyə keçidinə və iqlim dəyişikliyinin azaldılmasına əhəmiyyətli töhfə verə bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2024).
2. BOEMDA_ATM_Hesabat_Bioenerji potensialının qiymətləndirilməsi.pdf. 2024
3. De Wit, M. & Faaij, A. (2010). European biomass resource potential and costs. Biomass and Bioenergy, 34(2), 188- 202. doi:10.1016/j.biombioe.2009.07.011.
4. ESMAP. (2020). Global Photovoltaic Power Potential by Country. Washington, DC: World Bank
5. IRENA. (2022). REmap 2030 Full Report. https://www.irena.org/publications/2014/Jun/REmap-2030-Full-Report.
6. Omar, E., Haitham, A., Frede, B. (2014). Renewable energy resources: Current status, future prospects and their enabling technology. Renewable and Sustainable Energy Reviews, 39, 748–764. doi:10.1016/j.rser.2014.07.113
7. Ruiz, J.A.; Juárez, M.C.; Morales, M.P.; Muñoz, P.; Mendívil, M.A. (2013). Biomass gasification for electricity generation: Review of current technology barriers. Renewable and Sustainable Energy Reviews, 18, 174-183. doi:10.1016/j.rser.2012.10.021
8. Yang, X., Liu, Y., Thrän, D., Bezama, A., & Wang, M. (2021). Effects of the German Renewable Energy Sources Act and environmental, social and economic factors on biogas plant adoption and agricultural land use change. Energy, Sustainability and Society, 11, 1-22.
9. https://content.govdelivery.com/accounts/USEERE/bulletins/345078e.
10. https://greenfinancelac.org/resources/news/bndes-renovabio-finances-energy-and-environmental-efficiency-improvements-at-biofuel-plants-in-brazil.
11. https://openei.org/wiki/Solar_and_Wind_Energy_Resource_Assessment_(SWERA).

12. https://www.etipbioenergy.eu/advanced-bioenergy/
13. https://www.ieabioenergy.com/blog/publications/2021-country-reports/.
14. https://www.scielo.br/j/eagri/a/z8TkLPmKtJcVk3gHGvGdn4r/.
15. https://www.europeanbiogas.eu/news/turning-farm-waste-into-renewable-energy-the-alfa-story/
16. https://www.umass.edu/agriculture-food-environment/crops-dairy-livestock-equine/fact-sheets/manure-inventory
17. https://www.area.gov.az/az/page/yasil-texnologiyalar/biokutle

ABSTRACT

ASSESSMENT OF THE BIOENERGETIC POTENTIAL OF THE LIVESTOCK SECTOR IN THE EASTERN ZANGEZUR ECONOMIC REGION

Mahluga Yusifova, Shams Alizade

Global environmental challenges and the current energy crisis have necessitated the transition from fossil fuels to renewable energy sources. In this context, biogas production from organic waste is gaining attention as an alternative energy source. This article focuses on assessing the bioenergetic potential of the Eastern Zangezur economic region. The "Bioenergy and Food Security" (BEFS) methodology was used to evaluate the biogas production potential from livestock waste in the study area. According to the results, the total livestock population in the Eastern Zangezur region is 390 thousand heads, producing approximately 236,951 tons of manure annually, of which nearly 130,000 tons can be used for actual biogas production. Calculations show that this amount of manure can generate 19.5 GWh of bioenergy per year. This is equivalent to about 6.8 GWh of electricity and 8.8 GWh of thermal energy annually. The conversion of livestock waste into biogas in the economic region can be an effective tool in combating global warming by reducing annual methane emissions by approximately 54,700 tons of CO_2-equivalent, thereby contributing to Azerbaijan's commitments under the Paris Agreement.

Keywords: *Eastern Zangezur, biogas, manure utilization, greenhouse gases, energy capacity*

РЕЗЮМЕ

ОЦЕНКА БИОЭНЕРГЕТИЧЕСКОГО ПОТЕНЦИАЛА ЖИВОТНОВОДЧЕСКОГО СЕКТОРА ВОСТОЧНО- ЗАНГЕЗУРСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА

Махлуга Юсифова, Шамс Ализаде

Глобальные экологические проблемы современного мира и нынешний энергетический кризис привели к необходимости использования возобновляемых источников энергии вместо ископаемого топлива. В этом процессе производство биогаза из органических отходов находится в центре внимания как еще один альтернативный источник энергии. Статья посвящена оценке биоэнергетического потенциала Восточно-Зангезурского экономического района. Для оценки потенциала производства биогаза из отходов животноводства в исследуемом районе использовалась методология «Биоэнергетика и продовольственная безопасность» (BEFS). По результатам исследования, общее поголовье скота в Восточно-Зангезурском экономическом районе составляет 390 тысяч голов, ежегодное производство навоза из них составляет приблизительно 236 951 тонну, из которых приблизительно 130 000 тонн могут быть использованы для реального производства биогаза. Согласно расчетам, такое количество навоза может производить 19,5 ГВт·ч биоэнергии в год. Этот показатель

эквивалентен примерно 6,8 ГВт·ч электроэнергии и 8,8 ГВт·ч тепловой энергии в год. Переработка отходов животноводства в биогаз в экономическом районе станет эффективным инструментом в борьбе с глобальным потеплением, сократив ежегодные выбросы метана примерно на 54 700 тонн эквивалента CO_2 в год и послужит выполнению обязательств Азербайджана по Парижскому соглашению.

Ключевые слова: *Восточный Зангезур, биогаз, утилизация навоза, парниковые газы, энергоемкость*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-12
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

MÜASİR İQTİSADİYYATDA RƏQƏMSAL MÜHASİBAT UÇOTUNUN ROLU VƏ ƏHƏMİYYƏTİ

Elxan BODUROV
Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif: e05644254@gmail.com*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
Rəqəmsal mühasibat uçotu, e-mühasibat, rəqəmsal transformasiya, elektron imza, elektron vergi sistemi, insan kapitalı.

XÜLASƏ
Məqalədə müasir iqtisadiyyat şəraitində rəqəmsal mühasibat uçotunun rolu və əhəmiyyəti araşdırılmış, Azərbaycanda rəqəmsal mühasibat uçotunun formalaşma mexanizmləri, mövcud vəziyyəti və inkişaf perspektivləri elmi baxımdan təhlil edilmişdir. Tədqiqatda əsaslandırılır ki, rəqəmsal mühasibat uçotu yalnız texnoloji alətlərin tətbiqi ilə məhdudlaşmır, hüquqi-institusional baza, texnoloji platformalar, hüquqi etibarlılıq mexanizmləri (elektron imza və rəqəmsal identifikasiya) və insan kapitalının sinxron fəaliyyəti nəticəsində formalaşan vahid idarəetmə sistemi kimi çıxış edir.
Tədqiqatın metodoloji əsasını normativ-hüquqi sənədlərin təhlili, beynəlxalq elmi ədəbiyyatın tematik və semantik analizi, deskriptiv statistik metodlar və konseptual modelləşdirmə təşkil edir. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu və ona edilmiş dəyişikliklər, Prezident fərmanları, Dövlət Vergi Xidmətinin normativ sənədləri, Dövlət Statistika Komitəsinin və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin statistik məlumatları tədqiqatın əsas informasiya bazasını formalaşdırmışdır.
Tədqiqat nəticəsində "Azərbaycanda rəqəmsal mühasibat uçotu ekosistemi" konseptual modeli işlənilmiş və rəqəmsal mühasibat uçotunun hüquqi mühit, texnoloji infrastruktur, elektron imza və identifikasiya mexanizmləri, eləcə də insan kapitalı arasında qarşılıqlı asılılıq əsasında fəaliyyət göstərən inteqrasiya olunmuş sistem olduğu göstərilmişdir. Müəyyən edilmişdir ki, e-invoice, e-tax, ERP sistemləri, Asan İmza və SİMA platformaları rəqəmsal mühasibat uçotunun operativliyini, şəffaflığını və hüquqi etibarlılığını əhəmiyyətli dərəcədə artırır.
Eyni zamanda, tədqiqat rəqəmsal mühasibat uçotunun tətbiqində mövcud olan əsas problemləri-kibertəhlükəsizlik risklərini, məlumat məxfiliyinin qorunması zərurətini, texnoloji asılılığı və mühasibat kadrlarının rəqəmsal bacarıqlarının inkişaf etdirilməsinə olan ehtiyacı da üzə çıxarmışdır.
Nəticə etibarilə, məqalədə sübut edilir ki, rəqəmsal mühasibat uçotu Azərbaycanda təkcə texniki modernləşmə prosesi deyil, maliyyə idarəetməsinin səmərəliliyini artıran, şəffaflığı gücləndirən və rəqəmsal iqtisadiyyatın institusional əsaslarını möhkəmləndirən strateji transformasiya mexanizmidir.

GİRİŞ

Son dövrlərdə iqtisadiyyatda rəqəmsallaşma meyllərinin artması biznes və informasiya mühitini olduqca sürətli şəkildə transformasiya etmişdir. Bu da öz növbəsinə mühasibat uçotu nəzəriyyəsinin fundamental dəyişikliklərini zəruriləşdirdi. Rəqəmsallaşma ilə birlikdə gələn dəyişikliləra uyğunlaşmaq üçün mühasibat uçotunun nəzəri və metodoloji baxışları inkişaf etməli oldu (Kupenova və b., 2020). Nəticədə ənənəvi mühasibat uçotu mexanizmləri mərhələli şəkildə elektron platformalarla əvəz olundu, məlumatların toplanması, emalı və ötürülməsi real vaxt rejiminə yaxınlaşdırılıldı (Deshmukh, 2006).

Rəqəmsallaşma müasir mühasibat uçotu və audit sistemlərinin səmərəliliyinin artırılmasında əsas strateji amillərdən biridir. Rəqəmsal texnologiyaların tətbiqi maliyyə məlumatlarının avtomatlaşdırılmış şəkildə toplanmasını, emalını və təhlükəsiz saxlanılmasını təmin etməklə, hesabatların şəffaflığını və etibarlılığını yüksəldir. Bu yanaşma mühasibat uçotunu yalnız texniki qeydiyyat funksiyasından çıxararaq, operativ qərarverməni dəstəkləyən və idarəetmə proseslərini gücləndirən strateji informasiya sisteminə çevirir (audit.gov.az). Elektron qaimə-fakturalar (e-invoice), elektron vergi sistemləri (e-tax), elektron imza mexanizmləri (e-signature), ERP sistemləri və bulud texnologiyaları mühasibat uçotunu təşkilatın digər funksional sahələri ilə vahid informasiya

mühitində birləşdirir (e-tax.gov.az). Bu isə maliyyə idarəetməsində çevikliyi, nəzarət imkanlarını və analitik potensialı gücləndirir.

Azərbaycanda rəqəmsallaşma dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri kimi formalaşmışdır. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Rəqəmsal inkişaf konsepsiyası" və "Mühasibat uçotu haqqında" Qanuna edilmiş dəyişikliklər mühasibat uçotunun elektron formada aparılmasını normativ hüquqi müstəvidə təsbit edir. Xüsusilə e-accounting informasiya sisteminin yaradılması, e-tax platformaları, e-invoice mexanizmləri, "Asan İmza", "Sima İmza" və "Sima Token" kimi rəqəmsal identifikasiya vasitələrinin tətbiqi mühasibat uçotunun hüquqi, texnoloji və institusional əsaslarını gücləndirir. Bu yanaşma rəqəmsal mühasibat uçotunu könüllü innovasiya səviyyəsindən çıxararaq dövlət tərəfindən tənzimlənən sistemli mexanizmə çevirir (İnnovasiyalar Mərkəzi).

Eyni zamanda, müasir informasiya texnologiyalarının tətbiqi mühasibat uçotu proseslərində avtomatlaşdırmanı genişləndirərək məlumat mübadiləsinin operativliyini və dəqiqliyini təmin edir. Elektron sistemlər arasında inteqrasiya imkanları ənənəvi üsullarla toplanmış məlumatların və ya müxtəlif elektron mənbələrdən əldə olunan hesab-fakturaların əl ilə sistemə daxil edilməsi ehtiyacını minimuma endirir. Nəticədə, mühasiblərin texniki əməliyyatlara sərf etdiyi vaxt azalır, onların diqqəti daha çox analitik təhlilə, qərarların dəstəklənməsinə və maliyyə idarəetməsinin səmərəliliyinin artırılmasına yönəlir. Rəqəmsallaşma mühasibat prosedurlarını sadəcə sürətləndirmir, eyni zamanda mühasibat funksiyalarını təşkilatın digər prosesləri (satınalma, logistika, HR, satış və s.) ilə inteqrasiya etməklə maliyyə idarəetməsində dəqiqlik **və** effektivliyi artırır (Prasetianingrum & Sonjaya, 2024). Bu isə mühasibat uçotunun rəqəmsallaşmasının həm əməliyyat, həm də strateji səviyyədə təşkilatların fəaliyyətinə müsbət təsir göstərdiyini nümayiş etdirir (Gulin və b.,2019).

İnformasiya texnologiyalarının sürətli inkişafı peşəkar mühasibin rolunu mahiyyət etibarilə dəyişmiş və bu peşəni daha çox analitik, strateji və idarəetmə yönümlü fəaliyyət sahəsinə çevirmişdir. Müasir dövrdə mühasib yalnız maliyyə məlumatlarının uçotunu aparan icraçı şəxs deyil, eyni zamanda mühasibat informasiya sistemlərinin formalaşdırılmasında, idarə olunmasında və davamlı təkmilləşdirilməsində fəal iştirak edən əsas subyektlərdən biri kimi çıxış edir. Bu baxımdan, mühasibatlıq peşəsinin davamlı inkişafı informasiya texnologiyalarını dərindən mənimsəyən, rəqəmsal bacarıqlara malik olan və peşəkar biliklərini daimi yeniləyən mütəxəssislərin hazırlanmasını zəruri edir (Gulin və b.,2019).

Cədvəl 1

İnternet və Elektron Ticarətin Biznes Proseslərinə və Mühasibat Uçotuna Təsiri

Subyekt / Funksiya sahəsi	İnternet və e-ticarətin təsir istiqamətləri	Mühasibat uçotuna təsiri
Müştəri	CRM sistemləri Tələb proqnozlaşdırılması Sifarişlərin elektron idarə olunması Onlayn satış platformaları	Satış gəlirlərinin avtomatik uçotu Debitor borclarının real vaxt rejimində izlənməsi Müştəri əməliyyatlarının şəffaf və dəqiq qeydiyyatı
Müəssisə (Daxili proseslər)	Mühasibatlıq və maliyyə sistemləri Yekun maliyyə hesabatlarının elektron hazırlanması Daxili nəzarət və audit sistemləri Xərclərin uçotunun avtomatlaşdırılması	Elektron mühasibat uçotu Avtomatlaşdırılmış maliyyə hesabatları Daxili audit proseslərinin rəqəmsallaşdırılması Operativ və etibarlı məlumat axını
Təchizatçı	İstehsalın planlaşdırılması sistemləri Material ehtiyatlarının elektron idarə olunması Nəqliyyat və paylama sistemləri	Kredit borclarının avtomatik uçotu Anbar və ehtiyatların dəqiq uçotu Satınalma əməliyyatlarının inteqrasiya olunmuş uçotu

Mənbə: Deshmukh, 2006, s. 45 (əsasında müəllif tərəfindən tərtib edilmişdir)

İnternet və elektron ticarət biznes subyektləri arasında əlaqələri köklü şəkildə dəyişdirmiş və mühasibat uçotunun bütün mərhələlərinə birbaşa təsir göstərmişdir. Şəkil 1-də göstərildiyi kimi, müştəri, müəssisə və təchizatçı arasında qurulan rəqəmsal əlaqələr mühasibat məlumatlarının real vaxt rejimində toplanmasını, emalını və təhlilini mümkün etmişdir. Bu isə mühasibat uçotunu ənənəvi qeydetmə funksiyasından çıxararaq, idarəetməni dəstəkləyən strateji informasiya sisteminə çevirmişdir.

Məqalənin məqsədi rəqəmsallaşmanın mühasibat uçotu funksiyalarına təsiri, Azərbaycanda rəqəmsal mühasibat uçotunun formalaşmasının və cari vəziyyətinin təhlili və yaranan perspektivləri təhlil otməkdir. Ədəbiyyatda rəqəmsal mühasibat uçotu əsasən texnoloji və peşəkar transformasiya aspektindən öyrənilmişdir, lakin onun hüquqi-institusional baza, elektron identifikasiya mexanizmləri və insan kapitalı ilə birlikdə vahid "ekosistem" kimi modelləşdirilməsi xüsusilə Azərbaycan kontekstində sistemli şəkildə aparılmamışdır.

Bu baxımdan, məqalənin əsas elmi yeniliyi Azərbaycanda rəqəmsal mühasibat uçotunun ilk dəfə "ekosistem modeli" kimi konseptuallaşdırılmasıdır. Təklif olunan model rəqəmsal mühasibat uçotunu ayrı-ayrı texnoloji tətbiqlər məcmusu deyil, qarşılıqlı asılılıq əsasında fəaliyyət göstərən vahid institusional-texnoloji idarəetmə sistemi kimi izah edir.

METODOLOGİYA

Bu tədqiqatda rəqəmsal mühasibat uçotunun nəzəri əsasları, hüquqi-institusional mexanizmləri və Azərbaycanda tətbiqinin cari vəziyyəti kompleks elmi yanaşma əsasında araşdırılmışdır. Tədqiqat keyfiyyət yönümlü sənəd və mətn analizi ilə deskriptiv statistik təhlilin vəhdətinə əsaslanır. Metodoloji baxımdan iş üç əsas istiqamət üzrə qurulmuşdur:

1. rəqəmsal mühasibat uçotunun hüquqi və institusional bazasının təhlili,
2. beynəlxalq elmi ədəbiyyat əsasında konseptual və tematik ümumiləşdirmə,
3. rəqəmsallaşmanın ümumi vəziyyətinin statistik göstəricilər əsasında qiymətləndirilməsi.

Tədqiqatda aşağıdakı metodlardan istifadə edilmişdir:

Normativ-hüquqi sənədlərin təhlili metodu

Bu metod vasitəsilə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliklər, Prezident fərmanları, Dövlət Vergi Xidmətinin normativ sənədləri, e-Taxes portalına dair qaydalar və e-mühasibat sisteminin yaradılmasına dair hüquqi aktlar araşdırılmışdır. Məqsəd rəqəmsal mühasibat uçotunun Azərbaycanda hüquqi və institusional əsaslarını müəyyən etmək, onun dövlət tərəfindən tənzimlənən sistem kimi formalaşma xüsusiyyətlərini elmi baxımdan əsaslandırmaq olmuşdur.

Ədəbiyyat icmalı və tematik təhlil metodu

Beynəlxalq elmi mənbələr (Kupenova və b., 2020; Deshmukh, 2006; Gulin və b., 2019; Prasetianingrum & Sonjaya, 2024; Badria & Hasanah, 2024 və s.) əsasında rəqəmsal mühasibat uçotunun yenilikləri, üstünlükləri, tətbiq sahələri və yaratdığı problemlər tematik təhlil metodu ilə sistemləşdirilmişdir. Bu yanaşma nəticəsində rəqəmsal mühasibat uçotunun əsas tematik blokları – texnoloji infrastruktur, hüquqi etibarlılıq, məlumat təhlükəsizliyi, insan kapitalı, mühasibat peşəsinin transformasiyası və idarəetmədə rolu müəyyən edilmişdir.

Deskriptiv statistik təhlil metodu

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin "Azərbaycanda rəqəmsal inkişaf – 2025" hesabatı və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin statistik məlumatları əsasında ölkədə internetdən istifadə səviyyəsi, rəqəmsal infrastrukturun inkişafı, müəssisələrdə İKT-dən istifadə imkanları qiymətləndirilmişdir. Statistik məlumatlar kəmiyyət modelləşdirməsi deyil, deskriptiv yanaşma ilə, yəni faizlər, nisbətlər və ümumi meyllər əsasında şərh olunmuşdur. Bu yanaşma rəqəmsal mühasibat uçotunun tətbiqi üçün sosial-texnoloji bazanın yetkinlik səviyyəsini əsaslandırmağa xidmət etmişdir.

Konseptual modelləşdirmə metodu

Məqalədə təqdim olunan "Azərbaycanda rəqəmsal mühasibat uçotu ekosistemi" konseptual modeli sistem yanaşması əsasında formalaşdırılmışdır. Model hüquqi-institusional baza, texnoloji

alətlər, elektron imza və identifikasiya mexanizmləri, insan kapitalı və maliyyə idarəetməsində nəticələr arasındakı qarşılıqlı əlaqələri vizuallaşdırmaq məqsədi daşıyır.

Tədqiqatın informasiya bazası:

Tədqiqatın informasiya bazasını aşağıdakı mənbələr təşkil etmişdir:

- beynəlxalq elmi jurnallarda dərc olunmuş məqalələr və monoqrafiyalar
- "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu və ona edilmiş dəyişikliklər;
- Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları;
- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəsmi məlumatları və e-Taxes portalı;
- ASAN İnnovasiya Mərkəzinin ("Asan İmza") rəsmi resursları;
- SIMA rəqəmsal identifikasiya və elektron imza platformasına dair rəsmi mənbələr;
- Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin statistik hesabatları;
- Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin açıq statistik bazaları və illik hesabatları.

Rəqəmsal mühasibat uçotu

Rəqəmsal mühasibat uçotu müasir müəssisələrdə əl ilə icra olunan və kağız əsaslı uçot proseslərinin avtomatlaşdırılmış elektron sistemlərlə əvəz olunmasını, habelə uçotla bağlı əməliyyat və qərarvermə proseslərinin rəqəmsal müstəvidə idarə edilməsini əhatə edir (Badria və Hasanah, 2024). Müasir proqram təminatları (1C, SAP, Oracle Financials, Microsoft Dynamics 365, QuickBooks, Xero və s.) mühasibat uçotunun qarşılıqlı əlaqəli sahələrinin vahid sistem üzərindən idarə olunmasına imkan yaradır, menecment üçün operativ qərarvermə mexanizmini gücləndirir və idarəetmə proseslərinin optimallaşdırılmasını təmin edir. Bu cür avtomatlaşdırma nəticəsində sənədləşmə işinə sərf olunan vaxt azalır, arifmetik səhvlərin qarşısı alınır və böyük həcmdə məlumatların qısa müddətdə işlənməsi mümkün olur.

Rəqəmsal mühasibat uçotunun tətbiqi bir sıra mühüm üstünlüklər yaradır:

- məlumat dövriyyəsinin sürətlənməsi;
- məlumatların etibarlılığının və təhlükəsizliyinin artması;
- əmək məhsuldarlığının yüksəlməsi;
- məhsulun maya dəyərinin daha dəqiq hesablanması;
- kağız dövriyyəsinin minimuma endirilməsi;
- beynəlxalq maliyyə və mühasibat standartlarına uyğunlaşma imkanlarının genişlənməsi;
- vergi və büdcə ödənişləri üzrə kənarlaşmaların qarşısının alınması (Shirinov, 2020)

Bununla yanaşı, rəqəmsallaşma müəyyən risk və çağırışlar da yaradır. Avtomatlaşdırmanın genişlənməsi bəzi iş yerlərinin ixtisarına səbəb ola bilər, informasiya təhlükəsizliyi problemləri yarana bilər və müəssisələrin proqram təminatlarından asılılığı güclənə bilər. Həmçinin, internet infrastrukturunun zəifliyi və yüksək ixtisaslı kadr çatışmazlığı rəqəmsal mühasibat sistemlərinin effektiv tətbiqinə maneə yaradan əsas amillərdən hesab olunur (Shirinov, 2020).

Elektron Məlumat Mübadiləsi (EDI- *Electronic Data Interchange*) və Elektron Fond Transferi (EFT- *Electronic Funds Transfer*) sistemlərinin inkişafı mühasibat məlumatlarının rəqəmsal mühitdə ötürülməsi və emalı prosesinin formalaşmasında ilkin və strateji mərhələ kimi qiymətləndirilə bilər. EDI müəssisələr arasında kommersiya sənədlərinin (hesab-fakturalar, sifariş formaları, müqavilələr, çatdırılma sənədləri və s.) standartlaşdırılmış elektron formatda, insan müdaxiləsi olmadan, birbaşa informasiya sistemləri vasitəsilə ötürülməsini təmin edən texnologiyadır. EFT isə maliyyə vəsaitlərinin bank sistemləri arasında elektron kanallar vasitəsilə sürətli və təhlükəsiz şəkildə köçürülməsini mümkün edən mexanizmdir. Hər iki sistem maliyyə əməliyyatlarının avtomatlaşdırılması, məlumatların dəqiqliyinin artırılması və əməliyyat xərclərinin azaldılması baxımından mühasibat uçotunun rəqəmsallaşmasında mühüm rol oynamışdır (Deshmukh, 2006).

Azərbaycanda İKT sektorunun inkişafını sürətləndirmək məqsədilə bir sıra strateji sənədlər və dövlət proqramları qəbul edilmişdir. Bunlara "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "İnformasiya cəmiyyətinin inkişafı üzrə Milli Strategiyanın icrası üzrə Dövlət Proqramı",

“Telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi” və “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” daxildir. Bu sənədlər ölkədə rəqəmsal infrastrukturun gücləndirilməsini, elektron xidmətlərin genişləndirilməsini və rəqəmsal iqtisadiyyatın formalaşdırılmasını hədəfləyərək mühasibat uçotu və maliyyə idarəetmə sistemlərinin rəqəmsallaşması üçün mühüm institusional baza yaradır.

2025-ci ilin aprelində Azərbaycan Respublikasının Prezidenti tərəfindən “Mühasibat uçotu haqqında” Qanunda dəyişikliklərin edilməsi və bu dəyişikliklərin tətbiqini təmin etmək məqsədi ilə müvafiq fərmanın imzalanması mühasibat uçotunun rəqəmsal transformasiyası istiqamətində institusional addım kimi qiymətləndirilə bilər. Fərmana əsasən, “e-mühasibat” informasiya sisteminin yaradılması, onun “Hökumət buludu”nun strukturuna inteqrasiyası və mühasibat uçotunun elektron formada aparılması üçün inzibati-təşkilati tədbirlər müəyyən edilir. Bu, mühasibat uçotunun rəqəmsal transformasiyasını təmin etməklə region müəssisələri və təşkilatlarının maliyyə hesabatlarının idarə olunmasında şəffaflığın, səmərəliliyin və standartlaşmanın yüksəldilməsinə imkan verəcəkdir, beləliklə, rəqəmsallaşma proseslərinin institusional və texnoloji komponentlərinin gücləndirilməsinə töhfə verir (president.az).

Azərbaycan iqtisadiyyatında da rəqəmsal mühasibat uçotunun cari vəziyyətini qiymətləndirməzdən əvvəl, rəqəmsallaşmanın cari vəziyyətinə nəzər salmaq lazımdır. Dövlət Statistika Komitəsinin “Azərbaycanda rəqəmsal inkişaf - 2025” hesabatına əsasən, ölkədə internetə çıxış və rəqəmsal xidmətlərdən istifadə səviyyəsi artıq kütləvi xarakter almışdır. 2024-cü ildə əhalinin hər 100 nəfərinə düşən internet istifadəçilərinin sayı 91 nəfərə çatmışdır, aktiv mobil genişzolaqlı internet abunəçiləri isə 90,4 nəfər təşkil etmişdir. Sabit genişzolaqlı internet abunəçilərinin sayı da sürətlə artaraq hər 100 nəfərə 22,7 abunəçiyə yüksəlmişdir. Bu göstəricilər ölkədə rəqəmsal mühitin artıq baza infrastruktur səviyyəsini keçərək institusional və iqtisadi tətbiqlər üçün yetkin mərhələyə çatdığını göstərir. Mühasibat uçotunun rəqəmsallaşması üçün əsas olan yüksək sürətli internet, məlumat ötürülmə imkanları və istifadəçi bazası artıq formalaşmışdır (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2025).

2024-cü ildə ev təsərrüfatlarının 77,5%-i kompüterə, 90,2%-i internetə, 94,8%-i isə mobil telefona malik olmuşdur. Eyni zamanda əhalinin 83,2%-i kompüterdən, 90,8%-i isə internetdən aktiv istifadə etmişdir. Bu fakt göstərir ki, rəqəmsallaşma təkcə texnoloji deyil, həm də sosial prosesdir və cəmiyyətin böyük hissəsi artıq rəqəmsal bacarıqlara yiyələnmişdir. Mühasibat uçotunun elektronlaşdırılması üçün əsas şərtlərdən biri olan insan resurslarının rəqəmsal savadlılığı Azərbaycanda real statistik baza ilə təsdiqlənir. Bu isə rəqəmsal mühasibat uçotunun tətbiqinin sosial baxımdan mümkün və dayanıqlı olduğunu sübut edir.

Yuxarıda qeyd olunan göstəricilər göstərir ki, mühasibat uçotunun rəqəmsallaşması üçün tələb olunan əsas texnoloji və sosial baza artıq müəssisə səviyyəsində mövcuddur və problem infrastrukturdan çox institusional koordinasiya və insan kapitalının ixtisaslaşması ilə bağlıdır. Beləliklə, rəqəmsal mühasibat uçotunun tətbiqi texniki baxımdan yeni mərhələ deyil, mövcud rəqəmsal infrastrukturun daha funksional istifadəsi mərhələsidir.

Rəqəmsal mühasibatda yeniliklər

Rəqəmsal mühasibat uçotunda ən mühüm yeniliklərdən biri elektron qaimə-faktura (e-invoice) sisteminin tətbiqidir. Elektron qaimə-faktura vergi inteqrasiyası və audit məqsədləri üçün kağız sənədlərə ehtiyac qalmadan hesab-fakturaların elektron mühitdə göndərilməsini, qəbulunu və saxlanılmasını təmin edir. Bu sistem satıcıların billinq proqramlarında formalaşdırılan məlumatların birbaşa alıcıların ERP sistemlərinə ötürülməsinə əsaslanır və nəticədə audit və vergi nəzarətinin rəqəmsal mühitdə aparılmasına imkan yaradır. Elektron qaimə-faktura tətbiqləri ölkələr üzrə fərqli hüquqi və institusional modellərlə həyata keçirilir: Avropa İttifaqında vergi qanunvericiliyi ilə inteqrasiya olunmuş sistemlər, ABŞ-da isə avtomatik yaradılan strukturlaşdırılmış elektron hesab-fakturalar mövcuddur. Azərbaycanda isə elektron daşıyıcılarda yaradılan, elektron şəkildə mübadilə edilən, saxlanılan və nümayiş etdirilən sənədlər e-qaimə-faktura kimi qəbul olunur. E-qaimə-fakturaların tətbiqi fakturaların hazırlanması və göndərilmə müddətini qısaldır, xərcləri azaldır, ödəniş proseslərini sürətləndirir, nəzarət mexanizmlərini gücləndirir, nağd pul axınlarının idarə edilməsini asanlaşdırır və vergi inzibatçılığının səmərəliliyini artırır (Cuylen et al., 2016; Aydın, 2017).

E-ledger (elektron mühasibat dəftəri) isə müəyyən standartlara uyğun hazırlanmış, rəqəmsal mühitdə qeydə alınan və elektron imza ilə hüquqi qüvvəsi təsdiqlənən uçot sənədlərini əhatə edir. Bu sistem kağız əsaslı mühasibat dəftərlərinin istifadəsini aradan qaldırır, çap və arxivləşmə xərclərini azaldır və mühasibat kitablarının elektron mühitdə hazırlanmasını, təqdim edilməsini və saxlanılmasını mümkün edir. E-ledger çərçivəsində vergi ödəyiciləri öz mühasibat dəftərlərini XBRL formatında hazırlayır və fiziki şəxslər elektron imza, hüquqi şəxslər isə maliyyə möhürü ilə təsdiqləyirlər (Ertürk, 2015; Sabuncu, 2022; Güney, 2014).

Rəqəmsal mühasibatın digər mühüm elementi elektron arxiv faktura (e-archive invoice) sistemidir. Bu sistem qaimə-fakturaların elektron mühitdə hazırlanmasını, saxlanmasını və zəruri hallarda hesabat kimi təqdim olunmasını təmin edir. Elektron arxiv fakturalarının əsas məqsədi çoxsaylı sənəd dövriyyəsi olan təsərrüfat subyektlərini kağız arxiv yükündən azad etmək və əməliyyat xərclərini azaltmaqdır. Elektron qaimə-faktura sisteminə daxil olan subyektlər üçün elektron arxiv fakturalarından istifadə daha çevik mexanizm yaradır və əlavə qeydiyyat prosedurları tələb etmir. Bu fakturalar mütləq şəkildə hesab nömrəsini, verilmə tarixini, satıcı və alıcının vergi identifikasiya nömrələrini, ödəniləcək məbləği və əməliyyat müddətini özündə əks etdirməlidir (Aydın, 2017).

Rəqəmsal mühasibat uçotunun əsas sütunlarından biri e-invoice (elektron qaimə-faktura) və e-tax (elektron vergi idarəetməsi) mexanizmlərinin tətbiqidir. Azərbaycan Respublikasında elektron qaimə-fakturalar Dövlət Vergi Xidməti tərəfindən yaradılmış "e-Taxes" portalı vasitəsilə təqdim olunur və bu sistem təsərrüfat subyektləri arasında aparılan əməliyyatların tam şəkildə rəqəmsal mühitdə rəsmiləşdirilməsini təmin edir. Elektron qaimə-fakturaların tətbiqi kağız dövriyyəsini aradan qaldırmaqla yanaşı, maliyyə məlumatlarının operativ ötürülməsinə, vergitutma bazasının daha şəffaf formalaşdırılmasına və vergi nəzarətinin effektivliyinin artırılmasına xidmət edir. E-tax sistemi çərçivəsində vergi bəyannamələrinin təqdim edilməsi, ödənişlərin aparılması və hesabatların formalaşdırılması avtomatlaşdırılmış qaydada həyata keçirilir ki, bu da mühasibat uçotunun dövlətin fiskal sistemləri ilə birbaşa inteqrasiyasını təmin edir və rəqəmsal mühasibat mühitinin institusional əsaslarını möhkəmləndirir (State Tax Service under the Ministry of Economy of the Republic of Azerbaijan, 2025).

Azərbaycan kontekstində rəqəmsal mühasibat uçotu ilə bağlı rəsmi mənbələr konkret "e-uçot", e-invoicing (elektron qaimə-faktura) və rəqəmsal vergi uçotu sistemlərinin tətbiqi ilə bağlı hüquqi və institusional əsasları təqdim edir. Bunların arasında ən önəmlisi Azərbaycan Respublikası Vergilər Nazirliyinin e-Taxes portalı çərçivəsində tətbiq olunan elektron qaimə-faktura sistemidir, hansı ki, müəssisələr üçün mühasibat əməliyyatlarının rəqəmsal aparılmasının birbaşa nümunəsidir. Dövlət Vergi Xidmətinin rəsmi saytına görə, Vergi Məcəlləsinin tələblərinə uyğun olaraq, ÜDM üzrə qeydiyyatda olan vergi ödəyiciləri elektron qaimə-fakturaları yalnız "e-Taxes" portalı vasitəsilə online və ya offline rejimdə təqdim etməlidirlər, bu da kağız əsaslı uçotdan rəqəmsal uçota keçiddə mühüm addımdır (taxes.gov.az) Bu sistem praktik olaraq mühasibat uçotunun rəqəmsallaşmasının bir hissəsidir, çünki o yüklənmə, imzalanma və göndərilmə proseslərini **rəqəmsal proqramlar və İnternet üzərindən** həyata keçirir; bu da müəssisələrin maliyyə məlumatlarını avtomatlaşdırılmış sistemlərdə qeyd etməsini təmin edir. Elektron qaimə-faktura modulu (e-invoice) müəssisələr üçün həm vergi hesabatlarının, həm də daxili maliyyə uçotunun real vaxt rejimində aparılmasını təmin edən əsas komponentlərdən biridir.

Rəqəmsal uçot mühitinin hüquqi etibarlılığını təmin edən əsas mexanizmlərdən biri e-signature (elektron imza) sistemidir. Azərbaycanda elektron imza infrastrukturu "Asan İmza" və "Sima İmza" kimi dövlət tərəfindən təsdiqlənmiş platformalar vasitəsilə həyata keçirilir. "Asan İmza" mobil əsaslı elektron imza sistemi olaraq istifadəçilərə bank, vergi, mühasibat və dövlət xidmətlərində hüquqi qüvvəyə malik sənədləri məsafədən imzalamaq imkanı yaradır. "Sima İmza" isə daha geniş spektrdə rəqəmsal identifikasiya və elektron imzalama funksiyalarını özündə birləşdirərək dövlət və özəl sektor sistemlərinə təhlükəsiz çıxışı təmin edir. Bu mexanizmlər mühasibat uçotu sənədlərinin, müqavilələrin, hesabatların və elektron qaimə-fakturaların hüquqi qüvvəyə malik şəkildə rəqəmsal mühitdə təsdiqlənməsinə şərait yaradır və kağız əsaslı təsdiqləmə mexanizmlərini əvəz edir (Digital Development and Transport Ministry of Azerbaijan, 2025; ASAN Innovation Center, 2025).

“Sima Token” mexanizmi isə rəqəmsal identifikasiyanın texnoloji əsasını daha da gücləndirən təhlükəsizlik aləti kimi çıxış edir. Token əsaslı identifikasiya istifadəçinin şəxsiyyətini təsdiqləməklə yanaşı, mühasibat və maliyyə sistemlərinə giriş zamanı məlumatların qorunmasını təmin edir və kibertəhlükəsizlik risklərini minimuma endirir. “Asan İmza”, “Sima İmza” və “Sima Token” birlikdə Azərbaycanda rəqəmsal hüquqi mühitin formalaşmasına xidmət edən vahid ekosistem yaradır. Bu ekosistem mühasibat uçotunun yalnız texniki proses deyil, hüquqi cəhətdən tam etibarlı və dövlət tərəfindən tanınan rəqəmsal sistem kimi fəaliyyət göstərməsini təmin edir. Nəticə etibarilə, e-invoice, e-tax və e-signature mexanizmlərinin tətbiqi mühasibat uçotunun rəqəmsal transformasiyasını sürətləndirir, məlumatların təhlükəsizliyini və etibarlılığını artırır, maliyyə idarəetməsində şəffaflıq və səmərəliliyi yüksəldir (State Agency for Public Service and Social Innovations, 2025).

Azərbaycanda rəqəmsal mühasibat uçotu ekosistemi

Rəqəmsal iqtisadiyyat şəraitində mühasibat uçotu artıq yalnız texniki uçot və hesabat funksiyasını yerinə yetirən mexanizm kimi deyil, iqtisadi idarəetmənin strateji informasiya bazasını formalaşdıran kompleks sistem kimi çıxış edir. Bu baxımdan Azərbaycanda rəqəmsal mühasibat uçotunun formalaşması ayrıca texnoloji yeniliklərin tətbiqi prosesi deyil, hüquqi-institusional mühitin, dövlət rəqəmsallaşma siyasətinin, texnoloji infrastrukturun və insan kapitalının qarşılıqlı təsiri nəticəsində yaranan vahid ekosistem kimi qiymətləndirilməlidir. “Azərbaycanda rəqəmsal mühasibat uçotu ekosistemi” anlayışı məhz bu çoxkomponentli və sistemli yanaşmanı ifadə edir və rəqəmsal uçotu ayrı-ayrı alətlərin məcmusu deyil, bir-birini tamamlayan elementlər üzərində qurulmuş institusional-texnoloji idarəetmə modeli kimi təqdim edir.

“Azərbaycanda rəqəmsal mühasibat uçotu ekosistemi” anlayışı mühasibat uçotunun rəqəmsallaşmasını təkcə texnoloji modernləşmə prosesi kimi deyil, çoxkomponentli və institusional xarakter daşıyan kompleks sistem kimi şərh edir. Bu yanaşmaya görə rəqəmsal mühasibat uçotu yalnız proqram təminatlarının tətbiqi və ya əməliyyatların avtomatlaşdırılması ilə məhdudlaşmır; o, hüquqi-institusional mühit, texnoloji infrastruktur, hüquqi etibarlılıq mexanizmləri və insan kapitalı arasında qarşılıqlı və dinamik əlaqələr üzərində formalaşan sosial-iqtisadi sistemdir. Ekosistem yanaşması mühasibat uçotunun rəqəmsallaşmasını bir-birindən asılı olmayan texniki alətlərin məcmusu kimi deyil, qarşılıqlı şəkildə bir-birini tamamlayan və gücləndirən elementlərin inteqrasiya olunmuş fəaliyyəti kimi təqdim edir. Məqalədə təqdim olunan “Azərbaycanda rəqəmsal mühasibat uçotu ekosistemi” konseptual modeli sistem yanaşması əsasında formalaşdırılmışdır. Modelin əsas məqsədi rəqəmsal mühasibat uçotunun ayrı-ayrı texnoloji tətbiqlər toplusu olmadığını, hüquqi-institusional baza + texnoloji platformalar + hüquqi etibarlılıq (e-imza/identifikasiya) + insan kapitalı elementlərinin sinxron fəaliyyəti nəticəsində formalaşan vahid idarəetmə mexanizmi olduğunu izah etməkdir.

A. Hüquqi və institusional baza (tənzimləyici mühit)

Bu blok rəqəmsal mühasibat uçotunun “qaydalarını” və məcburedici/istiqamətləndirici çərçivəsini müəyyən edir. Buraya daxildir:

- “Mühasibat uçotu haqqında” qanunvericilik və dəyişikliklər;
- Prezident fərmanları və icra mexanizmləri;
- dövlət rəqəmsallaşma strategiyaları;
- fiskal və hesabat standartları (tələblər, formatlar, təqdimetmə qaydaları).

B. Texnoloji alətlər və platformalar (əməliyyat infrastrukturu)

Bu blok rəqəmsal uçotun “necə həyata keçirildiyini” göstərir:

- ERP və mühasibat proqramları (məlumatın toplanması, emalı, hesabat);
- e-invoice (elektron qaimə-faktura), e-tax (elektron vergi xidmətləri);
- e-ledger, e-archive (elektron dəftər və elektron arxiv);
- bulud texnologiyaları və sistem inteqrasiyası (real vaxt/relyativ real vaxt).

C. Hüquqi etibarlılıq və təhlükəsizlik mexanizmləri (trust layer)

Bu blok rəqəmsal sənədlərin hüquqi qüvvəyə minməsi və məlumatın qorunması üçündür:

- elektron imza və rəqəmsal identifikasiya (məs., Asan İmza, SİMA);
- autentifikasiya/token həlləri;
- kibertəhlükəsizlik, məlumat məxfiliyi, giriş səlahiyyətləri;

- audit izi (loglar), dəyişikliklərin izlənməsi.

D. İnsan kapitalı və təşkilati səriştələr (kompetensiya bloku)

Bu blok olmadan texnologiya "işləmir" — çünki sistemləri tətbiq edən, işlədən və nəzarət edən insandır:

- mühasiblərin rəqəmsal bacarıqları;
- İT və mühasibat əməkdaşlığı;
- daxili nəzarət mədəniyyəti;
- təlim və dəyişikliklərin idarə edilməsi (change management).

Modelə görə əlaqə belə qurulur:

1. Hüquqi-institusional baza tələbləri müəyyən edir (format, təqdimetmə, məsuliyyət).
2. Bu tələblər əsasında texnoloji alətlər uçot prosesini avtomatlaşdırır və inteqrasiya edir.
3. Prosesin hüquqi qüvvəyə minməsi və risklərin idarə olunması üçün e-imza/identifikasiya və təhlükəsizlik mexanizmləri prosesə "etibar qatını" əlavə edir.
4. Bütün sistemin effektivliyi insan kapitalının bacarıqları ilə reallaşır (sistemi düzgün qurmaq, işlətmək, nəzarət etmək, nəticəni şərh etmək).

Modelin "nəticə" qatında rəqəmsal mühasibat uçotunun müəssisə və dövlət səviyyəsində yaratdığı nəticələr göstərilir:

- Şəffaflıq: əməliyyatların izlənməsi, audit izi, sənəd dövriyyəsinin standartlaşması;
- Operativlik: məlumatın real vaxtda/tez yenilənməsi, hesabatların daha sürətli hazırlanması;
- Dəqiqlik: manual səhvlərin azalması, uzlaşmanın asanlaşması;
- Nəzarət və uyğunluq (compliance): vergi və hesabat tələblərinə uyğunluğun yüksəlməsi;
- Qərarvermə keyfiyyəti: analitik hesabatların artması, idarəetmənin məlumatla dəstəklənməsi;
- Xərc və vaxt qənaəti**:** kağız dövriyyəsinin azalması, əməliyyat xərclərinin düşməsi.



Şəkil 1. Azərbaycanda rəqəmsal mühasibat uçotu ekosistemi (konseptual model).

Mənbə: Müəllif tərəfindən tərtib olunmuşdur.

Şəkildə göstərildiyi kimi, rəqəmsal mühasibat uçotu hüquqi və institusional baza üzərində formalaşaraq texnoloji alətlər vasitəsilə həyata keçirilir, elektron imza və identifikasiya mexanizmləri ilə hüquqi etibarlılıq qazanır, insan kapitalının rəqəmsal bacarıqları ilə funksionallaşır və nəticədə maliyyə idarəetməsində şəffaflıq, səmərəlilik və qərarvermə keyfiyyətini yüksəldir.

NƏTİCƏ VƏ MÜZAKİRƏLƏR.

Bu tədqiqatın nəticələri göstərir ki, rəqəmsallaşma mühasibat uçotunun həm nəzəri əsaslarına, həm də praktik icra mexanizmlərinə birbaşa təsir etməklə uçotu "qeydiyyat və hesabat"

funksiyasından çıxarıb idarəetməni dəstəkləyən strateji informasiya sisteminə çevirmişdir. Ənənəvi kağız əsaslı və əl əməyinə söykənən prosedurlar mərhələli şəkildə elektron platformalarla əvəz olunur, məlumatların toplanması, emalı və ötürülməsi real vaxt rejiminə yaxınlaşdırılır (Deshmukh, 2006). Bu transformasiya nəticəsində uçot sistemlərində operativlik, dəqiqlik və şəffaflıq yüksəlir; audit və nəzarət mexanizmləri isə daha sistemli və texnoloji əsaslı qurulur. Eyni zamanda rəqəmsal uçotun tətbiqi mühasibat funksiyalarının digər sahələrlə (satınalma, logistika, satış, HR və s.) inteqrasiyasını gücləndirir ki, bu da maliyyə idarəetməsində çevikliyi və analitik potensialı artırır (Prasetianingrum & Sonjaya, 2024). Nəticələr həmçinin göstərir ki, rəqəmsal mühasibat uçotunun genişlənməsi mühasib peşəsinin rolunu dəyişir: mühasib artıq yalnız texniki icraçı deyil, həm də informasiya sistemlərinin idarə olunması, təhlil və qərarvermənin dəstəklənməsi proseslərində aparıcı subyektə çevrilir (Gulin və b., 2019).

Azərbaycanda rəqəmsal mühasibat uçotunun formalaşması daha çox institusional-siyasət yönümlü inkişaf trayektoriyası ilə xarakterizə olunur. Dövlət səviyyəsində rəqəmsallaşmanı sürətləndirən strategiya və proqramlar, habelə "Mühasibat uçotu haqqında" qanunvericilik aktlarına edilən dəyişikliklər uçotun elektron aparılmasını normativ müstəvidə möhkəmləndirir. Xüsusilə "e-mühasibat" informasiya sisteminin yaradılması və "Hökumət buludu"na inteqrasiya xətti mühasibat uçotunun elektronlaşdırılmasını institusional mexanizm kimi formalaşdırır (president.az). Rəqəmsal infrastruktur və sosial baza baxımından da ölkədə rəqəmsallaşmanın səviyyəsi uçotun elektronlaşdırılması üçün əlverişli mühit yaradır: internet istifadəçiliyinin və mobil genişzolaqlı abunəçiliyin yüksək olması, ev təsərrüfatlarında internet və kompüter təminatının artması, müəssisələrdə İKT-dən istifadənin struktur xarakter alması göstərir ki, rəqəmsal mühasibat uçotu üçün tələb olunan baza şərait əhəmiyyətli dərəcədə mövcuddur (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2025).

Tətbiqi mexanizmlər səviyyəsində nəticələr e-invoice (elektron qaimə-faktura), e-tax (elektron vergi idarəetməsi), e-ledger və e-archive invoice kimi alətlərin rəqəmsal uçot ekosisteminin əsas sütunları olduğunu göstərir. Elektron qaimə-faktura mexanizmi sənəd dövriyyəsini sürətləndirir, əməliyyat xərclərini azaldır, uzlaşma və nəzarət proseslərini asanlaşdırır, vergi inzibatçılığı və audit üçün məlumatların avtomatik əldə edilməsini mümkün edir (Cuylen et al., 2016; Aydın, 2017). Elektron mühasibat dəftəri (e-ledger) və elektron arxiv faktura isə uçot sənədlərinin elektron formatda saxlanmasını, hüquqi qüvvə ilə təsdiqlənməsini və arxiv xərclərinin azalmasını təmin etməklə uçotun səmərəliliyini artırır (Ertürk, 2015; Sabuncu, 2022; Güney, 2014). Bundan əlavə, elektron imza və rəqəmsal identifikasiya mexanizmləri ("Asan İmza", "Sima İmza", "Sima Token") rəqəmsal uçot mühitinin hüquqi etibarlılığını və əməliyyat təhlükəsizliyini təmin edən əsas komponentlər kimi çıxış edir. Beləliklə, Azərbaycanın rəqəmsal uçot modeli "texnologiya + hüquqi etibarlılıq + dövlət inteqrasiyası" xətti üzrə sistemləşir.

Nəticələr eyni zamanda göstərir ki, rəqəmsal uçot prosesinin dərinləşməsi yeni risk və çağırışlar doğurur. Proqram təminatlarından asılılığın artması, kibertəhlükəsizlik və məlumat məxfiliyi riskləri, internet infrastrukturunun qeyri-bərabərliyi, habelə yüksək ixtisaslı rəqəmsal kadr çatışmazlığı rəqəmsal mühasibat sistemlərinin effektivliyinə təsir edə bilən əsas amillər sırasındadır (Shirinov, 2020). Buna görə rəqəmsal mühasibat uçotunun davamlı tətbiqi texnoloji modernləşmə ilə yanaşı, daxili nəzarət çərçivələrinin yenilənməsi, risklərin idarə olunması və insan resurslarının rəqəmsal bacarıqlarının artırılması kimi təşkilati tədbirlərlə müşayiət olunmalıdır.

NƏTİCƏ

Məqalənin ümumi nəticəsi ondan ibarətdir ki, rəqəmsallaşma mühasibat uçotunun mahiyyətində və funksional rolunda fundamental transformasiya yaradaraq onu təşkilatların qərarvermə və idarəetmə mexanizmlərinin strateji informasiya bazasına çevirir. Rəqəmsal mühasibat uçotu müasir iqtisadiyyatın sürətli dəyişən tələblərinə uyğun olaraq uçot proseslərini avtomatlaşdırır, sənəd dövriyyəsini elektronlaşdırır, nəzarət və audit imkanlarını genişləndirir, həm müəssisə daxilində, həm də dövlət fiskal sistemləri ilə inteqrasiya vasitəsilə şəffaflığı artırır. Azərbaycanda bu prosesin inkişaf trayektoriyası dövlətin rəqəmsallaşma siyasəti, normativ-hüquqi baza və e-

infrastrukturun sistemli şəkildə genişlənməsi ilə xarakterizə olunur; e-invoice, e-tax, e-accounting və elektron imza sistemləri isə bu transformasiyanın praktiki dayaqlarını formalaşdırır.

Eyni zamanda, rəqəmsal mühasibat uçotunun genişlənməsi yalnız üstünlüklər yaratmır; o, kibertəhlükəsizlik, məlumat məxfiliyi, texnoloji asılılıq və kadr səriştəliliyi kimi riskləri də aktuallaşdırır. Buna görə rəqəmsal mühasibat uçotunun səmərəli və dayanıqlı tətbiqi üçün kompleks yanaşma zəruridir: (i) hüquqi və institusional mexanizmlərin ardıcıl təkmilləşdirilməsi, (ii) texnoloji platformaların standartlaşması və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, (iii) mühasiblərin rəqəmsal savadlılığının artırılması və peşəkar təlimlərin davamlı təşkili. Bu istiqamətlərin sinxron inkişafı rəqəmsal mühasibat uçotunun ölkədə daha geniş tətbiqinə, maliyyə idarəetməsində səmərəliliyin yüksəlməsinə və rəqəmsal iqtisadiyyatın institusional əsaslarının möhkəmlənməsinə töhfə verəcəkdir.

Məqalənin əsas elmi yeniliyi Azərbaycanda rəqəmsal mühasibat uçotunun hüquqi, texnoloji, institusional və insan kapitalı komponentlərini vahid sistem çərçivəsində birləşdirən "ekosistem modeli" kimi konseptuallaşdırılmasıdır. Bu model rəqəmsal mühasibat uçotunun yalnız texnoloji modernləşmə deyil, institusional və strateji idarəetmə mexanizmi olduğunu elmi əsaslarla sübut edir.

ƏDƏBİYYAT

1. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 154-VIIQD nömrəli Qanununun tətbiqi və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı » Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi
2. ASAN İnnovasiya Mərkəzi. (2025). *Asan İmza – Mobil elektron imza sistemi*. https://www.asanimza.az
3. Auditorlar Palatası. (2023). *Mühasibat uçotu və auditin rəqəmsallaşdırılması üzrə tövsiyələr*. Auditorlar Palatası, Azərbaycan Respublikası. Az_Цифровизация_аудита_и_бух_учета.pdf
4. Aydın, F. Z. (2017). *Türkiye'de e-fatura ve e-defter uygulamalarının işletmeler üzerindeki yansımaları ve bir araştırma* (Yüksek lisans tezi). İstanbul Üniversitesi, Sosyal Bilimler Enstitüsü, İstanbul. Türkiye'de e-fatura ve e-defter uygulamalarının işletmeler üzerindeki yansımaları ve bir araştırma | Tezler | Tezara
5. Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi. (2025). *Rəqəmsal şəxsiyyət və elektron hökumət xidmətləri*. https://www.asan.gov.az
6. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi/ Ministry of Digital Development and Transport of the Republic of Azerbaijan. (2025). *Azerbaijan digital development: Statistical data*. https://mincom.gov.az/en/media-en/statistical-data/azerbaijan-digital-development Statistika-kitab-ENG.pdf
7. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025). *Azərbaycanda rəqəmsal inkişaf/Digital development in Azerbaijan* R?q?msal Inkisaf A4.pdf
8. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti. (n.d.). *E-invoicing (electronic invoices)*. https://www.taxes.gov.az/en/page/elektron-qaime-faktura DÖVLƏT VERGİ XİDMƏTİ
9. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. (2025). *SİMA – Rəqəmsal şəxsiyyət və elektron imza platforması*. https://sima.az
10. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. (2025). *Azərbaycanda rəqəmsal transformasiya və kibertəhlükəsizlik infrastrukturu*. https://mincom.gov.az
11. Badria, N., & Hasanah, N. (2024). The role of digital accounting for SMEs in facing business challenges in the digital era. Accounting and Finance

Studies, 4(4). https://doi.org/10.47153/afs44.11192024 (PDF) The Role of Digital Accounting for SMEs in Facing Business Challenges in the Digital Era
12. Cuylen, A., Kosch, L., & Breitner, M. H. (2016). Development of a maturity model for electronic invoice processes. *Electronic Markets, 26*(2), 115–127. https://doi.org/10.1007/s12525-015-0206-x Development of a maturity model for electronic invoice processes | Electronic Markets
13. Deshmukh, A. (2006), Digital accounting: The effects of the internet and ERP on accounting, SCOPUS, IGI Global. Digital Accounting: The Effects of the Internet And Erp on Accounting
14. Gulin, D., Hladika, M., & Valenta, I. (2019). Digitalization and the Challenges for the Accounting Profession. ENTRENOVA-ENTerprise REsearch InNOVAtion, 5(1), 428-437. Digitalization and the Challenges for the Accounting Profession
15. Güney, A. (2014). Role of technology in accounting and e-accounting. *Procedia – Social and Behavioral Sciences, 152*, 852–855. https://doi.org/10.1016/j.sbspro.2014.09.333 Role of Technology in Accounting and E-accounting
16. Kupenova, Z., Baimukhanova, S., Nurgalieva, G., Zhunisova, G., & Nurmukhan, A. (2020). Digital economy and its role in accounting. E3S Web of Conferences, 159, 04032. https://doi.org/10.1051/e3sconf/202015904032
17. Prasetianingrum, S., & Sonjaya, Y. (2024). *The Evolution of Digital Accounting and Accounting Information Systems in the Modern Business Landscape*. **Advances in Applied Accounting Research, 2**(1), 39–53. https://doi.org/10.60079/aaar.v2i1.165 View of The Evolution of Digital Accounting and Accounting Information Systems in the Modern Business Landscape
18. Sabuncu, B. (2022). The effects of digital transformation on the accounting profession. *Ömer Halisdemir Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 15*(1), 103–115. (PDF) The Effects of Digital Transformation on the Accounting Profession
19. Shirinov, U. (2020). ACCOUNTING IN THE DIGITAL ECONOMY: SIGNIFICANCE AND ADVANTAGES. International Finance and Accounting, 2020(3) ACCOUNTING IN THE DIGITAL ECONOMY: SIGNIFICANCE AND ADVANTAGES

ABSTRACT

THE ROLE AND IMPORTANCE OF DIGITAL ACCOUNTING IN THE MODERN ECONOMY

Elxan Bodurov

The article examines the role and significance of digital accounting in the context of the modern economy and provides a scientific analysis of the mechanisms of its formation, the current situation, and development prospects in Azerbaijan. It is argued that digital accounting is not limited to the use of technological tools alone, but functions as an integrated management system formed through the synchronous interaction of the legal and institutional framework, technological platforms, legal reliability mechanisms (electronic signature and digital identification), and human capital.

The methodological basis of the research includes the analysis of normative and legal documents, thematic and semantic analysis of international academic literature, descriptive statistical methods, and conceptual modeling. The Law of the Republic of Azerbaijan "On Accounting" and its amendments, presidential decrees, regulatory documents of the State Tax Service, as well as statistical data from the State Statistical Committee and the Ministry of Digital Development and Transport constitute the main information base of the study.

As a result of the research, a conceptual model titled "The Digital Accounting Ecosystem in Azerbaijan" has been developed, demonstrating that digital accounting operates as an integrated system based on the interdependence between the legal environment, technological infrastructure,

electronic signature and identification mechanisms, and human capital. It has been determined that e-invoice, e-tax, ERP systems, Asan İmza, and SIMA platforms significantly enhance the efficiency, transparency, and legal reliability of digital accounting practices.

At the same time, the study identifies the key challenges in the implementation of digital accounting, including cybersecurity risks, the need to ensure data privacy, technological dependency, and the necessity of improving the digital competencies of accounting professionals.

In conclusion, the article demonstrates that digital accounting in Azerbaijan represents not merely a process of technical modernization, but a strategic transformation mechanism that enhances the efficiency of financial management, strengthens transparency, and reinforces the institutional foundations of the digital economy.

Keywords: *Digital accounting, e-accounting, digital transformation, electronic signature, electronic tax system, human capital.*

АННОТАЦИЯ

РОЛЬ И ЗНАЧЕНИЕ ЦИФРОВОГО БУХГАЛТЕРСКОГО УЧЁТА В СОВРЕМЕННОЙ ЭКОНОМИКЕ

Эльхан Бодуров

В статье рассматриваются роль и значение цифрового бухгалтерского учёта в условиях современной экономики, а также даётся научный анализ механизмов его формирования, текущего состояния и перспектив развития в Азербайджане. Обосновывается, что цифровой бухгалтерский учёт не ограничивается лишь использованием технологических инструментов, а функционирует как интегрированная система управления, формируемая в результате синхронного взаимодействия правовой и институциональной базы, технологических платформ, механизмов правовой надёжности (электронной подписи и цифровой идентификации) и человеческого капитала.

Методологическую основу исследования составляют анализ нормативно-правовых документов, тематический и семантический анализ международной научной литературы, методы описательной статистики и концептуальное моделирование. Основной информационной базой исследования послужили Закон Азербайджанской Республики «О бухгалтерском учёте» и внесённые в него изменения, указы Президента, нормативные документы Государственной налоговой службы, а также статистические данные Государственного комитета по статистике и Министерства цифрового развития и транспорта.

В результате исследования была разработана концептуальная модель под названием «Экосистема цифрового бухгалтерского учёта в Азербайджане», которая демонстрирует, что цифровой бухгалтерский учёт функционирует как интегрированная система, основанная на взаимозависимости правовой среды, технологической инфраструктуры, механизмов электронной подписи и цифровой идентификации, а также человеческого капитала. Установлено, что такие инструменты, как e-invoice, e-tax, ERP-системы, Asan İmza и платформы SIMA, существенно повышают эффективность, прозрачность и правовую надёжность практики цифрового бухгалтерского учёта.

В то же время в статье выявлены ключевые проблемы внедрения цифрового бухгалтерского учёта, к которым относятся риски кибербезопасности, необходимость обеспечения конфиденциальности данных, технологическая зависимость, а также потребность в повышении уровня цифровых компетенций бухгалтерских специалистов.

В заключение показано, что цифровой бухгалтерский учёт в Азербайджане представляет собой не просто процесс технической модернизации, а стратегический механизм трансформации, который повышает эффективность финансового управления, усиливает прозрачность и укрепляет институциональные основы цифровой экономики.

Ключевые слова: *цифровой бухгалтерский учёт, e-accounting, цифровая трансформация, электронная подпись, электронная налоговая система, человеческий капитал.*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-13
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

YAŞIL İQTİSADİYYAT DAVAMLI İNKİŞAFA NAİL OLMAĞIN QLOBAL HƏDƏFI KİMİ

Rahibə ƏBDÜLHƏSƏNOVA
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.
Yazışılan müəllif: *ebdulhesenovarahibe@ndu.edu.az*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
yaşıl iqtisadiyyat, modelləşdirmə obyekti, yaşıl iş yerləri, davamlı inkişaf

XÜLASƏ
Məqalədə yaşıl iqtisadiyyat nəzəriyyəsinin bazalaşdığı aksiomalar verilir, müxtəlif tədqiqatçıların "Yaşıl" iqtisadiyyatın əsas tədqiqat və iqtisadi modelləşdirmə obyektlərinə olan yanaşmaları qeyd edilir və bu yanaşmalara aid müəllif fikirləri bildirilir. Məqsəd-ölkələrdə əhalinin həyat səviyyəsində bərabərsizlik, yoxsulluq, aclıq və səhiyyə xidmətinə çıxışın tam təmin edilməsi kimi həlli lazım olan problemlərin mövcud olması şərtləri daxilində yaşıl iqtisadiyyatın və yaşıl iş yerlərinin müasir dünya üçün vacibliyi zərurətinin əsaslandırılmasıdır. Azərbaycanın da BMT-nin UNEP proqramı çərçivəsində əməkdaşlığının bir neçə fəaliyyət istiqamətində (müxtəlif konsepsiyalar üzrə öhdəliklər) icra edildiyi vurğulanmaqla məqalədə göstərilir ki, ölkəmizdə bu sahədəki potensialın artırılmasını təmin etmək üçün müvafiq seminarlar, görüşlər və s. tədbirlər təşkil edilmişdir. Metodologiya-davamlı inkişaf və yaşıl iqtisadiyyata keçidin tədqiqi zamanı müxtəlif yanaşmalar, nəzəri baxış, sistemləşdirmə, müqayisəli təhlil, sintez və s. metodlardan istifadə edilmişdir.Yaşıl iqtisadiyyat davamlı inkişafa nail olmağın ən vacib qlobal hədəfidir və bu konsepsiya təbii resurslardan maksimum səmərəli istifadə etməklə iqtisadi artımın stimullaşdırılması prinsiplərinə əsaslanır. Elmi yenilik-yaşıl iqtisadiyyat ekoloji davamlılıq və iqtisadi yüksəliş arasında tarazlığa nail olmağı əsas hədəf kimi müəyyənləşdirilmişdir. Dinamik inkişafda olan dunya birliyi olkələrinin qarşısında duran ən muhim məsələlərdən biri kimi əhalinin və sənayenin artan enerji təminatının odənilməsidir. Nəticə-davamlı inkişafa və yaşıl iqtisadiyyata keçid üzrə aparılmış tədqiqatlar ümumiləşdirilməklə əsas maneələr olan ziddiyyətli problemlər sistemləşdirilmişdir.

GİRİŞ

"Yaşıl" iqtisadiyyat-XX əsrin sonunda iqtisadi elmdə formalaşan, insanın iqtisadi fəaliyyəti dövründə yaşayış mühitinə mənfi təsirinin azaldılmasını vacib şərtlərdən biri kimi qəbul edən, həmçinin iqtisadi artıma deyil, ətraf mühit üçün minimal risklərlə inkişafın davamlılığına üstünlük verən əsas istiqamətlərdən biridir. Bu istiqamətin tərəfdarlarının fikrincə iqtisadiyyat təbii mühitin asılı bir komponenti olmaqla müəyyən hüdudda fəaliyyət göstərir. "Yaşıl iqtisadiyyat konsepsiyası" iqtisadi elm sahələrinin ekoloji və ətraf mühit iqtisadiyyatı istiqamətləri ilə sıx əlaqədədir.

Yaşıl iqtisadiyyat nəzəriyyəsi üç aksioma əsasında bazalaşır:

- məhdud bir məkanda təsir dairəsini sonsuz bir şəkildə genişləndirmək mümkün deyil;
- məhdud resursların mövcudluğu şəraitində getdikcə artan ehtiyacların ödənilməsini tələb etmək qeyr-mümkündür;
- yer səthində mövcud olan hər şey bir-birilə qarşılıqlı əlaqədədir.

S. Bobılevin fikrincə "Yaşıl" iqtisadiyyatın əsas tədqiqat və iqtisadi modelləşdirmə obyektlərinə aşağıdakılar daxilr:

- planetin iqtisadi təsərrüfatşılığı və ekoloji mühiti arasındakı qarşılıqlı əlaqə;
- ekoloji, eləcə də sosial amilləri əhatə edən və uzunmüddətli perspektivdə iqtisadi fəaliyyət zamanı ekoloji zərərin minimuma endirilməsinə köməklik edəcək bu cür iqtisadi sistemlərin idarə edilməsi üsulları;
- istehsal və bütövlükdə təsərrüfatçılıq sahəsində yeni texnologiyaların inkişafına əsaslanan prinsiplər ətraf mühitə veriləcək zərərin minimuma endirilməsinə uyğun bazaya yönəldilməlidir (Бобылев С.Н. ,2016).

Tədqiqatçının fikri ilə tam razılaşmaq olar, lakin qeyd etməliyik ki, bu obyektlər sırasına ekoloji ziyanın azaldılması ilə yanaşı onun mənbələrinin araşdırılıb tapılması, onların aradan qaldırılması yollarının müəyyən edilməsi, əldə edilmiş nəticələrin səmərəli olması və s. də daxil edilə bilər.

MATERİAL VƏ METODLAR

Bu tədqiqatda yaşıl iqtisadiyyatın Azərbaycan kontekstində təhlili üçün bir neçə metod tətbiq edilmişdir. Əvvəlcə, deskriptiv təhlil metodu istifadə olunaraq, mövcud ədəbiyyat və statistik məlumatlar (BMT hesabatları, milli prioritet sənədləri və investisiya göstəriciləri) sistemləşdirilmişdir. İkinci olaraq, müqayisəli analiz metodu vasitəsilə ekoloji-iqtisadi inkişaf modelləri (xətti, tsiklik, kapital və yaşıl modellər) və bərpa olunan enerji mənbələrinin üstünlükləri/mənfi cəhətləri müqayisə edilmişdir. Bundan əlavə, keyfiyyətli təhlil metodu ilə tədqiqat obyektlərinin (məsələn, tullantıların təkrar emalı, investisiya axınları) qlobal və milli səviyyədə qarşılıqlı əlaqələri qiymətləndirilmişdir. Məlumat mənbələri olaraq BMT-nin UNEP hesabatları, Azərbaycanın rəsmi sənədləri və elmi məqalələr (rus, ingilis və azərbaycan dillərində) istifadə olunmuşdur. Bu metodlar vasitəsilə empirik məlumatlar əsasında nəzəri qənaətlər çıxarılmış və tövsiyələr hazırlanmışdır.

ƏDƏBİYYAT İCMALI

Yaşıl iqtisadiyyat konsepsiyası ilə bağlı ədəbiyyatda bir neçə əsas istiqamət mövcuddur. S. Bobılev (2016) yaşıl iqtisadiyyatın əsas obyektlərini planetin iqtisadi-ekoloji qarşılıqlı əlaqəsi, idarəetmə üsulları və texnologiyaların inkişafı kimi təyin edir, lakin müəllifin yanaşmasına əlavə olaraq ekoloji ziyan mənbələrinin araşdırılması və aradan qaldırılması yollarının vacibliyini vurğulamaq olar. BMT-nin UNEP hesabatları (2008, 2023) yaşıl iqtisadiyyatın davamlı inkişaf məqsədləri ilə əlaqəsini, xüsusilə iqlim dəyişikliyi və sosial-iqtisadi problemlərin həllini vurğulayır. Azərbaycan kontekstində Məmmədov C.İ. (2016) ənənəvi enerji mənbələrinin məhdudluğu və ekoloji zərərlərini təhlil edərək, bərpa olunan enerjiyə keçidin zəruriliyini əsaslandırır. Al İ. (2019) yaşıl iqtisadiyyatın səmərəliliyini ölçmək üçün alternativ göstəricilər təklif edir, sosial, iqtisadi və ekoloji aspektləri əhatə edərək. Baldwin R. (2019) xətti iqtisadiyyat modelini qloballaşma və robotlaşdırma ilə əlaqələndirir, Tarasov A. (2024) kapital iqtisadiyyatını resursların maksimallaşdırılması kimi təsvir edir, Zyuzin V. və s. (2024) tsiklik iqtisadiyyatı iqtisadi tənəzzüllər və yüksəlişlərlə izah edir. Bu ədəbiyyat ümumilikdə yaşıl iqtisadiyyatın ekoloji davamlılıq, investisiya və texnoloji inkişaf aspektlərini əhatə edir, lakin Azərbaycanın milli prioritetləri (məsələn, "Azərbaycan 2030") ilə inteqrasiyası sahəsində daha dərin tədqiqatlara ehtiyac var.

1. Yaşıl iqtisadiyyata keçidin BMT-nin ətraf Mühit Proqramına uyğunluğu problemləri

Qlobal miqyasda ətraf mühitin çirklənməsinin qarşısının alınmasına, getdikcə tükənən təbii resurslar, yüksələn tələbat çərçivəsində dayanıqlı inkişafın təmin edilməsinə istiqamətlənmiş "yaşıl" iqtisadiyyatın formalaşması məqsədilə icra edilən tədbirlər olduqca əhəmiyyətli hesab edilir. Bu baxımdan ölkəmizdə qəbul edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində sonuncu prioritetin "Təmiz ətraf mühit" və "yaşıl artım" ölkəsi adlanması təsadüfi deyildir. Milli prioritetlərdə ekoloji cəhətdən təmiz texnologiyalardan istifadəni, tullantıların emalını və çirkləndirilmiş ərazilərin yenilənməsinin təşviqini, ekoloji nöqteyi nəzərdən daha əlverişli sayılan "yaşıl" texnologiyalardan istifadəni və onun genişləndirilməsini əks etdirən konkret tapşırıqların icra edilməsi qarşıya qoyulmuşdur ((Azərbaycan Respublikası Prezidentinin, 2021, № 2469)).

Ölkəmizdə bu istiqamətdə tədbirlərin icrasına artıq 2011-ci ildən start verilib və Respublika Prezidentinin Sərəncamı (28 dekabr 2011-ci il) əsasında təkrar istehsalda sahibkar və investorlar üçün şəraitin yaradılması məqsədilə Balaxanıda Sənaye Parkı (BSP) yaradılmışdır. Bu və digər təkrar emal məqsədli müəssisələrin (Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu və s.) təşkili ölkədə yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli məhsulların istehsal həcminin genişləndirilməsi, qeyri-neft sektorunda ("yaşıl" iqtisadiyyat) inkişafın təmin edilməsi əhalinin bu sahədə məşğulluğunun artmasına, paytaxtda və ətraf regionda ekoloji təmizliyin yaxşılaşdırılmasına xidmət göstərir. Belə ki, 23 rezidentin qeydiyyatdan keçdiyi bu BSP-da onların tullantılarının təkrar emalı həyata keçirilir. Bu baxımdan da ölkəmizdə "yaşıl" məhsul istehsalı həcminin artımı istiqamətində işlərin icrası hərtərəfli inkişafa hədəfləndirilmiş və bu işlər geniş vüsət almışdır.

2021-c ildə Energetika Nazirliyi ilə BP şirkəti arasında bərpa olunan enerji layihələrinin tələb etdiyi potensialın (şəraitin) qiymətləndirilməsi üçün anlaşma memorandumu imzalanmışdır ki, bu da

gələcəkdə ekoloji təmiz texnologiyalardan və təmiz enerji mənbələrindən istifadəyə, təkrar emala və çirklənmiş ərazilərin bərpası istiqamətində işlərin görülməsi ilə hərtərəfli bağlı olduğunu əsaslandırmağa imkan verir (United Nations Environment Programme. (2025, July 01)).

S. Nalinci apardığı tədqiqatda belə bir nəticəyə gəlmişdir ki, təmiz enerji mənbələrindən istifadə, təkrar emal və tullantıların azaldılması kimi önləyici tədbirlərlə ətraf mühitin çirklənməsinin qarşısını almaq yolu ilə onun təsirini minimuma endirmək lazımdır. Ölkələrdə əhalinin həyat səviyyəsində bərabərsizlik, yoxsulluq, aclıq və səhiyyə xidmətinə çıxışın tam təmin edilməsi kimi həlli lazım olan problemlər mövcuddur. Bu qeyd etdiyimiz şərtlər yaşıl iqtisadiyyatı və yaşıl iş yerlərini müasir dünya üçün daha vacibliyini zəruri edir. Yaşıl iqtisadiyyat qəbul edilmiş davamlı inkişaf konsepsiyasının həyata keçirilməsində ən vacib, qlobal və mütləq həll edilməli əsas hədəflərdəndir. Fikrimizcə, müəllifin əldə etdiyi nəticə həqiqətən də müasir dövr üçün dlobal problemlərdən biridir. Bu məsələlərin həll edilməməsi davamlı inkişafın təminatını şübhə altına salmış olur.

Bir sıra tədqiqatçıların fikrincə, yaşıl iqtisadiyyata keçidiin təşkili nəticəsində yaradılacaq yaşıl iş yerləri bəşəriyyətin XXİ əsrdə qarşılaşacağı iki əsas problemin həllini təmin edəcəkdir. BMT-nin ətraf Mühit Proqramının (UNEP, 2008) hesabatına görə, bu əsas problemlər aşağıdakılardır (OOH. 2023):

- dünya ölkələrində məskunlaşmış əhalinin həyatını dəstəkləyən ekoloji sistemin qorunması üçün iqlim dəyişikliyi təhlükəli və idarəolunmaz vəziyyətdədir;
- bu, hər kəs üçün rifah səviyyəsini yaxşılaşdırmaqla onun keyfiyyətinin artırılması, həmçinin dünyada əhalinin sürətlə artması ilə bir milyarddan çox insanın üzləşdiyi sosial-iqtisadi inkişafdan mümkün istisnanın qarşısının alınması insan ləyaqətinə layiq iş yerlərinin təmin edilməsi ilə həll edilə bilər.

Birləşmiş Millətlər Təşkilatının 2008-ci ildə qəbul etdiyi Ətraf Mühit Proqramı (UNEP) dünyanın aparıcı ekoloji orqandır. UNEP-in missiyası resursların istifadəsinə və gələcək nəsillərə ötürülməsinə zərər vermədən ölkələrin və xalqların həyat keyfiyyətlərinin yaxşılaşdırılması üçün ilham vermək, onları geniş məlumatlandırmaq və yüksək səviyyədə təmin etməkdir. UNEP qabaqcıl elmi işləmlərdən, koordinasiyadan və informasiya-təbliğat fəaliyyətindən istifadə edərək 193 üzv dövlətə Davamlı İnkişaf Məqsədlərinə və təbiətlə birgə harmoniyada yaşamağa dəstək verir. Artıq yarım əsrdən də çox müddətdə fəaliyyətdə olan Ətraf Mühit Proqramı, ozon qatının bərpasından dənizlərin qorunmasına və ekoloji cəhətdən təmiz, inklyuziv (əhatəli) bir iqtisadiyyatın təşviqinə qədər bəşəriyyətin ən aktual ekoloji problemlərinin həllində hökumətlər, vətəndaş cəmiyyəti, özəl sektor və BMT bölmələri ilə əməkdaşlıq edir (OOH. 2023). Azərbaycanın da BMT-nin UNEP proqramı çərçivəsində əməkdaşlığı bir neçə fəaliyyət istiqamətində icra edilir ki, bunlara da Tehran Konvensiyasında qəbul edilmiş Xəzər dənizi, ətraf mühitin təmiz saxlanılması vasitəsi ilə yoxsulluğun azaldılması, Cənubi Qafqazda Dayanıqlı Enerji Planlaşdırılması və s. aiddir. Bu Konvensiyalar çərçivəsində qeyd edilən öhdəliklər üzrə UNEP-in dəstəyi əsasında hazırlanan hesabatlar, bu istiqamtdə milli fəaliyyət planları işlənərək təqdim olunur. Ölkəmizin bu sahədəki potensialının artırılmasını təmin etmək üçün müvafiq seminarlar, görüşlər və s. tədbirlər təşkil edilir (İqtisadiyyat Nazirliyi, y. t.).

2. Davamlı inkişafa nail olmağın ən vacib qlobal hədəfı və ekoloji-iqtisadi nkişaf modelləri

Yaşıl iqtisadiyyat davamlı inkişafa nail olmağın ən vacib qlobal hədəfı hesab edilir. Bu konsepsiya ətraf mühitlə uyğunlaşan, təbii resurslardan maksimum səmərəli istifadə və ekoloji problemlər nəzərə alınmaqla iqtisadi artımın stimullaşdırılması prinsiplərinə əsaslanır. Yaşıl iqtisadiyyat ekoloji davamlılıq və iqtisadi yüksəliş arasında tarazlığa nail olmağı əsas hədəf olaraq təmin edir. Yaşıl iqtisadiyyatın təməl xüsusiyyətlərinə ekoloji davamlılıq, təbii ehtiyatlardan faydalı istifadə və sosial dekommunizasiyanın (tarazlığın) artması daxildir. Bu iqtisadi model ətraf mühitə təsiri zəiflədən texnologiyaların inkişafına, təbii ehtiyatların qorunub saxlanması siyasətinin qəbuluna və dayanıqlı inkişaf prinsiplərini əsas olaraq qəbul edən biznes modellərinin tətbiqinə üstünlük verir. Yaşıl iqtisadiyyat bu gün qüvvədə olan iqtisadi konsepsiyanın bərabərsizliyini yüksəldən, israfçılığa meylli

olan, ətraf mühit və insan sağlamlığı üçün təhlükə mənbəyi kimi görünən bir quruluşa sahib olmağı təmin edə biləcək bir ehtiyac nəticəsində formalaşmaqla özünü büruzə verir.

Dinamik inkişafda olan dunya birliyi olkələrinin qarşısında duran ən muhim məsələlərdən biri kimi əhalinin və sənayenin artan enerji təminatının odənilməsi ucun Azərbaycan Respublikasının coğrafi movqeyi, təbii şəraitinin xususiyyətləri və movcud sosial-iqtisadi resursları olkəmizin alternativ və bərpa olunan enerji mənbələrinin mənimsənilməsinə geniş şərait yaradır. Mumkun potensial imkanların duzgun qiymətləndirilməsi və onlardan səmərəli istifadə yollarının axtarılıb tapılması və bu zaman coxvariantlı həllərdən optimalının secilməsi, habelə real həyatda maksimal effektivliklə tətbiqi davamlı inkişafın vacib şaxəsi olan bu sfera uzrə uzunmuddətli nəticələr əldə etməyə imkan verə bilər.

ВКЛАД НЕПРАВИТЕЛЬСТВЕННЫХ ОРГАНИЗАЦИЙ В РАЗВИТИЕ СООБЩЕСТВ: МЕХАНИЗМЫ И КОНТЕКСТУАЛЬНЫЕ ФАКТОРЫ

Мамедов Вагиф

НПО играют всё более значимую роль в продвижении устойчивого развития сообществ посредством сокращения социально-экономических неравенств, укрепления местного потенциала и дополнения инициатив, реализуемых государством. В данной статье анализируются стратегии, вызовы и политические импликации развития сообществ под руководством НПО на основе нарративно-аналитического синтеза рецензируемой научной литературы, охватывающей различные социально-экономические и институциональные контексты. Исследование интегрирует существующие теоретические и эмпирические работы с целью выявления ключевых механизмов, посредством которых НПО влияют на результаты развития сообществ.

В статье особое внимание уделяется партисипативному участию, процессам наращивания потенциала, формированию социального капитала и условиям управления как взаимосвязанным механизмам, определяющим эффективность деятельности НПО. Полученные выводы свидетельствуют о том, что деятельность НПО является наиболее эффективной в тех случаях, когда партисипативные стратегии сочетаются с устойчивым развитием потенциала и встроены в поддерживающие институциональные и политические среды. В то же время подчёркивается контекстуально обусловленный характер эффективности НПО, которая систематически варьируется в зависимости от режимов управления и социально-экономических условий. Предлагая многомерную и контекстно-чувствительную аналитическую рамку, статья вносит вклад в научную литературу, уточняя, при каких

условиях и посредством каких механизмов инициативы НПО способствуют устойчивому развитию сообществ, а также формулируя практически значимые выводы для правительств, доноров и организаций гражданского общества.

Ключевые слова: *партисипативное управление; среда управления; формирование социального капитала; институциональный контекст; эффективность гражданского общества*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-15
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

BEYNƏLXALQ TURİZMİN QLOBAL İNKİŞAF MEYİLLƏRİ VƏ REGİONAL XÜSUSİYYƏTLƏRİ

Elşən QASIMLI
Azərbaycan Turizm və Menecment Universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif: elshen99919@gmail.com*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
beynəlxalq turizm, qlobal inkişaf, regional fərqlər, davamlılıq, beynəlxalq münasibətlər

XÜLASƏ
Məqalənin əsas məqsədi beynəlxalq turizmin qlobal inkişaf meylləri və qlobal inkişaf tendensiyalarını araşdırmaqdır. Tədqiqatda beynəlxalq turizmin qlobal inkişaf tendensiyalarını, regional xüsusiyyətlərini və beynəlxalq münasibətlər sistemində artan rolu təhlil edilir. Təhlil göstərir ki, beynəlxalq turizm əsasən istirahətə əsaslanan fəaliyyətdən iqtisadi artıma, regional inkişafa, mədəni mübadiləyə və beynəlxalq əməkdaşlığa töhfə verən çoxölçülü bir fenomenə çevrilmişdir. Müasir dövrdə beynəlxalq turizm iqtisadi artımın, məşğulluğun və mədəni mübadilənin mühüm mənbəyinə çevrilmişdir. Qloballaşma və texnoloji inkişaf turizmin miqyasını genişləndirmiş, lakin regionlar arasında qeyri-bərabər inkişafı da dərinləşdirmişdir. Avropa aparıcı turizm regionu olaraq qalırken, Asiya-Sakit Okean bölgəsi ən sürətlə inkişaf edən bazar kimi ön plana çıxır. Məqalədə həmçinin davamlılıq, ekoloji risklər və qlobal böhranlara həssaslıq beynəlxalq turizmin əsas çağırışları kimi qiymətləndirilir. Metod: məqalə yazılarkən müqaisəli təhlil metodundan istifadə edilmişdir. Tətbiqi əhəmiyyəti: ali məktəblərdə mühazirə və seminarlarda istifadə oluna bilər, eləcə də turizm ilə maraqlananlar üçün faydalı materialdır. Turizmin inmkişafına töhvə verə biləcək addımlar üçün yol xəritəsidir.

GİRİŞ

Bu gün dünya iqtisadiyyatının ən vacib sahələrindən biri iş yerlərinin yaradılması, iqtisadi genişlənmə və beynəlxalq münasibətlərin yaxşılaşdırılması üçün vacib olan beynəlxalq turizmdir. Həm varlı, həm də inkişaf etməkdə olan ölkələrə təsir edən mürəkkəb sosial-iqtisadi fenomen olan turizm qloballaşma, artan mobillik və texnoloji inkişaf şəraitində ənənəvi istirahət fəaliyyətlərindən kənara çıxmışdır.

Bu artım regionlar arasında ardıcıl olmasa da, son bir neçə onillikdə xarici turist axını əhəmiyyətli dərəcədə artmışdır. Bəzi ərazilərdə yeni yerlərin, daha asan girişin və istehlakçı seçimlərinin dəyişməsi nəticəsində sürətli genişlənmə müşahidə olunur, digər yerlər isə qurulmuş turizm infrastrukturunun və sabit tələbatın üstünlüklərindən istifadə edir.
Siyasi iğtişaşlar, ətraf mühitin pisləşməsi və səhiyyə problemləri də daxil olmaqla qlobal məsələlər turizm sənayesinin kövrəkliyini üzə çıxarmış və davamlı və yerli səviyyədə uyğunlaşdırılmış inkişaf planlarının zəruriliyini vurğulamışdır.

Beynəlxalq münasibətlərin müasir çərçivəsində beynəlxalq səyahətlərin artan əhəmiyyəti tədqiqatın tətbiqini müəyyən edir. Milli iqtisadiyyatları inkişaf etdirməklə yanaşı, turizm regional əməkdaşlığı, yumşaq gücü və mədəni mübadiləni təşviq edir (Hall, 2010: 6s.). Effektiv turizm siyasətinin hazırlanması və uzunmüddətli strateji planlaşdırma regional xüsusiyyətlərin və qlobal inkişaf modellərinin anlaşılmasını tələb edir.

Bu məqalənin əsas məqsədi beynəlxalq turizmin inkişafındakı qlobal modelləri araşdırmaq və dünyada turizmin inkişafına təsir edən əsas coğrafi amilləri müəyyən etməkdir. Keyfiyyət təhlili, müqayisəli üsullar, elmi əsərlərin icmalı və beynəlxalq səyahətlər haqqında hesabatlar tədqiqatın əsasını təşkil edir.

BEYNƏLXALQ TURİZMİN NƏZƏRİ ÇƏRÇİVƏSİ: BEYNƏLXALQ TURİZMİN KONSEPSİYASI VƏ ROLU

"Beynəlxalq turizm" termini fərdlərin iş, əyləncə, mədəni və ya digər səbəblərdən milli sərhədlərdən müvəqqəti hərəkətini təsvir edir. Turizm yaşayış, qida xidmətləri, əyləncə, nəqliyyat və mədəni tədbirlər kimi müxtəlif xidmətləri əhatə edən sosial-iqtisadi fəaliyyətdir. Beynəlxalq turizm

çoxsektorlu təbiətinə görə milli və regional iqtisadiyyatlara əhəmiyyətli dərəcədə multiplikator təsir göstərir (UNWTO, 2008:14s.).

İqtisadi baxımdan, valyuta mənfəəti, iş yerlərinin yaradılması və regional inkişaf beynəlxalq turizm tərəfindən dəstəklənir. Bir çox millətlər, xüsusən də inkişaf etməkdə olan və ada ölkələri üçün milli gəlirin əsas mənbələrindən biri turizmdir. İqtisadi əhəmiyyətinə əlavə olaraq, turizm mədəniyyətlərarası ünsiyyəti, anlaşmanı və şəxslərarası münasibətləri təşviq etməklə əhəmiyyətli sosial və mədəni rol oynayır.

Getdikcə daha çox insan turizmi beynəlxalq münasibətlər kontekstində yumşaq güc aləti kimi nəzərdən keçirir. Ölkələr turizm marketinqindən dünya səhnəsində mədəni nüfuzu artırmaq, diplomatik əlaqələri möhkəmləndirmək və beynəlxalq imiclərini yaxşılaşdırmaq üçün istifadə edirlər (Nye, 2004:11s.). Nəticədə, beynəlxalq turizmə həm iqtisadi səy, həm də beynəlxalq ünsiyyətin vacib elementi kimi baxılmalıdır.

QLOBAL TURİZMİN İNKİŞAFINA TƏSİR EDƏN FAKTORLAR

İqtisadi, siyasi, texnoloji və ətraf mühit dəyişənləri beynəlxalq turizmin inkişafında rol oynayır. Qiymət səviyyələri və valyuta məzənnələri təyinat yerlərinin rəqabət qabiliyyətinə təsir göstərsə də, iqtisadi sabitlik və gəlir artımı səyahətə tələbatı artırır. Bundan əlavə, siyasi sabitlik və təhlükəsizlik vacibdir, çünki səyahətçilər təhlükəsiz və sabit hesab edilən yerlərə üstünlük verirlər (UNO, 2009: 70s.).

Əlçatanlığı, informasiyanın mövcudluğunu və xidmət səmərəliliyini artırmaqla texnoloji irəliləyişlər turizm sektorunda inqilab yaratmışdır. Səyahətçilərin davranışı və qərar qəbuletmə prosesləri rəqəmsal platformalar, onlayn rezervasiya sistemləri və mobil texnologiyalar tərəfindən dərindən dəyişdirilmişdir (Hall, 2010: 8s.). Eyni zamanda, nəqliyyatda, xüsusən də hava səyahətlərindəki irəliləyişlər səyahət xərclərini azaltmış və dünya miqyasında mobilliyi artırmışdır.

BEYNƏLXALQ TURİZMDƏ QLOBAL İNKİŞAF TRENDLƏRİ: BEYNƏLXALQ TURİZMİN ARTIM DİNAMİKASI

Son bir neçə onillikdə beynəlxalq turizm sabit şəkildə böyüyərək onu dünya iqtisadiyyatının ən sürətlə böyüyən sektorlarından birinə çevirmişdir. Artan gəlir səviyyəsi, daha yaxşı nəqliyyat sistemləri və qlobal turizm infrastrukturunun genişlənməsi xarici turistlərin sayının artmasına səbəb olmuşdur. İstirahət, işgüzar və mədəni turistlər kimi müxtəlif səyahətçi növlərini cəlb etmək üçün bir neçə məkan turizm təkliflərini genişləndirmişdir (UNO, 2009:, s.4).

Ümumi artıma baxmayaraq, xarici turizmin artımı bölgələr arasında qeyri-bərabər olmuşdur. Asiya, Afrika və Yaxın Şərqdəki yeni məkanlar daha yüksək artım tempi göstərsə də, Avropa və Şimali Amerikadakı ənənəvi istiqamətlər xarici səyahətçilərin əhəmiyyətli bir hissəsini cəlb etməyə davam edir (UNWTO, 2008: 6s.). Bu tendensiya qlobal iqtisadi gücün dəyişməsi, turizm infrastrukturuna daha çox pul qoyulması və səyahətçilərin naməlum ərazilərə artan marağının nəticəsidir.

Beynəlxalq səyahətlər də qlobal böhranlara qarşı olduqca həssas olduğunu göstərib. Ziyarətçilərin sayında müvəqqəti azalma siyasi iğtişaşlar, iqtisadi tənəzzüllər və tibbi böhranlar səbəbindən baş verib ki, bu da sənayenin xarici şoklara qarşı həssaslığını vurğulayır. Lakin turizm sektoru da yeni şəraitə uyğunlaşmaq və səyahət trendlərini dəyişdirmək üçün diqqətəlayiq bir qabiliyyət nümayiş etdirib (UNWTO, 2008: 16s.).

BEYNƏLXALQ TURİZM İNKİŞAFINDA ƏSAS QLOBAL TRENDLƏR

Sənayenin sürətli rəqəmsallaşması beynəlxalq səyahətlərdə ən böyük dünya miqyaslı trendlərdən biridir. Sosial media, rəqəmsal marketinq alətləri və onlayn sifariş platformaları səyahətçilərin məlumat axtarma, yer seçmə və tətillərini planlaşdırma üsullarını tamamilə dəyişdirib (Müller, (2015: 11 s]. Rəqəmsal texnologiyalar qlobal turizm biznesində şəffaflığı artırıb və məkanlar arasında rəqabət qabiliyyətini artırıb.

Ekoloji cəhətdən təmiz səyahətə artan diqqət digər əhəmiyyətli bir tendensiyadır. Ətraf mühit problemləri, iqlim dəyişikliyi və həddindən artıq turizm səbəbindən məsuliyyətli səyahət həm

ziyarətçilər, həm də siyasətçilər üçün əsas prioritetə çevrilib (UNESCO, 2021: s.11). Müasir turizm strategiyasının əsas komponenti olan davamlı turizm ətraf mühitə mənfi təsirlərini azaltmağa, yerli icmalara kömək etməyə və mədəni irsi qorumağa çalışır.

Son illərdə təcrübəyə əsaslanan səyahətlər də daha populyarlaşıb. Kütləvi turizm məhsulları əvəzinə, müasir səyahətçilər getdikcə daha çox həqiqi təcrübələr, mədəniyyətlərarası qarşılıqlı əlaqələr və fərdiləşdirilmiş xidmətlər axtarırlar. Macəra, mədəni və ekoturizm daxil olmaqla ixtisaslaşmış turizm bazarları yaratmaq meyli təyinat yerlərini təşviq edir.

BEYNƏLXALQ TURİZMİN REGİONAL XÜSUSİYYƏTLƏRİ: AVROPADA TURİZMİN İNKİŞAFI

Beynəlxalq turizm baxımından Avropa ən inkişaf etmiş və rəqabətli bölgələrdən biri olaraq qalmaqdadır. Zəngin mədəni irs, inkişaf etmiş infrastruktur və çox sayda beynəlxalq səviyyədə tanınmış turizm məkanı regionun üstünlüklərinə töhfə verir. Hər il milyonlarla xarici turistin gəldiyi mədəni, şəhər və tarixi turizm əhəmiyyətli rol oynayır (UNWTO, 2008: 6s.).

Lakin, overturizm, ətraf mühitə təzyiq və davamlı idarəetmə tələbi Avropa turizm bazarları üçün problemlər yaradır. Məşhur yerlərdə trafikin azaldılması üçün bir çox məkanlar ziyarətçi axınının idarə olunmasına və alternativ məkanların təşviq edilməsinə yönəlmiş qaydalar qəbul etməyə başlayıb.

ASİYA-SAKİT OKEAN BÖLGƏSİNDƏ TURİZMİN İNKİŞAFI

Asiya-Sakit Okean bölgəsində beynəlxalq turizm əhalinin artması, iqtisadi inkişaf və daha yaxşı əlaqə kimi amillər səbəbindən sürətlə inkişaf edib. Bu ərazidəki ölkələr turizmin təşviqi və infrastrukturuna əhəmiyyətli investisiyalar yatıraraq həm yerli, həm də xarici səyahətçilər üçün arzuolunan səyahət məkanları kimi özlərini təsdiqləyiblər.

Şərqi və Cənub-Şərqi Asiyada yeni səyahət məkanları təbii sərvətlərindən, müxtəlif mədəni görməli yerlərindən və əlverişli qiymətlərdən faydalanıb. Bölgə eyni zamanda turizmin genişlənməsini uzunmüddətli inkişaf məqsədləri ilə tarazlaşdırmalı və ətraf mühitin davamlılığı ilə bağlı məsələləri həll etməlidir.

AMERİKA VƏ DİGƏR BÖLGƏLƏRDƏ TURİZMİN İNKİŞAFI

Amerika qitəsində turizmin böyüməsində nəzərəçarpacaq coğrafi fərqlər mövcuddur. Latın Amerikası təbii xüsusiyyətləri və mədəni müxtəlifliyi səbəbindən daha populyar səyahət məkanına çevrilsə də, Şimali Amerika hələ də həm daxili, həm də beynəlxalq səviyyədə yüksək tələbat olan əsas turizm bazarıdır. Bölgədə turizmin inkişafına siyasi sabitlik, təhlükəsizlik və infrastrukturun keyfiyyəti əhəmiyyətli dərəcədə təsir göstərir.

Son illərdə Yaxın Şərq və Afrika kimi digər bölgələr turizm üçün artan potensial nümayiş etdiriblər. Siyasi risklər və xarici şoklar hələ də sənayenin fəaliyyətinə təsir göstərsə də, artım turizm infrastrukturuna və şaxələndirmə taktikalarına qoyulan investisiyalarla asanlaşdırılıb.

BEYNƏLXALQ TURİZMİN ÇƏTİNLİKLƏRİ VƏ GƏLƏCƏK PERSPEKTİVLƏRİ

Beynəlxalq turizm, dünya iqtisadiyyatında davamlı genişlənməsinə və artan əhəmiyyətinə baxmayaraq, müxtəlif struktur və yeni maneələrlə üzləşir. Turizm sənayesinin qlobal şoklara qarşı həssaslığı ən böyük maneələrdən biridir. Dünya miqyasında səyahət axınlarının nə qədər sürətlə pozula biləcəyini göstərən hadisələrə pandemiyalar, geosiyasi münaqişələr, iqtisadi böhranlar və iqlimlə əlaqəli fəlakətlər daxildir. Xüsusilə, COVID-19 pandemiyası turizmə güvənən iqtisadiyyatların zəifliyini üzə çıxardı və daha güclü böhran idarəetmə sistemlərinin və şaxələndirmə taktikalarının zəruriliyini vurğuladı.

Davamlılıq digər əhəmiyyətli bir məsələdir. Bir çox yerlərdə resursların tükənməsi, çirklənmə və təbii və mədəni irs yerlərinə zərər turizmin sürətli artımının yaratdığı ekoloji stresslər arasındadır. Tanınmış yerlərdə, xüsusən də Avropada və Asiyanın bəzi bölgələrində, overturizm yerli ekosistemləri və yerli əhalinin həyat səviyyəsini təhlükə altına qoyaraq əsas problemə çevrilmişdir

(UNESCO, 2021: 21s.). Nəticə etibarilə, davamlı turizmin inkişafı siyasət seçimi deyil, strateji bir ehtiyac halına gəlmişdir.

Beynəlxalq turizm texnoloji inkişaf nəticəsində həm imkanlarla, həm də çətinliklərlə üzləşir. Rəqəmsal platformalar, onlayn rezervasiya sistemləri və məlumatlara əsaslanan marketinq nəticəsində səyahətçilərin davranışı və təyinat yerlərinin idarə olunması dəyişib. Lakin, rəqəmsal infrastruktura çıxışdakı regional fərqlər səbəbindən mövcud və inkişaf etməkdə olan turizm bazarları arasındakı uçurum artıb. Qlobal turizm sistemində rəqəmsal transformasiyaya uyğunlaşmayan bölgələr daha az rəqabətli olmaq təhlükəsi ilə üzləşirlər.

Turizmin artımındakı fərqlər regional baxımdan hələ də nəzərə çarpır. Asiya-Sakit okean bölgələri artan əlaqə, şəhərləşmə və artan rifah səbəbindən ən yüksək templə böyüyür, baxmayaraq ki, Avropa hələ də xarici qonaqların əksəriyyətini təşkil edir. Digər tərəfdən, infrastruktur, investisiya və dünya miqyasında məlumatlılıq bir çox inkişaf etməkdə olan bölgələrin, xüsusən də Afrika və Mərkəzi Asiya bölgələrindəki bölgələrin üzləşdiyi problemlərdir.

Gələcəyə baxdıqda, dayanıqlılıq, davamlılıq və innovasiya beynəlxalq turizmin gələcəyində əsas rol oynayacaq. Səyahətçilər getdikcə daha çox məkanın sosial məsuliyyət, ətraf mühitin qorunması və iqtisadi mükafatlar arasında tarazlığı qoruyacağını gözləyirlər. Qlobal turizmin inkişafının növbəti mərhələsi, ehtimal ki, davamlı təcrübələrin tətbiqi, turizm təkliflərinin şaxələndirilməsi və regional əməkdaşlığın artırılması ilə müəyyən ediləcək. Bu şəraitdə beynəlxalq turizm iqtisadi fəaliyyət olmaqla yanaşı, qlobal əməkdaşlıq, regional inteqrasiya və mədəni mübadilə üçün bir vasitə kimi xidmət etməyə davam edəcək.

NƏTİCƏ

Bu məqalədə beynəlxalq turizmin qlobal inkişaf tendensiyaları regional xüsusiyyətləri ilə yanaşı araşdırılmış, turizmin qlobal iqtisadi və sosial sistemdəki inkişaf edən rolunu vurğulamışdır. Təhlil göstərir ki, beynəlxalq turizm əsasən istirahətə əsaslanan fəaliyyətdən iqtisadi artıma, regional inkişafa, mədəni mübadiləyə və beynəlxalq əməkdaşlığa töhfə verən çoxölçülü bir fenomenə çevrilmişdir.

Nəticələr göstərir ki, dünya miqyasında turizmin yüksəlişində regional fərqlər müşahidə olunub. Avropa hələ də ən çox səyahət məkanı olaraq qalır, lakin Asiya-Sakit Okean bölgəsi ən canlı və sürətlə böyüyən bazara çevrilib. Gəlir səviyyələri, infrastrukturun inkişafı, siyasi sabitlik və texnoloji innovasiyalar bu regional fərqləri formalaşdıran bəzi elementlərdir. Bununla belə, struktur maneələr hələ də inkişaf etməkdə olan ölkələrin dünya turizm sənayesinə tam inteqrasiyasına mane olur.

Tədqiqat həmçinin qlobal turizmin istiqamətini müəyyənləşdirməkdə dayanıqlılığın və davamlılığın artan əhəmiyyətini vurğulayır. Ənənəvi turizmin inkişaf metodlarının çatışmazlıqları ətraf mühitin pisləşməsi, overturizm və beynəlxalq böhranlara həssaslıqla üzə çıxıb. Nəticədə, güclü böhrana cavab sistemləri, müxtəlif turizm təklifləri və davamlı təyinat yerlərinin idarə olunması uzunmüddətli rəqabət üçün getdikcə daha vacib hala gəlir.

Xülasə, beynəlxalq turizm qlobal iştirak üçün güclü bir qüvvə olaraq qalmaqdadır, lakin onun davamlı çiçəklənməsi məsuliyyətli və balanslı böyümədən asılı olacaq. Maraqlı tərəflər və siyasətçilər sosial inteqrasiya, ətraf mühitin qorunması və iqtisadi məqsədləri tarazlaşdıran inteqrasiya olunmuş yanaşmaları qəbul etməlidirlər. Beynəlxalq turizm regional balanssızlıqları aradan qaldırmaqla və innovasiya və dayanıqlığı qəbul etməklə regionlararası əlaqəni və anlaşmanı gücləndirməklə yanaşı, qlobal inkişafı təşviq etməyə davam edə bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2020). Turizm statistikası. Bakı.
2. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. (2014). Azərbaycan Respublikasında turizmin inkişafına dair 2014–2024-cü illər üçün Milli Strategiya. Bakı.
3. Hall, C. M. (2010). Tourism and geopolitics: The political dimensions of tourism. Tourism Geographies, 12(1), 1–14. https://doi.org/10.1080/14616680903493606

4. Müller, M. (2015). What makes an event a mega-event? Definitions and sizes. Leisure Studies, 34(6), 627–642. . https://doi.org/10.1080/02614367.2014.993333
5. Nye, J. S. (2004). Soft power: The means to success in world politics. New York, NY: PublicAffairs.
6. United Nations Educational, Scientific and Cultural Organization. (2021). World heritage and sustainable tourism. Paris: UNESCO.
7. United Nations World Tourism Organization. (2019). Tourism and economic growth. Madrid: UNWTO.
8. United Nations World Tourism Organization. (2020). International tourism highlights. Madrid: UNWTO.

РЕЗЮМЕ

ГЛОБАЛЬНЫЕ ТЕНДЕНЦИИ РАЗВИТИЯ МЕЖДУНАРОДНОГО ТУРИЗМА И РЕГИОНАЛЬНЫЕ ОСОБЕННОСТИ

Эльшан Гасымлы

Основная цель статьи — исследовать глобальные тенденции развития и региональные особенности международного туризма. В исследовании анализируются глобальные тенденции развития международного туризма, его региональные характеристики и возрастающая роль в системе международных отношений. Анализ показывает, что международный туризм из преимущественно рекреационной деятельности превратился в многомерное явление, способствующее экономическому росту, региональному развитию, культурному обмену и международному сотрудничеству. В современный период международный туризм стал важным источником экономического роста, занятости и культурного взаимодействия. Глобализация и технологическое развитие расширили масштабы туризма, однако одновременно усилили неравномерность развития между регионами. Европа остаётся ведущим туристическим регионом, тогда как Азиатско-Тихоокеанский регион выделяется как наиболее быстрорастущий рынок. В статье также рассматриваются вопросы устойчивого развития, экологические риски и уязвимость к глобальным кризисам как ключевые вызовы международного туризма. Метод: при подготовке статьи использован метод сравнительного анализа. Практическая значимость: материал может быть использован в лекциях и семинарах высших учебных заведений, а также представляет интерес для всех, кто интересуется туризмом. Он служит своего рода дорожной картой для шагов, способных способствовать развитию туризма.

Ключевые слова: *международный туризм, глобальные тенденции, региональные различия, устойчивое развитие, международные отношения.*

ABSTRACT

GLOBAL DEVELOPMENT TRENDS AND REGIONAL CHARACTERISTICS OF INTERNATIONAL TOURISM

Elshan Gasimli

The main objective of the article is to examine the global development trends and regional characteristics of international tourism. The study analyzes global development tendencies of international tourism, its regional features, and its growing role within the system of international relations. The analysis shows that international tourism has evolved from a primarily leisure-based activity into a multidimensional phenomenon contributing to economic growth, regional development, cultural exchange, and international cooperation. In the contemporary period, international tourism has become an important source of economic growth, employment, and cultural

interaction. Globalization and technological progress have expanded the scale of tourism, while also deepening uneven development among regions. While Europe remains the leading tourism region, the Asia-Pacific area is emerging as the fastest-growing market. The article also evaluates sustainability challenges, environmental risks, and vulnerability to global crises as key issues facing international tourism. Method: A comparative analysis method was employed in the preparation of the article. Practical significance: The material can be used in university lectures and seminars and is also a useful resource for those interested in tourism. It serves as a roadmap for steps that can contribute to the development of tourism.

Keywords: *international tourism, global trends, regional disparities, sustainability, international relatio*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-16
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

LƏNKƏRAN-ASTARA İQTİSADİ RAYONUNUN TURİZM-REKREASİYA EHTİYATLARI, ONLARIN ÖYRƏNİLMƏSİNİN TARİXİ-COĞRAFİ ASPEKTLƏRİ

Abdulla RZAYEV
AR ETN Coğrafiya İnstitutu, Bakı, Azərbaycan
**Yazışılan müəllif: rzayevabdulla65@gmail.com*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
Lənkəran-Astara, turizm-rekreasiya ehtiyatları, mineral bulaqlar, termal bulaqlar, müalicə-sağlamlıq turizmi

XÜLASƏ
Lənkəran-Astara iqtisadi rayonu turizm və rekreasiya potensialına görə Azərbaycanın ən zəngin təbii sərvətlərə malik regionlarından biri hesab olunur. Regionun subtropik iqlimi, Xəzər dənizi sahil zolağı, sıx meşə landşaftları, eləcə də mineral və termal bulaqları onun turizm baxımından cəlbediciliyini artıran əsas amillərdəndir. Tədqiqatın məqsədi iqtisadi rayonun turizm-rekreasiya ehtiyatlarını kompleks şəkildə qiymətləndirmək və onların inkişaf xüsusiyyətlərini təhlil etməkdən ibarətdir. İşdə tarixi-coğrafi təhlil, müqayisəli qiymətləndirmə və statistik məlumatların araşdırılması metodlarından istifadə olunmuşdur. Aparılan təhlillər göstərir ki, bölgədə turizm fəaliyyətinin formalaşması hələ XIX əsrdə mineral bulaqların müalicəvi xüsusiyyətlərinin öyrənilməsi ilə başlamışdır. Sovet dövründə nəqliyyat şəbəkəsinin və kurort infrastrukturunun inkişafı nəticəsində region ümumittifaq əhəmiyyətli istirahət zonasına çevrilmişdir. Müstəqillik illərində həyata keçirilən dövlət proqramları turizmin inkişafını sürətləndirmiş, kurort turizmi ilə yanaşı ekoturizm, aqroturizm və çimərlik turizmi istiqamətləri də formalaşmışdır. Tədqiqatın nəticələri göstərir ki, zəngin təbii və rekreasiya ehtiyatlarına baxmayaraq, regionun mövcud turizm potensialından hələ tam səmərəli istifadə olunmur. Mövcud imkanlardan rasional istifadə və müasir infrastrukturun gücləndirilməsi Lənkəran-Astara iqtisadi rayonunun beynəlxalq turizm mərkəzlərindən birinə çevrilməsinə şərait yarada bilər.

GİRİŞ

Azərbaycan Respublikasının cənub zonasında yerləşən Lənkəran-Astara iqtisadi rayonu ölkənin özünəməxsus və yüksək rekreasiya potensialına malik ərazilərindən biridir. Region faydalı qazıntılarla zəngin olmasa da, təbii landşaft müxtəlifliyi, ölkə ərazisindəki yeganə rütubətli subtropik iqlim şəraiti, qumlu sahilləri, termal və mineral suları ilə fərqlənir. Xüsusilə Hirkan Milli Parkı, Talış dağ-meşə zonası və Xəzərsahili kurort zonaları bu ərazini həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə cəlbedici turizm istiqamətinə çevirir. Lənkəran-Astara iqtisadi rayonunda müxtəlif növ turizm formalarının – balneoloji, kənd, çimərlik, mədəni, qastronomik və ekoturizmin inkişafı üçün əlverişli şərait mövcuddur. Bununla yanaşı, regionun sosial-iqtisadi inkişafı, yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluğu və gəlir səviyyəsinin yüksəlməsi baxımından burada turizm sektoru mühüm rol oynayır. Son illərdə tədqiqat regionunda turizm infrastrukturunun genişlənməsi, otel və istirahət komplekslərinin inşası, nəqliyyat-kommunikasiya şəbəkələrinin təkmilləşdirilməsi, ekoloji tarazlığın qorunması istiqamətində görülən tədbirlər turizm sektorunun potensialını daha da artırmışdır. Bununla yanaşı, mövcud ehtiyatların elmi cəhətdən öyrənilməsi, təhlili və xronoloji müqayisəsi turizmin dayanıqlı inkişafı üçün zəruridir.

Lənkəran-Astara iqtisadi rayonunun turizm-rekreasiya ehtiyatlarının öyrənilməsinə dair elmi mənbələr göstərir ki, bu sahədə tədqiqatlar ilk olaraq XIX əsrin ortalarına təsadüf edir. Mövzu ilə əlaqədar yerli və xarici alimlər tərəfindən ilk olaraq regionun əsasən mineral və termal bulaqların öyrənilməsinə xüsusi diqqət ayrılmışdır. Aparılan tədqiqatlar göstərir ki, doğrudan da Lənkəran-Astara iqtisadi rayonunun ərazisi mineral sularla çox zəngindir. İndiyə qədər regionda mineral sular mövzusu hidrogeoloji, tibbi, iqtisadi baxımdan araşdırılsa da, iqtisadi-coğrafi aspektdə kompleks şəkildə ilk dəfədir ki, tədqiq edilir. Qarşımıza qoyulan məqsəd və vəzifələrin səmərəli həll edilməsi üçün tərəfimizdən zəngin material toplanmış, müvafiq mənbələr araşdırılmış və problemin iqtisadi-coğrafi aspektdə tədqiq edilməsinə cəhd göstərilmişdir.

Məqalənin əsas məqsədi Lənkəran-Astara iqtisadi rayonunun turizm-rekreasiya ehtiyatlarının təbii-coğrafi xüsusiyyətlərini öyrənmək, onların mövcud və potensial istifadəsini qiymətləndirmək və regionda turizmin müasir vəziyyətini elmi əsaslarla təhlil etməkdən ibarətdir.

MATERİAL VƏ METODLAR

Tədqiqatın aparılmasında və məqalənin ərsəyə gəlməsində Lənkəran-Astara iqtisadi rayonunun turizm-rekreasiya ehtiyatları, onların coğrafi yayılması və turizmin təsərrüfatının müasir vəziyyəti ilə bağlı müxtəlif elmi və statistik materiallardan geniş istifadə olunmuşdur. İşin informasiya bazasını regiona aid olan Lənkəran, Astara və Masallı bölgələrinin turizm ehtiyatları haqqında olan elmi mənbələr, xəritə və statistik göstəricilər təşkil etmişdir. Məqalənin formalaşmasında tarixilik, müqayisə və sistemli yanaşma kimi metodlardan istifadə olunmuşdur. Ərazinin turizm-rekreasiya ehtiyatlarının öyrənilməsinin tarixi sıralı şəkildə nəzərdən keçirilmiş və əldə olunan informasiya bazasının regionda turizmin inkişafına müsbət təsirinin kəmiyyəti göstərilməyə çalışılmışdır.

NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Lənkəran-Astara iqtisadi rayonu Azərbaycan Respublikasının cənub hissəsində yerləşir və ümumi 6.070 km² ərazini əhatə edir. Rayonun əhalisi 2025-ci ilin 1 yanvar tarixinə olan statistik göstəricilərə əsasən 943,8 min nəfər təşkil edir ki, bu da əhali sıxlığının kifayət qədər yüksək olduğunu göstərir (Azərbaycanın demoqrafik göstəriciləri, 2025). Əhali əsasən Lənkəran, Masallı və Cəlilabad rayonlarında cəmləşmişdir, dağlıq ərazilərdə isə sıxlıq nisbətən aşağıdır.

İqtisadi rayon Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı inzibati rayonlarını özündə birləşdirir. Bu rayonlar kənd təsərrüfatı potensialı, nəqliyyat mövqeyi və təbii sərvətləri ilə bir-birini tamamlayan sosial-iqtisadi struktura malikdir. Lənkəran və Astara ticarət və çayçılıq sahələri ilə fərqlənir, Cəlilabad və Masallı daha çox kənd təsərrüfatı istiqamətində ixtisaslaşmışdır. Lerik və Yardımlı rayonlarında isə dağlıq relyef ekoloji təmiz mühiti və turizm üçün əlverişli şəraiti ilə seçilir. Yuxarıda qeyd olunan məlumatlara dair icmal Cədvəl 1-də göstərilmişdir.

Cədvəl 1

Lənkəran-Astara iqtisadi rayonunun sosial-iqtisadi göstəriciləri və turizmin vəziyyəti

Sahəsi	Əhalisi	İnzibati rayonları	İnkişaf edən turizm sahələri
6.070 km²	943,8	Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı, Yardımlı	Sağlamlıq turizmi, kənd turizmi, mədəni turizm, qastronom və qismən ekoturizm

Əhalinin istirahəti və müalicəsi üçün istifadə olunan kurort-rekreasiya ehtiyatları təbii və antropogen olmaqla 2 qrupa bölünür. Təbii-rekreasiya ehtiyatlarına istirahət, müalicə, turizm üçün istifadə edilən təbiət hadisələri və obyektləri aid edilir. Rekreasiya ehtiyatlarının ikinci qrupu olan-antropogen ehtiyatlara mədəni-tarixi və görməli yerlər, ümumilikdə insanlar tərəfindən yaradılmış turizm-rekreasiya ehtiyatları daxildir (Paşayev et al., 2010). Bu tərif nəzərə alınmaqla qeyd etmək mümkündür ki, Lənkəran-Astara iqtisadi rayonu özünəməxsus iqlim xüsusiyyətləri, aqroiqlim, meşələri və mineral su ehtiyatları ilə turizm-rekreasiya baxımından zəngin resurslara malikdir. Rayonun ekoloji cəhətdən zəngin meşə fondunu Talış silsiləsinin yamaclarında yerləşən çoxqatlı meşələr təşkil edir. Bu meşələr yalnız Azərbaycan üçün deyil, bütün Qafqaz üçün səciyyəvi subtropik rütubətli meşə tipini qoruyub saxlayan nadir landşaft kompleksidir. Şabalıdyarpaq fıstıq, dəmir ağacı, azatağacı kimi relikt və endemik növlərin geniş yayılması ərazini bioloji müxtəliflik baxımından xüsusi əhəmiyyətli zonaya çevirir. Tarixinə görə ikinci və ərazisinə görə ən böyük hesab edilən Qızılağac dövlət təbiət qoruğu da 1929-cu ildə məhz burada salınmışdır. Fauna müxtəlifliyi də turizmin cazibəsini artırır və eyni zamanda ekoturizm üçün əlverişli şərait yaradır. 2004-cü ildə yaradılan və 2023-cü ildən etibarən UNESCO-nun Ümumdünya irsi obyektləri siyahısına transmilli

irsi obyekt kimi daxil olan, o cümlədən 55.000 km2 ərazini əhatə edən Hirkan Milli Parkı və digər qorunan ərazilər burada həm təbiətsevərlər, həm də elmi ekspedisiyalar üçün mühüm marşrutlar formalaşdırır. Rayonun aqroiqlim göstəriciləri də turizm imkanlarının genişlənməsinə səbəb olur. Subtropik, rütubətli və yumşaq iqlim şəraiti ildə uzun vegetasiya dövrü yaradır və çəltikçilik, sitrusçuluq, çayçılıq, tərəvəzçilik və bağçılıq sahələrinin inkişafına əsas verir. Yerli çay plantasiyaları, çay emalı müəssisələri və sitrus bağları kənd turizmi və aqroturizm üçün cəlbedici obyektlərə çevrilmişdir. Yerli təsərrüfatlarda çay yığımı, sitrus məhsullarının becərilməsi və ənənəvi kənd məişətini əks etdirən fəaliyyətlər turistlərin marağına səbəb olur. Əlverişli iqtisadi-coğrafi mövqedə yerləşməsi və Bakı şəhəri ilə hər cürə nəqliyyat növü ilə əlaqənin mümkün olması da regionun iqtisadiyyatına pozitiv yöndə təsir göstərir

Azərbaycanda turizm özünün inkişaf pillələri olaraq müxtəlif mərhələlərdən keçmişdir. B.Bilalov bu mərhələləri qədim dövrlərdən XIX əsrin əvvəllərinə qədər, Azərbaycanın Çar Rusiyasının tərkibində olduğu 1806-1918-cı illər, 1920-1991-ci illər arasında Sovet İttifaqının tərkibində olduğu və 1991-ci ildən sonrakı müstəqillik dövrü olmaqla 4 dövrə bölür (Bilalov, 2008). H.Soltanova isə nisbətən daha geniş bir dövrləşməni nəzərdə tutaraq onları qədim və orta əsrlər (karvanları mərhələləri), XIV-XIX əsrin sonuna, XIX əsrin sonu XX əsrin ortalarına, müstəqillik dövrünə qədərki(1950-1991) və müstəqillikdən sonrakı(1991-dən bu günə qədər) olmaqla 5 mərhələyə ayırır (Soltanova, 2015).

Mövzuyla əlaqədar olan yerli və xarici alimlər ilk başda regionun turizm ehtiyatları içərisində aparıcı yerlərdən birini tutan mineral və termal su bulaqlarının öyrənilməsi ilə tədqiqə başlamışdırlar. Lənkəran-Astara iqtisadi rayonu mineral sular baxımından çox zəngindir. Buradakı termal sularda istilik 45 °C ilə 64 °C arası dəyişir və bu suların tərkibində əsas elementlər kimi azot və metan mövcuddur (Мухтаров & Хаммедов, 2003). Ümumilikdə, Lənkəran ərazisində 157 mineral su çıxışı qeydə alınmışdır ki, bunlardan 38 ədədinin turizm əhəmiyyətli olduğu proqnozlaşdırılmışdır. N.Babaxanov və İ.Əliyev mövzuya dair məqalələrində göstərmişdirlər ki, Çar Rusiyası dövründə ərazinin mineral və termal bulaqlarına olan maraq onların sahib olduğu yüksək müalicə-sağlamlıq xüsusiyyətləri ilə bağlı olmuşdur (Babaxanov & Əliyev, 2020). Tarixi mənbələr göstərir ki, Çar Rusiyası dövründə Azərbaycanın cənub bölgəsində yerləşən mineral və termal bulaqlar təkcə yerli əhali tərəfindən deyil, bölgədə xidmət aparan rus hərbçiləri tərəfindən də sağlamlıq bərpasının effektiv vasitəsi kimi geniş istifadə olunurdu. Bu fakt həmin mənbələrin müalicəvi xüsusiyyətlərinin hələ XIX əsrdə rəsmi şəkildə qeyd edildiyini təsdiq edir.

Həmin dövrün elmi-coğrafi araşdırmalarında azərbaycanlı coğrafiyaşünas Məmmədəli bəy Şəfiyevin adı xüsusilə fərqlənir. Mənbələrdən məlum olur ki, Şəfiyev bu mövzuya dəfələrlə müraciət etmiş, bölgənin termal bulaqlarının təsnifatı və istifadəsi haqqında dövrün elmi mətbuatında xeyli sayda materiallar dərc etdirmişdir. Babaxanov və Əliyevin araşdırmalarında qeyd olunur ki, Məmmədəli bəy Şəfiyevin mineral bulaqlarla bağlı qeydləri hələ 1854-cü ildə Rusiya Coğrafiya Cəmiyyətinin xəbərlərində, bundan əvvəl isə 1853-cü ildə və daha sonra isə 1875-ci ildə rus dilində nəşr olunan "Qafqaz" qəzetində dərc edilmişdir. Həmin yazılar dəqiq coğrafi məlumatlar verdiyinə görə bu gün də mühüm əhəmiyyət kəsb etməkdədir. Onlar həmçinin müalicəvi su ehtiyatlarını təsvir edir və onların istifadəsinə dair elmi qiymətləndirmələri ehtiva edir. (Babaxanov & Əliyev, 2020; Сафиев, 1853, 1854, 1874). Bu fakt göstərir ki, Lənkəran-Astara bölgəsinin balneoloji potensialı hələ XIX əsrin ortalarından etibarən həm yerli, həm də rus elmi ictimaiyyətinin diqqət mərkəzində olmuşdur. Bölgənin əsas turizm ehtiyatlarından hesab olunan mineral bulaqların tədqiqi daha sonrakı dövrdə də sürətlə davam etmişdir. Bununla əlaqədar, 19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərində ərazidə mövzuya dair araşdırmalar aparan D.M.İlyinin, M.Orqanoviçin, A.Konsinin və Q.Çurkin kimi alimlərin tədqiqatlarını misal göstərmək mümkündür.

Azərbaycanda mütəşəkkil turizmin təşkil edilməyə başlandığı XX əsrin əvvəllərindən etibarən turizmin ehtiyatlarının öyrənilməsində yeni mərhələ başlandığı kimi, Lənkəran-Astara zonasındakı tədqiqatlar da daha geniş həcmli və bölgənin bütün resurslarının ümumi və holistik analizi formatına keçid edilmişdir. Ərkivan mineral bulaqları üzərində araşdırma aparan rus alimi V.Vitoviç bu mövzuya dair bir məqaləsini 1924-cü ildə nəşr etdirmişdi. Onun məqaləsinin yekunlara görə, Ərkivan

mineral bulaqları Lənkəran qəzasının mühüm müalicə-resurs kompleksi kimi tanınırdı. Burada təxminən 20 termal bulaq mövcud olmuş və onların suları revmatizm, dəri xəstəlikləri, podaqra və müxtəlif iltihabi xəstəliklərin müalicəsində istifadə edilirdi. Mövsüm ərzində minlərlə insan bölgəyə gəlir, çadırlarda məskunlaşaraq açıq vanna üsulu ilə müalicə alırdı. Lakin sanitar vəziyyət zəif, həkim nəzarəti qeyri-kafi, içməli su və qida təminatı isə məhdud idi. Buna baxmayaraq, Ərkivan sularının müalicəvi təsiri geniş yayılmışdı və əlavə investisiya olunduğu təqdirdə, ərazinin inkişaf etmiş kurort mərkəzinə çevrilə biləcəyi qeyd edilirdi (Витович, 1924).

Yenə həmin dövrdə, 1925-ci ildə S. Anisimov tərəfindən nəşr olunmuş "Qafqaz Səyahət Bələdçisi. Qafqaz Bölgəsi" adlı əsərdə Lənkəran–Astara ərazisinin yerləşən, subtropik iqlimli, meşələrlə və bataqlıqlarla zəngin, məhsuldar torpaqlara malik liman şəhəri kimi səciyyələndirir. Burada çəltikçilik, pambıqçılıq və cənub meyvəçiliyi kimi sahələrin geniş inkişaf etdiyi, liman vasitəsilə meyvə, şərab, balıq, ağac və tərəvəz ixrac olunduğu bildirilir. Kitabda həmçinin turizm–rekreasiya ehtiyatlarına da geniş yer verilmişdir. Lənkəranın yaxınlığında yerləşən Miakun mineral bulaqlarının isti kükürdlü suları müalicəvi xüsusiyyətlərinə görə kurort əhəmiyyətli obyekt kimi qeyd olunur. Həmçinin əhalinin etnik tərkibi, yaşayış məskənlərinin yerləşməsi və məişət xüsusiyyətləri haqqında da geniş təsvirlər verilir. Bəhs olunan əsərdə regionun təbii-coğrafi şəraiti, iqlim xüsusiyyətləri, kurort imkanları və əhalinin həyat tərzi haqqında ətraflı məlumat verilir (Анисимов, 1925).

1928-ci ildə çap etdirdiyi " Azərbaycanın kurortları" kitabında həkim V.Olenov Lənkəran-Astara zonasının geniş sağlamlıq turizmi imkanlarına malik olduğunu qeyd edirdi. Olenova görə, Lənkəran zonası mineral və termal sulardan ibarət geniş müalicə-sağlamlıq resurs bazasına malikdir. Ən çox tanınan mənbələr Ərkivan, Prişib(indiki Göytəpə kəndi), və İbadisu sularıdır. Bu sular dağlıq və meşəlik relyefdə çıxaraq, gündə minlərlə hektolitr su verir, kimyəvi tərkibi isə hidrokarbonatlı, hidrogen-sulfidli və mineral duzlarla zəngindir. Suların temperaturu mənbələrə görə dəyişir: bəzi bulaqlarda 48 °C, digərlərində 62–64 °C, bəzən isə 70–91 °C temperatur qeydə alınır. O həmçinin qeyd edirdi ki, 1925-ci ildən sonra Lənkəran zonasında rəsmi sanatoriya tikintisi başlanmış, 100 çarpayılıq müalicə korpusu, xüsusi vannalar, termal hovuzlar və həkim nəzarəti ilə müalicə sistemi tətbiq edilmişdir. Statistikaya görə, sanatoriya o dövrdə ildə 7–8 min xəstəyə xidmət edirdi (Olenov, 1928).

Müharibədən sonrakı SSRİ dövründə Lənkəran zonasında yerləşən kurortların tədqiqi və onların müalicə-profilaktik əhəmiyyətinin öyrənilməsi məsələsi yenidən elmi gündəmə gətirilmişdir. Bu dövrdə Ş. Həsənovun "Azərbaycan SSR-nin kurortları və onların müalicə əhəmiyyəti" adlı əsərində, həmçinin M. Hüseynov və A. Yeqizarovun həmmüəllifliyi ilə nəşr olunmuş "Sovet Azərbaycanının kurortları" kitabında Lənkəran bölgəsinin kurort potensialı və tibbi-balneoloji xüsusiyyətləri ayrıca tədqiqat obyekti kimi nəzərdən keçirilmişdir (Həsənov, 1959; Hüseynov & Yegizarov, 1960). Bu mərhələdən etibarən Lənkəran bölgəsində turizm infrastrukturunun sistemli şəkildə yenidən qurulması və genişləndirilməsi prosesi həyata keçirilmişdir. Bu inkişafın əsas hərəkətverici amili 1950–1960-cı illərdən başlayaraq nəqliyyat-kommunikasiya şəbəkəsinin modernləşdirilməsi ilə bağlı olmuşdur. 1951-ci ildə dəmir yolunun, 1956-cı ildə isə magistral avtomobil yolunun istifadəyə verilməsi bölgənin SSRİ miqyasında mühüm istirahət və sağlamlıq məkanı kimi formalaşmasına şərait yaratmışdır.

1960–1990-cı illər ərzində Lənkəran–Astara zonasında kurort və sanatoriya infrastrukturu ardıcıl olaraq genişləndirilmiş, müxtəlif turizm obyektləri, hotellər və pansionatlar tikilərək istismara verilmişdir. 1961-ci ildə Meşəsu və Ərkivan mineral sularında yeni kurort tikintisi layihələndirilmiş və qısa müddət ərzində müəssisələr fəaliyyətə hazır vəziyyətə gətirilmişdir. 1971-ci ildə Masallı rayonu ərazisində yerləşən İstisu mineral suları əsasında fəaliyyət göstərən eyniadlı sanatoriya-kurort kompleksi "Xüsusi əhəmiyyətli ümumittifaq müalicəvi kurort sanatoriyası" statusu almışdır.

Turizm mütəxəssislərinin qiymətləndirmələrinə əsasən, 1974–1987-ci illər bölgənin ən intensiv turist qəbul edildiyi dövr olmuşdur. 1972-ci ildə Lənkəran hava limanının istifadəyə verilməsi regionun turizm axınını xeyli artırmış, nəticədə artan tələbat 1987-ci ildə böyük tutumlu yeni otel kompleksinin tikilməsini zəruri etmişdir.

1991-ci ildən etibarən müstəqillikdən sonrakı ilk dövrdə ölkədəki müharibə və işğal şəraiti turizm sektoruna yönəldilən marağın və investisiyanın həcmini azaltsa da, 90-cı illərin ikinci yarısı və 2000-ci illərin əvvəllərindən etibarən turizmə ayrılan dövlət və özəl investitsiyaların miqdarı artmağa başlamışdır. Müstəqillik dövründə Azərbaycan turizminin inkişafı mərhələli şəkildə həyata keçirilmiş, 1999-cu ildən başlayaraq ardıcıl dövlət proqramları qəbul olunmuşdur. Bu mərhələdə tədqiq olunan ərazi ilə bağlı elmi bilik bazasının genişlənməsi müşahidə olunmuşdur. Müasir dövrdə Lənkəran–Astara zonasının turizm və rekreasiya potensialına dair çoxsaylı elmi məqalələr, diplom və magistr işləri, doktorantura dissertasiyaları, monoqrafiyalar və kitablar nəşr edilmişdir. Tədqiqatların istiqaməti iki əsas elmi xətt üzrə formalaşmışdır: birincisi, bölgənin təbii-coğrafi xüsusiyyətlərinin turizm baxımından qiymətləndirilməsinə, ikincisi isə turizmin iqtisadi inkişaf amili kimi öyrənilməsinə həsr olunmuş araşdırmalardır. Beləliklə, dövrün elmi işləri regionun həm coğrafi resurs potensialını, həm də sosial-iqtisadi təsir mexanizmlərini sistemli şəkildə təhlil etmişdir.

Bütün bunlar göstərir ki, regionda turizm ehtiyatlarının öyrənilməsi və istifadəsi ölkə iqtisadi planlamasındakı əsas istiqamətlərdən biri olmuşdur. Xüsusilə qəbul edilən "Strateji Yol Xəritəsi" turizmi qeyri-neft sektorunun əsas istiqaməti kimi müəyyən etmiş və sahənin institusional inkişafını təmin etmişdir. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"-nın yekun hesabatında da göstərildiyi kimi, otel sənayesinin qeyri-neft sektorunda mühüm istiqamətə çevrilməsi turizmin Azərbaycan iqtisadiyyatında prioritet mövqe qazanmasına şərait yaratmışdır. Yalnız paytaxtda deyil, regionlarda da çağdaş standartlara cavab verən mehmanxanaların fəaliyyətə başlaması və turist qəbuluna yönəlmiş kompleks tədbirlərin həyata keçirilməsi sahənin inkişaf tempini artırmış, ölkəyə səfər edən turistlərin sayının yüksəlməsinə zəmin yaratmışdır (todaypress.tv.az, 2025) Eyni zamanda, ölkə ərazisində beynəlxalq səviyyəli idman yarışlarının təşkili, eləcə də nüfuzlu qlobal tədbirlərin və ticarət festivallarının keçirilməsi turizm sektorunun genişlənməsinə əlavə təkan vermiş, həm Azərbaycanı, həm də tədqiq olunan ərazi olan Lənkəran-Astara ərazisini ziyarət edən xarici vətəndaşların sayında nəzərəçarpacaq dərəcədə artım yaratmışdır.

NƏTİCƏ

Aparılan tədqiqatlar göstərir ki, Lənkəran–Astara iqtisadi rayonu Azərbaycan üzrə ən zəngin turizm-rekreasiya ehtiyatlarına malik bölgələrdən biridir. Subtropik iqlimi, dənizlə meşənin birləşdiyi landşaftı, eləcə də mineral sularının müalicəvi xüsusiyyətləri buranı ölkənin ən seçilən turizm zonalarından birinə çevirir. Hələ XIX əsrdən başlayaraq bu ərazi həm yerli, həm də xarici alimlərin diqqətini cəlb etmiş, mineral bulaqların insan sağlamlığına təsiri barədə dəyərli məlumatlar ortaya qoyulmuşdur. Sovet dövründə nəqliyyatın genişlənməsi, kurort və sanatoriyaların tikilməsi turizmi daha da canlandırmış, Lənkəran uzun müddət SSRİ-nin məşhur istirahət məkanlarından biri olmuşdur. Müstəqillik illərində qəbul edilən dövlət proqramları regionun imkanlarını yenidən gündəmə gətirmiş və turizm sahəsində yeni canlanmaya səbəb olmuşdur. Bu gün bölgədə yalnız kurort-sanatoriya deyil, ekoturizm, aqroturizm və çimərlik turizmi də inkişaf etməkdədir. Görünən odur ki, Lənkəran–Astaranın turizm potensialı hələ tam istifadə olunmayıb və düzgün idarəetmə ilə bu bölgə beynəlxalq səviyyədə daha tanınmış turizm mərkəzinə çevrilə bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025). Azərbaycanın demoqrafik göstəriciləri. Bakı: DSK.
2. Paşayev, N. Ə., Əyyubov, N. H., & Eminov, Z. N. (2010). Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası: problemlər, proseslər, konstruktiv aspektlər: ümumi hissə. Bakı: Çıraq.
3. Bilalov, B. (2008). Turizmin tarixi. Bakı: Mütərcim nəşriyyatı.
4. Soltanova, H. (2015). Azərbaycan Respublikasında turizm və onun inkişafı. Bakı: AzTU mətbəəsi.

5. Мухтаров, А. Ш., & Хаммедов, А. М. (2003). Геотермальные ресурсы Азербайджана. Проблемы развития геотермальной энергии в странах СНГ и деятельность международного Геофонда, Москва: ЭНИН им. Г. М. Кржижановского. https://doi.org/10.13140/2.1.4344.1605
6. Babaxanov, N. A., & Əliyev, İ. Ə. (2020). Lənkəranda turizmin inkişafında termal və mineral suların rolu. Pedaqoji Universitetin Xəbərləri. Riyaziyyat və təbiət elmləri seriyası, 68(3), 66–72.
7. Сафиев, М. Мамед-Алибек. (1853). Лянкаранские минеральные источники. Кафказ, №68; №76.
8. Сафиев, М. Мамед-Алибек. (1854). Лянкаранские минеральные источники. Вестник Императорского Русского Географического общества, Ч. XLI, Кн. 2, Отд. В.
9. Сафиев, М. Мамед-Алибек. (1875). Лянкаранские минеральные источники. Кафказ, №76.
10. Витович, В. (1924). Аркеванские минеральные источники в Ленкоранском уезде. Экономический Вестник, 14(59), 14–16.
11. Анисимов, С. (1924). Путеводитель по Кавказу: Кавказский край — книга для туристов, курортных больных и торгово-промышленных деятелей. Москва: Мосполиграф.
12. Olenov, V. İ. (1928). Azərbaycan kurortları (Die Kurorte von Aserbaidjan). Bakı: Xalq səhiyyə komisarlığı.
13. Həsənov, Ş. M. (1959). Azərbaycan SSR-nin kurortları və onların müalicə əhəmiyyəti. Bakı: Birləşmiş nəşriyyat.
14. Hüseynov, M. M., & Yegizarov, A. Q. (1960). Sovet Azərbaycanının kurortları. Bakı: Azərnəşr.
15. TodayPress.az (2025, Noyabr 11). Regionlara səyahətə maraq artır – Hansı rayonlara üstünlük verilir? TodayPress. https://todaypress.tv/az/cemiyyet/regionlara-seyahete-maraq-artir-hansi-rayonlara-ustunluk-verilir-18743

SUMMARY

TOURISM-RECREATION RESOURCES OF THE LANKARAN-ASTARA ECONOMIC REGION, HISTORICAL-GEOGRAPHICAL ASPECTS OF THEIR STUDY

Abdulla Rzayev

The Lankaran-Astara economic region is considered one of the richest regions of Azerbaijan in terms of tourism and recreational potential. The subtropical climate, the coastal zone of the Caspian Sea, dense forest landscapes, as well as mineral and thermal springs are the main factors increasing the tourism attractiveness of the area. The aim of the study is to comprehensively assess the tourism and recreational resources of the economic region and to analyze the characteristics of their development. Historical-geographical analysis, comparative assessment, and statistical data analysis methods were used in the research. The analysis shows that the formation of tourism activities in the region began as early as the 19th century with the study of the therapeutic properties of mineral springs. During the Soviet period, the development of transport networks and resort infrastructure turned the region into a recreation zone of all-Union importance. In the years of independence, state programs accelerated tourism development, and along with resort tourism, ecotourism, agritourism, and beach tourism also developed. The results of the study indicate that despite its rich natural and recreational resources, the region's tourism potential is not yet fully utilized. Rational use of existing opportunities and strengthening of modern infrastructure can contribute to transforming the Lankaran-Astara economic region into an internationally recognized tourism center.

Keywords: *Lankaran-Astara, tourism and recreation resources, mineral springs, thermal springs, medical and health tourism*

РЕЗЮМЕ

ТУРИСТСКО-РЕКРЕАЦИОННЫЕ РЕСУРСЫ ЛЕНКОРАНЬ-АСТАРИНСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА И ИСТОРИКО-ГЕОГРАФИЧЕСКИЕ АСПЕКТЫ ИХ ИЗУЧЕНИЯ

Абдулла Рзаев

Ленкорань-Астаринский экономический район считается одним из регионов Азербайджана, обладающих наиболее богатым природным туристско-рекреационным потенциалом. Субтропический климат, прибрежная зона Каспийского моря, густые лесные ландшафты, а также минеральные и термальные источники являются основными факторами, повышающими туристическую привлекательность территории. Цель исследования заключается в комплексной оценке туристско-рекреационных ресурсов экономического района и анализе особенностей их развития. В работе использованы методы историко-географического анализа, сравнительной оценки и изучения статистических данных. Проведённый анализ показывает, что формирование туристической деятельности в регионе началось ещё в XIX веке с изучения лечебных свойств минеральных источников. В советский период благодаря развитию транспортной сети и курортной инфраструктуры регион превратился в зону отдыха общесоюзного значения. В годы независимости государственные программы придали новый импульс развитию туризма, наряду с курортным туризмом получили развитие экотуризм, агротуризм и пляжный туризм. Результаты исследования показывают, что, несмотря на богатые природные и рекреационные ресурсы, существующий туристический потенциал региона используется не в полной мере. Рациональное использование имеющихся возможностей и укрепление современной инфраструктуры могут способствовать превращению Ленкорань-Астаринского экономического района в один из международных туристических центров.

Ключевые слова: *Ленкорань-Астара, туристско-рекреационные ресурсы, минеральные источники, термальные источники, лечебно-оздоровительный туризм.*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-17
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

MALİYYƏ FIRILDAQÇILIĞININ QARŞISININ ALINMASINDA EKSTREMAL QRADİYENT GÜCLƏNDİRMƏNİN (XGBOOST) ROLU

Zöhr BABAZADƏ
Elm və Təhsil Nazirliyi yanında İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan
**Yazışılan müəllif: babazadezohr@gmail.com*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
XgBoost, fırıldaqçılıqla mübarizə, bank sistemi, maşın öyrənməsi, F1-score

XÜLASƏ
Maliyyə fırıldaqçılığının vaxtında və dəqiq şəkildə aşkarlanması banklar və maliyyə institutları üçün strateji əhəmiyyət daşıyır. Məqalədə maliyyə fırıldaqçılığının aşkarlanmasında Ekstremal Qradiyent Gücləndirmə (Extreme Gradient Boosting – XGBoost) modelinin rolu, üstünlükləri və tətbiq zamanı qarşılaşılan əsas çətinliklərin təhlili edilir. Xüsusilə, fırıldaqçılıq məlumatlarının ciddi sinif balanssızlığı şəraitində XGBoost modelinin yüksək əhatəlilik (recall) əldə etməsinə baxmayaraq, aşağı dəqiqlik (precision) səbəbindən çoxsaylı yalnış müsbət hallar yaratması əsas problem kimi ön plana çıxarılmışdır. Bu kimi məhdudiyyətlərin aradan qaldırılması üçün balanslaşdırma texnikalarının və hibrid yanaşmaların rolu empirik nəticələr əsasında qiymətləndirilmişdir. K-SMOTEENN kimi hibrid resampling metodunun tətbiqinin XGBoost modelinin dəqiqlik–əhatəlilik balansını əhəmiyyətli dərəcədə yaxşılaşdırdığı və beləliklə F1-score kimi əsas göstəricilərdə daha stabil nəticələr verdiyi araşdırmada qeyd edilmişdir. Qraf neyron şəbəkələri vasitəsilə gücləndirilmiş XgBoost modelinin səmərəliliyini artıraraq daha yüksək nəticələr əldə etməsi aşkarlanmışdır. Bundan əlavə, Random Forest və stacking ensemble modelləri ilə aparılan müqayisələr XGBoost-un təkbaşına deyil, daha geniş ansambl və hibrid arxitekturalar daxilində daha səmərəli fəaliyyət göstərdiyini sübut edir.

GİRİŞ

Maliyyə sisteminin qlobal miqyasda rəqəmsallaşdırılması istehlakçılar üçün böyük rahatlıq yaratmaqla yanaşı, həmçinin maliyyə cinayətləri üçün də imkanları əhəmiyyətli dərəcədə genişləndirmişdir. Kredit kartı fırıldaqçılığı üzrə itkilərin dinamikası hər il artan xarakter daşıyır. Statistikalar göstərir ki, qlobal itkilər 2011-ci ildə təxminən 9,84 milyard ABŞ dollarından 2021-ci ildə 32,34 milyard ABŞ dollarına qədər artaraq təxminən üç dəfə yüksəlmişdir (Mienye & Jere, 2024). Bu artım yalnız əməliyyat həcminin genişlənməsi ilə deyil, eyni zamanda cinayətkar şəbəkələrin fəaliyyətində təkmilləşdirilmiş metodların istifadəsini də özündə əks etdirir.

Maliyyə institutları uzun müddət ənənəvi sistemlərə, yəni fırıldaqçılıq tipologiyalarından irəli gələn if–then məntiqinə əsaslanan qayda əsaslı yanaşmalara istinad etmişdir. Bu sistemlər şəffaf olmalarına baxmayaraq, struktur etibarilə dəyişiklərə reaksiya problemi ilə üzləşirlər. Yeni və əvvəllər müşahidə olunmamış fırıldaqçılıq nümunələrini aşkar etmək qabiliyyətinə malik olmamaqla, yüksək yalnış müsbət nəticələrə gətirib çıxarmaqla, aşağı dəqiqliyə səbəb olur (Manchev, 2021). Müasir dövrdə kart əməliyyatlarının həcminin çox böyük olması, iri banklar üçün saatda milyonlarla əməliyyata çata bilməsi qaydaların əl ilə saxlanılmasını həm yoxlama və nəzarət baxımından, həm də insan resursları baxımından praktiki olaraq qeyri-mümkün edir.

Bu boşluqların aradan qaldırılması məqsədilə bank sektoru məlumat əsaslı Maşın Öyrənməsi (Machine Learning – ML) metodlarına keçid etmiş və ya araşdırmalar tərəfindən tövsiyyə edilmişdir. Qaydaya əsaslanan sistemlərdən fərqli olaraq, ML alqoritmləri keçmiş məlumatlar üzərindən müvafiq qərar sərhədlərini avtomatik şəkildə öyrənir ki, bu da fırıldaqçılıq davranışına xas olan əlaqələrin aşkar edilməsinə imkan yaradır. Bu sahədə inkişaf tək xətti modellərdən (məsələn, Logistik Reqressiya, Qərar Ağacları) daha mürəkkəb və yüksək performanslı ansambl metodlarına doğru mərhələli şəkildə yönəlmişdir (Damanik & Liu, 2025).

Bu yanaşmalar arasında Ekstremal Qradiyent Gücləndirmə (Extreme Gradient Boosting – XGBoost) əsas maşın öyrənməsi metodlarından biri hesab olunur. Qradiyentlə gücləndirilmiş qərar ağaclarının (Gradient Boosted Decision Trees – GBDT) miqyaslana bilən reallaşdırılması kimi

təqdim edilən XGBoost, icra sürəti, modelin proqnozlaşdırma qabiliyyəti mexanizmlərinin optimal kombinasiyası sayəsində sənaye üzrə göstəricilərdə və data elmi müsabiqələrində (məsələn, Kaggle IEEE-CIS Fraud Detection) davamlı şəkildə istifadə olunan əsas metod olmuşdur (Zhang et al., 2020). Bununla belə, bank sektorunda XGBoost modelinin tətbiqi sadə proses hesab edilmir. Bu model bir sıra ciddi çətinliklərlə üzləşir ki, onların əsasını balanssız məlumat bazası təşkil edir. Belə ki, fırıldaqçılıq əməliyyatları məlumat bazasında son dərəcə kiçik paya malikdir (<~0,2%) (Khadka, 2025). Eyni zamanda, requlyativ çərçivələr üzrə də modelin izah oluna bilməsinə dair tələblər də XGBoost-un praktik tətbiqini məhdudlaşdıran amillərdən biri hesab edilir (Baisholan et al., 2025).

XGBOOSTİNG VƏ İKİNCİ DƏRƏCƏLİ DÜZÜLÜŞ OPTİMİZASİYASI

Gücləndirmə (boosting) yanaşmasının əsas prinsipi modeldə zəif öyrənən qərar ağaclarının ardıcıl şəkildə qurulmasına əsaslanır. Bu prosesdə hər bir növbəti ağac əvvəlki ansamblın qalıq səhvlərini düzəltməyə yönəlir. Ənənəvi Qradiyent Gücləndirmə Modellərində (GBM) bu mexanizm birinci dərəcəli törəmələrdən (qradiyentlərdən) istifadə edilməklə idarə olunduğu halda, XGBoost itki funksiyasının ikinci dərəcəli Teylor açılımından istifadə edir.

$$\mathcal{L}(t) = \sum_{i=1}^{n} l\left(y_i, \widehat{y_i^{(t-1)}} + f_t(x_i)\right) + \Omega(f_t)$$

Burada,

$\mathcal{L}(t)$ nömrəli iterasiyada modelin itki funksiyasıdır. Bu funksiya modelin cari mərhələdə proqnoz keyfiyyətini ölçür və optimallaşdırma prosesinin əsas hədəfini müəyyən edir.

$\sum_{i=1}^{n} x$ İtkinin bütün müşahidələr üzrə (n) cəmlənməsini ifadə edir. Bu modelin performansını yalnız tək müşahidə üzrə deyil, bütün məlumat dəsti üzrə qiymətləndirməyə imkan verir.

$l(.)$ İtki funksiyasıdır. Modelin verdiyi proqnoz ilə real müşahidə arasındakı fərqi ölçür.

y_i $-$i nömrəli müşahidə üçün real və ya nəticə dəyişədir.

$\widehat{y_i^{(t-1)}}$ Modelin əvvəlki iterasiyaya qədər yaratdığı kumulyativ proqnozdur.

$f_t(x_i)$ - t nömrəli iterasiyada əlavə edilən zəif öyrənən modelin (qərar ağacı) xi müşahidəsi üzrə verdiyi proqnozdur.

$\Omega(f_t)$ – requlyarizasiya terminidir. Modelin overfitting (həddindən artıq uyğunlaşma) olmasının qarşısını alır.

Fırıldaqçılığın aşkarlanması kontekstində, anomaliya (məsələn, səyahət zamanı xaricdə alış veriş edilməsi ilə) ilə real fırıldaq əməliyyatı arasındakı qərar sərhədi son dərəcə incə olduğundan, bu cür dəqiqlik Həqiqi Müsbətlərin Aşkarlanma Dərəcəsinin (True Positive Rate – TPR) maksimuma çatdırılması və Yanlış Müsbətlərin (False Positives) minimallaşdırılması baxımından həlledici əhəmiyyətə malikdir (Kabane, 2024).

Fırıldaqçılıq kimi balanssız məlumatların modelləşdirilməsində ən mühüm risklərdən biri həddindən artıq uyğunlaşmadır (overfitting). Fırıldaq əməliyyatlarının müşahidə sayı çox az olduğundan, requlyarizasiyasız bir model fırıldaqçılığın ümumi və xarakterik xüsusiyyətlərini öyrənmək əvəzinə, məlumat dəstində mövcud olan azsaylı fırıldaq nümunələrinin spesifik xüsusiyyətlərini "əzbərləyə" bilər.

XGBoost alqoritmi bu baxımdan klassik Gradient Boosted Decision Trees (GBDT) və Random Forest modellərindən əsaslı şəkildə fərqlənir. Belə ki, XGBoost-da requlyarizasiya mexanizmi birbaşa məqsəd (itki) funksiyasına inteqrasiya edilmişdir, bu da modelin mürəkkəbliyinə sistemli nəzarət etməyə və oxşar lakin eyni olmayan hadisələrin aşkarlanmasında daha ümumiləşdirilə bilən nəticələr əldə etməyə imkan verir (Kabane, 2024).

XGBOOST-UN DİGƏR MODELLƏRLƏ MÜQAYİSƏSİ

XGBoost ilə Random Forest arasındakı fərqlər bu sahədə ən geniş sənədləşdirilmiş müqayisələrdən biri hesab olunur. Hər iki yanaşma ağac (tree) əsaslı ansambl modelləri olsa da, onların qurulma mexanizmləri gücləndirmə (boosting) və torbalama (bagging) məlumatların xüsusiyyətlərindən asılı olaraq fərqlənir.

Das və həmkarları tərəfindən aparılmış müqayisəli tədqiqatda kredit kartı əməliyyatlarından ibarət məlumat dəsti əsasında XGBoost modeli maksimum 99,96% dəqiqlik səviyyəsinə nail olmuş və Random Forest modelinin 99,95%-lik nəticəsini cüzi fərqlə üstələmişdir (Das et al., 2023). Bu fərq ilk baxışda əhəmiyyətsiz görünsə də, gündə milyonlarla əməliyyatın icra edildiyi bank mühitində 0,01%-lik fərq yüzlərlə səhv təsnif edilmiş əməliyyata ekvivalentdir.

Məlumatların ciddi şəkildə balanssız olduğu fırıldaqçılığın aşkarlanması sahəsində dəqiqlik (accuracy) göstəricisi aldadıcı xarakter daşıyır. Belə ki, bütün əməliyyatları "qanuni" kimi proqnozlaşdıran model belə 99,8% dəqiqlik səviyyəsinə çata bilər. Bu kontekstdə həlledici qiymətləndirmə meyarları Dəqiqlik (Precision) yəni şübhəli kimi işarələnmiş əməliyyatların neçə faizinin həqiqətən fırıldaqçılıq olduğu və Əhatəlilik (Recall) yəni faktiki fırıldaqçılıq hallarının neçə faizinin model tərəfindən aşkarlanması hesab olunur.

Tədqiqat nəticələri göstərir ki, XGBoost modeli adətən Əhatəlilik (Recall) göstəricisi üzrə üstün performans nümayiş etdirir. IEEE Access jurnalında dərc olunmuş bir araşdırmada XGBoost-un 0,98 səviyyəsində recall dəyərinə nail olduğu və bu göstəricinin sınaqdan keçirilmiş digər klassifikatorlar arasında ən yüksək nəticə olduğu qeyd edilmişdir. Lakin bu üstünlük Dəqiqlik (Precision) hesabına əldə edilmişdir. Dəqiqlik göstəricisi 0,47 olmuş və nəticədə F1-göstəricisi (0,64) həmin konfiqurasiyada balanslaşdırılmış Random Forest modeli ilə müqayisədə daha aşağı səviyyədə qeydə alınmışdır (Damanik & Liu, 2025). Bu fakt XGBoost-un fırıldaqçılığın aşkarlanmasında yüksək aqressivliyə malik olduğunu, yəni çoxsaylı qanuni əməliyyatları da şübhəli kimi işarələyə bildiyini (yalnış müsbət nəticələr – False Positives) göstərir. Banklar üçün bu vəziyyət kompromis yaradır: yüksək əhatəlilik (recall) birbaşa fırıldaqçılıq itkilərini minimuma endirsə də, aşağı dəqiqlik (precision) əməliyyat xərclərinin (əl ilə yoxlamaların artması) və müştəri narazılığının (kart əməliyyatlarının əsassız rədd edilməsi) yüksəlməsinə səbəb ola bilər.

Fırıldaqçılığın aşkarlanmasında əsas fundamental problem kəskin balanssızlığıdır. Geniş şəkildə etalon (benchmark) kimi istifadə olunan Avropa Kredit Kartı məlumat bazasında 284.807 əməliyyatdan cəmi 492-si fırıldaqçılıq xarakterlidir ki, bu da ümumi əməliyyatların yalnız 0,172%-ni təşkil edir. Belə bir məlumat dəsti üzərində təlim keçirilmiş standart XGBoost modeli bütün əməliyyatları "qanuni" kimi proqnozlaşdırmaqla 99,8% dəqiqlik səviyyəsinə çata bilər ki, bu da praktik baxımdan tamamilə faydasız bir nəticə deməkdir (Khadka, 2025). Elmi ədəbiyyatda XGBoost-un bu dərəcədə qeyri-bərabər paylanmış mühitdə səmərəli fəaliyyət göstərə bilməsi üçün bir sıra kritik müdaxilələrin zəruri olduğu vurğulanır.

Modelin işləmə məntiqində balanssızlığın nəzərə alınması məqsədilə scaling_pos_weight adlı daxili hiperparametr mövcuddur. Bu parametr geriyə müsbət sinfin, yəni fırıldaqçılıq əməliyyatlarının qradiyentlərini miqyaslandırmaqla, modelin nadir sinfə qarşı həssaslığını artırmağa xidmət edir (XGBoost Developers, 2019).

$$scale_pos_weight = \frac{Say(Qanuni\ əməliyyatlar)}{Say(Fırıldaqçılıq\ əməliyyatları)}$$

Bu parametr əhatəliliyi artırmaqla, fırıldaqçılıq hallarının modeldəki dəyərini artırır. Beləliklə, model müxtəlif fırıldaqçılıq hallarını aşkarlamaq qabiliyyətinə malik olsa belə, bu aşağı dəqiqlik (precision) hesabına baş verir. Daha çox yanlış müsbətlər ortaya çıxır. Lakin, əhatəlilik və dəqiqlik balanssız məlumat bazasında göstərici kimi kifayət etmir. Bunun üçün F1 göstəricisi əsas hesab olunur. F1 göstərici (F1 score) yalnız hər iki göstərici (əhatəlilik və dəqiqlik) yüksək olduqda yüksək nəticə göstərir.

$$F1 = 2 * \frac{Dəqiqlik\ (precision) * Əhatəlilik\ (recall)}{Dəqiqlik\ (precision) + Əhatəlilik\ (recall)}$$

Yuxarıda qeyd olunan düstura əsasən, əgər bir göstərici aşağı olarsa, F1 göstəricisi əsaslı dərəcədə aşağı nəticə göstərir. Bu isə modelin səmərəli işləyib işləmədiyini bilmək üçün əsas göstəricilərdən biri hesab olunur.

XGBOOST VƏ QRAF NEYRON ŞƏBƏKƏLƏRİ

NVIDIA tərəfindən paylaşılan bir məqalədə qeyd olunur ki, XGBoost kimi ənənəvi maşın öyrənməsi modelləri əməliyyat səviyyəsində fırıldaqçılığın aşkarlanmasında yüksək səmərəliliyə

malik olsa da, əlaqəli və şəbəkə xarakterli fırıldaqçılıq sxemlərini tam şəkildə əhatə edə bilmir. Maliyyə fırıldaqçılığı adətən tək-tək əməliyyatlardan ibarət olmur. Bu adətən bir neçə hesab və şəxslər arasında koordinasiyalı fəaliyyət formasında baş verir. Bu boşluğu doldurmaq üçün məqalə Qraf Neyron Şəbəkələrini (Graph Neural Networks – GNN) təqdim edir. GNN-lər tranzaksiyaları əlaqəli qraf strukturu kimi modelləşdirərək ənənəvi modellərin görə bilmədiyi gizli əlaqələri üzə çıxarır və bu, mürəkkəb fırıldaqçılıq sxemlərinin aşkarlanmasını əhəmiyyətli dərəcədə gücləndirir (Naim et al., 2025).

GNN-lər qraf əsaslı vektor təsvirlər yaradır və bunlar XGBoost modelinə giriş dəyişənləri kimi ötürülür. Beləliklə, GNN-lərin əlaqə əsaslı analitik gücü XGBoost-un sürətli, izaholunan və miqyaslana bilən təsnifat imkanları ilə birləşdirilir. Nəticədə daha yüksək əhatəlilik (recall), daha az yalnış pozitiv və real vaxt rejimində daha səmərəli fırıldaqçılıq nəzarəti əldə olunur. Məqalə göstərir ki, XGBoost bu sistemlərdə əvəz edilmir, əksinə qraf əsaslı dərin öyrənmə ilə gücləndirilmiş əsas model rolunu oynayır (Naim et al., 2025).



Şəkil 1: Qraf əsaslı və GNN-lə gücləndirilmiş fırıldaqçılıq aşkarlama sistemlərində istifadə olunan maliyyə subyektləri və onların əlaqələrinin konseptual təsviri
Mənbə: https://www.slideteam.net/financial-fraud-detection-graph-analytics-model.html - Şəkil Nano Banana modeli vasitəsilə tərcümə edilərək generasiya edilmişdir.

Şəkil 1-də düyünlər bank hesabları, kredit kartları, telefon nömrələri, sosial sığorta nömrələri (SSN), ünvanlar və sintetik şəxsiyyətlər kimi maliyyə subyektlərini, kənarlar isə bu subyektlər arasında mövcud olan əlaqələri (paylaşılan məlumatlar və ya maliyyə münasibətləri) təmsil edir. Vizual struktur bir neçə hesabın və şəxsiyyətin dolayı yollarla eyni atributlar üzərindən əlaqələndiyini göstərərək sintetik şəxsiyyət fırıldaqçılığı və koordinasiyalı təminatsız kredit sui-istifadəsi kimi mürəkkəb risk nümunələrini üzə çıxarır.

Bu şəkil birbaşa neyron şəbəkəni təsvir etməsə də, Qraf Neyron Şəbəkələrinin (GNN) işləmə məntiqi ilə uyğun gəlir. GNN yanaşmasında hər bir düyün qonşu düyünlərdən məlumat toplayaraq əlaqə əsaslı risk siqnallarını öyrənir. Məsələn, eyni telefon nömrəsi və ya ünvanla əlaqəli bir neçə hesabın mövcudluğu yüksək fırıldaqçılıq riski göstəricisi kimi modelləşdirilə bilər. Nəticədə əldə olunan düyünlərin vektor təsvirləri (embeddings) sonrakı emal mərhələsində XGBoost kimi təsnifat modellərinə ötürülərək fırıldaqçılığın daha dəqiq aşkarlanmasına imkan yaradır.

XGBOOST VƏ K-SMOTEENN

K-SMOTEENN sinif balanssızlığı problemini həll etmək üçün K-means klasterləşdirməni, SMOTE əsaslı sintetik nümunə yaradılmasını və Edited Nearest Neighbors (ENN) ilə modeldə səs-küyün təmizlənməsini birləşdirən hibrid resampling metodudur. Bu yanaşma azlıq sinfinin (fırıldaq əməliyyatlarının) təmsilolunmasını artırmaqla yanaşı, yanlış və qeyri-reprezentativ nümunələri aradan qaldıraraq modelin ümumiləşmə qabiliyyətini gücləndirir (Damanik & Liu, 2025). Son tədqiqatlar göstərir ki, XGBoost fırıldaqçılığın aşkarlanmasında yüksək əhatəlilik (recall) əldə etsə də, ciddi sinif balanssızlığı şəraitində dəqiqlik (precision) göstəricisi zəifləyir. Damanik və Liu (2025) bu məhdudiyyəti empirik şəkildə təsdiqləyərək, K-SMOTEENN ilə gücləndirilmiş stacking ensemble modellərinin precision–recall balansını əhəmiyyətli dərəcədə yaxşılaşdırdığını nümayiş etdirir. Bu nəticələr XGBoost-un təkbaşına deyil, daha geniş və hibrid aşkarlama arxitekturaları daxilində daha səmərəli olduğunu göstərir.

Cədvəl 1

Xüsusiyyət konstruksiyası və K-SMOTEENN tətbiq edilmədən əldə olunan performans göstəriciləri

Model	Düzgünlük (Accuracy)	F1 score	Əhatəlilik (Recall)	Dəqiqlik (Precision)	AUPRC	ROC
Random Forest	1	0.79	0.68	0.95	0.84	0.96
XgBoost	1	0.41	0.98	0.26	0.92	1

Cədvəl 2

Xüsusiyyət konstruksiyası və K-SMOTEENN tətbiq edildikdən sonra performans göstəriciləri

Model	Düzgünlük (Accuracy)	F1 score	Əhatəlilik (Recall)	Dəqiqlik (Precision)	AUPRC	ROC
Random Forest	1	0.86	0.79	0.96	0.76	0.97
XgBoost	1	0.64	0.98	0.47	0.94	1

Mənbə: Damanik, N., & Liu, C.-M. (2025). https://doi.org/10.1109/ACCESS.2025.3528079

Əgər Cədvəl 1-ə nəzər yetirsək, əhatəliliyin XgBoost modeli üzrə əhatəliliyin 0.98 olması o deməkdir ki, bütün fırıldaq əməliyyatları aşkar edilir. Lakin dəqiqliyin 0.26 olması aşkar edilən əməliyyatların böyük hissəsinin yanlış müsbətlər olması deməkdir. Bu isə özünü aşağı F1-scoreda (0.41) göstərir. Random Forest isə daha konservativ qərar mexanizmi quraraq yalnış pozitivləri minimuma endirir, lakin bu, müəyyən fırıldaq hallarının aşkar edilməməsi bahasına baş verir.

Cədvəl 2-ə nəzər yetirsək görərik ki, K-SMOTEENN tətbiqi XGBoost-un əsas zəif cəhətini yəni aşağı dəqiqlik problemini qismən aradan qaldırır. Model yüksək əhatəlilik səviyyəsini qoruyaraq daha az yalnış pozitiv yaradır. Bu, balanslaşdırılmış məlumatın XGBoost üçün kritik əhəmiyyət daşıdığını göstərir. Random Forest balanslaşdırmadan sonra həm daha çox fırıldaqçılıq hallarını aşkar edir, həm də yüksək dəqiqlik səviyyəsini saxlayır. Bu, modelin ümumiləşmə qabiliyyətinin gücləndiyini göstərir.

NƏTİCƏ

Aparılan araşdırmalar göstərir ki, XGBoost yüksək proqnozlaşdırma qabiliyyəti, sürətli icra mexanizmi və güclü optimallaşdırma xüsusiyyətləri sayəsində fırıldaqçılıq aşkarlanmasında səmərəli alət olsa da, ciddi sinif balanssızlığı şəraitində təkbaşına istifadə edildikdə əməliyyat baxımından risklər yaradır. Modelin yüksək əhatəlilik (recall) əldə etməsi çox vaxt aşağı dəqiqlik (precision) hesabına baş verir ki, bu da bank mühitində yalnış pozitivlərin artmasına, əməliyyat xərclərinin yüksəlməsinə və müştəri məmnuniyyətinin azalmasına səbəb ola bilər.

Tədqiqat nəticələri balanslaşdırma texnikalarının və məlumat səviyyəli müdaxilələrin XGBoost-un səmərəliliyində həlledici rol oynadığını göstərir. K-SMOTEENN kimi hibrid resampling metodlarının tətbiqi XGBoost-un dəqiqlik-əhatəlilik balansını əhəmiyyətli dərəcədə

yaxşılaşdıraraq modelin ümumiləşmə qabiliyyətini gücləndirir. Cədvəllər üzrə aparılan müqayisəli analizlər sübut edir ki, balanslaşdırılmış məlumat üzərində təlim keçmiş XGBoost modeli daha stabil F1-score göstəriciləri nümayiş etdirir. Bununla yanaşı, Random Forest kimi ansambl modellərinin daha konservativ qərar mexanizmi quraraq yalnış pozitivləri azaltması, lakin müəyyən fırıldaq hallarını qaçırması, model seçiminin bankların risk iştahına və əməliyyat prioritetlərinə uyğun şəkildə aparılmasının vacibliyini bir daha vurğulayır.

ƏDƏBİYYAT

1. Mienye, I. D., & Jere, N. (2024). Deep learning for credit card fraud detection: A review of algorithms, challenges, and solutions. IEEE Access, 12, 96893–96910. https://doi.org/10.1109/ACCESS.2024.3426955
2. Manchev, N. (2021, April 21). Credit card fraud detection using XGBoost, SMOTE, and threshold moving. Domino Data Lab. https://domino.ai/blog/credit-card-fraud-detection-using-xgboost-smote-and-threshold-moving
3. Damanik, N., & Liu, C.-M. (2025). Advanced fraud detection: Leveraging K-SMOTEENN and stacking ensemble to tackle data imbalance and extract insights. IEEE Access, 13, 10356–10370. https://doi.org/10.1109/ACCESS.2025.3528079
4. Zhang, Y., Tong, J., Wang, Z., & Gao, F. (2020). Customer transaction fraud detection using XGBoost model. 2020 International Conference on Computer Engineering and Application (ICCEA), 554–558. https://doi.org/10.1109/ICCEA50009.2020.00122
5. Khadka, A. (2025). Credit card fraud detection via model retraining and fine-tuning [Article, University of Texas at Arlington]. MavMatrix. https://mavmatrix.uta.edu/cse_studentresearch/1
6. Baisholan, N., Dietz, J. E., Gnatyuk, S., Turdalyuly, M., Matson, E. T., & Baisholanova, K. (2025). FraudX AI: An interpretable machine learning framework for credit card fraud detection on imbalanced datasets. Computers, 14(4), Article 120. https://doi.org/10.3390/computers14040120
7. Brenndoerfer, M. (2025, July 18). XGBoost: Complete guide to extreme gradient boosting with mathematical foundations, optimization techniques & Python implementation. Michael Brenndoerfer. https://mbrenndoerfer.com/writing/xgboost-extreme-gradient-boosting-complete-guide-mathematical-foundations-python-implementation
8. Kabane, S. (2024). Impact of sampling techniques and data leakage on XGBoost performance in credit card fraud detection. arXiv. https://doi.org/10.48550/arXiv.2412.07437
9. Das, S. R., Bin Sulaiman, R., & Butt, U. (2023). Comparative analysis of machine learning algorithms for credit card fraud detection. FMDB Transactions on Sustainable Computing Systems, 1(4), 225–244. https://www.fmdbpub.com/uploads/articles/170961178515234.%20FTSCS-106-2023.pdf
10. XGBoost Developers. (2019). XGBoost parameters (Version 0.82) [Computer software documentation]. Read the Docs. https://xgboost.readthedocs.io/en/release_0.82/parameter.html
11. Naim, M., Rees, B., & Liu, S. (2025, June 2). Supercharging fraud detection in financial services with graph neural networks [Blog post]. NVIDIA Technical Blog. https://developer.nvidia.com/blog/supercharging-fraud-detection-in-financial-services-with-graph-neural-networks/

ABSTRACT

THE ROLE OF EXTREME GRADIENT BOOSTING (XGBOOST) IN THE PREVENTION OF FINANCIAL FRAUD

Zohr Babazade

The timely and accurate detection of financial fraud is of strategic importance for banks and financial institutions. This paper analyzes the role, advantages, and main challenges encountered during the implementation of the Extreme Gradient Boosting (XGBoost) model in financial fraud detection. Specifically, the issue of the XGBoost model generating numerous false positives due to low precision—despite achieving high recall under conditions of severe class imbalance in fraud data—is highlighted as a primary concern. To mitigate these limitations, the role of balancing techniques and hybrid approaches has been evaluated based on empirical results. The study notes that the application of a hybrid resampling method, such as K-SMOTEENN, significantly improves the precision-recall balance of the XGBoost model, thereby yielding more stable results in key metrics like the F1-score. It was also found that enhancing the XGBoost model through Graph Neural Networks increases its efficiency and leads to superior results. Furthermore, comparisons with Random Forest and stacking ensemble models demonstrate that XGBoost performs more effectively within broader ensemble and hybrid architectures rather than in isolation.

Keywords: *XGBoost, fraud detection, banking system, machine learning, F1-score*

РЕЗЮМЕ

РОЛЬ ЭКСТРЕМАЛЬНОГО ГРАДИЕНТНОГО БУСТИНГА (XGBOOST) В ПРЕДОТВРАЩЕНИИ ФИНАНСОВОГО МОШЕННИЧЕСТВА

Зохр Бабазаде

Своевременное и точное выявление финансового мошенничества имеет стратегическое значение для банков и финансовых институтов. В статье анализируются роль, преимущества и основные трудности, возникающие при применении модели Extreme Gradient Boosting (XGBoost) для обнаружения финансового мошенничества. В частности, в качестве основной проблемы выделяется то, что в условиях серьезного дисбаланса классов данных о мошенничестве модель XGBoost, несмотря на достижение высокой полноты (recall), генерирует множество ложноположительных срабатываний из-за низкой точности (precision). Для устранения подобных ограничений на основе эмпирических результатов была оценена роль методов балансировки и гибридных подходов. В исследовании отмечается, что применение гибридного метода ресемплинга, такого как K-SMOTEENN, значительно улучшает баланс точности и полноты модели XGBoost, обеспечивая более стабильные результаты по ключевым показателям, таким как F1-score. Было выявлено, что усиление модели XGBoost с помощью графовых нейронных сетей повышает ее эффективность и позволяет достичь более высоких результатов. Кроме того, сравнения с моделями Random Forest и стекингом ансамблей (stacking ensemble) доказывают, что XGBoost работает более эффективно не изолированно, а в составе более широких ансамблевых и гибридных архитектур.

Ключевые слова: *XGBoost, борьба с мошенничеством, банковская система, машинное обучение, F1-score*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-18
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

RƏQƏMSAL ÖDƏNİŞ SİSTEMLƏRİNİN TƏHLİLİ VƏ ONLARIN AZƏRBAYCANIN ELEKTRON TİCARƏT SEKTORUNDA ROLU

Vəkil ƏLƏKBƏRLİ
Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif: elekberov.vekil.1@gmail.com*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
rəqəmsal ödənişlər, elektron ticarət, fintex (fintech), mobil bankçılıq, kibertəhlükəsizlik

XÜLASƏ
Rəqəmsal ödəniş sistemlərinin inkişafı qlobal elektron ticarət sektorunun genişlənməsinin əsas hərəkətverici qüvvələrindən birinə çevrilmişdir. Nağdsız əməliyyatların artması, mobil bankçılığın yayılması və sürətli ödəniş infrastrukturlarının qurulması həm istehlakçı davranışını dəyişmiş, həm də bizneslərin fəaliyyət modelini köklü şəkildə yeniləmişdir. Rəqəmsal ödənişlər sürət, rahatlıq, şəffaflıq, təhlükəsizlik və transsərhəd əməliyyat imkanları baxımından mühüm üstünlüklər yaradır. Bununla belə, kibertəhlükələr, hüquqi tənzimləmə boşluqları, şəxsi məlumatların qorunması və texnoloji savadlılıq kimi problemlər elektron ödəniş sistemlərinin davamlı inkişafını məhdudlaşdıra bilir.
Azərbaycanın rəqəmsal ödəniş ekosistemi son illərdə dinamik inkişaf mərhələsinə qədəm qoymuşdur. Dövlət proqramları, Mərkəzi Bankın Milli Ödəniş Sistemində modernizasiya, mobil tətbiqlərin geniş istifadəsi və bank-fintech əməkdaşlıqları ölkədə elektron ticarətin sürətlə böyüməsini dəstəkləyir. Statistik göstəricilər nağdsız əməliyyatların, POS və QR ödənişlərinin, NFC texnologiyalarının və mobil bank istifadəçilərinin sayında ciddi artımı göstərir.
Azərbaycan Beynəlxalq Bankının (ABB) ABB Mobile, QR ödənişləri, ABB Miles kartları və onlayn POS həlləri ölkənin e-ticarət bazarında rəqəmsal ödənişlərin inkişafına xüsusi töhfə verir. Bank tərəfindən tətbiq edilən təhlükəsizlik protokolları və innovativ xidmətlər həm istifadəçilərin inamını artırır, həm də sahibkarlara yeni satış imkanları yaradır.
Ümumilikdə, rəqəmsal ödəniş sistemlərinin təkmilləşdirilməsi elektron ticarətin davamlı böyüməsi üçün əsas şərtlərdən biridir.

GİRİŞ

Qlobal iqtisadiyyatın sürətlə rəqəmsallaşdığı bir dövrdə elektron ticarət və rəqəmsal ödəniş sistemləri müasir iqtisadi fəaliyyətin əsas struktur elementlərindən birinə çevrilmişdir. İnformasiyanın yüksək sürətlə mübadiləsi, internetin geniş əlçatanlığı və mobil texnologiyaların inkişafı nəticəsində həm istehlakçı davranışında, həm də biznes proseslərində fundamental dəyişikliklər baş vermişdir. Bu dəyişikliklərin ən mühüm istiqamətlərindən biri rəqəmsal ödəniş ekosisteminin formalaşması və onun elektron ticarətin genişlənməsinə verdiyi təsirdir.

Aktuallıq: Elektron ticarət bazarının fasiləsiz genişlənməsi, nağdsız ödənişlərin payının artması və qlobal miqyasda rəqəmsal ödəniş texnologiyalarının sürətli inkişafı bu mövzunun aktuallığını daha da artırır. COVID-19 pandemiyası rəqəmsal ödənişlərin həm təhlükəsizlik, həm əlçatanlıq baxımından əvəzolunmaz olduğunu göstərmiş, bir çox ölkələrdə olduğu kimi Azərbaycanda da rəqəmsal maliyyə xidmətlərinə keçidi sürətləndirmişdir. Dövlət proqramları, mobil bankçılığın yayılması, PSD2-yə uyğun açıq bankçılıq təşəbbüsləri və fintech ekosisteminin genişlənməsi bu prosesin davamlı olacağını göstərir.

Məqsəd: Tədqiqatın əsas məqsədi rəqəmsal ödəniş sistemlərinin elektron ticarətin inkişafında oynadığı rolu müəyyənləşdirmək, bu sahədə mövcud tendensiyaları, problemləri və təhlükəsizlik məsələlərini təhlil etmək, həmçinin ABB nümunəsində real tətbiqlərin effektivliyini qiymətləndirməkdir.

Obyekt: Tədqiqatın obyekti Azərbaycan Respublikasının rəqəmsal ödəniş infrastrukturu, elektron ticarət sektoru və bu sahədə fəaliyyət göstərən bank-fintech iştirakçılarıdır.
Predmet: Rəqəmsal ödəniş sistemlərinin texnoloji xüsusiyyətləri, təhlükəsizlik mexanizmləri, tənzimləmə çərçivəsi və onların e-ticarət sektoruna iqtisadi təsiridir.

ƏSAS HİSSƏ

Rəqəmsal ödəniş sistemləri – müasir texnologiyaların inkişafı nəticəsində formalaşan, mal və xidmətlərə görə ödənişlərin internet və mobil cihazlar vasitəsilə həyata keçirilməsinə imkan yaradan texnoloji platformalardır. Bu sistemlər ənənəvi nağd ödəniş formalarını əvəz edərək, maliyyə əməliyyatlarının daha sürətli, təhlükəsiz və rahat şəkildə baş verməsini təmin edir. Rəqəmsal ödənişlər həm fiziki, həm də onlayn mühitlərdə tətbiq olunur və bu, onların geniş yayılmasına şərait yaradır.

Rəqəmsal ödəniş sistemləri – mal və xidmətlərin ödənilməsi prosesini internet və ya mobil texnologiyalar vasitəsilə həyata keçirməyə imkan verən texnoloji platformalardır. Bu sistemlərə aşağıdakılar daxildir:

- Mobil ödənişlər (Apple Pay, Google Pay)
- Elektron pul kisələri (PayPal, Alipay, Yandex.Money)
- Bank kartları ilə onlayn ödəniş
- QR kod və NFC texnologiyaları ilə ödənişlər
- Kriptovalyuta ödənişləri (Bitcoin, Ethereum və s.)

Bu texnologiyalar sürətli, təhlükəsiz və istifadəçi dostu olması ilə elektron ticarətin inkişafında əsas vasitələrə çevrilmişdir.

Cədvəl 1

Rəqəmsal ödəniş sistemlərinin əsas növləri

Sistem Növü	**Nümunələr**	**Xüsusiyyətlər**
Mobil Pulqabılar	Apple Pay, Google Pay, Alipay	Tezlik, biometrik təhlükəsizlik, NFC dəstəyi
Elektron Pul Kisələri	PayPal, Skrill, WebMoney	Qlobal tranzaksiya, fərdi hesablar
Bank Ödənişləri	Online Banking, Instant Transfer	Bank təminatlı təhlükəsizlik, geniş tətbiq sahəsi
Kriptovalyutalar	Bitcoin, Ethereum	Mərkəzsiz, qeyri-tənzimlənən, spekulyativ risklər
QR Kodu ilə Ödəniş	mPOS, Bakcell QR	Kiçik bizneslərdə rahat istifadə olunur

Mənbə: World Bank, Global Findex Database 2021

Rəqəmsal ödəniş sistemlərinin qlobal miqyasda sürətlə yayılması onların gündəlik həyatın ayrılmaz hissəsinə çevrildiyini göstərir. İnnovativ texnologiyalar sayəsində bu sistemlər alış-verişdən tutmuş kommunal xidmətlərə, vergi ödənişlərindən tutmuş beynəlxalq pul köçürmələrinə qədər geniş spektrli əməliyyatlarda tətbiq olunur. Bununla belə, bu texnologiyaların geniş istifadəsi onların həm faydalı tərəflərini, həm də müəyyən risk və çətinliklərini gündəmə gətirir. Aşağıda rəqəmsal ödənişlərin əsas üstünlükləri və qarşılaşılan çatışmazlıqlar ətraflı şəkildə təhlil olunur.

Cədvəl 2.

Rəqəmsal Ödənişlərin Üstünlükləri və Çatışmazlıqları

Üstünlüklər	***Çatışmazlıqlar***
1. Sürət və rahatlıq – əməliyyatlar saniyələr içində baş verir	**1. Texniki asılılıq** – internet və cihaz problemi zamanı ödəniş mümkün olmur
2. Təhlükəsizlik – iki faktorlu identifikasiya, biometrik giriş imkanları	**2. Kibertəhlükələr** – haker hücumları, məlumat oğurluğu riskləri
3. İzlənəbilənlik – bütün ödənişlərin hesabatı avtomatik aparılır	**3. Şəxsi məlumatların qorunması riski** – istifadəçi məlumatları üçün təhdid
4. İnnovativ imkanlar – cashback, bonuslar, loyallıq proqramları	**4. Texnoloji savad tələb edir** – yaşlı və texnologiyadan uzaq qruplar üçün çətinlik
5. Nağdsız iqtisadiyyata keçidə dəstək – şəffaflıq və korrupsiyanın azalması	**5. Hüquqi tənzimləmə boşluqları** – xüsusilə kriptovalyutalarda qeyri-müəyyənlik
6. Beynəlxalq əməliyyat imkanı – valyutalararası sürətli ödənişlər	**6. Komissiyalar** – bəzi platformalarda yüksək əməliyyat xərcləri ola bilər

Mənbə: BIS, Digital Payments and Literacy Metrics 2024

Rəqəmsal ödəniş sistemləri müasir iqtisadiyyat üçün əvəzolunmaz vasitəyə çevrilsə də, onların tətbiqi zamanı risklər və texnoloji baryerlər nəzərə alınmalıdır. Səmərəli hüquqi tənzimləmə, kiber təhlükəsizlik və əhalinin maliyyə savadlılığının artırılması bu çatışmazlıqların azaldılmasında əsas rol oynayır.

Azərbaycanın rəqəmsal ödəniş bazarı son illərdə sürətli inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu inkişaf həm texnoloji yeniliklərin tətbiqi, həm də dövlətin təşviqedici siyasəti nəticəsində mümkün olmuşdur. Dövlət və özəl sektorun təşəbbüsləri nəticəsində rəqəmsal ödənişlərin əhatə dairəsi genişlənmiş, vətəndaşlar və sahibkarlar üçün daha sürətli, şəffaf və təhlükəsiz maliyyə əməliyyatları həyata keçirmək mümkün olmuşdur. 2023-cü ilin nəticələri, ölkədə nağdsız ödənişlərin artdığını, mobil bankçılıq xidmətlərinin geniş yayıldığını və POS-terminal infrastrukturunun gücləndirildiyini göstərir. Bu sahədəki ən aktual statistik göstəricilərə nəzər yetirək:

- Nağdsız əməliyyatların adambaşına düşən illik sayı: 130 ədəd
- Ani ödənişlərin Milli Ödəniş Sistemi (MÖS) əməliyyatlarında çəkisi: 5%
- Kart əməliyyatlarında nağdsız ödənişlərin xüsusi çəkisi: təxminən 52.6%
- POS-terminalların sayı: təxminən 73,000
- Mobil bank istifadəçilərinin sayı: təxminən 3.2 milyon nəfər

Son illərdə qlobal rəqəmsal transformasiya dalğası Azərbaycan maliyyə sektoruna da güclü təkan verərək nağdsız ödənişlərin geniş yayılmasına səbəb olmuşdur. Dövlətin "Nağdsız Ödənişlər üzrə 2021-2025-ci illər Dövlət Proqramı", Mərkəzi Bankın Milli Ödəniş Sisteminin modernizasiyası və aparıcı bank-fintech əməkdaşlıqları ölkədə real-time köçürmələrdən tutmuş mobil super-app ekosistemlərinə qədər bütün sahələrdə radikal yeniliklərə yol açıb (Media.az, 2023: s.69). Aşağıda Azərbaycanın rəqəmsal ödəniş bazarının mövcud durumu təhlil edilib.

Cədvəl 3

Strateji və normativ mühit

Göstərici	*Əsas məqamlar*
"Nağdsız Ödənişlər üzrə Dövlət Proqramı" (2021-2025)	Ticarət dövriyyəsində nağdsız ödənişlərin payını 2025-ci ilə qədər 70 %-ə çatdırmağı hədəfləyir.
Milli Ödəniş Sisteminin (MÖS) modernizasiyası	Real-time gross settlement (AZIPS 2.0) və daha sürətli retail ödəniş sistemi (FAST) 2024-də işə salınıb; 24/7 dərhal köçürmə imkanı.
PSD2-yə yaxın açıq bankçılıq normaları (2024 layihəsi)	Bank API-ləri üçün minimum texniki tələblər müəyyən olunub; fintech-lərin lisenziyalaşdırılması sadələşdirilir.
Hüquqi status	Rəqəmsal ödəniş xidmətlərini Azərbaycan Mərkəzi Bankı (AMB) tənzimləyir; kriptovalyutalar hələ rəsmi ödəniş vasitəsi kimi tanınmır, lakin "Rəqəmsal aktivlərin dövriyyəsi haqqında" qanun layihəsi 2025 yaz sessiyasında müzakirədədir.

Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 4

Bazar həcmi

Göstərici	*2019*	*2021*	*2023*	*2024**
Elektron ödənişlərin pulu dövriyyədə ümumi payı	34 %	43 %	52.6 %	≈ 58 %
POS terminallarının sayı	54 000	61 500	73 200	≈ 80 000
Mobil bank istifadəçiləri	1.8 mln	2.4 mln	3.2 mln	≈ 3.6 mln
QR-koda əsaslanan ödənişlər (əməliyyat sayı, mln)	1.5	5.8	14.2	≈ 22

NFC kontaktız kart/pay istifadə nisbəti (pərakəndə əməliyyatların %)	21 %	46 %	68 %	≈ 74 %

Mənbə: (Media.az, 2023: s.69)

Cədvəl 5

Liderlər və məhsul xətti

Seqment	*Liderlər*	*Fəaliyyətin qısa təsviri*
Bank mobil tətbiqləri / super-app-lər	Birbank (Kapital Bank), ABB Mobile, Rabitəbank, Yelo	Hesab-kart idarəsi, sürətli daxili və beynəlxalq köçürmələr (FAST, Visa Direct), hesabla ödəniş, QR-POS, "split bill" funksiyası.
Elektron cüzdan və ödəniş xidmətləri	eManat, Portmanat, PashaPay (m10)	Kommunal, cərimə, game top-up; eManat 3500+ fiziki terminalla omnichannel model saxlayır.
Fintech startaplar	Wipay, PayKart, Payrup	Abunəlik idarəsi, B2B invoicing API-ləri, mikro-kredit inteqrasiyası.
QR-ökosistemini genişləndirənlər	İBA QR, Milliön QR, IQR	Bank kartını telefona bağlayaraq statik/dinamik QR ilə ödəniş; SMB-lər üçün aparat tələb etmir.
BigTech inteqrasiyası	Apple Pay (2023-dən), Google Pay, Samsung Pay	Hal-hazırda 10 bank Apple Pay-i, 14 bank Google Pay-i dəstəkləyir; tokenləşdirmə xidmətini Visa & Mastercard regional hub-u təmin edir.

Mənbə: Carretero, Vuorikari & Punie, 2017: s.49

Azərbaycan rəqəmsal ödəniş ekosistemi son beş ildə sürətli transformasiya keçirmiş, mobil super-app-lər, real-time infrastruktur və dövlət dəstəyi sayəsində Cənubi Qafqazda öncül mövqeyə çıxmışdır. Növbəti mərhələdə normativ çərçivənin dərinləşdirilməsi, regionların infrastrukturla bərabər təchiz edilməsi və kiber-dayanıqlığın gücləndirilməsi bazarın davamlı inkişafını təmin edəcək.

Bu günkü mövcud göstəricilər və sürətlə dəyişən texnoloji mühit göstərir ki, Azərbaycan rəqəmsal ödəniş ekosistemi hələ tam potensialına çatmayıb. Strateji hədəflərə nail olmaq, region-şəhər uçurumunu aradan qaldırmaq və innovativ xidmətləri kütləviləşdirmək üçün qarşıdakı iki-üç il kritik əhəmiyyət kəsb edir. 2025-2027-ci illər üçün proqnozlaşdırılan əsas inkişaf istiqamətləri və konkret siyasət-texnologiya təkliflərə nəzər yetirir..

- Open Banking 2.0 – pərakəndə kredit scoring-də alternativ data (kommunal, telco) istifadəsi.
- SoftPOS kütləviləşməsi – 2027-yə qədər POS parkının yarısını fiziki aparat tələb etməyən softPOS-ların təşkil edəcəyi proqnozlaşdırılır.
- RegTech və e-KYC – video-identifikasiya tam avtomatlaşdırılıb; bank hesabı açma 5 dəqiqədən az.
- Yaşıl ödəniş təşəbbüsü – kağızsız qəbz standartı, karbon izinin kompensasiyası üçün "green loyalty" xal.
- Rəqəmsal AZN – hökumət tender ödənişləri və sosial yardım köçürmələrində pilot modellər.

Qlobal iqtisadiyyatın rəqəmsallaşması fonunda elektron ticarət və rəqəmsal ödəniş sistemləri müasir dövrdə iqtisadi dinamizmin əsas sütunlarından birinə çevrilmişdir (Carretero, Vuorikari& Punie, 2017: s.49). Xüsusilə COVID-19 pandemiyası dövründə nağdsız əməliyyatlara olan tələbatın artması, həm yerli, həm də beynəlxalq səviyyədə onlayn alış-verişin və rəqəmsal xidmətlərə keçidin sürətlənməsi ilə nəticələnmişdir. Bu dəyişikliklər elektron ticarət sektorunu stimullaşdırmaqla yanaşı, ödəniş infrastrukturunun da yenidən dizayn edilməsini zəruri etmişdir. Belə bir şəraitdə rəqəmsal ödəniş sistemləri sadəcə maliyyə əməliyyatlarının texniki vasitəsi deyil, həm də müştəri məmnuniyyəti, əməliyyat sürəti, təhlükəsizlik və genişlənə bilən platforma imkanlarının əsas göstəricilərinə çevrilmişdir.

Azərbaycanda da bu tendensiyalar fonunda elektron ticarət bazarı getdikcə genişlənir. Son illərdə İqtisadiyyat Nazirliyi, Azərbaycan Mərkəzi Bankı və digər dövlət qurumları tərəfindən

rəqəmsal ödənişlərin təşviqi istiqamətində müxtəlif proqramlar həyata keçirilmiş, bank sektoru bu çağırışlara cavab vermək üçün müasir texnoloji həllər təklif etməyə başlamışdır. Ölkədə fəaliyyət göstərən bir sıra aparıcı banklar, xüsusilə Azərbaycan Beynəlxalq Bankı (ABB), rəqəmsal ödənişlərin geniş tətbiqi, təhlükəsizliyi və əlçatanlığı istiqamətində ciddi addımlar atmışdır.

ABB-nin təqdim etdiyi ABB Mobile, QR ödənişləri, onlayn POS terminalları, ABB Miles kartları kimi rəqəmsal xidmətlər həm fərdi istifadəçilər, həm də elektron ticarətlə məşğul olan bizneslər üçün böyük imkanlar yaratmışdır. Bu texnologiyalar sayəsində istifadəçilər istənilən zaman və məkanda məhsul və xidmətlərə sürətli və təhlükəsiz şəkildə çıxış imkanı əldə edir, sahibkarlar isə əlavə satış kanallarına və daha geniş müştəri bazasına sahib olurlar (Ada Universiteti, 2021: s.31).

Məhz bu baxımdan, aşağıda Azərbaycan Beynəlxalq Bankının (ABB) nümunəsində onun təqdim etdiyi rəqəmsal ödəniş sistemlərinin xüsusiyyətləri, bu sistemlərin elektron ticarət sektoruna təsiri və onların iqtisadi mühitdə yaratdığı dəyər ətraflı şəkildə təhlil olunacaqdır.

Azərbaycan Beynəlxalq Bankı (ABB), ölkənin ən böyük və qabaqcıl maliyyə qurumlarından biri kimi rəqəmsal transformasiyaya xüsusi diqqət yetirərək, müasir ödəniş texnologiyalarını inkişaf etdirməklə elektron ticarət sektorunun sürətli inkişafına mühüm töhfələr vermişdir. ABB-nin tətbiq etdiyi rəqəmsal ödəniş sistemləri həm fərdi istifadəçilər, həm də biznes subyektləri üçün əlverişli və təhlükəsiz ödəniş həlləri təqdim edir.

ABB-nin ən çox istifadə edilən rəqəmsal məhsullarından biri ABB Mobile mobil tətbiqidir. Bu tətbiq istifadəçilərə bank filialına getmədən hesablarına nəzarət etməyə, onlayn alış-verişləri sürətlə həyata keçirməyə, digər bank və mobil nömrələrə vəsait köçürməyə, kommunal xidmətlər və digər ödənişləri birbaşa tətbiq üzərindən yerinə yetirməyə imkan yaradır. ABB Mobile həm iOS, həm də Android sistemlərində əlçatan olmaqla yanaşı, sadə interfeysi və yüksək funksionallığı ilə geniş istifadəçi kütləsinin rəğbətini qazanmışdır.

Elektron ticarət əməliyyatlarında sürətli və fiziki təmas olmadan ödənişlərin aparılması məqsədilə ABB QR kod əsasında ödəniş funksiyasını da tətbiq etmişdir. Bu sistem vasitəsilə müştərilər mobil tətbiqdən istifadə edərək istənilən ticarət nöqtəsində və ya onlayn platformada təhlükəsiz şəkildə ödəniş həyata keçirə bilirlər. Bu, xüsusilə mikro və kiçik sahibkarlar üçün əhəmiyyətlidir, çünki onlar POS terminalı almağa ehtiyac duymadan ABB-nin təqdim etdiyi QR sistemləri ilə rahat şəkildə ödəniş qəbul edə bilirlər.

Bununla yanaşı, ABB öz müştərilərinə ABB Miles adlı çoxfunksiyalı ödəniş kartı da təqdim edir. Bu kart vasitəsilə həm onlayn, həm də fiziki ticarət obyektlərində alış-veriş edən istifadəçilər müxtəlif bonuslar və cashback imkanları qazanır. Elektron ticarətdə bu cür təşviqedici sistemlər müştəri loyallığını artırmaqla yanaşı, onlayn satışların həcmini də stimullaşdırır. ABB Miles kartları beynəlxalq səviyyədə də qəbul olunduğundan, yalnız yerli deyil, xarici e-ticarət platformalarında da istifadəyə yararlıdır.

ABB-nin rəqəmsal ödəniş sahəsində atdığı digər mühüm addımlardan biri isə onlayn POS xidməti və e-commerce tərəfdaşlıqlarıdır. ABB, Azərbaycanda fəaliyyət göstərən onlayn mağazalara ödəniş sistemlərinin inteqrasiyası üçün texniki dəstək göstərir və xüsusi şərtlərlə POS xidmətləri təqdim edir. Bu da elektron ticarətlə məşğul olan sahibkarların satış prosesini sadələşdirir və daha sürətli maliyyə dövriyyəsi yaratmalarına şərait yaradır.

ABB tərəfindən həyata keçirilən bütün rəqəmsal ödəniş xidmətləri təhlükəsizlik baxımından beynəlxalq standartlara uyğun şəkildə qurulmuşdur. 3D Secure texnologiyası, ikili identifikasiya və real vaxt rejimində fraud nəzarət sistemləri vasitəsilə istifadəçi məlumatlarının təhlükəsizliyi maksimum səviyyədə qorunur. Bu isə həm müştərilərin inamını artırır, həm də onlayn ticarətdə risklərin minimuma endirilməsinə xidmət edir.

Bütün bu texnoloji yeniliklər nəticəsində ABB, ölkədə rəqəmsal ödənişlərin yayılması, nağdsız cəmiyyətin formalaşması və elektron ticarətin genişlənməsi prosesində lider rolu oynayır. Bankın bu istiqamətdəki fəaliyyəti Azərbaycanın rəqəmsal iqtisadiyyat strategiyasına uyğun şəkildə irəliləyir və davamlı olaraq yenilənən xidmətləri ilə rəqəmsal transformasiyanın əsas aparıcı qüvvələrindən birinə çevrilmişdir.

Cədvəl 6

ABB-nin elektron ticarət sektoruna təsiri

Göstərici	*Təsvir*
Təhlükəsizlik	3D Secure, SMS təsdiq, anti-fraud texnologiyaları vasitəsilə müştəri məlumatları qorunur.
Çeviklik	Mobil və QR ödənişlər elektron ticarət əməliyyatlarını sürətləndirir.
Əhatəlilik	Şəhər və kənd yerlərində də istifadə imkanı – geniş istifadəçi bazası.
İnkişaf göstəriciləri	2022-2024 aralığında ABB Mobile istifadəçilərinin sayı 2 dəfəyə yaxın artmışdır.
Tərəfdaşlıq imkanları	Onlayn mağazalara ABB POS inteqrasiyası və xüsusi endirimli komissiyalar.

Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.

ABB Bank rəqəmsal ödəniş sistemləri vasitəsilə Azərbaycanın elektron ticarət sektorunun inkişafında mühüm rol oynayır. Tətbiq etdiyi texnologiyalar, innovasiyalar və təhlükəsizlik mexanizmləri həm sahibkarların, həm də istifadəçilərin rəqəmsal mühitə adaptasiyasını asanlaşdırır. Gələcəkdə Open Banking ilə genişləndirilməsi, Kriptovalyuta dəstəyi kimi yeni funksiyalarla zənginləşdirilməsi, AI əsaslı fraud detection sistemlərinin gücləndirilməsi Azərbaycanın e-ticarət sektorunu daha da rəqabətədavamlı edəcəkdir.

NƏTİCƏ

Aparılan təhlillər göstərir ki, rəqəmsal ödəniş sistemləri elektron ticarətin inkişafında strateji əhəmiyyət daşıyan əsas elementlərdən biridir. Onların yaratdığı sürət, təhlükəsizlik, şəffaflıq və transsərhəd əlçatanlığı həm istehlakçı davranışını, həm də biznes modellərini dəyişir. Azərbaycan kontekstində isə dövlət siyasətləri, infrastrukturun müasirləşdirilməsi, mobil tətbiqlərin kütləviləşməsi və bank-fintech sinerjisi rəqəmsal ödənişlərin geniş yayılmasını təmin edən mühüm faktorlardandır.

ABB nümunəsi göstərir ki, innovativ ödəniş həlləri, təhlükəsizlik standartları və e-commerce üçün yaradılan infrastrukturlar ölkədə elektron ticarətin həcmini, istifadəçi məmnuniyyətini və biznes çevikliyini artırır. Rəqəmsal ekosistemin tam potensiala çatması üçün açıq bankçılığın genişləndirilməsi, kiber-dayanıqlığın gücləndirilməsi, regionlarda rəqəmsal infrastrukturun təkmilləşdirilməsi və kriptovalyuta ekosistemi üzrə hüquqi çərçivənin müəyyənləşdirilməsi prioritet olaraq qalır.

Nəticə etibarilə, rəqəmsal ödəniş sistemlərinin təkmilləşdirilməsi Azərbaycanın elektron ticarət sektorunun rəqabət qabiliyyətini artırmaqla yanaşı, ölkənin rəqəmsal iqtisadiyyat strategiyasının həyata keçirilməsində də həlledici rol oynayır.

ƏDƏBİYYAT

1. ADA Universiteti (2021). “İnklüziv rəqəmsal iqtisadiyyatın təməl şərtləri: savadlılıq və təhlükəsizlik”.
2. BIS (2024). “Digital Payments and Literacy Metrics. Bank for International Settlements Policy Review”.
3. Carretero, S., Vuorikari, R., & Punie, Y. (2017). DigComp, “The Digital Competence Framework for Citizens. European Commission”, JRC.
4. Media.az (2023). Nağdsız cəmiyyət: problem nədədir və çıxış yolu varmı?
5. World Bank (2021). “Enhancing Digital Government Services through Citizen Literacy”.

РЕЗЮМЕ

АНАЛИЗ СИСТЕМ ЦИФРОВЫХ ПЛАТЕЖЕЙ И ИХ РОЛЬ В СЕКТОРЕ ЭЛЕКТРОННОЙ ТОРГОВЛИ АЗЕРБАЙДЖАНА

Векиль Алекберли

Цифровые платежные системы становятся ключевым фактором роста мировой электронной коммерции. Увеличение безналичных операций, развитие мобильного банкинга и внедрение инфраструктуры мгновенных платежей изменили поведение потребителей и трансформировали бизнес-модели. Цифровые платежи обеспечивают скорость, удобство, прозрачность, безопасность и возможность транскордонных операций. Однако киберугрозы, пробелы в регулировании, риски защиты персональных данных и низкий уровень цифровой грамотности остаются существенными ограничениями для устойчивого развития платежных экосистем.

Цифровая платежная среда Азербайджана в последние годы развивается особенно динамично. Государственные программы, модернизация Национальной платежной системы Центральным Банком, распространение мобильных приложений и сотрудничество банков с финтех-компаниями значительно стимулировали рост электронной торговли. Статистические данные демонстрируют рост безналичных платежей, транзакций через POS и QR-коды, использование NFC-технологий и увеличение числа пользователей мобильного банкинга.

Международный Банк Азербайджана (ABB) играет важную роль в этом процессе, предлагая такие цифровые продукты, как ABB Mobile, QR-платежи, карты ABB Miles и онлайн-POS решения. Применяемые банком меры безопасности и инновационные сервисы повышают доверие клиентов и открывают новые возможности для предпринимателей в сфере e-commerce.

Ключевые слова: *цифровые платежи, электронная коммерция, финтех, мобильный банкинг, кибербезопасность*

SUMMARY

ANALYSIS OF DIGITAL PAYMENT SYSTEMS AND THEIR ROLE IN AZERBAIJAN'S E-COMMERCE SECTOR

Vekil Alakbarli

Digital payment systems have become a key driving force behind the rapid expansion of global e-commerce. The growth of cashless transactions, widespread use of mobile banking, and the development of instant payment infrastructures have reshaped consumer behavior and transformed business models. Digital payments provide major advantages such as speed, convenience, transparency, security, and seamless cross-border transactions. However, challenges such as cybersecurity threats, regulatory gaps, personal data protection issues, and varying levels of technological literacy continue to limit the sustainable development of electronic payment ecosystems.

In recent years, Azerbaijan's digital payment environment has entered a phase of accelerated development. State programs, modernization of the National Payment System by the Central Bank, the rise of mobile applications, and strengthened bank-fintech cooperation have significantly supported the growth of e-commerce. Statistical data demonstrate a strong upward trend in cashless operations, POS and QR payments, NFC-based transactions, and the number of mobile banking users.

The International Bank of Azerbaijan (ABB) plays a crucial role in this ecosystem through its digital products such as ABB Mobile, QR payments, ABB Miles cards, and online POS solutions. Enhanced security protocols and innovative services offered by the bank increase user trust and create additional opportunities for businesses in the e-commerce sector.

Keywords: *digital, payments, e-commerce, fintech, mobile banking, cybersecurity*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-20
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

MÜŞTƏRİYÖNÜMLÜ BİZNES MODELİ: ƏHƏMİYYƏTİ VƏ TƏTBİQ METODLARI

Ləman SALMANOVA
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif: laman.salmanova@gmail.com*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
təşkilati mühit, təşkilati mədəniyyət, müştəriyönümlü idarəetmə, müştəri sədaqəti, istehlakçı kapitalizmi.

XÜLASƏ
Məqalədə müasir biznes mühitində müştəriyönümlü idarəetmə modelinin formalaşması və inkişaf mərhələləri geniş şəkildə təhlil olunur. Tədqiqatın əsas məqsədi təşkilatların müştəri ehtiyac və gözləntilərini əsas prioritet kimi qəbul etməsidir. Eyni zamanda, müştəri mərkəzli yanaşmanın istehlakçı sadiqliyinə təsiri araşdırılır.
Tədqiqatda müştəriyönümlü idarəetmə modelinin mahiyyətini və tətbiq xüsusiyyətlərini araşdırmaq məqsədilə müxtəlif elmi metodlardan istifadə olunmuşdur. İlk növbədə, mövzu ilə bağlı yerli və xarici elmi ədəbiyyatların təhlili aparılmış, mövcud nəzəri yanaşmalar sistemləşdirilmişdir. Analiz və sintez metodları vasitəsilə əldə olunan məlumatlar ümumiləşdirilmiş və müqayisəli şəkildə qiymətləndirilmişdir. Empirik tədqiqat çərçivəsində sorğu və müsahibə metodlarından istifadə olunmuşdur. Müxtəlif sahələrdə fəaliyyət göstərən təşkilatların nümayəndələri və müştərilər arasında keçirilən sorğular vasitəsilə real vəziyyət öyrənilmişdir. Toplanmış məlumatlar statistik metodlarla təhlil edilərək nəticələr çıxarılmışdır. zəmin yaradır. Təşkilatların bazarda mövqeyi möhkəmlənir. Müsbət imic formalaşır. Müştərilərlə davamlı tərəfdaşlıq əlaqələri qurulur.

GİRİŞ

XXI əsrdə iqtisadi mühit olduqca böyük sürətlə dəyişir və təşkilatlar arasında rəqabət daha da sərtləşir. Bu şəraitdə şirkət menecerləri uğur qazanmaq və fəaliyyətlərinin davamlılığını təmin etmək üçün ən qiymətli sərvətlərindən biri olan müştərilərə yönəlməyi əsas prioritetə çevirməlidirlər. Müştəriyönümlülük şirkətin strategiyasının mərkəzində müştərinin durması deməkdir. Bu yanaşma müştərinin ehtiyaclarının, gözləntilərinin və tələblərinin hərtərəfli öyrənilməsi, məhsul və xidmətlərin ona uyğunlaşdırılması, müştəri məmnuniyyətinin və loyallığının artırılması məqsədini daşıyır. Əgər müştərilərin kifayət qədər mərkəzə alına bildiyi bir biznes modelinin formalaşdırılması təmin edilibsə, bu uzun müddətli perspektivdə brendin müsbət reputasiya və bazarda rəqabət üstünlüyü qazanması baxımından olduqca önəmli amillərdəndir.

Müasir bazar münasibətləri şəraitində menecerlər daha çox müştərilərin cəlb edilməsi və onlarla uzunmüddətli münasibətlər formalaşdırmaq üçün müxtəlif strategiyalardan istifadə edirlər. Aydın görünür ki, aqressiv reklam, qiymət rəqabəti və digər ənənəvi marketinq alətlərinə yönəlmək şirkətlərin rəqabətqabiliyyətliliyini təmin etmir.

Bazar iqtisadiyyatı münasibətlərinin qəlizləşməsi, rəqabətin və istehlakçı tələblərinin artması ilə ənənəvi kapitalizmdən istehlakçı kapitalizminə açıq bir keçid müşahidə olunur. İstehlakçı kapitalizmi dedikdə, istehlakçının maraqlarının birinci yerə qoyulduğu bir sistem nəzərdə tutulur. Bu yanaşma onu ehtiva edir ki, müştəri əsas maraqlı tərəf kimi qəbul edilməli və onun tələbləri, istəkləri mütləq nəzərə alınmalıdır (Abbasov.M. 2015, s.50). Məhz bu yanaşma təşkilatın uzunmüddətli rəqabətqabiliyyətini təmin edə bilər. Səhmdarlar, əməkdaşlar və təchizatçılar kimi digər maraqlı tərəflər də istehlakçı kapitalizminin mahiyyətini anlamalıdırlar. Yalnız istehlakçının maraqları tam şəkildə təmin edildikdə, digər maraqlı tərəflərin də maraqları təmin oluna bilər. Bu səbəbdən söhbət istehlakçı kapitalizminin tələblərinə uyğun müştəriyönümlü şirkət qurmaqdan gedir. Araşdırmalar onu göstərir ki, əgər müəssisə müştəri saxlama səviyyəsini 5% artırmağa müvəffəq olursa, bu onun gəlir səviyyəsinin 50% artmasına səbəb ola bilər.



Şəkil 1. Müştəri saxlama və mənfəət arasında əlaqə

Eyni zamanda, müştərilər arasında aparılan sorğular göstərir ki, alıcıların 73%-i məhsul seçərkən əsas meyar kimi müştəri təcrübəsini qiymətləndirir.

Müvafiq mövzu ilə bağlı Bakı şəhərində yaşayan istehlakçıların fikirlərini öyrənmək və praktiki nəticələrə gəlmək üçün tərəfimdən müxtəlif yaş və cins kateqoriyaları üzrə 200 respondent arasında bir sorğu keçirilmişdir. Respondentlərin 52%-ni qadınlar, 48%-ni isə kişilər təşkil etmişdir. Sorğu anketi struktura görə iki əsas hissədən ibarət olmuşdur: demoqrafik məlumatlar və respondentlərin alış qərarına təsir edən faktorların qiymətləndirilməsi.

Sorğunun nəticələri onu göstərdi ki, müştərilər üçün ən önəmli faktorlar olaraq xidmət keyfiyyəti və brendin etibarlılığı hesab olunur.

Nəticələr yaş qruplarına görə belədir: 18–24 yaş aralığında olan 45 iştirakçıdan 29 nəfəri (65%) brendin etibarlılığını əsas üstünlük kimi dəyərləndirmiş, 25 nəfər (55%) isə xidmət keyfiyyətini prioritet faktor hesab etmişdir. 25–34 yaş qrupuna daxil olan 60 respondent arasında 42 nəfər (70%) etibarlılığı əsas seçim meyarı kimi göstərmiş, 36 nəfər (60%) isə göstərilən xidmətin keyfiyyətinə xüsusi əhəmiyyət vermişdir. 35–44 yaş kateqoriyasında təmsil olunan 55 nəfərdən 40-ı (72%) brendin etibarlılığına üstünlük verdiyini bildirmiş, 34 respondent (62%) isə xidmət səviyyəsini vacib amil kimi qiymətləndirmişdir.45 yaşdan yuxarı olan 40 iştirakçıdan 24 nəfəri (60%) etibarlılığı əsas faktor kimi qeyd etmiş, 23 nəfər (58%) isə xidmət keyfiyyətinin seçim prosesində mühüm rol oynadığını vurğulamışdır.

Cins faktoruna əsaslanan bölgü də istehlakçı davranışlarında müəyyən fərqlərin mövcudluğunu ortaya qoyur. Belə ki, sorğuda iştirak edən 96 kişi respondentdən 63-ü (66%) brendin etibarlılığına, 55-i (57%) isə xidmət keyfiyyətinə üstünlük verdiyini ifadə etmişdir. Qadın respondentlər arasında isə bu göstəricilər daha yüksək olmuşdur: 104 qadından 73 nəfəri (70%) etibarlılığı, 63 nəfəri (61%) isə xidmət səviyyəsini əsas seçim meyarı kimi dəyərləndirmişdir.

Aparılmış tədqiqatın nəticələri göstərir ki, müştəri loyallığının gücləndirilməsi müəssisələrin gəlirlərinin davamlılığının təmin olunmasında, bazar mövqelərinin möhkəmləndirilməsində və uzunmüddətli inkişafının dəstəklənməsində mühüm rol oynayır. Loyallığın formalaşdırılması şirkətlə istehlakçı arasında qarşılıqlı etimada əsaslanan münasibətlərin yaranmasına şərait yaradır və bu da rəqabət mühitində üstünlük əldə edilməsinə imkan verir.

Müştəriyönümlü təşkilatın xüsusiyyətləri.

Müştəriyönümlü təşkilat dedikdə, məhsul istehsalına deyil, müştərinin ehtiyac, gözlənti və tələblərinə fokuslanan təşkilat nəzərdə tutulur. Bu strategiyanın tətbiqi idarəçilərə bir sıra üstünlüklər yaradır. Məsələn, müştəri ehtiyaclarını düzgün təhlil etmək və məhsul və xidmətlərini bu gözləntilərə uyğunlaşdırmaq bu üstünlüklərə aiddir. Bunun nəticəsində şirkət üçün uzunmüddətli perspektivdə istehlakçı sadiqliyi və rəqabət üstünlüyü təmin edilir. Müştərinin hər hansı bir müəssisənin təklif etdiyi məhsul və ya xidmətindən məmnunluq duyması üçün onun gözləntilərinin

düzgün təhlili və bu təhlilə əsaslanaraq təcrübəsini zənginləşdirəcək real addımların atılması vacib addımlardandır (Basov, A. V. 2009, s.56).Təbii ki, bu zaman məhsul keyfiyyəti də unudulmamalıdır. Elə balanslaşdırılmış bir model yaradılmalıdır ki, biznes keyfiyyətli məhsul və ya xidmətlər istehsal etsin, müştəri ehtiyaclarını nəzərə alsın və gəlir əldə edərək fəaliyyətinin davamlılığını təmin etsin.

Müştəriyönümlü biznes modelinə keçid bir çox biznes üstünlükləri gətirir. Əvvəla, müştəri məmnuniyyətinin yüksəlməsi nəticəsində şirkət təkrar müştəri bazası qazanır. Məmnun müştərilər şirkətə sadiq qalır, onu dostlarına və tanışlarına tövsiyə edir, beləliklə, ağızdan-ağıza marketinq güclənir. İkincisi, müştərilərinin istəklərini prioritetləşdirən müəssisələr bazarda önəmli səviyyədə rəqabət üstünlüyü əldə edir, çünki onlar istehlakçıların spesifik ehtiyaclarına cavab verə bilirlər. Bu isə satışların və gəlirlərin artmasına şərait yaradır. Üçüncüsü, müştərinin brendə qarşı his etdiyi məmnuniyyət şirkətin reputasiyasına olduqca müsbət təsir etməklə brendin imicini gücləndirir. Nəticədə, müştəriyönümlülük şirkətin davamlı inkişafına və maliyyə sabitliyinə töhfə verir (Həsənova, S. 2019, s.45). Üstəlik, müştəri rəyləri şirkətin məhsul və xidmətlərini təkmilləşdirmək üçün vacib məlumat mənbəyi kimi çıxış edir. Müştəriyönümlülük üçün ilk addımlardan biri müştəri ehtiyaclarının və gözləntilərinin dərindən öyrənilməsidir. İstehlakçıların seçim və qərarvermə meylləri, adətən, strukturlaşdırılmış sorğular, qrup müzakirələri, sosial medianın monitorinqi və CRM sistemləri kimi vasitələrlə sistemli şəkildə təhlil edilir (Kotler, P., & Keller, K. L. 2016, s.6). Bu məlumat bazasının toplanması brendə müxtəlif müştəri kateqoriyalarını yaratmağa imkan verir. İstehlakçıların müxtəlif kriteriyalar əsasında kateqoriyalara bölünməsi onların müxtəlif ehtiyac və spesifik istəklərinin nəzərə alınması ilə fərdi təkliflərin formalaşdırılması üçün nəzərdə tutulub. Beləliklə, müştəri profillərinin hazırlanması şirkətə müştəri davranışlarını daha yaxşı başa düşməkdə kömək edir. Məlumat yönümlü qərarvermə prosesi və analitik texnologiyaların tətbiqi, müştəri tələbatlarını öncədən dəyərləndirmək və məqsədəuyğun strategiyalar formalaşdırmaq üçün əsas açarlardandır (Payne, A., & Frow, P. 201, s.12).



Şəkil 2. Rəqabətqabiliyyətliliyi təmin edən amillər

Müştəriyönümlü idarəetmənin prinsipləri və faydaları.

Müştəriyönümlü yanaşmanın faydalı olmasının səbəblərini aşağıdakı kimi qruplaşdırmaq olar:

İstehlakçı sadiqliyi – müştəri ehtiyaclarını birinci yerə qoyduğunuz zaman uzunmüddətli perspektivdə istehlakçı sadiqliyi formalaşır. Mövcud müştərilərinizsizinlə uzunmüddətli əlaqələr qurmağa və sizi daim seçməyə çalışacaq. Bir çox araşdırmalar müştəri sadiqliyinin iqtisadi baxımdan faydalı olduğunu sübut edir. Sadiq müştərilər məhsul və xidmətlərinizdən daha tez-tez istifadə edir, markanızı başqalarına tövsiyə edirlər.

Satışların yüksəlməsi – loyal müştərilər daha çox alış-veriş edir və onlara fərqli məhsul çeşidlərini təqdim etmək şansı artır.

Marketinq xərclərinin azalması – loyal müştərilər şirkətin yeni müştəri qazanmaq üçün etdiyi marketinq xərclərini azaldır, nəticədə maliyyə resursları daha effektiv şəkildə idarə olunur.

Müştəriyönümlü konsepsiyanın hazırlanması və tətbiqi üçün onun əsas prinsipləri müəyyən edilməlidir. Gəlin hər bir prinsipin mahiyyətinə nəzər salaq:

Müştəriyə sevgi və gözləntiləri aşmaq.

Rəqəmsal əsrdə texnologiyalar, sürət və rəqabət ön plana çıxdıqca, insan faktoru çox vaxt kölgədə qalır. Lakin unudulmamalıdır ki, hər bir məhsulun və ya xidmətin arxasında onu istifadə edən bir insan — müştəri dayanır. Müştəri sadəcə alış-veriş edən bir obyekt deyil; onun hissləri, gözləntiləri, dəyərləri və münasibət axtarışları var. Bu baxımdan müştəriyə sevgi göstərmək və gözləntilərini aşmaq, yalnız etiket qaydası yox, dərin və strateji dəyəri olan yanaşmadır. Müştəri sadiqliyini təmin etmək və təşkilatda müştəriyönümlü yanaşmanı formalaşdırmaq üçün ilk addım, müştərinin ehtiyaclarını dəqiq analiz etmək və yalnız tələblərinə cavab verməklə kifayətlənməyib, bu gözləntiləri üstələməkdir.Məsələn, sifariş çatdırılan zaman kiçik hədiyyələr və ya təşəkkür qeydləri əlavə etmək olar.

Dəyər yaratmaq

Bugünkü biznes dünyasında şirkətlərin əsas hədəfi təkcə məhsul və ya xidmət təqdim etmək deyil, müştəriyə konkret və özünəməxsus dəyər qazandırmaqdır. Dəyər yaratmaq, müştərinin istifadə etdiyi məhsul və ya xidmətdən əldə etdiyi üstünlüklərin, ödədiyi məbləği və sərf etdiyi resursları üstələməsidir. Bu yanaşma yalnız müştərinin gözləntilərini təmin etməklə kifayətlənmir, eyni zamanda onları üstələyərək davamlı və möhkəm əlaqələrin qurulması üçün əsas zəmin yaradır. Şirkətlərin məhsul və xidmət yaratmaqda əsas məqsədi, sadəcə satış deyil, müştərinin gündəlik həyatına real və dəyər kəsb edəcək bir təsir göstərməkdir. Müştəri ilə müvafiq kommunikasiyanın qurulması zamanı müştərinin müəssisə tərəfindən təklif olunan məhsulun və ya xidmətin onun həyatına gətirəcəyi müsbət dəyişiklikləri hiss etməsi olduqca vacibdir (Prosveçov, G. İ. 2014, s.9). Müştəri dəyəri üç əsas komponentdən ibarətdir:

Faydalar — məhsulun və ya xidmətin funksional, hissi və ictimai üstünlükləri kimi ortaya çıxan xassələrdir.

Xərc — müştərinin ödədiyi pul məbləği ilə yanaşı, sərf etdiyi vaxt, enerji və riskləri də əhatə edən ümumi yükdür.

Əlavə dəyər — müştərinin gözləntilərini aşan üstünlüklər, şəxsi yanaşma və yüksək səviyyəli xidmət keyfiyyəti.

Empatiya yönümlü yanaşma və unikal xidmət.

Müştəriyönümlü yanaşmanın əsas məqsədi odur ki, şirkətlər özlərini müştərinin yerinə qoya bilsinlər, onların ehtiyac və gözləntilərini anlaya bilsinlər və uyğun strategiyalar hazırlasınlar. Müştəri özünü xüsusi hiss etdikdə bu, onun markaya bağlılığını artırır və uzunmüddətli sadiqliyə çevrilir (Quliyev, T. 2020, s. 9). Müştərinin adının yazıldığı məktublar, əvvəlki seçimlərinə əsaslanan fərdi təkliflər, fərdi bonus və endirim proqramları bu təcrübəni gücləndirə bilər. Empatiya, müştərinin nə istədiyini, nə hiss etdiyini və nədən narahat olduğunu anlamadan əvvəl onu dinləməyi və duymağı tələb edir. Bu, sadəcə standart cavablar verməkdən ibarət deyil — əksinə, müştərinin baxış bucağını dərk edib, ona özünü qiymətli hiss etdirəcək şəkildə yanaşmaqdır. Empatiyanın biznesdə əsas funksiyaları bunlardır:

Müştəridən gələn geridönüşlərin düzgün idarə olunması: Empatiya göstərilən zaman müştəri müdafiə olunmaq əvəzinə dinlənildiyini hiss edir.

Loyallığın güclənməsi: Özünü başa düşülmüş hiss edən müştəri şirkətlə daha dərin və emosional əlaqə qurur.

Etibarın qurulması: Empatiya əsasında qurulan ünsiyyət müştəridə "bu brend mənim haqqımda düşünür" təəssüratı yaradır.

Müştəriyönümlü hesabatlılıq və geribildirim.

Müştəriyönümlülüyü uğurla həyata keçirmək üçün bütün müştəri əməliyyatlarını izləyən və qiymətləndirən effektiv nəzarət sistemi qurulmalıdır. Təşkilatlar müştərilərin brendlə hər qarşılıqlı əlaqədə hansı hissləri keçirdiyini başa düşməlidirlər (Rust, R. T., & Huang, M. H. 2014, s.10). Bu məqsədlə çevik və rahat geribildirim sistemi qurulmalıdır. Müştəri qeydlərinin düzgün şəkildə nəzərə alınması sistemi onların üstünlüklərinə uyğunlaşdırmağa və təcrübəni yaxşılaşdırmağa imkan verir. Ən çox istifadə olunan göstəricilərdən biri NPS (Net Promoter Score) – “brendimizi dostlarınıza tövsiyə edərdinizmi?” sualına əsaslanan sistemdir. (Verhoef, P. C., et al. 2009, s 36).

Dürüstlük

Şirkət nə qədər müştəriyönümlü strategiyalar tətbiq etsə də, ideal və səhvsiz bir biznes modeli yaratmaq çətindir. Böhran anlarında müştərilərinizə qarşı dürüst olmaq çox vacibdir. Problemin mahiyyətini izah etmək və komandanızın problemi həll etmək üçün əlindən gələni etdiyini göstərmək – mürəkkəb vəziyyətlərdə ən doğru kommunikasiya üsuludur.

Proaktivlik

Şirkətlər müştəri tələblərini ödəmək üçün daima yeni alternativlər və strategiyalar hazırlamalıdır. Baş verə biləcək potensial dəyişikliklərə hazırlıqlı olmaq və onların idarə edilməsini effektiv şəkildə təşkil etmək vacibdir. Müştəri problemlərinə və yeni tələblərə operativ reaksiya verilməlidir (Verhoef, P. C., et al. 2009, s.25). Məsələn, internet provayderi istifadəçinin trafiki bitmək üzrə olduğunu əvvəlcədən xəbər verir ki, internet gözlənilmədən kəsilməsin. Yeni, daha ucuz və keyfiyyətli xidmət təklif edən rəqiblər ortaya çıxarsa, provayder müştəri gözləntilərinə cavab vermək üçün texnologiyasını yeniləməlidir.

NƏTİCƏ

Müştəriyönümlülük müasir biznes mühitində uğurun əsas açarlarından biridir. Şirkətlər arasında rəqabətin gücləndiyi, müştəri tələblərinin və gözləntilərinin getdikcə daha qəliz və çoxşaxəli olduğu iqtisadi mühitdə, şirkətlərin davamlı fəaliyyətini təmin etmək və bazardakı mövqelərini möhkəmləndirmək üçün müştəri ehtiyaclarına maksimum səviyyədə diqqət göstərmələri olduqca zəruridir. Məqalədə vurğulandığı kimi, müştəriyönümlülük təkcə məhsul və xidmətlərin müştərinin ehtiyaclarına uyğunlaşdırılması deyil, həm də müştəri təcrübəsinin təkmilləşdirilməsi və onunla davamlı, emosional əlaqələrin qurulması deməkdir.

Müştəri ehtiyaclarının müxtəlif instrumentlərdən istifadə edərək dərin analiz olunması və fərdiləşdirmə strategiyalarının formalaşdırılması şirkətlərə rəqabət üstünlüyü qazandırır, müştəri sadiqliyini artırıraraq bazar payını genişləndirir. Peşəkar müştəri xidməti və innovativ texnologiyaların tətbiqi isə bu prosesi daha effektiv və müasir səviyyəyə çatdırır. Uğurlu dünya şirkətləri göstərir ki, müştəriyönümlülük biznesin hər sahəsində, o cümlədən məhsul inkişafından tutmuş satış sonrası xidmətlərə qədər ardıcıl tətbiq edilməli olan strateji yanaşmadır.

Digər tərəfdən, müştəriyönümlülüyün tətbiqi müəyyən çətinliklərlə müşayiət olunur. Resurs çatışmazlığı, daxili müqavimət və məlumatların effektiv idarə olunması kimi problemlər şirkətlərin qarşısında maneələr yarada bilər. Lakin, doğru planlama, effektiv kommunikasiya və innovativ texnologiyaların istifadəsi sayəsində bu maneələrin öhdəsindən gəlmək mümkündür.

Gözlənilən odur ki, gələcək dövrlərdə müştəriyönümlü biznes modeli daha da fərdiləşəcək və texnologiyalarının inkişafı ilə müştəri təcrübəsi daha proaktiv hala gələcək. Şirkətlər üçün əsas çağırış müştərinin gözləntilərini qabaqlamaq və ona ən yüksək dəyəri yaratmaq olacaqdır.

Son nəticədə, müştəriyə yönəlmiş yanaşma biznesin davamlı inkişafını təmin edən, rəqabətdə üstünlük qazandıran və müştəri ilə qarşılıqlı fayda yaradan münasibətlərin qurulmasına şərait yaradan strateji prinsiptir. Hər bir müəssisə müştəri mərkəzli düşüncə tərzini mənimsəyərək, bazar dəyişikliklərinə çevik reaksiya verə və uzunmüddətli uğura nail ola bilər. Nəticə olaraq, uzunmüddətli uğura nail olmaq istəyən şirkətlər müştəriləri ilə münasibətlərə, onların ehtiyac və gözləntilərinə fokuslanmalı və bu ehtiyacların qarşılanması üçün effektiv strategiyalar tətbiq etməlidirlər. Başlıca hədəf yalnız müştərinin ehtiyaclarını təmin etmək deyil, həm də onların gözləntilərini geridə qoymaqdır.Məmnun müştərilər sadiq müştərilərə çevriləcək ki, bu da müasir bazar şəraitində şirkətin maliyyə sabitliyinin əsas təminatçısıdır.

ƏDƏBİYYAT

1. Abbasov, M. (2015). *Müştəri yönümlü biznes strategiyaları*. Bakı: Təhsil nəşriyyatı.
2. Basov, A. V. (2009). *İnternetdə Kontekstual Reklam. Reklamçının Stolüstü Kitabı*. Sankt-Peterburq: Piter.

3. Həsənova, S. (2019). Müştəri məmnuniyyəti və loyallıq strategiyaları. *İqtisadiyyat və idarəetmə jurnalı, 2*(15), 45–54.
4. Kotler, P., & Keller, K. L. (2016). *Marketing Management* (15th ed.). Pearson.
5. Payne, A., & Frow, P. (2017). Customer relationship management: From strategy to implementation. *Journal of Marketing Management, 33*(1–2), 7–29.
6. Prosveçov, G. İ. (2014). *İstehlakçı Davranışı: Tapşırıqlar və Həllər*. Moskva: Alfa-Press.
7. Quliyev, T. (2020). Müasir biznesdə müştəri yönümlülüyün rolu. *Biznes və iqtisadiyyat, 5*(3), 10–19.
8. Rust, R. T., & Huang, M. H. (2014). The service revolution and the transformation of marketing science. *Marketing Science, 33*(2), 206–221.
9. Verhoef, P. C., et al. (2009). Customer experience creation: Determinants, dynamics and management strategies. *Journal of Retailing, 85*(1), 31–41. Doi: 10.1016/j.jretai.2008.11.001

ABSTRACT

CUSTOMER-ORIENTED BUSINESS MODEL: IMPORTANCE AND APPLICATION METHODS.

Laman Salmanova

The article provides a comprehensive analysis of the formation and development stages of the customer-oriented management model in the modern business environment. The main objective of the study is for organizations to consider customer needs and expectations as a top priority. At the same time, the impact of a customer-centric approach on consumer loyalty is examined.

To investigate the essence and application features of the customer-oriented management model, various scientific methods were used. Firstly, an analysis of local and international literature on the topic was conducted, and existing theoretical approaches were systematized. Using analysis and synthesis methods, the collected data were generalized and evaluated comparatively.

Within the framework of empirical research, survey and interview methods were applied. Surveys conducted among representatives of organizations operating in various sectors and their customers provided insights into the real situation. The collected data were analyzed using statistical methods to draw conclusions. The article emphasizes the importance of increasing customer satisfaction, which plays a crucial role in strengthening market competitiveness. Modern technologies have become essential tools in management. Digital platforms facilitate customer interaction. Data analysis helps make informed decisions. The study shows that customer-oriented management not only yields short-term results but also provides a reliable foundation for long-term development. Organizations strengthen their market position, build a positive image, and establish lasting partnership relationships with customers.

Keywords: *organizational environment, organizational culture, customer-oriented management, customer loyalty, consumer capitalism.*

АННОТАЦИЯ

КЛИЕНТООРИЕНТОРОВАННАЯ БИЗНЕС-МОДЕЛЬ: ЗНАЕНИЕ И МЕТОДЫ ПРИМЕНЕНИЯ.

Ляман Салманова

В статье представлен всесторонний анализ формирования и этапов развития модели клиенториентированного управления в современном деловом окружении. Основная цель исследования заключается в том, чтобы организации рассматривали потребности и ожидания

клиентов как главный приоритет. Одновременно рассматривается влияние клиент-ориентированного подхода на лояльность потребителей.

Для изучения сущности и особенностей применения модели клиенториентированного управления использовались различные научные методы. В первую очередь проведен анализ местной и зарубежной литературы по теме, систематизированы существующие теоретические подходы. С помощью методов анализа и синтеза полученные данные были обобщены и сравнительно оценены.

В рамках эмпирического исследования применялись методы опроса и интервью. Опросы среди представителей организаций, работающих в различных секторах, и их клиентов позволили изучить реальную ситуацию. Собранные данные были проанализированы с использованием статистических методов для получения выводов. В статье подчеркивается важность повышения удовлетворенности клиентов, что играет ключевую роль в усилении конкурентоспособности на рынке. Современные технологии стали важными инструментами управления. Цифровые платформы облегчают взаимодействие с клиентами. Анализ данных помогает принимать обоснованные решения. Исследование показывает, что клиенториентированное управление обеспечивает не только краткосрочные результаты, но и надежную основу для долгосрочного развития. Организации укрепляют свои позиции на рынке, формируют положительный имидж и устанавливают долгосрочные партнерские отношения с клиентами.

Ключевые слова: *организационная среда, организационная культура, клиенториентированное управление, лояльность клиентов, потребительский капитализм.*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-21
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

İNNOVATİV İNFORMASİYA TEXNOLOGİYALARİNİN RƏQABƏT ÜSTÜNLÜKLƏRİNƏ TƏSİRİ

Adil ALIŞLI [1], **Cəbrayıl VƏLİYEV** [1]
[1]Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan
*Yazışılan müəllif: *alisliadil001@gmail.com*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

Açar sözlər:
avtomatlaşdırma, big data, rəqəmsal, müştəri.

XÜLASƏ

Tədqiqatın aktuallığı: Tədqiqatın aktuallığı ondan ibarətdir ki, rəqəmsallaşma qlobal iqtisadiyyatın əsas hərəkətverici qüvvəsinə çevrilmişdir və təşkilatlar rəqabətə davamlı qalmaq üçün bu texnologiyalara inteqrasiya olunmalıdır. Texnologiyaların tətbiqi həm də müəssisələrin yeni bazarlara daxil olmasını asanlaşdırır, müştəri mərkəzli yanaşmanı gücləndirir və strateji qərarların qəbulunu dəstəkləyir. Rəqəmsal transformasiya yalnız texnoloji deyil, həm də struktur və idarəetmə səviyyəsində dəyişikliklər tələb edir.

Tədqiqatın məqsədi: Bu tədqiqatın əsas məqsədi innovativ informasiya texnologiyalarının müəssisələrin rəqabət üstünlüklərinə təsirini kompleks şəkildə araşdırmaqdır. Müasir rəqəmsal transformasiya dövründə təşkilatların çevikliyi, məhsuldarlığı və bazarda dayanıqlı mövqeyi texnologiyaların düzgün tətbiqi ilə sıx əlaqəlidir. Tədqiqatda süni intellekt, böyük verilər (big data), blokçeyn, bulud texnologiyaları, maşın öyrənməsi və avtomatlaşdırma sistemləri kimi innovativ texnologiyaların iqtisadi, sosial və sənaye sahələrində yaratdığı təsirlər geniş şəkildə təhlil edilmişdir.

Tədqiqatın obyekti və predmeti: Tədqiqatın obyekti müxtəlif təşkilatlardır, predmeti isə bu texnologiyaların onların rəqabət qabiliyyətinə və bazardakı effektivliyinə təsiridir.

İstifadə edilən metodlar: Əsas metod kimi statistik təhlil, müqayisəli analiz və dinamik göstəricilərin qiymətləndirilməsi üsullarından istifadə olunmuşdur.

Tədqiqatın informasiya bazası: İşdə həm yerli, həm də beynəlxalq səviyyədə qəbul olunmuş elmi tədqiqatlara istinad edilmişdir. Beləliklə, bu tədqiqat innovativ texnologiyaların rəqabət mühitindəki real təsirlərini izah edən elmi-nəzəri və praktiki əsaslı araşdırmadır.

GİRİŞ

Qlobal miqyasda baş verən texnoloji dəyişikliklər və rəqəmsallaşma prosesi müasir iqtisadiyyatın strukturunu və təşkilatların fəaliyyət modelini köklü şəkildə dəyişdirmişdir. Xüsusilə innovativ informasiya texnologiyalarının tətbiqi müəssisələrin çevikliyini, adaptasiya qabiliyyətini və strateji dayanıqlığını artıraraq, onlara daha dayanıqlı və güclü rəqabət mövqeyi təmin etmişdir. Müasir dövrdə təşkilatlar rəqabətə davamlı olmaq üçün artıq yalnız ənənəvi üsullara deyil, texnologiyanın yaratdığı imkanlara əsaslanmalıdır. Süni intellekt, böyük verilər (big data), avtomatlaşdırma sistemləri, bulud texnologiyaları, blokçeyn və əşyaların interneti (IoT) kimi innovativ texnologiyalar həm daxili idarəetmədə, həm də xarici bazarlara çıxış imkanlarında təşkilatlara yeni üstünlüklər qazandırır.

Tədqiqatın aktuallığı. Müasir dövrdə innovativ informasiya texnologiyalarının iqtisadiyyat və idarəetmə sahələrində rolu getdikcə daha əhəmiyyətli hala gəlmişdir. Rəqəmsal transformasiya təkcə texniki yenilik olmayıb, idarəetmənin və strateji planlaşdırmanın əsas elementi halına çevrilmişdir. Pandemiya dövründə və ondan sonra formalaşan yeni iqtisadi model texnologiyanın müəssisələrin çevikliyində və davamlılığında oynadığı rolu daha da artırmışdır. Bu baxımdan tədqiqatın aktuallığı həm elmi tədqiqatlar üçün, həm də praktiki idarəetmə qərarları üçün yüksəkdir. Texnologiyalar təkcə məhsuldarlığı artırmır, həm də təşkilatların yeni bazarlara çıxışını, müştəri münasibətlərini və əməliyyat səmərəliliyini optimallaşdırır. Bu səbəbdən onların iqtisadi və sosial təsirlərinin dərin və əhatəli şəkildə öyrənilməsi zəruridir

Tədqiqatın məqsədi. Tədqiqatın əsas məqsədi innovativ informasiya texnologiyalarının təşkilatların rəqabət üstünlüklərinə təsirini kompleks şəkildə öyrənmək, texnologiyaların tətbiqinin iqtisadi və sosial nəticələrini statistik göstəricilərlə əsaslandırmaqdır. Burada məqsəd yalnız texnologiyaların varlığını təsvir etmək deyil, eyni zamanda onların müəssisələrin performansına və

bazar mövqeyinə konkret təsirlərini göstərməkdir. Bu məqsədlə müxtəlif texnologiyaların tətbiq sahələri və onların nəticələri analiz edilərək təşkilatlara təklif olunan optimal tətbiq strategiyaları formalaşdırılmışdır. Nəticədə bu tədqiqat, praktiki olaraq texnoloji transformasiyanın rəqabət üstünlükləri ilə əlaqələndirilməsi üçün elmi baza yaradır.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyekti, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən təşkilat və müəssisələrdir. Bu təşkilatlar fərqli fəaliyyət sferalarına aid olsa da, ortaq cəhətləri ondan ibarətdir ki, onlar innovativ informasiya texnologiyalarını tətbiq etməklə rəqabət mövqeyini gücləndirmək niyyətindədirlər. Tədqiqatın predmeti isə bu təşkilatlarda tətbiq olunan innovativ informasiya texnologiyalarının idarəetməyə, istehsalata, müştəri əlaqələrinə və strateji qərarverməyə təsiri ilə bağlıdır.

İstifadə edilən metodlar. Tədqiqatın metodoloji çərçivəsi empirik və statistik əsaslara söykənir. Burada istifadə olunan əsas metodlar aşağıdakılardır:

Statistik təhlil – 2018–2023-cü illər üzrə 10 əsas cədvəldə verilmiş məlumatlar əsasında texnologiyaların dinamikası təhlil olunub;

Müqayisəli metod – texnologiyaların tətbiq olunmuş və olunmamış vəziyyətlərdə yaratdığı fərqlər müqayisə edilib;

Trendlərin analizi – texnoloji göstəricilərdəki artım meylləri araşdırılıb;

Ədədi dinamika və proqnozlaşdırma – bəzi sahələr üzrə gələcək inkişaf istiqamətləri çıxarılıb.

Bu metodlar tədqiqatın obyektivliyini təmin etməklə yanaşı, əldə olunan nəticələrin praktiki tətbiqinə də zəmin yaratmışdır.

Məqalədə bir sıra beynəlxalq və yerli elmi işlərə istinad olunmuşdur. Xüsusilə Ə.Q.Əliyev (2014) informasiya iqtisadiyyatının inkişaf indikatorları üzrə sistemli yanaşma təklif edir, Torkayesh və Torkayesh (2021) G7 ölkələrində informasiya və kommunikasiya texnologiyalarının inkişaf səviyyəsini MCDM metodologiyası ilə qiymətləndirir

RƏQƏMSAL TRANSFORMASİYA VƏ İNNOVATİV TEXNOLOGİYALARIN RƏQABƏT MÜHİTİNƏ TƏSİRİ

Qloballaşmanın sürətlənməsi və texnoloji yeniliklərin intensiv inkişafı müasir iqtisadi şəraitdə təşkilatların fəaliyyət göstərdiyi rəqabət mühitini əhəmiyyətli dərəcədə dəyişdirmiş, onlar üçün həm yeni imkanlar, həm də ciddi çağırışlar formalaşdırmışdır. Bu kontekstdə rəqəmsal transformasiya təşkilatların ənənəvi fəaliyyət modellərini yenidən formalaşdıran, onların bazar şəraitinə uyğunlaşmasını və uzunmüddətli dayanıqlığını təmin edən əsas strateji alətlərdən biri kimi çıxış edir. Süni intellekt, böyük məlumatların analitikası, avtomatlaşdırma və blokçeyn texnologiyaları kimi innovativ həllər təşkilati proseslərin səmərəliliyini yüksəldərək, rəqabət üstünlüyünün əldə olunmasında mühüm rol oynayır və müəssisələrin bazarda fərqlənməsinə imkan yaradır.

Rəqəmsal transformasiya yalnız texniki yeniliklərin tətbiqi ilə məhdudlaşmır; bu proses eyni zamanda iş axınlarının optimallaşdırılmasını, idarəetmə mexanizmlərinin modernləşdirilməsini və müştəri ilə qarşılıqlı əlaqələrin yeni yanaşmalar əsasında qurulmasını nəzərdə tutur. Mövcud bazar şəraiti təşkilatlardan çevik qərarvermə, müştəri ehtiyaclarına fokuslanma və innovasiyalara açıq fəaliyyət modelləri tələb edir. Bu baxımdan rəqəmsal texnologiyaların məqsədyönlü və səmərəli şəkildə tətbiqi rəqabət mühitində əsas üstünlük mənbəyinə çevrilərək təşkilatların davamlı inkişafını təmin edən əsas amil kimi çıxış edir.

Rəqəmsal transformasiya və innovativ texnologiyaların təşkilati fəaliyyətə təsirinin araşdırılması mövzunun aktuallığını daha da artırır. Texnoloji yeniliklər yalnız iqtisadi proseslərin effektivliyini yüksəltməklə kifayətlənmir, eyni zamanda qlobal miqyasda yeni bazar imkanlarının formalaşmasına və əməkdaşlıq mexanizmlərinin genişlənməsinə şərait yaradır. Bu baxımdan rəqəmsal transformasiya müasir rəqabət mühitində iqtisadi münasibətlərin istiqamətini müəyyən edən əsas hərəkətverici qüvvələrdən biri kimi qiymətləndirilir.

Eyni zamanda, rəqəmsal transformasiya və innovativ texnologiyaların təsiri yalnız təşkilatların daxili idarəetmə və əməliyyat prosesləri ilə məhdudlaşmır, onların xarici mühitdəki mövqelərinə və bazar davranışlarına da birbaşa təsir göstərir. Blokçeyn texnologiyaları, elektron ticarət platformaları və IoT (Əşyaların İnterneti) kimi həllər rəqəmsal transformasiyanın ayrılmaz komponentləri olaraq

rəqabət mühitində yeni münasibətlərin və dinamikaların formalaşmasına səbəb olur (Torkayesh, A.E., & Torkayesh, S.E., 2021: s.30).

Cədvəl 1

Rəqəmsal Transformasiyanın İqtisadi və Sosial Təsirlərinə dair Statistik Göstəricilər

Göstərici	2018	2019	2020	2021	2022	2023
Süni İntellekt Bazarının Həcmi ($ milyard)	17.5	22.6	29.9	40.2	51.5	62.8
Kibertəhlükəsizliyə Qlobal Xərclər ($ milyard)	114	126	137	155	172	190
Bulud Texnologiyalarına Qlobal İnvestisiya ($ milyard)	175	214	270	332	411	494
Avtomatlaşdırılmış Proseslərdə Məhsuldarlıq Artımı (%)	18	20	22	24	25	27
İnnovativ Texnologiyalar ilə İş Yerlərinin Artımı (%)	10	12	15	18	20	23

Mənbə:https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/digital_development_2024.pdf

Rəqəmsal transformasiya və innovativ texnologiyaların təsirini xarakterizə edən statistik göstəricilər bu texnologiyaların iqtisadiyyatın müxtəlif sahələrində artan rolunu və tətbiq sürətini aydın şəkildə nümayiş etdirir. Xüsusilə süni intellekt bazarının inkişaf dinamikası diqqət çəkir. Belə ki, 2018-ci ildə 17.5 milyard dollar həcmində qiymətləndirilən süni intellekt bazarı 2023-cü ilə qədər 62.8 milyard dollara yüksəlmişdir. Bu artım süni intellekt texnologiyalarının avtomatlaşdırma, məlumat analitikası və müştəri xidməti kimi sahələrdə geniş miqyasda tətbiq olunduğunu göstərir.

Eyni zamanda, kibertəhlükəsizlik sahəsinə yönəldilən investisiyalarda da nəzərəçarpacaq artım müşahidə olunur. 2018-ci ildə 114 milyard dollar təşkil edən kibertəhlükəsizlik xərcləri 2023-cü ildə 190 milyard dollara çatmışdır. Bu tendensiya rəqəmsal infrastrukturun genişlənməsi fonunda informasiya təhlükəsizliyinin təmin edilməsinin getdikcə daha vacib prioritetə çevrildiyini əks etdirir.

Bulud texnologiyalarına yönələn qlobal investisiyaların artımı da rəqəmsal transformasiyanın əsas göstəricilərindən biridir. 2018-ci ildə bu sahəyə 175 milyard dollar sərmayə qoyulmuşdursa, 2023-cü ilə qədər investisiya həcmi 494 milyard dollara yüksəlmişdir (Wang, W. C., Lin, C. H., & Chu, Y. C., 2011: s.40). Bu göstəricilər təşkilatların məlumatların saxlanması, emalı və idarə edilməsi üçün daha çevik və səmərəli texnoloji həllərə üstünlük verdiyini göstərir.

Avtomatlaşdırılmış proseslərin tətbiqi nəticəsində əmək məhsuldarlığında da davamlı artım qeydə alınmışdır. 2018-ci ildə məhsuldarlıq artımı 18% səviyyəsində olduğu halda, 2023-cü ilə qədər bu göstərici 27%-ə çatmışdır. Bu fakt avtomatlaşdırmanın iş proseslərinin optimallaşdırılmasında və əməliyyat səmərəliliyinin yüksəldilməsində mühüm rol oynadığını təsdiqləyir.

Bununla yanaşı, innovativ texnologiyaların tətbiqi yeni iş yerlərinin yaradılmasına da müsbət təsir göstərmişdir. 2018-ci ildə məşğulluq artımı 10% səviyyəsində qiymətləndirilirdisə, 2023-cü ilə qədər bu göstərici 23%-ə yüksəlmişdir. Bu isə göstərir ki, texnoloji inkişaf yalnız məhsuldarlığın artmasına deyil, eyni zamanda sosial-iqtisadi baxımdan məşğulluğun genişlənməsinə də töhfə verir.

Beləliklə, təqdim olunan statistik göstəricilər rəqəmsal transformasiya və innovativ texnologiyaların həm iqtisadi, həm də sosial proseslərə çoxşaxəli təsirini dərin şəkildə anlamağa imkan yaradır. Texnologiyaların sistemli və məqsədyönlü tətbiqi əmək səmərəliliyinin yüksəldilməsinə, yeni iqtisadi imkanların formalaşmasına və ümumilikdə iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsinə xidmət edir.

Cədvəl 2

Rəqəmsal Texnologiyaların İqtisadi, Sosial və Ekoloji Təsirlərinə dair Statistik Göstəricilər

Göstərici	2018	2019	2020	2021	2022	2023
Rəqəmsal Ödənişlərin Qlobal Həcmi ($ trilyon)	3.1	3.7	4.9	6.2	7.5	8.9
E-ticarət Platformalarının İstifadəçiləri (milyard)	1.8	2.0	2.4	2.7	3.0	3.4
Rəqəmsal Marketinq Xərcləri ($ milyard)	230	275	332	389	456	523
Maşın Öyrənməsi Alqoritmlərinin İstifadəsi (%)	15	22	30	40	50	60
Yaşıl Texnologiyalar üzrə İnvestisiyalar ($ milyard)	170	195	220	250	280	315

Mənbə: https://www.fortunebusinessinsights.com/digital-payment-market-101972, https://www.fortunebusinessinsights.com/green-technology-and-sustainability-market-102221

Cədvəldə rəqəmsal texnologiyaların iqtisadi, sosial və ekoloji müstəvilərdə yaratdığı təsirləri xarakterizə edən əsas statistik göstəricilər sistemləşdirilmiş şəkildə təqdim olunur. Xüsusilə rəqəmsal ödənişlərin qlobal dövriyyəsində illər üzrə əhəmiyyətli artım müşahidə edilir. Belə ki, 2018-ci ildə 3.1 trilyon dollar səviyyəsində olan rəqəmsal ödənişlərin ümumi həcmi 2023-cü ilə qədər 8.9 trilyon dollara yüksəlmişdir. Bu dinamika, əsasən elektron ticarətin genişlənməsi və mobil ödəniş texnologiyalarının dünya miqyasında sürətlə yayılması ilə əlaqələndirilir.

Eyni zamanda, e-ticarət platformalarından istifadə edənlərin sayında da kəskin artım qeydə alınmışdır. 2018-ci ildə 1.8 milyard nəfər olan istifadəçi bazası 2023-cü ildə 3.4 milyard nəfərə çatmışdır. Bu göstərici istehlakçıların alış-veriş davranışlarında rəqəmsal kanallara üstünlük verməyə başladığını və e-ticarətin pərakəndə satış sektorunda aparıcı mövqeyə yüksəldiyini göstərir.

Rəqəmsal marketinq sahəsinə yönəldilən xərclərin həcmi də analoji şəkildə artan tendensiya nümayiş etdirmişdir. Şirkətlər tərəfindən 2018-ci ildə rəqəmsal reklam və marketinq fəaliyyətlərinə ayrılan 230 milyard dollar vəsait 2023-cü ildə 523 milyard dollara yüksəlmişdir (Xu, Y., Li, X., Tao, C., & Zhou, X., 2022: s.50). Bu artım rəqəmsal platformaların müştərilərə çıxış üçün əsas kommunikasiya kanalı kimi mövqeyini möhkəmləndirdiyini və biznes subyektlərinin bu istiqamətə daha çox investisiya yönəltdiyini təsdiqləyir.

Bununla yanaşı, maşın öyrənməsi alqoritmlərinin tətbiq səviyyəsində də sürətli yüksəliş müşahidə olunur. 2018-ci ildə şirkətlərin cəmi 15%-i tərəfindən istifadə edilən bu texnologiyalar 2023-cü ilə qədər 60% səviyyəsinə çatmışdır. Bu fakt süni intellektin əsas komponentlərindən biri olan maşın öyrənməsinin iş proseslərinin avtomatlaşdırılması və məlumatların daha dərin təhlili baxımından əsas texnoloji alətə çevrildiyini göstərir.

Eyni zamanda, yaşıl texnologiyalar sahəsinə yönəldilən investisiyaların da davamlı artım tendensiyası nümayiş etdirdiyi müşahidə olunur ki, bu da rəqəmsal transformasiyanın ekoloji dayanıqlılıq məqsədləri ilə uzlaşdığını göstərir.

Cədvəl 3

Rəqəmsal Təhsil, Ağıllı Texnologiyalar və 5G İnkişafına dair Statistik Göstəricilər

Göstərici	2018	2019	2020	2021	2022	2023
Qlobal Rəqəmsal Təhsil Bazar Həcmi ($ milyard)	153	176	200	230	265	300
Ağıllı Ev Texnologiyaları Bazarı ($ milyard)	55	68	85	104	127	150
5G Texnologiyasına İnvestisiyalar ($ milyard)	90	110	140	175	215	250
Rəqəmsal İşçilərin Faizi (%)	22	25	29	34	40	45
Rəqəmsal Marketinqdə Video Kontentin Payı (%)	55	60	68	74	80	85

Mənbə: https://vidico.com/news/video-marketing-statistics/? https://www.redsharkdigital.com/news/top-50-video-marketing-statistics?

Cədvəldə rəqəmsal transformasiya və innovativ texnologiyaların təhsil sektoru, ağıllı ev həlləri, 5G şəbəkələri, müasir iş mühiti və marketinq fəaliyyətləri üzərində yaratdığı təsirləri xarakterizə edən əsas statistik göstəricilər əks olunmuşdur. Təhlil göstərir ki, qlobal rəqəmsal təhsil bazarı 2018–2023-cü illər ərzində əhəmiyyətli genişlənmə mərhələsindən keçmişdir. Belə ki, 2018-ci ildə 153 milyard dollar səviyyəsində qiymətləndirilən bazar həcmi 2023-cü ildə 300 milyard dollara yüksəlmişdir. Bu

artım əsasən onlayn təhsil platformalarının inkişafı, virtual öyrənmə mühitlərinin tətbiqi və rəqəmsal tədris resurslarının geniş istifadəsi ilə şərtlənmişdir.

Ağıllı ev texnologiyaları bazarında da oxşar inkişaf tendensiyası müşahidə olunur. 2018-ci ildə 55 milyard dollar təşkil edən bu bazar 2023-cü ilə qədər 150 milyard dollara çatmışdır. İşıqlandırma sistemləri, təhlükəsizlik həlləri, istilik və enerji tənzimləyiciləri, eləcə də digər ağıllı qurğuların geniş yayılması bazarın sürətli böyüməsini təmin edən əsas amillər sırasında yer alır.

5G texnologiyalarının inkişafı və tətbiqi istiqamətində yatırılan investisiyaların həcmi də illər üzrə kəskin artım nümayiş etdirmişdir. 2018-ci ildə 90 milyard dollar olan sərmayə qoyuluşları 2023-cü ilə qədər 250 milyard dollara yüksəlmişdir. Daha yüksək ötürmə sürəti və genişləndirilmiş şəbəkə imkanları təqdim edən 5G texnologiyası rəqəmsal transformasiya proseslərinin sürətlənməsində mühüm rol oynamışdır.

Əmək bazarında da rəqəmsallaşmanın təsiri aydın şəkildə hiss olunur. Rəqəmsal texnologiyalardan aktiv istifadə edən və ya uzaqdan işləyən əməkdaşların payı 2018-ci ildə 22% təşkil etdiyi halda, 2023-cü ildə bu göstərici 45%-ə çatmışdır. Bu dəyişiklik təşkilatların iş mühitini rəqəmsal reallıqlara uyğunlaşdırdığını və çevik əmək modellərinə keçidi sürətləndirdiyini göstərir.

Bununla yanaşı, rəqəmsal marketinq strategiyalarında video kontentin rolu da əhəmiyyətli dərəcədə artmışdır. 2018-ci ildə rəqəmsal reklam kampaniyalarının 55%-ində video materiallardan istifadə olunduğu halda, 2023-cü ildə bu göstərici 85%-ə yüksəlmişdir (Wang, W. C., Lin, C. H., & Chu, Y. C., 2011). Bu tendensiya vizual məzmunun istehlakçı davranışlarına təsir gücünün artdığını və marketinq kommunikasiyalarında əsas alətə çevrildiyini nümayiş etdirir.

Cədvəl 4

Rəqəmsal İqtisadiyyatın İnkişafı və Texnologiyaların Tətbiqinə dair Statistik Göstəricilər

Göstərici	2018	2019	2020	2021	2022	2023
Rəqəmsal İqtisadiyyatın Qlobal ÜDM-də Payı (%)	15	17	20	23	25	27
Rəqəmsal Startaplara İnvestisiya ($ milyard)	300	350	450	510	620	700
Süni İntellektlə İşləyən Chatbotların İstifadəsi (%)	30	38	45	52	60	68
Rəqəmsal Reklam Xərcləri ($ milyard)	283	333	378	420	480	540
Rəqəmsal Bankçılıq Müştərilərinin Faizi (%)	25	30	36	42	50	58

Mənbə: https://electroiq.com/stats/online-banking-usage-statistics/. https://www.oberlo.com/statistics/digital-ad-spend

Cədvəldə rəqəmsal transformasiya və innovativ texnologiyaların iqtisadiyyat, biznes və maliyyə sektorlarında yaratdığı inkişaf meyillərini xarakterizə edən əsas statistik göstəricilər təqdim olunur. Təhlil göstərir ki, rəqəmsal iqtisadiyyatın qlobal ümumi daxili məhsulda (ÜDM) tutduğu pay son illər ərzində əhəmiyyətli dərəcədə genişlənmişdir. Belə ki, 2018-ci ildə 15% səviyyəsində qiymətləndirilən bu göstərici 2023-cü ildə 27%-ə yüksəlmişdir. Bu dinamika rəqəmsal texnologiyaların artıq iqtisadi fəaliyyətin ayrılmaz və əsas komponentlərindən birinə çevrildiyini nümayiş etdirir.

Eyni zamanda, rəqəmsal startaplara yönəldilən qlobal investisiyalarda da nəzərəçarpacaq artım müşahidə olunur. 2018-ci ildə bu sahəyə yatırılan vəsaitin həcmi 300 milyard dollar təşkil etdiyi halda, 2023-cü ildə investisiya axını 700 milyard dollara çatmışdır. Bu artım rəqəmsal biznes modellərinin, texnoloji innovasiyaların və yüksək artım potensialına malik layihələrin investorlar üçün getdikcə daha cəlbedici hala gəldiyini göstərir.

Bununla yanaşı, süni intellekt əsasında fəaliyyət göstərən chatbot texnologiyalarının tətbiq səviyyəsi də sürətlə yüksəlmişdir. 2018-ci ildə təşkilatların 30%-i tərəfindən istifadə edilən bu həllər 2023-cü ilə qədər 68%-ə çatmışdır (Wang, W. C., Lin, C. H., & Chu, Y. C., 2011: s. 40). Bu göstərici süni intellekt texnologiyalarının müştəri xidməti, əməliyyat proseslərinin avtomatlaşdırılması və biznes səmərəliliyinin artırılması baxımından əsas alətlərdən birinə çevrildiyini təsdiqləyir.

Cədvəl 5

Rəqəmsal Texnologiyaların Sağlamlıq, Kibertəhlükəsizlik, E-ticarət və Bankçılıq Sahələrinə Təsiri ilə bağlı Statistik Göstəricilər

Göstərici	2018	2019	2020	2021	2022	2023
Rəqəmsal Sağlamlıq Tətbiqlərinin İstifadəçiləri (milyon)	500	600	750	900	1100	1300
Kibertəhlükəsizlik Xərcləri ($ milyard)	114	126	137	155	172	190
E-ticarət Qlobal Satışlarının Həcmi ($ trilyon)	2.5	3.0	4.0	4.8	5.5	6.0
Rəqəmsal Bankçılıq Tətbiqlərinin İstifadəçiləri (milyon)	800	950	1200	1450	1700	2000
Bulud Texnologiyalarına İnvestisiyalar ($ milyard)	175	214	270	332	411	494

Mənbə: *https://www.fortunebusinessinsights.com/industry-reports/cyber-security-market-101165, https://www.marketsandmarkets.com/Market-Reports/cloud-computing-market-234.html*

Cədvəldə rəqəmsal texnologiyaların sağlamlıq, kibertəhlükəsizlik, elektron ticarət, bankçılıq və bulud texnologiyaları istiqamətlərindəki inkişaf trayektoriyası və onların tətbiq miqyası əks olunmuşdur. Xüsusilə rəqəmsal sağlamlıq sahəsində istifadəçi sayının illər üzrə əhəmiyyətli artım nümayiş etdirdiyi müşahidə edilir. Belə ki, 2018-ci ildə rəqəmsal sağlamlıq tətbiqlərindən istifadə edənlərin sayı 500 milyon nəfər təşkil etdiyi halda, 2023-cü ildə bu göstərici 1.3 milyard nəfərə yüksəlmişdir (Torkayesh, A. E., & Torkayesh, S. E., 2021: s.21). Telemedisina xidmətlərinin genişlənməsi, sağlamlıq göstəricilərini izləyən qurğuların yayılması və rəqəmsal tibbi platformaların artan populyarlığı bu tendensiyanı dəstəkləyən əsas amillər sırasında yer alır.

Kibertəhlükəsizlik sahəsinə yönəldilən maliyyə vəsaitlərinin həcmi də analoji şəkildə artım nümayiş etdirmişdir. 2018-ci ildə 114 milyard dollar səviyyəsində olan kibertəhlükəsizlik xərcləri 2023-cü ildə 190 milyard dollara çatmışdır. Bu dinamika rəqəmsal infrastrukturların qorunmasının strateji prioritetə çevrildiyini və təhlükəsizlik texnologiyalarına olan tələbatın artdığını göstərir.

Elektron ticarət sektorunda da davamlı genişlənmə prosesi müşahidə olunur. 2018-ci ildə qlobal miqyasda 2.5 trilyon dollar təşkil edən e-ticarət satışlarının həcmi 2023-cü ilə qədər 6 trilyon dollara yüksəlmişdir. Bu göstərici e-ticarət platformalarının istehlakçılar arasında daha geniş qəbul olunduğunu və ənənəvi pərakəndə satış modellərinin sürətlə rəqəmsal formata keçdiyini əks etdirir.

Rəqəmsal bankçılıq xidmətlərindən istifadə edənlərin sayında da ciddi artım qeydə alınmışdır. 2018-ci ildə 800 milyon nəfər olan istifadəçi bazası 2023-cü ildə 2 milyard nəfərə çatmışdır. Bu artım bank əməliyyatlarının mobil və rəqəmsal kanallar vasitəsilə daha əlçatan, sürətli və istifadəçi üçün rahat formada təqdim olunması ilə izah edilir.

Bulud texnologiyalarına yatırılan investisiyaların həcmi də sürətlə yüksəlmişdir. 2018-ci ildə bu sahəyə qoyulan sərmayə 175 milyard dollar olduğu halda, 2023-cü ildə investisiya məbləği 494 milyard dollara çatmışdır. Bulud texnologiyaları məlumatların saxlanması, emalı və idarə edilməsi sahəsində əsas texnoloji həllərdən biri kimi mövqeyini möhkəmləndirmişdir.

Ümumilikdə, təqdim olunan göstəricilər rəqəmsal texnologiyaların müxtəlif sektorlar üzrə sürətli yayılmasını və onların qlobal iqtisadi sistemə, eləcə də sosial həyatın transformasiyasına əhəmiyyətli təsirini aydın şəkildə nümayiş etdirir. Gələcək dövrdə bu texnologiyaların tətbiq dairəsinin daha da genişlənməsi ilə müvafiq sahələrdə yeni inkişaf mərhələlərinin formalaşacağı gözlənilir (European Big Data Value cPPP, 2014).

NƏTİCƏ

Rəqəmsal transformasiya və innovativ texnologiyalar müasir mərhələdə cəmiyyətin və iqtisadiyyatın bütün istiqamətlərinə əhəmiyyətli təsir göstərərək inkişafın əsas aparıcı amillərindən birinə çevrilmişdir. Bu proses biznes modellərinin yenilənməsini, eləcə də fərdi həyat tərzində baş verən dəyişiklikləri əhatə edən geniş miqyaslı transformasiya yaradır. Süni intellekt, big data, avtomatlaşdırma, bulud texnologiyaları, virtual və artırılmış reallıq kimi həllər təşkilatların rəqabət qabiliyyətini artırmaqla yanaşı, sosial, iqtisadi və ekoloji problemlərin həllinə də töhfə verir. Bununla yanaşı, rəqəmsal texnologiyaların yayılması kibertəhlükəsizlik, məlumatların məxfiliyi, əmək bazarının transformasiyası və etik məsələlər kimi yeni çağırışlar formalaşdırır. Bu səbəbdən rəqəmsal

transformasiyanın effektiv idarə olunması üçün texnologiyaların məsuliyyətli tətbiqi və onların sosial təsirlərinin nəzərə alınması vacibdir. Ümumilikdə, rəqəmsal transformasiya gələcək inkişafın əsas dayaqlarından biri olaraq qalacaq və bu potensialdan səmərəli istifadə üçün cəmiyyət, təşkilatlar və dövlət qurumları balanslı və strateji yanaşmalar formalaşdırmalıdırlar.

ƏDƏBİYYAT

1. European Big Data Value contractual Public Private Partnership (cPPP) -Strategic Research and Innovation Agenda. 2014.
2. Ə.Q.Əliyev. "İnformasiya iqtisadiyyatının inkişaf səviyyəsinin qiymətləndirilməsi üzrə indikatorlar sisteminin işlənilməsi məsələləri". AMEA İnformasiya Texnologiyaları İnstitutu. "İnformasiya cəmiyyəti problemləri" jurnalı. 2014, №1, səh. 65-74.
3. Xu, Y., Li, X., Tao, C., & Zhou, X. (2022). "Connected knowledge spillovers, technological cluster innovation and efficient industrial structure". Journal of Innovation & Knowledge, 7(3), 100195.
4. Rəqabət terminlərinin izahlı lüğəti: "Nəzəri və praktiki əsasları ilə birlikdə". (2023). Bakı, Azərbaycan.
5. Torkayesh, A.E., & Torkayesh, S. E. (2021). Evaluation of information and communication technology development in G7 countries: An integrated MCDM approach. Technolog y in Society, 66, 101670.
6. Wang, W. C., Lin, C. H., & Chu, Y. C. (2011). Types of competitive advantage and analysis. International Journal of Business and Management, 6(5). doi:10.5539/ijbm.v6n5p100
7. *https://electroiq.com/stats/online-banking-usage-statistics/*.
8. https://https://doi.org/10.1016/j.jik.2022.100195
9. *https://iot-analytics.com/number-connected-iot-devices/?https://www.sellerscommerce.com/blog/ecommerce-statistics/?*
10. *https://vidico.com/news/video-marketing-statistics/?*
11. https://www.fortunebusinessinsights.com/digital-payment-market-101972, https://www.fortunebusinessinsights.com/green-technology-and-sustainability-market-102221
12. *https://www.grandviewresearch.com/industry-analysis/virtual-reality-vr-market*
13. *https://www.marketsandmarkets.com/Market-Reports/cloud-computing-market-234.html*
14. *https://www.fortunebusinessinsights.com/industry-reports/cyber-security-market-101165*
15. *https://www.oberlo.com/statistics/digital-ad-spend*
16. *https://www.redsharkdigital.com/news/top-50-video-marketing-statistics?*
17. https://www.stat.gov.az/(2023)
18. *https://www.statista.com/statistics/617136/digital-population-worldwide/*

ABSTRACT

THE IMPACT OF INNOVATIVE INFORMATION TECHNOLOGIES ON COMPETITIVE ADVANTAGES

Alishli Adil, Valiyev Jabrayil

İsabatı: Əksini fərz edək: Tutaq ki, A yoxsa, B vardır. Onda tərs teoremə görə B varsa, A-də vardır. Bu isə əks teoremin şərtinə (A "yoxsa"-ya) ziddir. Deməli, fərziyyəmiz doğru olmayıb isbat edəcəyimiz təklif doğrudur.

Buradan çıxır ki, əks teoremin doğruluğu tərs teoremin də doğruluğunu təmin edir. Yəni bunlar ekvivalent təkliflərdir.

Həmçinin, isbat etdiyimiz bu iki teoremdən görünür ki, dörd təklifdən bir cütü (I və IV və yaxud II və III) doğru olduqda dördü də doğrudur.

Odur ki, doğru olub-olmamaq cəhətdən bunlar aşağıdakı başlıqları, onların ancaq ikisi üçün söyləmək kifayətdir və burada aşağıdakı üç hala rast gəlmək olar.

Birinci hal: I doğrudur, lakin II doğru deyildir.

İkinci hal: II doğrudur, lakin I doğru deyildir.

Üçüncü hal: I doğrudur, II doğrudur.

Birinci hal mövcud olduqda teoremin şərtinə kafi şərt, ikinci halda zəruri şərt, üçüncü halda isə, zəruri və kafi şərt deyirlər.

Beləliklə, bizə lazım olan anlayışlara gəlib çıxırıq. İndi bunlara tərif vermək olar. Lakin əvvəlcə, tədris – metodik ədəbiyyatda geniş yayılmış aşağıdakı tərifləri nəzərdən keçirək.

Düz teorem doğru olub, tərs teorem doğru deyilsə, onda teoremin şərtinə kafi şərt deyilir.

Düz və tərs teoremlərin hər ikisi doğru olarsa, onda teoremin şərtinə zəruri və kafi şərt deyilir. ("Bəzi ədəbiyyatlarda "tərs sözü" əks sözü ilə əvəz edilir ki, bu da mümkündür.)

Əlbəttə, bu tərifl ər səhv deyildir, onları qəbul etmək olar. Lakin, aşağıdakı mülahizələrə görə, bunları dəqiqləşirməyə ehtiyac vardır. Əvvəla, bir şərtin kafi, zəruri və ya zəruri və kafi olması bir nəticə üçün, bir təklifin həqiqiliyi üçün müəyyən olunur. Məsələn, şərt kafidir, dedikdə bu şərtin məhz konkret bir nəticə üçün kafi olduğu nəzərdə tutulur. İkincisi söhbət hər hansı düz teorem və hər hansı tərs teoremdən deyil, konkret bir təklifdən – teoremdən və məhz bunun tərsi olan təklifdən getdiyi tərifdə görünməlidir. Nəhayət, biri digərinun tərsi olan iki təklifdən hansının tərs olması "möhürlənmir", yalnız şərtləşilir ; xüsusilə düz və tərs təklifin hər ikisi doğru olduqda bunlar eynihüquqlu olur, biri digəri yerində işlənə bilir. Bu dediklərimizi nəzərə alaraq tərifləri aşağıdakı kimi söyləməyi lazım bilirik.

Tərif: Bir təklif doğru olub, onun tərsi doğru deyilsə, bu təklifin şərtinə və nəticəsi üçün kafi şərt deyilir.

Məsələn, "İki bucağın uyğun tərəfləri eyni istiqamətli olarsa, həmin bucaqlar bərabər olar" təklifini doğrudur. Bunun tərsi olan "iki bucaq bərabər olarsa, onların uyğun tərəfləri eyni istiqamətli olar" təklifi isə doğru deyildir (çünki, başqa halda da iki bucaq bərabər ola bilər).

Deməli, iki bucağın uyğun tərəflərinin eyni istiqamətli olması (şərti), onların bərabər olması (nəticəsi) üçün kafi şərtdir.

Tərif: Bir təklifin tərsi doğru olub, özü doğru deyilsə, bu təklifin şərtinin nəticəsi üçün zəruri şərt deyilir.

Məsələn: "Natural ədəd cüt ədəd olarsa, bu ədəd 6-ya bölünür" təklifi doğru olmadığı (14 cüt ədəddir, lakin 6-ya bölünmür) halda, onun tərsi olan: natural ədəd 6-ya bölünərsə, o cüt ədəd olar: təklifi doğrudur. Deməli, natural ədədin cüt ədəd olaması (şərti), natural ədədin 6-ya bölünməsi (nəticəsi) üçün zəruri şərtdir.

Tərif: Doğru olan bir təklifin tərsi də doğru olarsa, bu təklifin şərtinə nəticəsi üçün zəruri və kafi şərt deyirlər.

Misal: "Hər hansı nöqtə parçanın uclarından bərabər uzaqlıqda olarsa, bu nöqtə parçanın ortasından keçən perpendikulyar üzərində olar" və "nöqtə parçanın ortasından keçən perpendikulyar üzərində olarsa, bu nöqtə parçanın uclarından bərabər uzaqlıqda olar" təkliflərinin hər ikisi doğrudur. Deməli, nöqtənin parçanın uclarından bərabər uzaqlıqda olması (şərti), bu nöqtənin həmin parçanın ortasından keçən perpendikulyar üzərində olması (nəticəsi) üçün zəruri və kafi şərtdir.

Bunlar, baxdığımız anlayışlara tərif verməyin yeganə yolu deyildir. Bu tərifləri və misalları təhlil etməklə düzgün olan belə nəticələr çıxarmaq olar:

a) şərtin kafiliyini varsa nəticə həmişə vardır, başqa sözlə, şərt kafidirsə, onda nəticənin varlığı həmişə təmin olunur (iki bucağın uyğun tərəfləri eyni istiqamətli olduqda, belə bucaqlar həmişə bərabərdir);

b) şərt zəruri isə, bu, nəticə ancaq bu şərt daxilində mümkündür, başqa sözlə nəticənin varlığı ancaq bu şərtin varlığından asılıdır; doğrudan "ədədin cüt olması, onun 6-ya bölünməsi üçün zəruridir" – təklifi göstərir ki, başqa cür mümkün değil, yəni ədədin 6-ya bölünməsi, həmin ədəd ancaq cüt ədəd olduqda mümkündür (tək olduqda 6-ya bölünə bilməz). Şərt zəruri və kafi olduqda şərt və nəticənin hər biri digərinin varlığını təmin edir.

Beləliklə, kafi, zəruri, zəruri və kafi şərtlərə tərif verməyin ikinci bir variantı, "A, B" dili ilə tərif vermə variantını əldə etmiş oluruq.

Tərif: A şərtinin varlığı, B nəticəsinin varlığını təmin edərsə, A-ya B-nin kafi şərti deyilir.

Natural ədədin sonuncu rəqəmi sıfır olarsa, həmin ədəd 5-ə bölünər. Burada sonuncu rəqəmin sıfır olması şərti (A), natural ədədin 5-ə bölünməsi (B) üçün kafi şərtdir. Çünki sıfırla qurtaran hər bir natural ədəd 5-ə bölünər.

Tərif: A nəticəsinin varlığı, yalnız B şərtinin varlığı ilə mümkündürsə, A-ya B üçün zəruri şərt deyilir.

Diaqonalları qarşılıqlı perpendikulyar olan dördbucaqlı rombdur. Burada, dördbucaqlının diaqonallarının qarşılıqlı perpendikulyar olması şərt (A), bu dördbucaqlının romb olması (B) nəticəsi üçün zəruri şərtdir. Çünki, diaqonalları perpendikulyar olmadıqda, dördbucaqlı romb ola bilməz (yəni nəticə yalnız şərt daxilində mümkün ola bilər).

Tərif: A şərti ilə B nəticəsinin hər biri digərinin varlığınıtəmin edərsə, A-ya B üçün zəruri və kafi şərt deyilir.

Natural ədədin sonuncu rəqəmi 0 və ya 5 olarsa, bu ədəd 5-ə bölünər. Bu misalda, natural ədədin sonuncu rəqəminin 0 və ya 5 olması şərti (A), həmin ədədin 5-ə bölünməsi nəticəsi (B) üçün zəruri və kafi şərtdir. Ona görə ki, natural ədəddə sonuncu rəqəm 0 və ya 5 olduqda bu ədəd 5-ə bölünür, həmçinin natural ədəd 5-ə bölünürsə, sonuncu rəqəmi 0 və ya 5 olmalıdır. Yəni şərt və nəticə bir-birinin varlığını qarşılıqlı olaraq təmin edir. Başqa sözlə, A varsa, B var və B varsa, A vardır.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bu tərifləri daha qısa şəkildə: A varsa B var – kafi şərt, B varsa A var – zəruri şərt, A varsa B və B varsa A var – zəruri və kafi şərt (yaxud uyğun olaraq: A→B; B→A; A→B və B→A) kimi ifadə etmək mümkündür.

Beləliklə, riyaziyyatlarda kafi, zəruri, zəruri və kafi şərt anlayışları və onlara tərif vermədə iki variantı nəzərdən keçirdik.

İndi bu anlayışların məktəb kursuna daxil edilməsi və mənimsənilməsi haqqında danışmaq yerinə düşər. Məlumdur ki, tədrisdə hər hansı bir yeni anlayışı daxil edərkən iki: konkret-induktiv və ya mücərrəd deduktiv yollardan birini seçmək olar. Zəruri və kafi şərt anlayışları aşağı sinifdə, məhz VII sinifdə daxil edildiyi üçün əlbəttə birinci yolu, yəni konkret induktiv yolu seçmək daha münasibdir. Belə ki, həmin anlayışların şərtinə birdən-birə anlayışa verilən tərifdən deyil, konkret həyatı misallardan başlamaq və şagirdlərin diqqətini hadisə və ya faktların şərt və nəticəsi arasındakı asılılığa cəlb etməklə bu tərif üçün əzmin hazırlamaq lazımdır.

Bir neçə misal göstərək. Yağış yağsa, küçə islanar. Başqa sözlə yağışın yağması, küçənin islanması üçün kafidir. Bütün fənnlərdən müvəffəq qiymət almaq, sinifdən-sinifə keçmək üçün kafidir və s. Əlbəttə, müəllim bunları və oxşar başqa misalları hazır şəkildə söyləməyib, sual- cavabla şagirdlərdən alsa daha yaxşı olar. Bundan sonra şagirdlər məlum olan bir neçə riyazi təklif seçib, kafilik şərtilə əlaqədar şəkildə söyləmək mümkündür. Məsələn, "qarşılıqlı bucaqlar bərabərdir" təklifini "iki bucağın qarşılıqlı olması, onların bərabər olması üçün kafidir". "Uyğun katetləri bərabər olan düzbucaqlı üçbucaqlar bərabərdir" təklifini, uyğun katetlərinin bərabər olması, iki düzbucaqlı üçbucağın bərabər olması üçün kafidir şəkildə ifadə etmək və gətirilmiş misallarda şərtlərin varlığı(yağış yağması, uyğun katetlərin bərabər olması, bucaqların qarşılıqlı bucaqlar olması), onların uyğun nəticələrinin varlığını həmişə təmin etməsi qənaətini əldə etmək və şagirdlərə çatdırmaq lazımdır.

Bundan sonra yuxarıda göstərilmiş tərif variantlarından birini seçib kafi şərtin tərifini söyləmək olar. Lakin, burada bir cəhətə diqqət yetirmək lazımdır ki, adətən şagirdlər tədrisdə ancaq doğru teoremlərlə rastlaşır, doğru olmayan teoremin varlığı, başqa sözlə, həqiqət olmayan təkliflər haqqında təsəvvürləri belə olmur. Odur ki, birinci variant tərifi daxil etmək üçün əvvəlcədən hazırlıq görülməli, doğru və doğru olmayan təkliflər haqqında anlayış verilməli, təklifin özü və tərsi arasındakı münasibət şərh edilməlidir. Bizcə, VII sinifdə məhz ikinci variant, şərt və nəticə arasındakı asılılığa əsasən tərifi qəbul etmək daha münasibdir, çünki, həyatı misallar həmçinin misal vasitəsilə söylənən teoremlərdə bu asılılıq daha qabarıq görünür və şagirdlərə daha tez çatır.

Beləliklə, yuxarıdakı şəkildə daha bir neçə misal götürdükdən sonra A və B vasitəsilə kafi şərtin yuxarıdakı tərifi söylənir və misallarla möhkəmləndirilir

Zəruri şərti izah etmək üçün yenə misallara müraciət edirik: ali məktəbə daxil olmaq, ali təhsil almaq üçün zəruridir, diaqonallarının kəsişmə nöqtəsi ilə yarıya bölünməsi, dördbucaqlının paraleloqram olması üçün zəruridir, natural ədədin cüt ədəd olması, onun 4 - ə bölünməsi üçün zəruridir və s.

Müsahibə yolu ilə müəllim şagirdlərə izah edir ki, bu misallarda nəticələr şərtlər olmadan mümkün deyildir. Yəni nəticənin varlığı yalnız həmin şərtlər daxilində mümkündür (Ali məktəbə daxil olmadan ali təhsil almaq olmaz, dördbucaqlının diaqonalları kəsişmə nöqtəsində yarıya bölünməzsə, bu dördbucaqlı paraleloqram ola bilməz; yalnız cüt ədədlər 4-ə bölünə bilər). Bundan sonra zəruri şərtə (B, A ilə) yuxarıdakı tərif verilir və misallarla möhkəmləndirilir.
Zəruri və kafi şərt anlayışının şərhinə " kafidir, lakin zəruri deyil", " zəruridir, lakin kafi deyil" ifadələrinin işlənməsinə dair misallarla başlamaq mümkündür.

Məsələn, yağış yağması səkinin islanması üçün kafidir, lakin zəruri deyildir, çünki yağış yağmadan da (məsələn çiləməklə) səki islana bilər.

Ali məktəbə daxil olmaq, ali təhsil almaq üçün zəruridir, lakin kafi deyildir (müvəffəqiyyətlə oxuyub, təhsili başa vurmaq lazımdır). İki bucağın qarşılıqlı bucaq olması, onların bərabər olması üçün kafidir, lakin zəruri deyildir, çünki qarşılıqlı olmayan bucaqlar da bərabər ola bilərlər. Diaqonalların qarşılıqlı perpendikulyar olması, dördbucaqlının romb olması üçün zəruridir, lakin kafi deyildir, çünki, diaqonalları perpendikulyar olan dördbucaqlı romb olmaya da bilər (məsələn, kvadrat) və s.

Nöqtənin tənbölən üzərində olması, həmin nöqtənin bucağın tərəflərindən bərabər uzaqlıqda olması üçün kafi və zəruridir. Doğrudan da , nöqtə bucağın tənböləni üzərində olarsa, bucağın tərəflərindən bərabər uzaqlıqda olar. Yəni şərt kafidir, həmçinin nöqtə, bucağın tənböləni üzərində olmayan halda tərəflərdən bərabər uzaqlıqda ola bilməz. Yəni, şərt həm də zəruridir. Bundan sonra zəruri və kafi şərtə (A, B ilə) yuxarıdakı tərif verilir və misallarla möhkəmləndirilir.

Məlum olduğu kimi, riyaziyyatda teoremlər çox zaman kafi, zəruri, kafi və zəruri şərtlər vasitəsilə ifadə edilir. Təbiidir ki, yeni proqramla əlaqədar olaraq, məktəb kursunda da buna yer veriləcək bir sıra təklifləri bu şərtlərlə ifadə etmək lazım gələcəkdir. Odur ki, VII sinifdə bu anlayışları mənimsətməyin növbəti mərhələsi teoremləri kafi və zəruri şərtlə söyləməyi şagirdlərə öyrətməkdən ibarət olacaqdır. Bizə görə məhz bu mərhələdə, birinci variant tərifləri şərh etmək və işlətmək əlverişli olardı. Kafi və zəruri şərt anlayışları şagirdlərə artıq tanış olduğu üçün bu keçid çətin olmayacaqdır. Teoremlərin kafi və zəruri şərtlərlə ifadə edilməsi ilə əlaqədar olaraq bir məsələyə toxunmaq istərdik. Azərbaycan dilində riyazi ədəbiyyatda, teoremlərin kafi və ya zəruri şərtlə ifadələrində teoremin şərtini ikinci yerdə söyləmək demək olar ki, ənənə şəkli almışdır. Məsələn, eyni bir dairədə qövslərin bərabər olması üçün, onların paralel vətərlər arasında qalması kafidir. Dördbucaqlının paraleloqram olması üçün, diaqonalları ilə iki bərabər üçbucağa bölünməsi zəruridir və s. Göründüyü kimi burada əvvəl teoremin nəticəsi, sonra isə şərti söylənilir. Əlbəttə, bu elmi cəhətdən prinsipal məsələ deyildir, lakin tədris nöqteyi nəzərdən bunun mənası vardır. Belə ki, teoremləri adətən "... olarsa, ..olar" sxemi ilə ifadə edin və məktəbdə belə də öyrədirik. Teoremin ifadə olunmasında, eyni formanı, eyni sxemi saxlamaq məqsədilə, kafi və ya zəruri şərtlə ifadədə həmin sxemə riayət etmək mümkündür. Riyazi ədəbiyyatdan gətirdiyimiz ikinci misal "Dördbucaqlı diaqonalları ilə iki bərabər üçbucağa bölünərsə, bu dördbucaqlı paraleloqram olar" teoreminin zəruri şərtlə ifadəsidir. Həmin teoremi belə söyləmək mümkün idi: "Dördbucaqlının diaqonalları ilə iki bərabər üçbucağa bölünməsi, onun paraleloqram olması üçün zəruridir." Göründüyü kimi, burada şərt və nəticə növbə ilə gedir ,"... olarsa ... olar" sxemi gözlənilir və teoremin ifadəsinə heç bir xələl gəlmir, sadəcə olaraq, olarsa sözünü "olması", "olar" sözü ilə əvəz etmək, cümlənin sonuna kafidir(zəruridir, kafi və zəruridir) sözünü artırmaq lazım gəlir. Aydındır ki, belə bir keçid şagirdlər üçün çətinlik törətməz və hər hansı təklifi kafi və ya zəruri şərtlə müvəffəqiyyətlə ifadə edə bilərlər.

Düz və tərs teoremin hər ikisi doğru olduqda, bunlara qarşılıqlı tərs teroemlər deyirlər. Aydındır ki, qarşılıqlı tərs teoremlərdən birinin şərti, nəticəsi üçün kafi və zəruri şərt olur. Odur ki, zəruri və kafi şərtdən istifadə edərək iki teoremi birləşdirib bir teorem şəklində ifadə edirlər. Məsələn, rəqəmləri cəmi 3-ə bölünən natural ədəd 3-ə bölünür; 3-ə bölünən natural ədədin rəqəmləri cəmi 3-ə bölünür, teoremləri qarşılıqlı tərs teroemlərdir. Bunları bir teoremdə birləşdirək; rəqəmləri cəminin 3-ə bölünməsi natural ədədin 3-ə bölünməsi üçün kafi və zəruridir. Bu şəkildə söylənən teoremin isbatı iki hissədən: şərtin kafiliyi və şərtin zəruriliyinin isbatından ibarət olur. Qeyd edək ki, şərt həm kafi, həm zəruri olan halda, (düz və tərs teoremlərdə olduğu kimi) bunlar eyni hüquqlu olur, eyni

məna daşıyır, biri digəri yerində işlənə bilir. Odur ki, bunlardan hansını kafi, hansını zəruri adlandırmaq yanlız şərtidir.

ƏDƏBİYYAT

1. Həsənov A.İ., Elementar riyaziyyat , Bakı, 2021, 462 s.
2. Sadıxov N.A. Riyaziyyatın ibtidai kursunun elmi əsasları Bakı 1991, 250 s.
3. Cəbr 7, Ümumtəhsil məktəbləri üçün dərslik, Çaşıoğlu 2004, 335 səh
4. Mərdanov M.C. və b. " Cəbr və analizin başlanğıcı" IX sinif dərsliyi, Bakı 2005,207 səh.

SUMMARY

THE CONCEPT OF NECESSARY AND SUFFİCİENT CONDİTİON İN MATHEMATİCS AND THE METHODOLOGY OF İTS TEACHİNG İN THE SCHOOL CURRİCULUM

Orkhan Jafarov, Jala Jafarova

The article examines the essence of the concepts of "necessary and sufficient conditions" and their teaching principles at the school level. Teaching these concepts plays an important role in the development of mathematical and logical thinking in students. The article explains the relationship between the condition and the result of theorems and clarifies it with appropriate examples. It is recommended to present concepts in teaching in an inductive way based on specific examples. An approach based on real-life and mathematical situations, rather than abstract definitions, increases the effectiveness of teaching. As a result, the correct mastering of the topic develops students' mathematical thinking and logic skills.

Keywords: *high school, mathematics, necessary condition, sufficient condition, theorem, mathematical thinking, logical connection, methodology*

РЕЗЮМЕ

ПОНЯТИЕ НЕОБХОДИМОГО И ДОСТАТОЧНОГО УСЛОВИЯ В МАТЕМАТИКЕ И МЕТОДИКА ЕГО ПРЕПОДАВАНИЯ В ШКОЛЬНОМ КУРСЕ

Орхан Джафаров, Джаля Джафарова

В статье рассматривается сущность понятий «необходимые и достаточные условия» и принципы их преподавания в школе. Обучение этим понятиям играет важную роль в развитии математического и логического мышления учащихся. В статье объясняется связь между условием и результатом теорем и поясняется соответствующими примерами. Рекомендуется излагать понятия в обучении индуктивным способом, опираясь на конкретные примеры. Подход, основанный на реальных математических ситуациях, а не на абстрактных определениях, повышает эффективность обучения. В результате правильное усвоение темы развивает математическое мышление и логические способности учащихся.

Ключевые слова: *Средняя школа, математика, необходимое условие, достаточное условие, теорема, математическое мышление, логическая связь, методика*.

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-25
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

NANOELEKTRON GURĞULARIN TƏTBİQ SAHƏLƏRİ

Aygün SULTANOVA [1], **Kəmalə ƏZİZOVA** [2], **Səma BABAYEVA** [1]
[1]Naxçıvan Dövlət Universiteti , Naxçıvan, Azərbaycan
[2]Elm və Təhsil Nazirliyi Fizika İnstitutu,Azərbaycan Universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif: aygunsultanova@ndu.edu.az*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
mikroelektronika, nanometr, nanosensor, fotodetektorlar, süni zəka.

XÜLASƏ
Nanoelektronika – elektronika elm və texnologiyasının, nanometr miqyasında (1–100 nm) işləyən qurğu və sistemlərin hazırlanmasını və tətbiqini öyrənən istiqamətidir. Bu sahə, atom və molekul səviyyəsində maddənin xüsusiyyətlərinə nəzarət etmək, kvant effektlərini praktik məqsədlər üçün istifadə etmək imkanları ilə fərqlənir.
Nanoelektron qurğuların yaradılması yalnız hesablama sürətini və enerji səmərəliliyini artırmaqla kifayətlənmir, həm də yeni tip funksionallıqların - molekulyar yaddaş, kvant hesablama, nanosensor sistemləri kimi texnologiyaların inkişafına zəmin yaradır.
Nanoelektronika məhsulları və texnologiyaları müasir sənayenin müxtəlif sahələrində tətbiq olunur: Nanoelektron məhsullar və texnologiyalar elektronika (kiçik çiplər, yüksək sürətli yaddaşlar, yüksək keyfiyyətli displeylər), enerji (batareyalar, günəş batareyaları), tibb (məqsədli dərman çatdırılması, xəstəlik aşkarlama sensorları) kimi müxtəlif sahələrdə istifadə olunur.
Aparılan tədqiqatlar göstərir ki, nanoelektronika müasir texnologiyaların inkişafında mühüm istiqamət olaraq, həm fundamental elmi nailiyyətlərə, həm də sənaye istehsalına ciddi təsir göstərir. Mikroelektronikadan nanoelektronikaya keçid prosesində əldə edilən nəticələr yalnız hesablama gücünün artırılması ilə məhdudlaşmır, eyni zamanda enerji səmərəliliyinin yüksəldilməsi, cihazların miniaturizasiyası və yeni funksional imkanların yaradılması baxımından mühüm əhəmiyyət daşıyır.

GİRİŞ

XX əsrin sonları və XXI əsrin əvvəlləri texnologiya tarixində yeni bir mərhələ kimi qiymətləndirilir. Bu dövrdə informasiyanın sürətli emalı, yüksək məhsuldar hesablama sistemləri və mikromiqyaslı elektron cihazların inkişafı sahəsində mühüm nailiyyətlər əldə edilmişdir. Lakin mikroelektronika texnologiyalarının miniatürləşmə həddi yaxınlaşdıqca, ənənəvi istehsal metodlarının qarşısında ciddi fiziki və texnoloji məhdudiyyətlər yaranmışdır.

Bu məhdudiyyətlərin aradan qaldırılması məqsədilə elmi ictimaiyyət nanoölçülü strukturların tədqiqinə və tətbiqinə yönəlmişdir (Abdinov Ə.Ş. ,Səfərov V.H. , 2010)

Nanoelektronikanın inkişafı həm fundamental elmi tədqiqatlara, həm də tətbiqi mühəndislik işlərinə əsaslanır. Bu sahədə qrafen, karbon nanoborular, nanotellər, kvant nöqtələri və digər nanomateriallar geniş şəkildə öyrənilir. Onların unikal elektrik, optik və mexaniki xüsusiyyətləri, gələcək nəsil tranzistorlar, yaddaş qurğuları, fotodetektorlar və enerji yığma sistemləri kimi cihazlarda istifadəsinə imkan verir.

Nanoelektronika - nanometr miqyasında (1 nm = 10^{-9} m) fəaliyyət göstərən elektron cihazların, komponentlərin və sistemlərin hazırlanması, tədqiqi və tətbiqi ilə məşğul olan müasir elmi-texniki istiqamətdir. Bu sahə klassik mikroelektronikanın məntiqi davamı olaraq meydana gəlmiş, lakin ənənəvi texnologiyaların ölçü məhdudiyyətlərini aşmaq üçün kvant mexanikası prinsiplərindən və yeni materiallardan geniş istifadə etməyə başlamışdır .

MATERİALLAR VƏ METODLAR

Nanoelektronika, elektron qurğuların ölçülərinin nanometr diapazonuna endirilməsi ilə yüksək performans, enerji səmərəliliyi və yeni funksional imkanlar yaradan bir sahədir. Nanoelektron

qurğular mikroelektronikadan daha kiçik ölçülü, lakin daha güclü və çevikdir. Onlar süni intellektdən kvant hesablama texnologiyalarına qədər müxtəlif sahələrdə tətbiq olunurlar. Nanoelektronika, unikal xüsusiyyətləri sayəsində bir çox sənaye və elmi sahələrdə innovativ tətbiqlər tapmışdır. Onun geniş yayılmış tətbiq sahələri aşağıdakılardır:

Nanoelektron qurğular mikroprosessorların sürətini və enerji effektivliyini artırmaq üçün istifadə olunur. FinFET (**Field-Effect Transistor (FET)** – sahə-effekti tranzistor) və GAAFET(**"Gate-All-Around Field-Effect Transistor-"** bütün ətrafı qapalı sahə-effekti tranzistor")kimi nanometr tranzistorlar ənənəvi CMOS("Complementary Metal-Oxide-Semiconductor"-Tamamlayıcı Metal-Oksid-Yarımkeçirici) texnologiyalarını əvəz edir, bu da daha kiçik və güclü hesablama sistemlərinin yaradılmasına imkan verir. Nanoölçülü yaddaş elementləri (memristorlar, kvant nöqtə yaddaşları) məlumat saxlama sahəsində böyük potensiala malikdir.(Bassett, Deborah R. ,2010).

Termal molekulyar hərəkət mütləq sıfırdan yuxarı temperaturda hər hansı bir maddədə atomların və ionların təsadüfi hərəkətidir.

Mütləq sıfır bütün hərəkətin dayandığı mümkün olan ən aşağı temperaturdur. -273,15∘C və ya 0 Kelvinə bərabərdir.

İstənilən başqa temperaturda molekullar daim titrəyir, bir-biri ilə və ətrafdakı cisimlərlə toqquşur. Bu hərəkət temperaturdan və maddənin vəziyyətindən asılıdır: temperatur nə qədər yüksək olarsa və molekullar arasındakı bağlar nə qədər az olarsa, hərəkət bir o qədər çox olar. Məsələn, qazda molekullar maye və ya bərkdən daha sürətli və xaotik hərəkət edir.

Nanoölçülü qurğular yüksək həssaslıq və selektivlik təmin edir. Nanotellər, qrafen və kvant nöqtələri əsasında hazırlanan nanosensorlar bioloji molekulların, toksinlərin və xəstəlik markerlərinin aşkarlanmasında istifadə olunur. Bu, erkən diaqnostika və fərdi müalicə üçün imkanlar yaradır (Paşayev A.M, Abdullayev X.İ, İbrahimov R.Ə, Səfərzadə Ə.Ə. , 2012)

Nanoelektron qurğular kvant nöqtələr və qrafen kimi nanomateriallar sayəsində yüksək səmərəli işıq mənbələri, fotodetektorlar və ekranlar hazırlanır. Nanoölçülü optoelektron cihazlar gələcək informasiya ötürmə və enerji yığımı sistemlərində əsas rol oynayacaq.

Nanoölçülü qurğuların kiçik ölçüləri və aşağı enerji sərfi kosmik aparatların və müdafiə sistemlərinin inkişafında əhəmiyyətlidir. Nanoelektronika radiasiyaya davamlı və yüksək performanslı avadanlıqların hazırlanmasında istifadə olunur.

Bu məqalədə nanoelektron qurğuların əsas tətbiq sahələri geniş şəkildə izah edilir.

Kompüter və Prosessor Texnologiyaları: Nanoelektron tranzistorlar müasir mikroprosessorların və hesablama çiplərinin əsasını təşkil edir .

Yüksək performans: 3 nm və 2 nm texnologiya düyünlərində istehsal edilən prosessorlar saniyədə trilyonlarla əməliyyat icra edə bilir.

Aşağı enerji istehlakı: Kiçik ölçülü tranzistorlar daha az enerji sərf edir və istilik yayılması azalır.

Qabaqcıl arxitekturalar: FinFET, GAAFET və CFET kimi quruluşlar ilə daha yüksək inteqrasiya dərəcəsi əldə edilir.

Tətbiq sahələri aşağıdakılardan ibarətdir: Superkompüterlər və yüksək performanslı hesablama (HPC); Qrafik prosessorları (GPU) və neyroprosessorlar (NPU); Mobil cihaz prosessorları (SoC) və enerji səmərəli çiplər; Yaddaş Qurğuları.

Süni İntellekt və Maşın Öyrənməsi Sistemləri. AI və ML texnologiyaları üçün yüksək hesablama gücü tələb olunur. Nanoelektron qurğular bu sahədə əsas rol oynayır. **Süni intellekt sürətləndiriciləri:** TPU (Tensor Processing Unit- Tensor: çoxölçülü verilənlər), NPU (Neural Processing Unit- Neural: neyron şəbəkəsi) və xüsusi ASIC (Application-Specific Integrated Circuit-xüsusi tətbiq üçün hazırlanmış inteqrasiya olunmuş sxem) çipləri AI(Artificial Intelligence- Süni Zəka) hesablamaları üçün optimallaşdırılıb. **Aşağı enerji və yüksək performans:** Nanoölçülü cihazlar neyron şəbəkələrinin təlim və tətbiqi zamanı enerji səmərəliliyini artırır. (Sadiqov O.M. , Həsənova M.Ş. , 2012).

Nanoelektron sensorlar kiçik ölçülü və aşağı enerji istehlaklı olduqları üçün milyonlarla cihazın bir-birinə qoşulmasına imkan verir.

Tibbi və Bioelektron Tətbiqlər: Nanoelektron qurğular tibbi diaqnostika və müalicə proseslərini dəyişir.
Biosensorlar: Xəstəliklərin erkən diaqnostikası üçün yüksək həssaslığa malikdir.
İmplantlar: Nanoölçülü elektron implantlar sinir sisteminə birləşdirilə bilər (neyroprotezlər).
Dərman çatdırılması: Nanoelektron kapsullar vasitəsilə hədəf hüceyrələrə dərman verilməsi.
Telekommunikasiya və RF Qurğular. Nanoelektron texnologiyalar telekommunikasiya sistemlərinin əsasını təşkil edir.
5G və 6G sistemləri: Yüksək tezlikli RF modulları nanometr texnologiyaları ilə istehsal olunur.
III-V materiallarına əsaslanan qurğular: GaN və InP tranzistorları yüksək güc və tezliklərdə işləyir.
Photonics inteqrasiyası: Optik siqnalların ötürülməsi üçün nanoölçülü dalğaötürücülər.
Kvant Hesablama. Nanoelektron qurğular kvant texnologiyalarının inkişafı üçün vacibdir **(**J. Plummer, M. Deal, P. Griffin, *Silicon VLSI Technology.*
Kvant nöqtələri və **Josephson birləşmələri** kvant bitlərini (qubit) idarə etmək üçün istifadə olunur.
Spintronik və topoloji izolyatorlar – kvant informasiyanın saxlanması və emalı üçün yeni platformalar.
Kryogen mühitdə işləyən elektronika – kvant prosessorlarının idarəsi üçün xüsusi çiplər.
Avtomobil Elektronika və Avtonom Sistemlər. Nanoelektron cihazlar avtomobil sənayesində geniş tətbiq olunur.
Güc elektronikası: SiC və GaN əsaslı nanoelektron qurğular elektrik avtomobillərində yüksək səmərəlilik təmin edir.
Avtonom idarəetmə sistemləri: Radar, LiDAR və kameraların işlənməsi üçün yüksək hesablama gücü tələb olunur.
Enerji idarəetməsi: Batareyaların optimallaşdırılması üçün nanoölçülü güc idarəetmə çipləri.
Enerji Toplama və İdarəetmə. Nanoelektron texnologiyalar alternativ enerji sistemlərində də istifadə olunur.
Günəş panelləri: Nanoölçülü strukturlaşdırma ilə işıq udma qabiliyyəti artırılır.
Enerji yığım çipləri: Kiçik cihazların enerji təminatı üçün mikrogenerasiya texnologiyaları.
Ağıllı enerji idarəetmə: Sərfiyyatı optimallaşdıran və itkiləri azaldan mikroçiplər **(***Teo B.K. , Sun X.H. , 2007).*

Nanomaterialların yüksək səth sahəsi və unikal elektrik xassələri onların superkondensatorlar, yanacaq elementləri və günəş batareyalarında istifadəsini mümkün edir. Nanoelektronika enerjinin effektiv idarə olunması və saxlama texnologiyalarında inqilabi yeniliklərə yol açır.

1. Nanoelektronika və Hesablama Sistemləri: Qrafen və digər 2D materialların elektronika sahəsində tətbiqi; Nanohissəciklər əsasında yaddaş qurğuları (memristorlar və s.);Kvant nöqtələri ilə hesablama və fotonika.

2. Nanomateriallar və Onların Xüsusiyyətləri: Karbon nanoborular: mexaniki və elektrik xüsusiyyətləri; Nanokompozit materiallar və onların sənayedə istifadəsi; Öz-özünü bərpa edən (self-healing) nanomateriallar (Vo-Dinh, T. ,2007).

Nanoelektron qurğuların əsas üstünlüklərindən biri onların aşağı enerji sərfi ilə işləməsidir. Miniatürləşmə nəticəsində tranzistorların açma və bağlama cərəyanları azaldılır, bu isə ümumi güc itkisini minimuma endirir. Bununla yanaşı, nanoölçülü qurğularda **istilik idarəetməsi** mühüm rol oynayır, çünki kiçik həcmli strukturlarda istilik yığılması və paylanması cihazın işinə ciddi təsir göstərir.

NƏTİCƏ

Yeni materialların – qrafen, karbon nanoborular, 2D yarımkeçiricilər – istifadəsi tranzistorların və sensorların xüsusiyyətlərini əhəmiyyətli dərəcədə yaxşılaşdırır.

Litografiya və özünü-yığma texnologiyaları nanoölçülü strukturların istehsalında əsas rol oynayır.

Nanoelektron komponentlər təkcə informasiya texnologiyaları sahəsində deyil, həm də tibbi diaqnostika, ətraf mühit monitorinqi, hərbi texnologiyalar və kvant hesablamalarında geniş tətbiq imkanlarına malikdir.

Nanoelektron qurğular müasir elektronikanın inkişafında mühüm rol oynayır və hesablama, rabitə, süni intellekt və sensor texnologiyaları kimi sahələrdə yeni imkanlar açır. Onların istehsalı, dizaynı və tətbiqi material elmi, nanoteknologiya və elektronikanın birləşdiyi kompleks bir prosesdir.

Nanoelektron qurğular müasir texnologiyanın əsasını təşkil edir. Onların tətbiq sahələri hesablama, telekommunikasiya, süni intellekt, tibbi cihazlar, enerji və kvant texnologiyalarını əhatə edir. Bu sahədə aparılan tədqiqatlar yaxın gələcəkdə daha səmərəli, daha güclü və daha çevik sistemlərin yaranmasına səbəb olacaq.

ƏDƏBİYYAT

1. Abdinov Ə.Ş. , Səfərov V.H. --Elektron texnikasının materialları və nanotexnologiyanın əsasları. Bakı, 2010. 850s.
2. Bassett, Deborah R. (2010). "Taniguchi, Norio". In Guston, David H. (ed.). Encyclopedia of nanoscience and society. London: SAGE. p. 747. ISBN 9781452266176. Retrieved 3 August 2014.
3. **Orucov H.S., Əbilov Ç.İ.Sadıqov. O.M., Həsənova M.Ş** — *Elektronikada nanotexnologiyalar və nanomateriallar. I hissə, nanotexnologiyalar.* Bakı: AzTU, 2017, **196 səh.**
4. Paşayev A.M, Abdullayev X.İ, İbrahimov R.Ə, Səfərzadə Ə.Ə. Zond mikroskopiyası. Bakı, 2012. 202 s.
5. Paşayev A.M, Ağayeva S.X.. Nanomateriallar, tədqiqat üsulları, cihazlar. Bakı, 2012.
6. Sadiqov O.M. , Həsənova M.Ş. Elektron texnikasinin materiallari və komponentləri. Bakı, 2012. 205 s.
7. Teo, B. K. & Sun, X. H. (2007). Silicon-based low-dimensional nanomaterials and nanodevices. *Chemical Reviews, 107*(5), 1454–1532.
8. Vo-Dinh, T. (2007). *Nanotechnology in biology and medicine: Methods, devices, and applications*. In T. Vo-Dinh (Ed.). CRC Press

SUMMARY

APPLICATION FIELDS OF NANOELECTRONIC DEVICES

Aygün Sultanova, Azizova Kamala, Sema Babayeva

Nanoelectronics is a direction of electronic science and technology that studies the development and application of devices and systems operating at the nanometer scale (1–100 nm). This field is distinguished by the ability to control the properties of matter at the atomic and molecular levels and use quantum effects for practical purposes.

The creation of nanoelectronic devices not only increases computing speed and energy efficiency, but also creates the basis for the development of new types of functionalities - technologies such as molecular memory, quantum computing, nanosensor systems.

Nanoelectronic products and technologies are applied in various fields of modern industry: Nanoelectronic products and technologies are used in various fields such as electronics (small chips, high-speed memories, high-quality displays), energy (batteries, solar cells), medicine (targeted drug delivery, disease detection sensors).

Research shows that nanoelectronics, as an important direction in the development of modern technologies, has a significant impact on both fundamental scientific achievements and industrial production. The results obtained in the process of transition from microelectronics to nanoelectronics are not limited to increasing computing power, but are also of great importance in terms of increasing energy efficiency, miniaturization of devices, and creation of new functional capabilities.

Keywords: *microelectronics, nanometer, nanosensor, photodetectors, artificial intelligence.*

РЕЗЮМЕ

ОБЛАСТИ ПРИМЕНЕНИЯ НАНОЭЛЕКТРОННЫХ УСТРОЙСТВ

Айгюн Султанова, Азизова Камала, Сема Бабаева

Наноэлектроника — это направление электронной науки и техники, изучающее разработку и применение устройств и систем, работающих в нанометровом масштабе (1–100 нм). Эта область отличается возможностью контролировать свойства материи на атомном и молекулярном уровнях и использовать квантовые эффекты в практических целях.

Создание наноэлектронных устройств не только повышает скорость вычислений и энергоэффективность, но и закладывает основу для разработки новых типов функциональных возможностей — таких технологий, как молекулярная память, квантовые вычисления, наносенсорные системы.

Наноэлектронные продукты и технологии применяются в различных областях современной промышленности: наноэлектронные продукты и технологии используются в таких областях, как электроника (малые чипы, высокоскоростная память, высококачественные дисплеи), энергетика (батареи, солнечные элементы), медицина (целевая доставка лекарств, датчики обнаружения заболеваний).

Исследования показывают, что наноэлектроника, как важное направление в развитии современных технологий, оказывает значительное влияние как на фундаментальные научные достижения, так и на промышленное производство. Результаты, полученные в процессе перехода от микроэлектроники к наноэлектронике, не ограничиваются увеличением вычислительной мощности, но также имеют большое значение с точки зрения повышения энергоэффективности, миниатюризации устройств и создания новых функциональных возможностей.

Ключевые слова: микроэлектроника, нанометр, наносенсор, фотодетекторы, искусственный интеллект.

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-26
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

HÜQUQ VƏ SİYASİ ELMLƏR

CİNAYƏT PROSESİNDƏ PROSESSUAL SAZİŞİN TƏTBİQİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Mətanət ƏSGƏROVA
Milli Aviasiya Akademiyası, Bakı, Azərbaycan
**Yazışılan müəllif: matanatasgarova@yahoo.com*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

Keywords:
prosessual saziş, kompromis, ittiham, müdafiə, məhkəmə nəzarəti, ədalət

ABSTRACT
Məqalədə müasir cinayət prosesi çərçivəsində ittiham və müdafiə arasında kompromis forması kimi prosessual sazişin hüquqi təbiəti və onun mümkünlüyü hədləri tədqiq olunur, bu institutun nəzəri əsasları, məqsəd və vəzifələri araşdırılır, həmçinin təqsirsizlik prezumpsiyası, ədalətlilik və tərəflərin bərabərliyi prinsiplərinin pozulması riskləri təhlil edilir. Nəticə etibarilə belə bir qənaətə gəlinir ki, prosessual saziş institutunun inkişafı məhkəmə nəzarətinin gücləndirilməsi, onun tətbiqinin əsasları və prosessual təminatlarının normativ dəqiqləşdirilməsi ilə müşayiət olunmalıdır. Bu, institutun ədalət mühakiməsinin məna və məqsədlərinə zidd istiqamətdə istifadəsinin qarşısını alacaqdır.
Tədqiqatın məqsədi prosessual sazişin hüquqi təbiətini təhlil etmək, onun mümkünlüyü hədlərini müəyyənləşdirmək və cinayət prosesinin effektivliyi ilə insan hüquqlarının müdafiəsi arasında tarazlığı təmin edən hüquqi təminatları göstərməkdən ibarətdir.
Tədqiqatın obyekti: müasir cinayət prosessində ittiham və müdafiə arasında kompromis forması kimi prosessual saziş institutunun hüquqi tənzimlənməsi və tətbiqi mexanizmləri.
Tədqiqatın metodları. Tədqiqat zamanı normativ-hüquqi, müqayisəli-hüquqi, sistemli və analitik metodlardan istifadə olunmuşdur. Müqayisəli təhlil vasitəsilə müxtəlif hüquq sistemlərində prosessual sazişin hüquqi tənzimi, tətbiq şərtləri və nəticələri öyrənilmiş, onların oxşar və fərqli cəhətləri müəyyən edilmişdir.
Tədqiqatın orijinallığı və elmi yeniliyi. Prosessual sazişin hüquqi sərhədləri və məhdudiyyətləri elmi əsaslarla konkret şəkildə müəyyən edilmişdir. Cinayət prosesində ittiham və müdafiə arasında kompromisin tətbiqində məhkəmə nəzarətinin rolunun əhəmiyyəti nəzəri və praktiki aspektdən qiymətləndirilmişdir. Azərbaycan qanunvericiliyində prosessual saziş institutunun tətbiqi ilə bağlı təkliflər irəli sürülmüşdür.

GİRİŞ

Müasir cinayət prosesində tətbiq edilən müqavilə (razılaşma) formalarından biri olan prosessual saziş (və ya əməkdaşlıq haqqında saziş) ittiham və müdafiə tərəfləri arasında təqsirin etirafı və ədalət mühakiməsinə yardım müqabilində əldə olunan kompromisi ifadə edir.

İnstitut bir sıra ölkələrdə uğurla tətbiq olunur. Məsələn, Ruandada o, Ali Məhkəmə tərəfindən qəbul edilmiş Təcrübi Təlimatlara uyöun olaraq bütün pozuntulara tətbiq edilir [Practice Directions of the President of the Supreme Court n° 002/2023 of 05/09/2023 governing the plea-bargaining procedure (Rwanda)].

Prosessual saziş tərəflərin qarşılıqlı güzəştlərinə əsaslanır, istintaqın və məhkəmə baxışının sürətləndirilməsinə, məhkəmələrin yükünün azaldılmasına, ittiham və müdafiə arasında əməkdaşlığın səmərəliliyinin artırılmasına və s. kömək edir.

Lakin mümkün kompromis ilə cinayət prosesinin təqsirsizlik prezumpsiyası, ədalətlilik, qanunçuluq və tərəflərin bərabərliyi kimi prinsiplərinin pozulması arasındakı sərhədin müəyyən edilməsi bu instututun tətbiqinin hüquqiliyinin əsası kimi çıxış edir.

Prosedurların sadələşdirilməsi, prokurorluğun təsirinin güclənməsi və məhkəmə təcrübəsində sazişlərin rolunun artması şəraitində sazişlərin mümkünlüyünün sərhədləri problemi daha da kəskinləşir. Bu isə prosessual saziş institutunun nəzəri-hüquqi əsaslarının təhlil edilməsini, kompromisin mümkünlüyü, o cümlədən könüllülük meyarlarının müəyyənləşdirilməsini, məhkəmə təcrübəsinin və AİHM standartlarının araşdırılmasını, qanunvericiliyin və məhkəmə nəzarəti mexanizmlərinin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanmasını tələb edir.

MATERİAL VƏ METODLAR

Tədqiqatın elmi əsasını cinayət prosessində prosessual saziş institutunun mahiyyəti, hüquqi təbiəti və tətbiq mexanizmlərinə dair beynəlxalq və milli mənbələr təşkil edir. Əsas hüquqi baza kimi Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Cinayət Prosessual Məcəlləsi təhlil edilmişdir.

Məqalədə həmçinin məhkəmə və istintaq təcrübəsi, açıq mənbələrdə yer alan məhkəmə qərarları araşdırılmışdır. Bu materiallar əsasında prosessual sazişin tətbiqində yaranan problemlər və mövcud qanunvericilikdəki boşluqlar müəyyən edilmiş, onların aradan qaldırılması istiqamətində elmi əsaslandırılmış təkliflər irəli sürülmüşdür.

Bundan əlavə, Avropa Şurasının ədalətli məhkəmə araşdırması, AİHM-nin təcrübəsi, cinayət prosesində tərəflərin hüquqlarının təminatı və əməkdaşlıq mexanizmləri ilə bağlı tövsiyə xarakterli sənədlər də tədqiqatın metodoloji bazasına daxil edilmişdir.

MÜZAKİRƏ

Bu institut ikili mahiyyətə malikdir, həm prosessual aktın və həm də müqavilənin elementlərini birləşdirir, bu da onu ənənəvi prosessual qərarlardan fərqləndirir.

Plea bargaining elə bir prosedur kimi formalaşmışdır ki, burada təqsirləndirilən şəxs…təqsirini etiraf edir, bunun üçün dövlət prokurorunun, zərərçəkmişlərin və əsasən hakimin razılığı tələb olunur, hakim isə sazişdən əvvəl uyğun cəzanı təsdiqləyir [Nakibuule, Gladys Kisekka, 2020, s.2].

"Plea bargaining" təqsirləndirilən şəxsin etirafına cavab olaraq, ona güzəştin tətbiq edilməsini və hansı güzəştin tətbiq edilməsini nəzərdə tutur, məsələn, yüngül maddə ilə ittiham irəli sürülməsi, daha az müddətli həbs cəzasının verilməsi və digər prosessual üstünlüklər və s.

"Plea bargaining" dedikdə məhkəməyəqədər və ya məhkəmə mərhələsində prokuror və müdafiə tərəfi arasında baş verən konkret razılaşma başa düşülür [Albert W. Alschuler,1979, s.3-4].

Kanadada ədalətin danışıqlar masasında əldə edilə biləcəyini nəzərdə tutan təcrübənin tətbiqinə etiraz olaraq "təqsirin etirafı" termininin istifadəsindən uzaqlaşaraq "təqsirin etirafı müzakirələri", "qətnamə müzakirələri", "təqsirin etirafı danışıqları" və "təqsirin etirafı ilə bağlı razılaşmalar" kimi daha neytral ifadələrə üstünlük verilir [Milica Potrebic Piccinato, 2022].

Prosessual saziş təqsirləndirilən şəxsi uzun sürən məhkəmə proseslərindən azad edir. Təqsirləndirilən şəxslər təqsirini etiraf edərək, məhkəməyə getməmək müqabilində daha üstün qiymətləndirdikləri güzəştləri almaq imkanına malikdirlər [Easterbrook F.H., 1992, s.1969].

İnstitutun tətbiqi ilə bağlı əsas problem ittiham və müdafiə arasında kompromisin sərhədlərinin müəyyən edilməsidir. Prosessual saziş tərəflərin mübahisəlilik və dispozitivlik imkanlarını gücləndirsə də, digər tərəfdən obyektiv həqiqət prinsipindən faktiki olaraq imtina edilməsinə gətirib çıxara bilər.

İnstitutun tətbiqi ilə bağlı əsas risklərdən biri təqsirləndirilən şəxsin təqsirini etiraf etməyə məcbur edilməsidir. O, uzun müddət saxlanıldıqda və ya müdafiəçiyə çıxışı məhdud olduqda bu risq daha da artır. İstintaq orqanları təqsirləndirilən şəxsə psixoloji təsir edə bilərlər və ya onu daha yüngül cəza müqabilində təqsirini boynuna almağa istiqamətləndirə bilərlər, öz iradəsi ilə deyil, daha ağır cəza almaq qorxusu ilə saziş bağlaya bilər. Belə vəziyyət AİHK-nın 6-cı maddəsində nəzərdə tutulan ədalətli məhkəmə baxışı prinsipini pozmuş olur. təqsirləndirilən şəxs məsuliyyətdən kənarda qalmasına şərait yaradır. Buna görə də prosessual saziş bağlanmış şəxs digər müttəhimlərə münasibətdə şahid hesab olunur, o, şahid qismində dindirilən zaman ifadə verməkdən imtina etdiyinə, qəsdən yalan ifadə verdiyinə və ya bilə-bilə yalan məlumat verdiyinə görə cinayət məsuliyyəti daşıdığı barədə əvvəlcədən xəbərdar edilməlidir [Кубрикова М.Е.,2013, s.14].

Digər bir risq obyektiv həqiqət prinsipinin pozulması ilə bağlı vəziyyətdir. Prosessual saziş geniş tətbiq edildikdə, bir çox hallarda işin bütün halları aydınlaşdırılmır, sübutlar dərindən təhlil edilmir, proses formallığa çevrilə bilər. Bu isə, xüsusilə də təqsirin aydın olmadığı işlərdə, həqiqətin müəyyən edilməsinin məhdudlaşdırılmasına gətirə bilər.

İnstitutun tətbiqi bir sıra hallarda sosial ədalət prinsipinin pozulmasına gətirə bilər. Belə ki, maddi resursları olan, həmçinin öz hüquqlarını daha yaxşı bilən təqsirləndirilən şəxslər sazişdə bu

xüsusiyyətlərə malik olmayan şəxslərə nisbətən daha əlverişli şərtlər əldə edə bilərlər. Bu isə hüququn tətbiqində ikili standartlar formalaşdırılmasına gətirə bilər.

İnstitutun tətbiqi ilə bağlı digər bir risq hüquqtətbiqedici təcrübənin vahidliyi ilə bağlıdır. Təcrübədə müxtəlif məhkəmələrdə sazişlərin bağlanılması və təsdiq edilməsi şərtləri fərqlənə bilər. Dəqiq məhkəmə təcrübəsinin və təlimatlarının olmaması özbaşınalıq yarada, subyektiv yanaşmarı artıra bilər.

Bir sıra hallarda zərərçəkmiş şəxs saziş bağlanılması prosesinə cəlb edilmir, ancaq o şərtlərlə razı olmaya bilər. Məsələn, tərəf zərərçəkmişə ciddi ziyan vurulmasına baxmayaraq cəzanın yüngülləşdirilməsi ilə bağlı razılığa gələ bilər.

İnstitutun tətbiqi ilə bağlı digər risqlərə məhkəmə nəzarətinin formal olması (məhkəmə faktiki olaraq sazişi təsdiqləyir, lakin etirafın düzgünlüyünü yoxlamır); təqsirsizlik prezumpsiyasının pozulması (təqsirin etirafı sübutetmənin nəticəsi olmur, "saziş valyutası"na çevrilir) aiddir.

Beynəlxalq standartlar kompromis prosedurların tətbiqini nəzərdə tutur, ancaq buna ədalət və tərəflərin bərabərliyi prinsiplərinin gözlənilməsi şərtilə yol verir.

Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM**)** prosessual sazişlərin mümkünlüyünü qəbul edir, sazişin könüllülük və şəffaflıq prinsiplərinə uyğun olması, həmçinin prosedura məhkəmə nəzarətinin təmin olunmasının zəruriliyindən çıxış edir [Natsvlishvili and Togonidze v. Georgia (Application no. 9043/05), § 89–97].

Prosessual sazişin üzərində məhkəmə nəzarəti sazişin qanuniliyinin və könüllülüyünün, təqsirləndirilən şəxsin əməkdaşlığının real olub-olmamasının, cəzanın törədilmiş cinayətin ağırlığına uyğunluğunun, təzyiq və ya sübutların saxtalaşdırılması əlamətlərinin olmamasının yoxlanılmasından ibarətdir. Rusiya Federasiyasının CPM-nin 317.7-ci maddəsi bu tələblərlə yanaşı təqsirləndirilən şəxsin istintaqa yardım öhdəliklərini faktiki yerinə yetirməsini yoxlayır.

ABŞ Ədliyyə Nazirliyinin Prokurorlar Ofisi qeyd edir ki, təqsirləndirilən şəxs günahını etiraf edərsə, məhkəmə prosesi keçirilmir, lakin növbəti addım hökm çıxarma iclasına hazırlaşmaqdır [U.S. Department of Justice offices of United States Attorneys, 2026].

Hakim təqsirləndirilən şəxsin ona qarşı irəli sürülmüş ittihamla könüllü razılaşmasını, bu razılaşmaya nə prokurorun, nə də zərərçəkmişin etiraz etmədiyini müəyyən etdikdən sonra məhkəmə istintaqı aparmadan, ittihamın sübut olunmasını həqiqət kimi qəbul edir. Lakin bu həqiqət heç də obyektiv deyil, formal xarakter daşıyır. Belə bir "həqiqətlə" kifayətlənmək həm cinayət məsuliyyətinə cəlb olunan şəxsin qanuni maraqları, həm də ədalətli məhkəmə icraatının prinsipləri baxımından problemli məsələdir [Шадрин, В. С., 2023, s.51].

Prosessual saziş ibtidai istintaq zamanı bağlanıldıqda məhkəmə təqsirləndirilən şəxs barəsində hökmünü əsaslandırarkən cinayət işinin faktiki halları, o cümlədən onun təqsirliliyi ilə bağlı məsələləri araşdırmır. Lakin həmin hökmün əsaslandırılması hüquq sahəsinə aid məsələlərin, yəni əməlin tövsifinə və cəzanın təyin edilməsinə dair məsələlərin həllini əhatə etməlidir [Михайлов А.А., 2013, s.173].

Məhkəmə nəzarəti bu institutun tətbiqi zamanı yarana biləcək əsassız qərarları və sui-istifadəni məhdudlaşdıran əsas mexanizm kimi çıxış edir. Məhkəmə nəzarətin səmərəliliyi daha çox müdafiənin fəallığından asılıdır. Müdafiəçi yalnız təqsirləndirilən şəxsi sazişin nəticələri barədə məlumatlandırmaqla kifayətlənməməli, həm də istintaq orqanlarının mümkün sui-istifadəsinə qarşı çıxmalıdır.

Prosesin sadələşdirilməsi, maraq balansını pozan saziş vasitəsilə ədalətin əvəzlənməsinə yol verməməlidir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 28 noyabr 2018-ci il tarixli Qərarında göstərilir ki, **m**əhkəmə faktın etiraf edilməsi barədə işdə iştirak edən şəxsin izahatını dərhal əsaslı sübut kimi qəbul edə bilməz. Etiraf hər bir halda prosessual qanunvericiliyə əsasən məhkəmə tərəfindən yoxlanılmalıdır. Aşağıdakı hallar aşkar edilərsə, etirafın sübut kimi qəbul edilməsindən imtina edilməlidir:- faktın etirafı işin həqiqi hallarının gizlədilməsinə yönəldikdə;- faktın etirafı aldatma, zor, hədə təsiri altında baş verdikdə; - faktın etirafı yanılma təsiri nəticəsində baş verdikdə.

İnstitutun təkmilləşdirilməsi ilə bağlı müasir yanaşma həqiqət prinsipini və məhkəmə sisteminə etibarın əsaslarını pozmayan balanslaşdırılmış kompromis modelinin işlənib hazırlanmasını tələb edir.

A.R.Bağırov institutun tətbiqinin əleyhi çıxış edərək, qeyd edir ki, bu institutun tətbiqi…ibtidai istintaq mərhələsində vəzifə səlahiyyətlərindən sui istifadəyə əlavə əsas olduğunu, zərərçəkmişlərin qanuni mənafelərinin pozulmasına, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı aradan qaldırılması mümkün olmayan ziddiyyətlərə və əsassız mürəkkəbliklərə gətirib çıxardığını göstərir [A.R.Bağırov, 2008,s.34].

A.R.Bağırovla tam razılaşırıq ki, bir ölkədə müvəffəqiyyətlə tətbiq edilən institutun başqa bir ölkədə tətbiqi həmişə eyni nəticələrə gətirməyə bilər. Ancaq uzun müddət ərzində tətbiq edilən prosessual saziş institutunun Azərbaycanda tətbiqinin tam mümkünsüzlüyünü iddia etmək də düzgün olmazdı. İnstitutun tətbiqi ilə bağlı institusional və qanunvericlik islahatlarının aparılmasından institutun digər ölkələrdə tətbiqi təcrübəsindən çıxış edərək tətbiqi dəstəklənməlidir. Azərbaycan Respublikasında mediasiyanın artıq müvəffəqiyyətlə tətbiqi, oxşar elementləri olduğuna görə prosessual saziş institutunun da tətbiqinin mümkünlyünə inamlı yanaşmağa imkan verir.

Belə hesab edirik ki, "plea bargaining"i tamamilə ləğv etmək mümkün deyil, lakin onu dəyişmək mümkündür [William F. McDonald, 1985, s.5].

İnstitutun uğurlu tətbiqi vəkillərin nüfuzunun artmasına, təqsirləndirilən şəxslərin müdafiəsi ilə bağlı son məqsədlərə nail olunmasına kömək edir. Ən narahatedici məqam isə odur ki, bu vəkillərin fəaliyyəti üzərində demək olar ki, heç bir real nəzarət mexanizmi yoxdur [Stephanos Bibas,2004, s.2545]. Müəlliflə tam razılaşmayaraq, qeyd etmək istərdik ki, müdafiəçinin fəaliyyətində, o cümlədən prosessual saziş zamanı yol verdiyi nöqsanlara görə inzibatı məsuliyyəti və ya cinayət məsuliyyəti deçək olar ki, bütün dövlətlərin qanunvericiliklərində nəzərdə tutulmuşdur.

NƏTİCƏ VƏ TƏKLİFLƏR

Azərbaycan Respublikasında prosessual saziş institutu qanunvericilik səviyyəsində təsbit edilməmişdir. Lakin onun bəzi elementlərinin tətbiqini qeyd etmək olar. Belə ki, Azərbaycan Respublikasının CPM-nə uyğun olaraq təqsirini könüllü boynuna alma, o cümlədən törədilmiş cinayəti etiraf etməsi təqsirləndirilən şəxsin hüququdur, lakin CPM-nin 126.6-cı maddəsinə əsasən bu etiraf yalnız iş üzrə bütün sübutların məcmusu ilə təsdiq edildiyi halda ona qarşı ittihamın əsası kimi qəbul edilə bilər. Azərbaycan qanunvericiliyində etiraf təqsirləndirilən şəxslə prosessual saziş bağlanılması üçün kompromisin əsası kimi çıxış etmir.

Cinayət Məcəlləsinin 59-cu maddəsi cəzanı yüngülləşdirən hallar içərisində şəxsin təqsirini könüllü gəlib boynuna almasını, barışıq əldə edilməsini və s. qeyd edir. Qanunvericilik birbaşa nəzərdə tutmasa da, təcrübədə formalaşmış istintaq və məhkəmə təcrübəsindən çıxış edərək, zərərçəkmişlə təqsirləndirilən şəxslərin razılığa gəlməsi, yəni barışması və onun cəza təyininə, bəzi hallarda cəzanın çəkilməsindən azadetməyə təsiri mümkündür.

Cinayət Məcəlləsinin 72, 73, 73-1 və 73-2-ci maddələri səmimi peşmanlıq və zərərçəkmiş şəxslə barışma hallarında, dövlət büdcəsinə müəyyən məbləğ ödənilməklə cinayət məsuliyyətinin aradan qaldırılmasına yol verir. Ancaq bu halları prosessual saziş adlandırmaq düzgün olmazdı. Çünki bu hallarda təqsirləndirilən şəxs və ittiham arasında müqavilə bağlanılmır, həmçinin məhkəməyədək icraatda belə azad etmə məhkəmə nəzarətindən kənarda qalır.

Mediasiya haqqında Azərbaycan Respublikası Qanunu cinayət işlərinə tətbiq edilmir. Avropa Şurası Nazirlər Komitəsinin 1999-cu il R (99) 19 saylı Tövsiyəsində qeyd olunur ki, mediasiya nəticəsində əldə edilmiş razılaşmanın mövcudluğu səbəbindən cinayət işinə xitam verilməsi məhkəmə aktının hüquqi qüvvəsinə malik olmalıdır [Appendix to Recommendation No. R (99) 19 of the Committee of Ministers, 1999,p.17].

Azərbaycan təcrübəsində cinayət işləri üzrə mediasiyanın tətbiqi barədə məlumatlara da rast gəlinir. Belə ki, Huquq.az saytının məlumatına əsasən, Bakı şəhəri Səbail Rayon Məhkəməsində məhkumun azadlığın məhdudlaşdırılması cəzasının çəkilməmiş hissəsindən vaxtında əvvəl azad olunması ilə əlaqədar Bakı Şəhər Probasiya İdarəsinin təqdimatına baxılaraq təqdimatı təmin etmişdir. Məhkəmə mübahisənin mediatorun vasitəçiliyi ilə barışıq sazişi bağlandığını və

zərərçəkmiş şəxsə dəymiş ziyanın tam ödənilməsini nəzərə alaraq məhkumun azadlığın məhdudlaşdırılması cəzasının çəkilməmiş hissəsindən vaxtında əvvəl azad olunmasına dair qərar qəbul etmişdir [Huquq.az (12 may2025)]. Bu cinayət işləri üzrə mediasiyadır və fikrimizcə prosessual saziş deyildir, çünki prosessual saziş təqsirləndirilən şəxs və ittiham arasında bağlanılır, məhkəmə tərəfindən təsdiq olunur. Əslində cinayət işləri üzrə mediasiyanın aparılmasını prosessual sazişin tətbiq edilməsi üçün bir addım, təcrübə hesab etmək olar. Bəzi müəlliflər məhkəmə mediasiyasının ağırlığından asılı olmayaraq bütün cinayətlərə tətbiqinin mümkünlüyündən çıxış edirlər və hesab edirlər ki, bu prosesin qərarları məcburi olmadığı üçün fikrimizcə, xüsusi tənzimləməyə ehtiyac duyulmur [Qəfərov, M.S., Kişiyeva, A.Z.,2019, s.52-54]. Müəlliflərlə razılaşmayaraq hesab edirik ki, bu prosesin tənzimlənməməsi sui-istifadə hallarının artmasına gətirə bilər.

Prosessual saziş institutunun Azərbaycanda tətbiqi CPM-ə bu institutun daxil edilməsini, prosessual sazişin təqsirləndirilənin könüllülüyü və məlumatlılığı; təzyiq və ya qanunsuz üstünlüklərin vəd olunmaması; istintaq orqanları ilə faktiki əməkdaşlığın mövcudluğu kimi mümkünlük meyarlarının müəyyən edilməsini, müstəntiqin və ya prokurorun saziş üzrə aparılan danışıqları protokolda və ya digər sənəddə qeyd etmə öhdəliyinin müəyyən edilməsini tələb edir.

Məhkəmənin sazişi təsdiqləmək səlahiyyətləri genişləndirilməlidir, məhkəmə yalnız formal şərtlərin mövcudluğunu yoxlamamalı, faktiki halları da araşdırmalıdır, şübhə yarandıqda, məhkəmə tərəfləri çağırmalı və könüllülüyün təmin olunması ilə bağlı əlavə araşdırma aparmalıdır, həmçinin məhkəmə sazişin təsdiq edilməsi və ya təsdiq edilməsinin rədd edilməsi barədə qərarını əsaslandırmalıdır.

Təqsirləndirilən şəxsə sazişin nəticələrinin yazılı şəkildə izah edilməsi proseduru, prosessual sazişin bağlanmasında müdafiəçinin iştirakının məcburiliyi, saziş təklif edilərkən proses iştirakçılarına təzyiq göstərən vəzifəli şəxslər üçün məsuliyyət, s**azişin bağlanması üzrə danışıqların məcburi audio və ya video yazısının aparılması, danışıqlar protokolunun iş materiallarına əlavə edilməsi təmin olunmalıdır.** Həmçinin saziş nəticəsində mümkün olan yüngülləşdirilmiş cəza növləri və sərhədləri dəqiqləşdirilməlidir. Təqsirləndirilən şəxsin əməkdaşlığının "əhəmiyyətliliyi" üçün kriteriyalar da hazırlamalıdır, məsələn, ağır cinayətin açılmasına yardım, əmlakın qaytarılması, iştirakçıların ifşa olunması və s.

ƏDƏBİYYATLAR

1. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi. URL: https://e-qanun.az/framework/46950
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. URL: https://e-qanun.az/framework/46947
3. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun C.Əzimovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2 aprel 2018-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair 28 noyabr 2018-ci il Qərarı. URL: https://constcourt.gov.az/az/decision/396
4. Albert W. Alschuler (1979). Plea Bargaining and Its History. Columbia Law Review, Vol. 79,NO. I,1-43. https://chicagounbound.uchicago.edu/cgi/viewcontent.cgi?article=2005&context=journal_articles
5. Appendix to Recommendation No. R (99) 19 of the Committee of Ministers to member States concerning mediation in penal matters (Adopted by the Committee of Ministers on 15 September 1999 at the 679th meeting of the Ministers' Deputies). URL: https://rm.coe.int/1680706970
6. Bağırov, A.R. (2008) Təqsirin etirafı əqdi (plea bargaining) və onun Azərbaycanda tətbiqi məsələləri ilə bağlı Konsepsiya sənədi. Bakı. URL: https://antikorrupsiya.gov.az/storage/postFile/Konsepsiya%20Plea%20barganing_17-05-2023_19-28-47.pdf

7. Easterbrook, F.H. (June 1992). Plea Bargaining as compromise. Yale Law Journal, Vol.101, Issue 8, 1969-1978.
8. Hüquq.az (12 may 2025). Məhkəmə ilk dəfə cinayət işləri üzrə mediasiya yolu ilə barışıq sazişi əsasında şəxsi çəkilməmiş cəzadan azad etdi. URL: https://www.e-huquq.az/az/news/mehkeme/100881.html
9. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası.URL: https://e-qanun.az/framework/1405
10. Кубрикова, М.Е. (2013). Актуальные вопросы института досудебного соглашения о сотрудничестве. Автореферат диссертации на соискание ученой степени кандидата юридических наук. Южно-Уральский государственный университет.
11. Qəfərov, M.S., Kişiyeva, A.Z. (2019) "Mediasiya" institutunun cinayət prosesində tətbiqi haqqında mülahizələr. Qanun jurnalı,07 (297),49-56.
12. Михайлов, А.А. (2013). Приговор в отношении подсудимого,с которым заключено досудебное соглашение о сотрудничестве. Отв. ред. М.К. Свиридов, Ю.К. Якимович; под ред. О.И. Андреевой, И.В. Чадновой, Правовые проблемы укрепления российской государственности: Сб. статей. Ч. 59 (с. 168-173). Изд-во Том. ун-та.
13. Milica Potrebic Piccinato (2022-08-26). Plea bargaining. URL: https://www.justice.gc.ca/eng/rp-pr/csj-sjc/ilp-pji/pb-rpc/toc-tdm.html
14. Nakibuule, Gladys Kisekka (2020). Plea bargaining as a human rights question. Cogent Social Sciences, Vol. 6, No. 1. URL: https://doi.org/10.1080/23311886.2020.1818935Page 2 of 29
15. Natsvlishvili and Togonidze v. Georgia (Application no. 9043/05). JUDGMENT 29 April 2014. URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-142672%22]}
16. Уголовно-процессуальный кодекс Российской Федерации. URL: https://www.consultant.ru/document/cons_doc_LAW_34481/
17. Шадрин, В. С. (2023) Актуальные проблемы доказывания по уголовным делам с досудебным соглашением о сотрудничестве. Юридический вестник Самарского университета, Т. 9, No 3, 49–55.
18. Plea Bargaining. Steps in the Federal Criminal Process. U.S. Department of Justice offices of United States Attorneys. URL: https://www.justice.gov/usao/justice-101/pleabargaining
19. Practice Directions of the President of the Supreme Court n° 002/2023 of 05/09/2023 governing the plea-bargaining procedure (Rwanda). URL: https://www.judiciary.gov.rw/alternatives-to-trial/plea-bargaining-procedure
20. Stephanos, Bibas (June 2004). Plea bargaining outside the shadow of trial. Harvard Law reviewer, Vol.117,№ 8, 2463-2547.URL: https://scholarship.law.upenn.edu/faculty_scholarship/924/
21. William, F. McDonald (July 1985). Plea Bargaining: Critical Issues and Common Practices. U.S. Department of Justice National Institute of justice. Golden Gate University School of Law. URL: https://digitalcommons.law.ggu.edu/nij-ojp/31/

SUMMARY

SOME İSSUES OF THE APPLİCATİON OF THE PLEA BARGAİNİNG İN CRIMINAL PROCEEDINGS

Matanat Asgarova

The article examines the legal nature and limits of admissibility of the procedural agreement (plea bargaining) as a form of compromise between the prosecution and the defense in modern criminal proceedings, theoretical foundations of this institution, its goals and objectives are considered, and the risks of violating the principles of the presumption of innocence, fairness, and

equality of the parties are analyzed. It is concluded that the development of the institution of the procedural agreement should be accompanied by strengthening judicial control and by normative clarification of the grounds and procedural safeguards that exclude its use to the detriment of the interests of justice.

The purpose of this article is to analyze the legal nature of the procedural agreement, to identify its limits of admissibility, and to determine the guarantees that ensure a balance between the effectiveness of criminal proceedings and the protection of individual rights.

Object of the study: the legal regulation and application mechanisms of the procedural agreement as a form of compromise between the prosecution and the defense in modern criminal proceedings.

Research methods. The study employed normative-legal, comparative-legal, systemic, and analytical methods. Through comparative analysis, the legal regulation, conditions of application, and consequences of procedural agreements in various legal systems were examined, and their similarities and distinctive features were identified.

Originality and scientific novelty of the study. The legal boundaries and limitations of the procedural agreement have been specifically determined on a scientific basis. The importance of judicial control in the application of compromise between the prosecution and the defense in criminal proceedings has been evaluated from both theoretical and practical perspectives. Recommendations for the application of the procedural agreement institution in Azerbaijani legislation have been proposed.

Keywords: *procedural agreement, plea bargaining, compromise, prosecution, defense, judicial control, justice*

АННОТАЦИЯ

НЕКОТОРЫЕ ВОПРОСЫ ПРИМЕНЕНИЯ ПРОЦЕССУАЛЬНОГО СОГЛАШЕНИЯ

Матанат Аскерова

В статье исследуется правовая природа и пределы допустимости процессуального соглашения как формы компромисса между обвинением и защитой в современном уголовном судопроизводстве, анализируются риски нарушения принципов презумпции невиновности, справедливости и состязательности сторон. Делается вывод о том, что развитие института процессуального соглашения должно сопровождаться усилением судебного контроля, нормативным уточнением оснований и процедурных гарантий, исключающих его использование в ущерб интересам правосудия.

Целью настоящей статьи является анализ правовой природы процессуального соглашения, выявление его пределов допустимости и определение гарантий, обеспечивающих баланс между эффективностью уголовного судопроизводства и защитой прав личности.

Объект исследования: правовое регулирование и механизмы применения института процессуального соглашения как формы компромисса между обвинением и защитой в современном уголовном судопроизводстве.

Методы исследования. В ходе исследования были использованы нормативно-правовой, сравнительно-правовой, системный и аналитический методы. Посредством сравнительного анализа были изучены правовое регулирование, условия применения и последствия процессуального соглашения в различных правовых системах, а также выявлены их сходные и отличительные черты.

Оригинальность и научная новизна исследования. Правовые границы и ограничения процессуального соглашения определены на научной основе в конкретной форме. Роль судебного контроля при применении компромисса между обвинением и защитой в уголовном процессе оценена с теоретической и практической точек зрения. Предложены рекомендации по применению института процессуального соглашения в законодательстве Азербайджана.

Ключевые слова: *процессуальное соглашение, компромисс, обвинение, защита, судебный контроль, справедливость*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-27
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

YAXIN ŞƏRQDƏ MİQRASİYA VƏ TƏHLÜKƏSİZLİK: UĞURSUZ DÖVLƏTLƏRİN ROLU

Misirxan KAZIMLI
Gümüşhane Üniversitesi
**Yazışılan müəllif: xankazimli@gmail.com*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
Miqrasiya, Təhlükəsizlik, Uğursuz dövlətlər, Suverenlik, Terrorizm

XÜLASƏ
Bu məqalə Yaxın Şərqdə miqrasiya ilə təhlükəsizlik arasındakı qarşılıqlı əlaqəni, xüsusilə uğursuz dövlətlərin rolu kontekstində sistemli şəkildə təhlil edir. Regionda uzunmüddətli siyasi qeyri-sabitlik, silahlı münaqişələr və dərin iqtisadi böhranlar məcburi miqrasiya axınlarının intensivləşməsinə səbəb olmaqla yanaşı, regional və beynəlxalq təhlükəsizlik mühitinə ciddi təsirlər göstərir. Məqalədə "uğursuz dövlət" anlayışının nəzəri çərçivəsi müəyyənləşdirilir və Suriya, Yəmən və İraq kimi ölkələrin bu kateqoriyaya daxil edilməsinin struktur və institusional səbəbləri izah olunur. Araşdırmada uğursuz dövlətlərin ərazi üzərində effektiv suveren nəzarəti həyata keçirə bilməməsi, qeyri-dövlət silahlı aktorları və terror təşkilatları üçün əlverişli mühit formalaşdırması, habelə əhalinin əsas sosial-iqtisadi ehtiyaclarını təmin etmək qabiliyyətinin zəifləməsi nəticəsində miqrasiya proseslərini necə stimullaşdırdığı analitik şəkildə göstərilir. Bununla yanaşı, miqrasiyanın qəbul edən və göndərən ölkələr üçün yaratdığı sosial, iqtisadi və təhlükəsizlik ölçülü nəticələr də çoxölçülü yanaşma əsasında qiymətləndirilir. Məqalə, uğursuz dövlətlərin yenidən qurulması, institusional potensialın gücləndirilməsi və miqrasiya axınlarının səmərəli idarə olunması üçün siyasət tövsiyələri irəli sürərək, miqrasiya ilə təhlükəsizlik arasındakı mürəkkəb və qarşılıqlı asılı münasibətin daha dərindən anlaşılmasına töhfə verməyi hədəfləyir.

GİRİŞ

Yaxın Şərq tarix boyu miqrasiya hərəkətlərinin mərkəzində yerləşən regionlardan biri olmuşdur. Son illərdə bölgədə baş verən vətəndaş müharibələri, siyasi qeyri-sabitlik, iqtisadi böhranlar və iqlim dəyişikliyi ilə əlaqəli ekoloji problemlər məcburi miqrasiya axınlarını şərtləndirən əsas amillər sırasında yer alır. Miqrasiya fenomeninin təhlükəsizlik ölçüsü həm miqrasiya verən, həm də miqrasiya qəbul edən dövlətlər üçün mühüm nəticələr doğurur. Miqrasiya axınları regional təhlükəsizlik risklərini dərinləşdirməklə yanaşı, beynəlxalq sistemin ümumi sabitliyini təhdid edən struktur problemlərdən birinə çevrilə bilir.

Miqrasiyanın təhlükəsizliklə əlaqəsi humanitar aspektlərdən başlayaraq regional və beynəlxalq təhlükəsizlik dinamiklərinə qədər geniş bir çərçivədə müzakirə olunur. Miqrant axınları sərhədlərarası təhdidlərin — o cümlədən insan alveri, qeyri-qanuni miqrasiya şəbəkələri və terrorizm risklərinin — artmasına zəmin yarada bildiyi kimi, miqrasiya qəbul edən ölkələrdə sosial, iqtisadi və siyasi gərginliklərə də səbəb ola bilər. Yaxın Şərqdə bu mürəkkəb və çoxqatlı dinamiklərin düzgün şəkildə anlaşılması regional sülhün və uzunmüddətli sabitliyin təmin edilməsi baxımından həlledici əhəmiyyət daşıyır.

Uğursuz dövlətlər

Uğursuz dövlətlər əhalisinin əsas ehtiyaclarını təmin etməkdə aciz qalan, ictimai təhlükəsizlik və hüquqi nizamı qoruma qabiliyyətini itirən, ərazi və sərhədlər üzərində effektiv nəzarəti həyata keçirə bilməyən və beynəlxalq sistemlə institusional inteqrasiyada uğursuz olan siyasi strukturlar kimi xarakterizə olunur. Bu anlayış xüsusilə Yaxın Şərqdə Suriya, Yəmən, İraq və Liviya kimi dövlətlərin mövcud vəziyyətini izah etmək üçün geniş şəkildə istifadə edilir. Uğursuz dövlətlərdə əsas problemlər sırasında hüququn aliliyinin zəifləməsi, dövlət hakimiyyətinin fragmentasiyası və zorakılığın sistemli xarakter alması ön plana çıxır.

Belə dövlətlər bir tərəfdən öz vətəndaşları üçün yaşayış şəraitini davamlı və təhlükəsiz olmayan hala gətirir, digər tərəfdən isə regional təhlükəsizlik mühitinə ciddi təhdidlər yaradır. Yaxın Şərqdə dövlət hakimiyyətinin zəiflədiyi bu məkanlarda silahlı münaqişələrin xronik xarakter alması, terror

təşkilatlarının fəaliyyət imkanlarının genişlənməsi və kütləvi miqrasiya axınlarının formalaşması faktiki olaraq qaçılmaz olmuşdur. Məsələn, Suriyada baş vermiş vətəndaş müharibəsi milyonlarla insanın məcburi şəkildə yerindən didərgin düşməsinə səbəb olmuş və regional, eləcə də qlobal miqyasda dərin miqrasiya böhranı yaratmışdır (UNHCR, 2023).

Bu məqalənin əsas məqsədi uğursuz dövlətlərin Yaxın Şərqdə miqrasiya və təhlükəsizlik dinamiklərinə təsirini analitik müstəvidə araşdırmaqdır. Tədqiqat çərçivəsində aşağıdakı əsas suala cavab axtarılır: uğursuz dövlətlər Yaxın Şərqdə miqrasiya proseslərini və təhlükəsizlik mühitini hansı mexanizmlər vasitəsilə formalaşdırır?

Bu kontekstdə məqalə aşağıdakı məqsədləri reallaşdırmağı hədəfləyir: uğursuz dövlətlərin miqrasiya axınlarını hansı struktur və institusional mexanizmlər vasitəsilə stimullaşdırdığını təhlil etmək; miqrasiya proseslərinin regional və beynəlxalq təhlükəsizlik üzərində yaratdığı təsirləri ortaya qoymaq; habelə uğursuz dövlətlərin yenidən qurulması və miqrasiya axınlarının idarə olunması üçün mümkün siyasət və həll yolları irəli sürmək.

Məqalə miqrasiya, təhlükəsizlik və uğursuz dövlətlər mövzularında formalaşmış akademik ədəbiyyata əsaslanaraq bu dinamikləri dərindən təhlil edir. Xüsusilə Zolberg, Suhrke və Aguayonun miqrasiya ilə dövlət uğursuzluğu arasındakı əlaqəyə dair fundamental tədqiqatları (1992), eləcə də Rotbergin uğursuz dövlətlərin təhlükəsizlik üzərində təsirlərini araşdıran işləri (2002) əsas nəzəri istinad nöqtələri kimi çıxış edir. Bundan əlavə, Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) və Beynəlxalq Miqrasiya Təşkilatının (IOM) hesabatları regiondakı mövcud vəziyyətin aktual empirik göstəricilər əsasında izahı üçün istifadə olunur.

Yaxın Şərqdə Miqrasiyanın Ümumi Mənzərəsi

Məcburi miqrasiyanın səbəbləri:

a. Silahlı münaqişələr və vətəndaş müharibələri

Yaxın Şərqdə məcburi miqrasiyanın əsas səbəblərindən biri regionda davam edən silahlı münaqişələr və vətəndaş müharibələridir. Suriya vətəndaş müharibəsi bu prosesin ən bariz nümunələrindən biri hesab olunur. 2011-ci ildə başlayan silahlı qarşıdurmalar nəticəsində təxminən 7 milyon insan beynəlxalq müdafiə axtarışı ilə ölkəni tərk etmiş, 6,8 milyon nəfər isə ölkə daxilində məcburi köçkün vəziyyətinə düşmüşdür (UNHCR, 2023). Yəməndə 2015-ci ildən etibarən davam edən münaqişələr isə təxminən 4 milyon insanın yerindən didərgin düşməsinə səbəb olmuşdur (IOM, 2023). Silahlı qruplar arasında artan zorakılıq, dövlət institutlarının zəifləməsi və təhlükəsiz mühitin yoxluğu fərdləri fiziki təhlükəsizlik və yaşamaq imkanları axtarışı ilə miqrasiyaya sövq edən əsas amillər kimi çıxış edir (De Bel-Air, 2016).

b. İqtisadi qeyri-sabitlik və yoxsulluq

Regionda müşahidə olunan iqtisadi böhranlar və struktur qeyri-sabitlik miqrasiyanı şərtləndirən digər mühüm amillərdən biridir. Yaxın Şərqdə gəlir bərabərsizliyinin dərinləşməsi və işsizlik səviyyəsinin yüksək olması fərdlərin və icmaların daha yaxşı həyat şəraiti axtarışı ilə hərəkət etməsinə səbəb olur. Məsələn, İraqda müharibədən sonrakı dövrdə yenidənqurma prosesinin qeyri-kafi səviyyədə aparılması həm daxili, həm də beynəlxalq miqrasiya axınlarını gücləndirmişdir (World Bank, 2022). İqtisadi çətinliklər təkcə münaqişə zonaları ilə məhdudlaşmır; Misir kimi nisbətən daha sabit ölkələrdə də sosial-iqtisadi problemlər miqrasiya meyillərini artıran amil kimi çıxış edir (Fargues, 2014).

c. İqlim dəyişikliyi və təbii fəlakətlər

İqlim dəyişikliyi Yaxın Şərqdə miqrasiya proseslərində getdikcə daha mühüm rol oynamaqdadır. Xüsusilə su ehtiyatlarının azalması, kənd təsərrüfatı fəaliyyətlərinin zəifləməsi və uzunmüddətli quraqlıqlar əhalinin kənd yerlərindən şəhər mərkəzlərinə miqrasiyasını sürətləndirir. Suriyada 2006–2010-cu illərdə baş verən quraqlıq nəticəsində kənd əhalisinin təxminən 75 faizi əsas gəlir mənbəyini itirmiş və geniş miqyaslı daxili miqrasiya dalğası formalaşmışdır (Kelley et al., 2015). Bu proses vətəndaş müharibəsindən əvvəl sosial narazılıqları dərinləşdirərək münaqişə üçün münbit zəmin yaratmışdır.

Miqrasiyanın növləri:Daxili Miqrasiya, Dövlətlərarası Miqrasiya

Daxili miqrasiya fərdlərin dövlət sərhədləri daxilində yer dəyişməsi prosesini ifadə edir. Yaxın Şərqdə xüsusilə kənd yerlərindən şəhər mərkəzlərinə doğru miqrasiya geniş yayılmışdır. Məsələn, İraqda iqtisadi çətinliklər və təhlükəsizlik problemləri səbəbindən milyonlarla insan ölkə daxilində məcburi şəkildə yerini dəyişmişdir (IOM, 2022).

Yaxın Şərqdəki silahlı münaqişələr insanların region daxilindəki digər ölkələrə və daha uzaq coğrafiyalara sığınmasına səbəb olur. Türkiyə, İordaniya və Livan Suriyadan olan qaçqınların ən çox üz tutduğu ölkələr sırasında yer alır (UNHCR, 2023). Xüsusilə Türkiyə 3,7 milyon qaçqına ev sahibliyi etməklə dünyada ən çox qaçqın qəbul edən ölkə mövqeyinə yüksəlmişdir (UNHCR, 2023). Yaxın Şərq qlobal miqyasda miqrasiya hərəkətlərinin ən intensiv şəkildə müşahidə olunduğu regionlardan biridir. Regionda məcburi miqrasiya ilə bağlı əsas statistik göstəricilər aşağıdakılardır: Suriyada davam edən münaqişələr nəticəsində 7 milyondan çox insan ölkə xaricinə miqrasiya etmiş, 6,8 milyon nəfər isə ölkə daxilində məcburi köçkünə çevrilmişdir (UNHCR, 2023); Yəməndəki münaqişələr səbəbindən 4 milyondan artıq insan yerindən didərgin düşmüşdür (IOM, 2023); Türkiyə isə 3,7 milyon suriyalı qaçqınla dünyada ən çox qaçqın qəbul edən ölkə statusuna malikdir (UNHCR, 2023).

Bu göstəricilər miqrasiya proseslərinin yalnız silahlı münaqişələrlə deyil, eyni zamanda iqtisadi böhranlar və ekoloji problemlərlə sıx şəkildə əlaqəli olduğunu ortaya qoyur və Yaxın Şərqdə miqrasiyanın çoxölçülü bir fenomen kimi regional təhlükəsizlik və sabitlik kontekstində qiymətləndirilməsinin zəruriliyini göstərir.

2. Uğursuz Dövlətlərin Xüsusiyyətləri

Uğursuz dövlətlər əhalisinə təhlükəsizlik, əsas ictimai xidmətlər və davamlı siyasi nizam təmin etmək qabiliyyətini itirmiş dövlətlər kimi xarakterizə olunur. Bu tip dövlətlər adətən dövlət hakimiyyətinin zəifləməsi və ya dağılması, zorakılığın geniş yayılması, eləcə də ərazi və sərhədlər üzərində effektiv nəzarətin itirilməsi kimi xüsusiyyətlərlə səciyyələnir. Robert I. Rotberg (2004) uğursuz dövlətləri vətəndaşlarının fundamental təhlükəsizlik ehtiyaclarını qarşılaya bilməyən və ictimai xidmətləri səmərəli şəkildə təqdim etməkdə aciz qalan siyasi strukturlar kimi izah edir.
Uğursuz dövlətlərin müəyyənləşdirilməsində əsasən aşağıdakı meyarlar əsas götürülür:
Uğursuz dövlətlərdə hökumət institutları həm daxili, həm də xarici təhdidlərə qarşı adekvat qoruma təmin etmək iqtidarında olmur. İdarəetmə mexanizmləri zəifdir və siyasi hakimiyyət çox vaxt yerli aktorlar və ya silahlı qruplar arasında parçalanmış vəziyyətdədir. Məsələn, Yəməndə mərkəzi hökumət ölkə ərazisinin böyük hissəsinə nəzarəti itirmiş, hakimiyyət husilər və digər silahlı qruplar arasında bölünmüşdür (Clarke, 2020).

Uğursuz dövlətlərdə hüququn aliliyi prinsipi faktiki olaraq işlək vəziyyətdə olmur. Məhkəmə və hüquq-mühafizə sistemləri qeyri-effektivdir, korrupsiya geniş yayılmışdır və ədalət mexanizmləri ciddi şəkildə zəifləyib. Bu vəziyyət vətəndaşlar arasında etimadsızlığı gücləndirir və dövlət hakimiyyətinə legitimlik baxımından ciddi zərbə vurur. Məsələn, İraqda müharibədən sonrakı dövrdə məhkəmə sisteminin funksionallığını itirməsi terror təşkilatlarının və silahlı qrupların təsir dairəsini genişləndirmişdir (Wimmer, 2018).

Uğursuz dövlətlər əhalinin səhiyyə, təhsil, infrastruktur və iqtisadi rifah kimi əsas ehtiyaclarını qarşılamaq imkanından məhrumdur. Bu durum sosial narazılıqları artırır və vətəndaşları dövlət strukturlarından kənarda alternativ təhlükəsizlik və dolanışıq mexanizmləri axtarmağa sövq edir. Suriyada vətəndaş müharibəsi dövründə səhiyyə və təhsil sistemlərinin demək olar ki, tamamilə çökməsi kütləvi miqrasiya dalğalarının əsas səbəblərindən birinə çevrilmişdir (UNICEF, 2022).

Yaxın Şərq tarixi, siyasi və sosial baxımdan mürəkkəb struktura malik region olaraq uğursuz dövlət fenomeninin ən qabarıq şəkildə müşahidə edildiyi coğrafiyalardan biridir. Bu bölmədə Suriya, Yəmən, İraq və Livan nümunələri əsasında uğursuz dövlətlərin əsas xüsusiyyətləri və bu vəziyyətin miqrasiya və təhlükəsizlik üzərində yaratdığı təsirlər daha ətraflı şəkildə təhlil olunur.

Suriya

Suriya 2011-ci ildə Ərəb Baharının təsiri ilə başlayan xalq etirazlarının qısa müddətdə silahlı münaqişələrə çevrilməsi nəticəsində uğursuz dövlət kimi qiymətləndirilməyə başlanmışdır. Suriyada uğursuz dövlət fenomeninin əsas səbəbləri aşağıdakılardır.

Vətəndaş müharibəsinin gedişində Suriya hökuməti ölkə ərazisinin yalnız müəyyən hissələrində nəzarəti saxlaya bilmişdir. Şimal-şərqdə kürd silahlı dəstələri, şimal-qərbdə müxalif qruplar, bəzi bölgələrdə isə İŞİD kimi terror təşkilatları faktiki hakimiyyətə malik olmuşdur (Phillips, 2016). Bu proses dövlətin təhlükəsizliyi və sərhədləri nəzarətdə saxlamaq qabiliyyətini ciddi şəkildə zəiflətmişdir. Xüsusilə səhiyyə və təhsil sahələrində ictimai xidmətlərin iflic vəziyyətinə düşməsi Suriya əhalisini məcburi miqrasiyaya sürükləmişdir. Müharibədən əvvəl əhalinin təxminən 90 faizi səhiyyə xidmətlərinə çıxış əldə etdiyi halda, münaqişə dövründə bu göstərici 40 faizdən aşağı düşmüşdür (UNICEF, 2022). Daxili münaqişə nəticəsində 7 milyondan artıq suriyalı ölkəni tərk etmiş, 6,8 milyon nəfər isə ölkə daxilində məcburi köçkünə çevrilmişdir. Bu proses müasir tarixdə ən böyük məcburi miqrasiya böhranlarından biri kimi qiymətləndirilir (UNHCR, 2023).

Yəmən

Yəmən uğursuz dövlət fenomeninin xroniki xarakter aldığı klassik nümunələrdən biridir. 2011-ci ildən etibarən dərinləşən siyasi qeyri-sabitlik 2015-ci ildə husilər ilə hökumət qüvvələri arasında genişmiqyaslı vətəndaş müharibəsinə çevrilmiş və ölkəni ağır humanitar və təhlükəsizlik böhranı ilə üz-üzə qoymuşdur.

Yəmən hökuməti paytaxt Sana üzərində nəzarəti itirmiş, ölkənin cənub bölgələri isə Cənub Keçid Şurası kimi müxtəlif silahlı aktorların nəzarətinə keçmişdir (Clarke, 2020). Bu parçalanma mərkəzi dövlət hakimiyyətinin faktiki olaraq dağılmasına səbəb olmuşdur. İqtisadi sistemin dağılması əhalinin təxminən 75 faizinin humanitar yardıma möhtac vəziyyətə düşməsinə gətirib çıxarmışdır. Davam edən aclıq böhranı uğursuz dövlətlərin humanitar fəlakətlərin qarşısını almaqda aciz qaldığını açıq şəkildə nümayiş etdirir (World Bank, 2023). Yəməndə münaqişə nəticəsində 4 milyondan artıq insan məcburi şəkildə yerindən edilmişdir. Bu miqrasiya əsasən daxili xarakter daşısa da, ölkə daxilində genişmiqyaslı humanitar miqrasiya dalğalarına səbəb olmuşdur (IOM, 2023).

İraq

İraq 2003-cü ildə ABŞ-ın hərbi müdaxiləsindən sonra tədricən uğursuz dövlət kateqoriyasında qiymətləndirilməyə başlanmışdır. Bu dövrdə siyasi qeyri-sabitlik, məzhəb əsaslı parçalanmalar və terror təşkilatlarının mövcudluğu dövlətin institusional zəifləməsini sürətləndirmişdir. 2014-cü ildə İŞİD-in Mosulu ələ keçirməsi İraq hökuməti üçün ciddi legitimlik və təhlükəsizlik böhranı yaratmışdır. Terror təşkilatının 2017-ci ildə hərbi məğlubiyyətinə baxmayaraq, mərkəzi hökumətin bir sıra regionlarda nəzarəti hələ də məhdud olaraq qalır (Dodge, 2018). Korrupsiya və ictimai xidmətlərin qeyri-kafi səviyyədə təqdim olunması əhalinin dövlətə olan etimadını əhəmiyyətli dərəcədə sarsıtmışdır. Xüsusilə elektrik enerjisi, su təchizatı və səhiyyə sahəsindəki problemlər vətəndaşların gündəlik həyat şəraitinə mənfi təsir göstərmişdir (World Bank, 2022). İraqda davam edən zorakılıq və terror təhlükəsi milyonlarla insanın ölkə daxilində məcburi köçkünə çevrilməsinə, eləcə də beynəlxalq miqrasiya axınlarının artmasına səbəb olmuşdur.

Livan

Livanda dərinləşən iqtisadi böhran, xroniki siyasi qeyri-sabitlik və məzhəb əsaslı siyasi sistem dövlətin uğursuzluq əlamətləri göstərməsinə zəmin yaratmışdır. 2020-ci ildə Beyrut limanında baş verən partlayış dövlət institutlarının zəifliyini və ictimai etimadın kəskin şəkildə azalmasını daha da açıq şəkildə ortaya qoymuşdur (Makdisi, 2021).

Yaxın Şərqdəki uğursuz dövlətlər təkcə öz vətəndaşları üçün deyil, eyni zamanda regional və beynəlxalq təhlükəsizlik üçün də ciddi risk mənbəyinə çevrilmişdir. Bu dövlətlərin zəif institusional strukturları terror təşkilatlarının fəaliyyət imkanlarını genişləndirir, məcburi miqrasiya axınlarını sürətləndirir və humanitar böhranları dərinləşdirir. Suriya, Yəmən və İraq nümunələri uğursuz dövlətlərin miqrasiya və təhlükəsizlik üzərindəki çoxşaxəli təsirlərini anlamaq üçün mühüm analitik zəmin təqdim edir.

3. Uğursuz Dövlətlərin Miqrasiya və Təhlükəsizlik Üzərindəki Rolu

Uğursuz dövlətlər dövlət hakimiyyətinin zəifləməsi, əsas ictimai xidmətlərin təmin edilə bilməməsi və təhlükəsizlik mühitinin pozulması səbəbindən həm miqrasiya axınlarının yaranmasına, həm də təhlükəsizlik problemlərinin dərinləşməsinə şərait yaradır. Bu bölmədə uğursuz dövlətlərin miqrasiya və təhlükəsizlik üzərindəki rolu silahlı münaqişələrin təsiri, miqrasiya siyasətlərinin qeyri-kafiliyi və təhlükəsizlik problemləri kontekstində sistemli şəkildə təhlil olunur.

Hökumətlərin miqrasiya siyasətlərinin qeyri-kafiliyi

Uğursuz dövlətlərdə mövcud olan hökumətlər miqrasiya proseslərini tənzimləmək və nəzarət altına almaq üçün zəruri institusional və inzibati potensiala malik deyildir. Bu vəziyyət nizamsız miqrasiya axınlarının artmasına və regional qeyri-sabitliyin daha da dərinləşməsinə səbəb olur. Uğursuz dövlətlərdə sərhədlərə effektiv nəzarətin təmin edilə bilməməsi miqrantların qonşu ölkələrə keçidini asanlaşdırır. Məsələn, Suriyada vətəndaş müharibəsi dövründə sərhəd nəzarətinin zəifləməsi qonşu ölkələrdə miqrant və qaçqın sayının sürətlə artmasına gətirib çıxarmışdır (Phillips, 2016). Hökumətlər məcburi köçkün və qaçqın əhali üçün uzunmüddətli və davamlı həll mexanizmləri təqdim etməkdə aciz qalırlar. Yəmən nümunəsində olduğu kimi, dövlət institutları arasında koordinasiyanın olmaması humanitar yardımın effektiv və bərabər şəkildə bölüşdürülməsini də ciddi şəkildə məhdudlaşdırmışdır (Clarke, 2020).

Bu institusional boşluqlar miqrantların yaşayış şəraitini ağırlaşdırmaqla yanaşı, regional təhlükəsizlik risklərini də artırır. Uğursuz dövlətlərdə mövcud olan təhlükəsizlik boşluqları miqrasiya prosesləri ilə qarşılıqlı təsirə girərək daha geniş regional və beynəlxalq təhlükə mənbəyinə çevrilir.

Terror qruplarının güclənməsi

Uğursuz dövlətlər terror təşkilatları üçün əlverişli fəaliyyət mühiti yaradır. Dövlət hakimiyyətində yaranan boşluq bu qruplara təsir dairələrini genişləndirmək və davamlı qeyri-sabitlik yaratmaq imkanı verir.

İraq və Suriyada dövlət hakimiyyətinin zəifləməsi İŞİD kimi terror təşkilatlarının geniş ərazilərə nəzarət etməsinə şərait yaratmışdır. Bu proses bir tərəfdən yerli əhalinin məcburi köçünə səbəb olmuş, digər tərəfdən isə beynəlxalq təhlükəsizlik təhdidlərini əhəmiyyətli dərəcədə artırmışdır (Dodge, 2018). Yəməndə mərkəzi hökumətin zəifləməsi Əl-Qaidə kimi təşkilatların təsir sahəsini genişləndirməsinə və beynəlxalq miqyaslı əməliyyatlar həyata keçirməsinə imkan yaratmışdır (Clarke, 2020).

Regional və beynəlxalq təhlükəsizlik təhdidləri

Miqrasiya axınları və uğursuz dövlətlərin yaratdığı təhlükəsizlik boşluqları regional və qlobal miqyasda müxtəlif təhdidlərin artmasına səbəb olur. Liviya kimi uğursuz dövlətlər insan alveri, silah və narkotik qaçaqmalçılığı kimi cinayət fəaliyyətlərinin mərkəzinə çevrilmişdir. Bu vəziyyət xüsusilə Avropaya yönəlmiş miqrasiya axınlarını və təhlükəsizlik risklərini artırmışdır (Lacher, 2020). Miqrasiya prosesləri zamanı bəzi radikal qruplar öz üzvlərini başqa ölkələrə yönəldərək terror fəaliyyətlərini beynəlxalq səviyyəyə daşıyırlar.

Ümumilikdə, uğursuz dövlətlər miqrasiya və təhlükəsizlik baxımından çoxşaxəli problemlər yaradır. Münaqişələrin uzunmüddətli xarakter alması, hökumətlərin qeyri-effektiv siyasətləri və dövlət hakimiyyətindəki boşluqlar milyonlarla insanın yerindən didərgin düşməsinə və beynəlxalq təhlükəsizlik risklərinin artmasına səbəb olur. Bu səbəbdən uğursuz dövlətlərin yaratdığı problemlərin həlli təkcə milli səviyyədə deyil, beynəlxalq əməkdaşlıq və koordinasiya çərçivəsində həyata keçirilməlidir.

Miqrasiyanın təhlükəsizlik üzərindəki təsirləri sərhəd nəzarəti, terrorla mümkün əlaqələr, mütəşəkkil cinayətkarlıq və regional sabitlik prizmasından qiymətləndirilə bilər. Miqrasiya həm miqrantların öz təhlükəsizliyi, həm də miqrasiya qəbul edən dövlətlərin daxili sabitliyi üçün ciddi risklər yarada bilir. Miqrasiya axınları xüsusilə uğursuz dövlətlərin mövcud olduğu regionlarda siyasi və iqtisadi sabitliyi zəiflədən mühüm amil kimi çıxış edir.

Yaxın Şərqdə milyonlarla qaçqının qonşu ölkələrə sığınması bu dövlətlərin iqtisadi və sosial infrastrukturuna ciddi təzyiq göstərir. Məsələn, Türkiyə dörd milyondan artıq suriyalı qaçqına ev sahibliyi etməklə dünyada ən böyük qaçqın əhalisinə malik ölkələrdən biri olmuşdur. Bu vəziyyət həm iqtisadi, həm də siyasi gərginlikləri artırmışdır (Erdoğan, 2019). Miqrasiya prosesləri zamanı sərhədlərin effektiv şəkildə qorunmaması nizamsız miqrantların və silahlı qrupların sərbəst hərəkətinə imkan yaradır. Xüsusilə Suriyadan qonşu ölkələrə yönələn miqrasiya axınlarında sərhəd təhlükəsizliyi ciddi problemə çevrilmişdir (Phillips, 2016).

Miqrantlar eyni zamanda həm təhlükəsizlik baxımından həssas qrup, həm də potensial risk elementi kimi qiymətləndirilə bilər. İnsan alveri, radikallaşma və mütəşəkkil cinayətkarlıq miqrant icmalarının qarşılaşdığı əsas təhlükəsizlik problemləri sırasında yer alır. Miqrasiya prosesləri zamanı mütəşəkkil cinayət şəbəkələri insan alverini mühüm gəlir mənbəyinə çevirmişdir. Xüsusilə Liviya Avropaya keçid marşrutunda insan alverinin əsas mərkəzlərindən biri kimi formalaşmışdır (Lacher, 2020). Bəzi hallarda miqrant icmaları radikal ideoloji təbliğata daha açıq vəziyyətə düşə bilər. Məsələn, Avropaya yönəlmiş miqrasiya axınları çərçivəsində bəzi qruplar arasında terror təşkilatlarının təsirinin artması müşahidə olunmuşdur (Makdisi, 2021).

Uğursuz dövlətlərdən qaynaqlanan miqrasiya dalğaları silahlı qrupların regional hərəkətliliyini də artırır. Suriya və İraqda dövlət hakimiyyətinin çökməsi terror təşkilatlarının qonşu ölkələrə yayılmasını asanlaşdırmışdır. Bu qruplar miqrasiya axınlarından istifadə edərək üzvlərini müxtəlif ölkələrə yönəltmiş və təhlükəsizlik risklərini beynəlxalq səviyyəyə daşımışdır (Dodge, 2018).

Miqrasiya prosesləri təkcə təhlükəsizlik sahəsində deyil, eyni zamanda sosial inteqrasiya və iqtisadi dayanıqlılıq baxımından da ciddi problemlər yaradır. Miqrasiya qəbul edən ölkələr məhdud resurslar şəraitində miqrant əhalini cəmiyyətə inteqrasiya etməyə çalışarkən, paralel olaraq sosial gərginlik və iqtisadi rəqabətlə üzləşirlər.

Miqrantların sıx məskunlaşdığı ərazilərdə sosial uyğunlaşma problemləri daha qabarıq şəkildə ortaya çıxır.

Fərqli mədəni və dini dəyərlərə malik olan miqrantlar yerli əhali ilə uyğunlaşmaqda çətinlik çəkə bilər. Bu vəziyyət xüsusilə Avropa ölkələrində miqrant əleyhinə siyasi diskursların güclənməsinə zəmin yaratmışdır (Betts & Collier, 2017). Miqrantlar aşağı əməkhaqqı tələb edən işlərdə yerli əhali ilə rəqabətə girərək sosial narazılığı artıra bilirlər. Türkiyədə suriyalı miqrantların əmək bazarına daxil olması yerli əhali arasında iqtisadi narahatlıqlar və sosial reaksiyalar doğurmuşdur (Erdoğan, 2019).

Miqrant əhalinin artması ictimai xidmətlərə olan tələbatı yüksəldərək mövcud resursların qeyri-kafi hala gəlməsinə səbəb olur. Miqrantların cəmləşdiyi bölgələrdə mənzil və səhiyyə xidmətləri üzərində yük əhəmiyyətli dərəcədə artır. Livanda suriyalı qaçqınlar yerli əhali ilə eyni ictimai xidmətlərə çıxış əldə etməkdə ciddi çətinliklərlə üzləşirlər (UNHCR, 2023). Miqrantların ehtiyaclarının qarşılanması üçün ayrılan vəsaitlər miqrasiya qəbul edən dövlətlərin büdcələrinə əlavə yük yaradır. Məsələn, İordaniyada qaçqın əhalinin artması sosial xərcləri uzunmüddətli perspektivdə davamlı olmayan səviyyəyə çatdırmışdır (Phillips, 2016).

4. Məcburi Köçün Sosial və Fərdi Təsirləri

Məcburi köç, adətən müharibələr, etnik qarşıdurmalar, təbii fəlakətlər və ya siyasi təzyiqlər nəticəsində yaşayış yerlərini tərk etməyə məcbur qalan fərdlər və icmalar üçün ciddi çətinliklər yaradır. Bu proses təkcə miqrantlar üçün deyil, eyni zamanda miqrant qəbul edən cəmiyyətlər üçün də dərin sosial, mədəni və iqtisadi transformasiyalarla müşayiət olunur. Bu bölmədə məcburi köçün fərdi və ictimai səviyyələrdə yaratdığı təsirlər daha ətraflı şəkildə təhlil edilir.

Miqrasiya Edən Fərdlərin Təcrübələri

Miqrasiya fərdlərin həyatında köklü dönüş nöqtəsi hesab olunur. Bu proses yalnız fiziki məkan dəyişikliyi ilə məhdudlaşmır, eyni zamanda psixoloji, mədəni və sosial baxımdan ciddi dəyişikliklər yaradır. Miqrantlar çox zaman öz evlərini tərk edərkən mədəni kimliklərini, sosial əlaqələrini və ailə bağlarını geridə qoymağa məcbur qalırlar. Bu vəziyyət yalnız maddi itkilərlə deyil, eyni zamanda kimlik böhranı və travmatik təcrübələrlə də müşayiət olunur.

Məcburi köç fərdlər üzərində dərin psixoloji təsirlər yaradır. Miqrantlar müharibə, zorakılıq, itkilər və qeyri-müəyyənlik kimi ağır təcrübələrin izlərini daşıyırlar. Xüsusilə Yaxın Şərqdə baş verən münaqişələrdən qaçan qaçqınlar bu dağıdıcı prosesləri birbaşa yaşamışdır. Bu vəziyyət posttravmatik stress pozuntusu (PTSP), depressiya, təşviş pozuntuları, yuxu problemləri və emosional çökmə kimi hallarla özünü göstərir. Aparılan tədqiqatlar Suriyadan qaçan qaçqınlar arasında bu cür psixoloji pozuntuların geniş yayıldığını ortaya qoyur (UNHCR, 2023).

Bununla yanaşı, miqrantlar kimlik böhranı ilə də üzləşirlər. Yeni cəmiyyətə uyğunlaşma prosesi mədəni kimliyin yenidən qurulmasını tələb edir. Fərqli mədəni mühitlə təmas bəzən miqrantların öz kimliklərini itirmə qorxusu ilə müşayiət olunur. Dil baryerləri, mədəni uyğunsuzluqlar və sosial kənarlaşdırılma halları bu böhranı daha da dərinləşdirir. Türkiyədəki suriyalı qaçqınlar üzərində aparılan araşdırmalar, onların həm öz kimliklərini qorumaqda, həm də yeni cəmiyyətə uyğunlaşmaqda ciddi çətinliklər yaşadıqlarını göstərir (TÜİK, 2022).

Məcburi köç zamanı qaçqınlar tez-tez insan hüquqlarının ciddi şəkildə pozulması ilə üzləşirlər. Təhlükəsiz həyat axtarışı zamanı sərhəd keçidlərində və qaçqın düşərgələrində ağır şərtlərə məruz qalırlar. İnsan alveri, cinsi zorakılıq, zorla əmək, qeyri-qanuni deportasiyalar bu pozuntular arasında yer alır. Yaxın Şərqdəki müharibələr bu cür halların kütləvi xarakter almasına səbəb olmuşdur. Xüsusilə Suriya və Yəmən kimi münaqişə zonalarından qaçan insanlar son dərəcə təhlükəli marşrutlardan istifadə etməyə məcbur qalırlar. Türkiyədəki qaçqın düşərgələrində qadınlar və uşaqların cinsi zorakılıq və digər hüquq pozuntularına məruz qalması ciddi problem olaraq qalır. Eyni zamanda, düşərgələrdə insani yaşayış şəraitinin təmin olunmaması, səhiyyə və sığınacaq xidmətlərinə çıxışın məhdudluğu da əsas hüquq pozuntuları sırasındadır (IOM, 2023).

Miqrasiya yalnız miqrantları deyil, eyni zamanda miqrant qəbul edən cəmiyyətləri də dərindən təsirləndirir. Bu təsirlər sosial strukturda, mədəni müxtəliflikdə, iqtisadi münasibətlərdə və demoqrafik göstəricilərdə özünü göstərir. Kütləvi miqrasiya dalğaları qəbul edən ölkələrdə əhali strukturunu dəyişdirir. Türkiyə nümunəsində olduğu kimi, Suriyadan gələn miqrantlar xüsusilə böyük şəhərlərdə sıxlaşaraq əhali artımına səbəb olmuşdur. Lakin bu vəziyyət təhsil, səhiyyə və mənzil kimi ictimai xidmətlər üzərində ciddi təzyiq yaradır və yerli əhali ilə miqrantlar arasında rəqabəti gücləndirir (OECD, 2020). Miqrantların inteqrasiyası dil baryerləri, məşğulluq problemləri və sosial qəbulun zəifliyi səbəbilə çətinləşir. Türkiyədəki suriyalı qaçqınların qarşılaşdığı inteqrasiya problemləri bu vəziyyətin bariz nümunəsidir. Ayrı-seçkilik, irqçilik və sosial kənarlaşdırma miqrantların cəmiyyətə uyğunlaşmasını əngəlləyən əsas amillər sırasındadır (Türkiyə Miqrasiya Araşdırmaları Mərkəzi, 2021).

Yaxın Şərqdəki uğursuz dövlətlər və bunun doğurduğu miqrasiya və təhlükəsizlik problemləri çoxşaxəli və qlobal yanaşma tələb edir.Məsələnin həll yolları olaraq bəzi variantları ələ almaq lazımdır.

a) Uğursuz Dövlətlərin Yenidən Qurulması

Uğursuz dövlətlərin yenidən qurulması uzunmüddətli sülh və sabitlik üçün həlledici əhəmiyyət daşıyır. Dövlət institutlarının gücləndirilməsi və yaxşı idarəetmə prinsiplərinin tətbiqi vacibdir.

b) Regional və Beynəlxalq Əməkdaşlığın Gücləndirilməsi

Miqrasiya və təhlükəsizlik problemləri yalnız milli səviyyədə həll edilə bilməz. Yaxın Şərq ölkələri arasında sərhəd təhlükəsizliyi, terrorla mübarizə və miqrasiya idarəçiliyi sahəsində əməkdaşlıq genişləndirilməlidir. Sərhəd təhlükəsizliyinin gücləndirilməsi, miqrantların inteqrasiyası və beynəlxalq təhlükəsizlik strategiyalarının uzlaşdırılması əsas prioritetlər sırasındadır.

NƏTİCƏ

Yaxın Şərqdə uğursuz dövlətlərin mövcudluğu, regionda məcburi miqrasiya axınlarını və bununla əlaqəli təhlükəsizlik risklərini formalaşdıran əsas struktur amillərdən biridir. Silahlı münaqişələr, siyasi qeyri-sabitlik və zəif dövlət institutları milyonlarla insanın yerindən edilməsinə səbəb olmaqla yanaşı, regional və beynəlxalq təhlükəsizlik mühitinə ciddi təsir göstərir. Məqalədə aparılan təhlil göstərir ki, dövlət hakimiyyətinin zəifləməsi, sərhədlərə nəzarətin itirilməsi və əsas ictimai xidmətlərin çökməsi miqrasiya proseslərini sürətləndirir və terror təşkilatları ilə mütəşəkkil cinayət şəbəkələri üçün əlverişli şərait yaradır.

Bu proseslər yalnız mənbə ölkələrdə deyil, həm də miqrantları qəbul edən dövlətlərdə sosial, iqtisadi və təhlükəsizlik baxımından yeni problemlər doğurur. Nəticə etibarilə, Yaxın Şərqdə miqrasiya və təhlükəsizlik arasındakı mürəkkəb əlaqənin effektiv idarə olunması dövlət quruculuğunun gücləndirilməsi, miqrasiya siyasətlərinin koordinasiyası və regional–beynəlxalq əməkdaşlığın dərinləşdirilməsini zəruri edir.

ƏDƏBİYYAT

1. Betts, A., & Collier, P. (2017). Refuge: Transforming a broken refugee system. Penguin Books.
2. Clarke, K. (2020). Yemen: Conflict and failing state dynamics. International Crisis Group.
3. De Bel-Air, F. (2016). Migration profile: The Middle East. European University Institute.
4. Dodge, T. (2018). Iraq – From war to a failed state. Oxford University Press.
5. Erdogan, M. (2019). Suriyeliler Barometresi: Türkiye'deki Suriyelilerle uyum için zorluklar ve fırsatlar. Istanbul Bilgi University Press.
6. Fargues, P. (2014). International migration and the nation state in Arab countries. Middle East Institute.
7. IOM. (2022). World migration report 2022. International Organization for Migration.
8. IOM. (2023). World migration report 2023. International Organization for Migration.
9. IOM. (2023). Yemen displacement tracking matrix. International Organization for Migration.
10. Kelley, C. P., Mohtadi, S., Cane, M. A., Seager, R., & Kushnir, Y. (2015). Climate change in the Fertile Crescent and implications of the recent Syrian drought. Proceedings of the National Academy of Sciences, 112(11), 3241–3246.
11. Lacher, W. (2020). Libya's fragmentation: Structure and process in violent conflict. Bloomsbury Publishing.
12. Makdisi, S. (2021). Lebanon's perfect storm: From economic collapse to political stagnation. Carnegie Middle East Center.
13. Phillips, C. (2016). The battle for Syria: International rivalry in the new Middle East. Yale University Press.
14. Rotberg, R. (2002). The failure and collapse of nation-states: Breakdown, prevention, and repair. Princeton University Press.
15. Rotberg, R. I. (2004). When states fail: Causes and consequences. Princeton University Press.
16. UNHCR. (2023). Global trends in forced displacement. UNHCR.
17. UNICEF. (2022). Syria crisis: Humanitarian overview. UNICEF.
18. Wimmer, A. (2018). Nation building: Why some countries come together while others fall apart. Princeton University Press.
19. World Bank. (2022). Iraq economic monitor: Navigating through a perfect storm of challenges. World Bank.
20. World Bank. (2023). Yemen economic monitor: The humanitarian impact of state failure. World Bank.
21. Zolberg, A., Suhrke, A., & Aguayo, S. (1992). Escape from violence: Conflict and the refugee crisis in the developing world. Oxford University Press.

ABSTRACT

MIGRATION AND SECURITY IN THE MIDDLE EAST: THE ROLE OF FAILED STATES

Misirkhan Kazımlı

This article systematically analyzes the interaction between migration and security in the Middle East, particularly within the context of failed states. Prolonged political instability, armed conflicts, and deep economic crises in the region have intensified forced migration flows while simultaneously exerting serious impacts on regional and international security environments. The article establishes the theoretical framework of the concept of the "failed state" and explains the structural and institutional reasons behind the classification of countries such as Syria, Yemen, and Iraq within this category. The study analytically demonstrates how failed states stimulate migration processes through their inability to exercise effective sovereign control over territory, the creation of favorable environments for non-state armed actors and terrorist organizations, and the weakening of their capacity to meet the basic socio-economic needs of the population. In addition, the social, economic, and security-related consequences of migration for both sending and receiving countries are assessed through a multidimensional approach. By putting forward policy recommendations aimed at the reconstruction of failed states, the strengthening of institutional capacity, and the effective management of migration flows, the article seeks to contribute to a deeper understanding of the complex and interdependent relationship between migration and security.

Keywords: *Migration, Security, Failed States, Sovereignty, Terrorism*

АННОТАЦИЯ

МИГРАЦИЯ И БЕЗОПАСНОСТЬ НА БЛИЖНЕМ ВОСТОКЕ: РОЛЬ НЕСОСТОЯВШИХСЯ ГОСУДАРСТВ

Мисирхн Казымлы

В данной статье систематически анализируется взаимосвязь между миграцией и безопасностью на Ближнем Востоке, особенно в контексте несостоявшихся государств. Длительная политическая нестабильность, вооружённые конфликты и глубокие экономические кризисы в регионе способствуют интенсификации вынужденных миграционных потоков, одновременно оказывая серьёзное воздействие на региональную и международную среду безопасности. В статье формируется теоретическая рамка понятия «несостоявшееся государство» и объясняются структурные и институциональные причины отнесения таких стран, как Сирия, Йемен и Ирак, к данной категории. В исследовании аналитически показано, каким образом неспособность несостоявшихся государств осуществлять эффективный суверенный контроль над территорией, формирование благоприятной среды для негосударственных вооружённых акторов и террористических организаций, а также ослабление их способности обеспечивать базовые социально-экономические потребности населения стимулируют миграционные процессы. Наряду с этим на основе многомерного подхода оцениваются социальные, экономические и связанные с безопасностью последствия миграции как для стран-источников, так и для стран приёма. Выдвигая политические рекомендации, направленные на восстановление несостоявшихся государств, укрепление институционального потенциала и эффективное управление миграционными потоками, статья стремится внести вклад в более глубокое понимание сложной и взаимозависимой связи между миграцией и безопасностью.

Ключевые слова: *Миграция, Безопасность, Несостоявшиеся государства, Суверенитет,Терроризм*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-28
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT GƏNCLƏR VƏ İDMAN SİYASƏTİNİN İNSTİTUTLAŞMASININ BAŞLIÇA İSTİQAMƏTLƏRİ

Xəlil YUSİFLİ
Dövlət sərhədlərinin delimitasiyası və Xəzərdə dəniz sərhədlərinin müəyyən edilməsi ilə bağlı iki dövlət arasında 1997-ci ilin iyulun 3-də ilk razılaşma imzalandı. Bu razılaşma tərəflərin Xəzərdə qarşılıqlı şəkildə milli maraqlara hörmət göstərəcəyini bir daha təsdiq etdi. 2018-cil avqustun 13-də Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanmasından sonra dənizdə dövlət sərhədləri hər iki tərəf arasında tam dəqiqləşdirildi.

Son dövrlərdə sərhəd fəaliiyəti sahəsində əldə olunan müsbət nəticələrə baxmayaraq bir sıra təhdidlər öz mövcudluğunu saxlayır. Bu təhdidlər aşağıdakılardır:

- qanunsuz silahlı dəstələr tərəfindən sərhədyanı ərazilərdə terrot aktları baş vermə ehtimalının mövcudluğu;
- mütəşəkkil cinayətkar qrupların və müxtəlif dini ekstremist təşkilatların sərhədlərin şəffaflığından sui-istifadə istifadə etmək cəhdlərinin artması;
- Xəzər dənizində neft yataqlarına və digər təbii ehtiyatlardan istifadə ilə bağlı milli maraqlar əleyhinə diskriminasiya hallarının hər an baş qaldırma ehtimalı:
- iki ölkə arasında həm dənizdə, həm də quruda effektiv nəqliyyat şəbəkəsinin təhlükəsizliyinə təhdidlərin mövcudluğu;

Bu kimi təhdidlər hər iki dövlətin müvafiq qurumları arasında əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsini, sərhəd mühafizəsinin təşkili zamanı operativ informasiya mübadiləsinin təşkilini, eləcə də birgə təlimlərin sayının çoxaldılmasını zəruri edir.

Son illərdə sərhəd təhlükəsizliyi ilə bağlı tərəflər arasında bir sıra razılaşmalar imzalanmış və bundan irəli gələrək keçirilən birgə tədbirlərin sayı daha da artmışdır. Təsdiqlənmiş tədbirlər planlarına uyğun olaraq müvafiq qrumlar arasında əməkdaşlıq əlaqələri yaradılmışdır. Hazırda

Bakı və Həştərxan limanlarına sərhəd gözətçi gəmi-lərinin mütəmadi olaraq dostluq səfərləri təşkil olunur. Bu görüşlərdə əsas məqsəd hər iki ölkənin sərhəddə milli maraqlarının təmin olunması, xüsusən də dövlət sərhədində qaçaqmalçılıq, qeyri-leqal miqrasiya və digər transsərhəd cinayətkarlıq hallarının qarşısının alınması sahəsində fikir mübadiləsi aparmaqdır.

Bununla yanaşı sərhədyanı rayonlarının ərazisində kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər də mütəmadi keçirilir. Tədbirlərin əsas məqsədi sərhədyanı əməkdaşlıq məsələləri ilə bağlı qəbul edilmiş qərarların yerinə yetirilməsi, transmilli mütəşəkkil cinayətkar dəstələrin və terrorçu təşkilatların üzvlərinin ifşa edilərək zərərsizləşdirilməsi, silah-sursatın, partlayıcı maddələrin və qurğuların, narkotik vasitələrin, eləcə də digər hüquqazidd əməllərin həyata keçirilməsinə yönələn maliyyə və maddi vəsaitlərin daxilolma kanallarının müəyyənləşdirilib qarşısının alınması sahəsində kompleks təşkilati-praktik tədbirlərin icrasından ibarətdir.

Azərbaycan və Rusiyanın sərhəd fəaliyyəti sahəsində əməkdaşlığı bu gün həm də regional səviyyədə inkişaf edir. Xüsusilə, Xəzər dənizi regionunda və Şimal-Cənub nəqliyyat layihəsində olan ümumi maraqlar hər iki ölkəni bir-birinə yaxınlaşdırır. Bugün Cənubi Qafqazda sabitliyin qorunub saxlanılması hər iki dövlət üçün prioritet hesab olunur. Bu amillər heç şübhəsiz ki, dövlət sərhədlərində təhlükəsizlik mühiti ilə birbaşa bağlıdır. [6].

NƏTİCƏ

Təhlillər nəticəsində belə qənaətə gəlmək olur ki, hər iki dövlət arasında təhlükəsi sərhədlərin təmin olunması ikitərəfli məsələ olmaqla yanaşı, eyni zamanda Cənubi Qafqazda güc balansının, regional əməkdaşlıq mexanizmlərinin və uzunmüddətli sülhün qorunmasına töhfə verir. Aparılan təhlillər göstərir ki, Azərbaycan - Rusiya dövlət sərhədləri boyu həmsərhəd rayonlarda yerli əhali arasında maarifləndirici tədbirlərin miqyasının daha da artırılması bu sahədə irəlləyişin daha da artırılmasına kömək etmiş olar.Nəzərə almaq lazımdır ki,hər iki tərəfdə yaşayan əhalinin bir-birinə yaxın olması, hətta onlar arasında qohumluq münasibətlərinin olması nə qədər müsbət hal olsa da bir o qədər də dövlət sərhədinin pozulması risklərini artırır. Sərhədboyu rayonlarda yaşayan yerli əhali ilə işə hər zaman həssas bir məsələ kimi yanaşılmalı, həmin ərazilərdə sosial infrastrukturun mütəmadi yenilənməsi, eləcə də əhalinin rifah halının yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılmalıdır. Bu baxımdan prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən sosial siyasəti xüsusi vurğulamaq lazımdır. Son dövrlərdə Rusiya ilə həmsərhəd rayonlarda həyata keçirilən sosial-infrastruktur lahiyələr, xüsusən də yeni turizm obyektlərinin açılması yerlərdə əhalinin rifah halının yaxşılaşdırılmasına müsbət təsir göstərməklə yanaşı, sərhəd təhlükəsizliyinə risklərin də miqyasının azalmasına səbəb olmuşdur. Bütün bunlarla yanaşı sərhəd təhlükəsizliyi sahəsində əməkdaşlığın intensivləşdirilməsi və operativ məlumat mübadiləsinin həyata keçirilməsi çox vacibdir. Bu məqsədlə birgə informasiya mərkəzinin yaradılması məqsədəuyğun olardı. Dövlət sərhədinin mühafizəsində, eləcə də sərhəd buraxılış məntəqələrində müasir texniki vasitələrdən istifadə imkanları qarşılıqlı olaraq mütəmadi təkmilləşdirilməlidir.

ƏDƏBİYYAT

1. Əliyev, H: Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr: [46 cilddə] /H.Əliyev. bur.məsul akademik R.Ə.Mehdiyev.-Bakı: Azərnəşr, -c.7,-1998, -520 s
2. https://dsx.gov.az/xeber/592
3. .https://azxeber.com/az/azerbaycan-rusiya-serhedinde-ilk-serhed-nisanı-qurasdırıldi-fotolar/sosial/
4. Svyatoçovski, T. Rusiya və Azərbaycan sərhədyanı bölgə keçid dövründə./ T.Svyatoçovski .-Bakı: Xəzər unuversiteti, - 2000, - 369 s.
5. https://dsx.gov.az. /xeber/520
6. https://www.yap.org.az/az/view/news/87187/azerbaycan-rusiya-munasibetleri-regional-tehlukesizlik-ve-iqtisadi-emekdashliq-perspektivleri

РЕЗЮМЕ

ГОСУДАРСТВЕННАЯ ГРАНИЦА, МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И РОССИЕЙ И ЕЕ БЕЗОПАСНОСТЬ

Гариб Асгаров

В статье рассматриваются вопросы безопасности государственной границы Азербайджанской Республики с Российской Федерацией. Были проанализированы угрозы, влияющие на безопасность северной границы Азербайджана, и подчеркнуто, что интересы обоих государств в сфере безопасности границ совпадают. В статье показано, что, несмотря на прозрачность границы между двумя государствами и крайне низкое количество пограничных конфликтов, безопасность северных границ Азербайджана всегда имела большое значение для его национальной безопасности. В статье утверждается, что безопасность азербайджано-российской границы служит предотвращению экстремизма, терроризма и передвижения незаконных вооруженных группировок, а также поддержанию стабильности и предсказуемой обстановки в сфере безопасности в регионе.

Ключевые слова: *Азербайджан, Россия, стратегическое партнерство, национальные интересы, безопасность границ, государственная граница, приграничный регион*

SUMMARY

AZERBAIJAN-RUSSIA STATE BORDER AND İTS SECURITY

Garib Askerov

The article examines the issues of security of the state borders of Azerbaijan- Russian. The threats affecting the security of the northern border of Azerbaijan are analyzed and it is emphasized that both states have overlapping interests in the field of border security. The article shows that despite the transparent border between the two states and the very low number of border conflicts, the security of the northern borders of Azerbaijan has always been of great importance in terms of its national security. The article states that the security of the Azerbaijani-Russian border serves to prevent extremism, terrorism and the movement of illegal armed groups, as well as to maintain stability and a predictable security environment in the region.

Keywords: *Azerbaijan, Russia, strategic partnership, national interests, border security, state border, border region*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-31
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

AZƏRBAYCANIN ÇOXVEKTORLU XARİCİ SİYASƏTİ VƏ AVROPA İLƏ STRATEJİ TƏRƏFDAŞLIĞIN YENİ ARXİTEKTURASI

Elmira TALIBZADƏ
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif: studyinabroad80@gmail.com*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
çoxvektorlu xarici siyasət, enerji təhlükəsizliyi, Avropa İttifaqı, strateji tərəfdaşlıq, Orta Dəhliz, geosiyasi balans.

XÜLASƏ
Məqalədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən çoxvektorlu xarici siyasət strategiyasının mahiyyəti və bu strategiyanın Qərbi Avropa ölkələri ilə münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsində oynadığı rol kompleks şəkildə təhlil edilir. Araşdırmada Azərbaycanın beynəlxalq münasibətlər sistemində balanslaşdırıcı aktor kimi çıxış etməsini təmin edən siyasi-diplomatik mexanizmlər, eləcə də dövlətin suveren qərarvermə qabiliyyəti xüsusi vurğulanır. Enerji diplomatiyası Avropa İttifaqı ilə strateji tərəfdaşlığın əsas sütunlarından biri kimi qiymətləndirilir, xüsusilə 2022-ci ildən sonra Avropanın enerji təhlükəsizliyinin yenidən formalaşması kontekstində. Məqalədə iki statistik yanaşma paralel şəkildə təqdim olunur: birinci yanaşmaya əsasən Azərbaycan 14 ölkəyə qaz ixrac edir ki, onlardan 11-i Aİ üzv dövlətləridir; ikinci yanaşma isə ixrac coğrafiyasının Almaniya və Avstriya da daxil olmaqla 16 ölkəyədək genişlənməsini əhatə edir. Rəsmi çıxışlar, beynəlxalq hesabatlar və Avropa analitik mənbələri əsasında Azərbaycanın həm hərbi-siyasi, həm də iqtisadi baxımdan etibarlı və bərabərhüquqlu tərəfdaş statusu elmi əsaslarla sübut edilir.

GİRİŞ

XXI əsrin ikinci onilliyindən etibarən beynəlxalq münasibətlər sistemində struktur transformasiyalar sürətlənmiş, enerji təhlükəsizliyi, nəqliyyat-logistika marşrutları və regional sabitlik məsələləri dövlətlərin xarici siyasət prioritetlərinin mərkəzinə çevrilmişdir (Cornell, S. 2015). Xüsusilə 2022-ci ildən sonra beynəlxalq sistemdə yaranmış geosiyasi gərginliklər Avropa məkanında strateji yenidənqiymətləndirmə proseslərini intensivləşdirmiş, etibarlı tərəfdaş anlayışını yalnız iqtisadi deyil, eyni zamanda siyasi və təhlükəsizlik kateqoriyasına çevirmişdir.

Bu kontekstdə Azərbaycan Respublikasının Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirdiyi çoxvektorlu xarici siyasət modeli beynəlxalq münasibətlər nəzəriyyəsi baxımından xüsusi elmi maraq doğurur. Azərbaycan klassik "kiçik dövlət" və ya "xammal ixracatçısı" paradiqmasından kənara çıxaraq orta güc dövlətinə xas davranış modeli formalaşdırmış, regional məhdudiyyətləri aşaraq qlobal enerji və nəqliyyat arxitekturasında sistemyaradıcı aktora çevrilmişdir (Kissinger, H., 2014).

Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, "Azərbaycan heç bir beynəlxalq güc mərkəzinin orbitində deyil, öz milli maraqlarına əsaslanan müstəqil siyasət yürüdür". Bu yanaşma realizmin milli maraqlar konsepsiyası ilə liberal institusionalizmin çoxtərəfli əməkdaşlıq mexanizmlərinin sintezini ehtiva edir və Azərbaycanın Avropa ilə münasibətlərində balanslaşdırılmış, lakin ardıcıl strateji xətt formalaşdırmasına imkan yaradır (Azərtac İnfo Agentliyi). Məqalənin məqsədi Azərbaycanın Qərbi Avropa ölkələri ilə münasibətlərində bərabərhüquqlu tərəfdaş statusuna yüksəlməsinin siyasi, enerji və geoekonomik əsaslarını sistemli şəkildə təhlil etməkdir (Zürcher, C., 2019).

Azərbaycanın çoxvektorlu xarici siyasət modeli: balanslaşdırma, suverenlik və strateji avtonomiya

Azərbaycanın xarici siyasət doktrinasının əsasını təşkil edən çoxvektorlu yanaşma klassik balanslaşdırma siyasətindən daha mürəkkəb və çoxölçülü xarakter daşıyır. Bu model yalnız müxtəlif güc mərkəzləri arasında manevr etmək deyil, eyni zamanda milli maraqların institusionallaşdırılması və uzunmüddətli strateji planlaşdırma mexanizmlərinin qurulmasını nəzərdə tutur.

Prezident İlham Əliyevin siyasi rəhbərliyi dövründə Azərbaycan "situativ diplomatiya" mərhələsindən çıxaraq "strateji proqnozlaşdırma diplomatiyası"na keçid etmişdir. Dövlət başçısının çıxışlarında mütəmadi olaraq vurğulandığı kimi, "biz tərəfdaşlıq münasibətlərini ideoloji yaxınlıq əsasında deyil, qarşılıqlı maraqlar və etimad üzərində qururuq". Bu yanaşma Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərində normativ asılılıqdan uzaq, praqmatik və funksional əməkdaşlıq modelinin formalaşmasına zəmin yaratmışdır.

Xüsusilə 2020-ci ildə Azərbaycanın öz ərazi bütövlüyünü hərbi-siyasi vasitələrlə bərpa etməsi beynəlxalq münasibətlərdə ölkənin statusunu köklü şəkildə dəyişmişdir. Bu hadisə Azərbaycanın yalnız enerji resurslarına malik dövlət deyil, eyni zamanda suveren qərarvermə qabiliyyətinə sahib, güc tətbiq etmək imkanlarını real siyasət müstəvisində sübut etmiş aktor olduğunu nümayiş etdirmişdir. Avropa paytaxtlarında formalaşan yeni diskursda Azərbaycan "risk zonası" deyil, regional sabitliyin istehsalçısı kimi qəbul olunmağa başlamışdır (Smith, M., 2023).

Beləliklə, çoxvektorlu siyasət Azərbaycanın Qərblə münasibətlərində tabeçilik deyil, bərabərhüquqlu tərəfdaşlıq modelinin əsas institusional dayağına çevrilmişdir.

Enerji statistikası, Avropa bazarları və Azərbaycanın geoekonomik çəkisinin artması

Enerji sektoru Azərbaycan–Avropa münasibətlərinin əsas struktur sütununu təşkil edir. Cənub Qaz Dəhlizi layihəsi Avropa enerji təhlükəsizliyinin diversifikasiyası baxımından təkcə iqtisadi deyil, strateji əhəmiyyət daşıyır. TANAP və TAP boru kəmərlərinin istismara verilməsi ilə Azərbaycan Avropa enerji bazarına uzunmüddətli və proqnozlaşdırıla bilən çıxış əldə etmişdir (Hill, F., 2022).

Rəsmi statistikaya əsasən, Azərbaycanın Avropaya qaz ixracı 2021-ci ildə 8,2 milyard kubmetr təşkil etmiş, 2022-ci ildə bu göstərici 11,4 milyard kubmetrə yüksəlmiş, 2023-cü ildə təxminən 12 milyard kubmetr, 2024-cü ildə isə 12,5–13 milyard kubmetr səviyyəsinə çatmışdır. Beləliklə, cəmi üç il ərzində ixrac həcmlərində təqribən 50 faizə yaxın artım qeydə alınmışdır (Smith, M., 2023).

Prezident İlham Əliyevin enerji məsələlərinə dair çıxışlarında xüsusi vurğulandığı kimi, "Avropaya verdiyimiz hər bir kubmetr qaz etimad kapitalının tərkib hissəsidir". Bu yanaşma Azərbaycanın enerji siyasətini sırf kommersiya məntiqindən çıxararaq strateji tərəfdaşlıq alətinə çevirmişdir.

Mövcud mərhələdə iki paralel statistik model mövcuddur. Birinci modelə əsasən Azərbaycan 14 ölkəyə qaz ixrac edir və onların 11-i Avropa İttifaqının üzv dövlətləridir. İkinci model isə ixrac coğrafiyasının Almaniya və Avstriya kimi iri sənaye dövlətləri daxil olmaqla 16 ölkəyədək genişləndirilməsini əks etdirir. Bu, Azərbaycanın Avropa enerji arxitekturasında periferik deyil, mərkəzi aktora çevrildiyini göstərir (Wilson, A., 2024).

Eyni zamanda Orta Dəhlizin inkişafı Azərbaycanın yalnız enerji deyil, nəqliyyat və logistika sahəsində də Avropa üçün strateji əhəmiyyətini artırmışdır.

Post-2022 dövründə Azərbaycan–Avropa əməkdaşlığının yeni perspektivləri

2022-ci ildən sonra Avropa İttifaqının təhlükəsizlik anlayışı enerji, nəqliyyat və texnoloji suverenlik komponentlərini özündə birləşdirən kompleks çərçivəyə çevrilmişdir. Bu şəraitdə Azərbaycan Avropa üçün təkcə alternativ qaz mənbəyi deyil, həm də uzunmüddətli strateji tərəfdaş kimi çıxış edir.

Prezident İlham Əliyevin vurğuladığı kimi, "Azərbaycan Avropanın enerji təhlükəsizliyinin bu günü ilə yanaşı, gələcəyinin də bir hissəsidir". Bu baxış yaşıl enerji, bərpa olunan mənbələr və Xəzər–Qara dəniz enerji bağlantıları kimi yeni əməkdaşlıq istiqamətlərinin əsasını qoyur.

Avropa üçün əsas ehtiyaclar sabitlik, proqnozlaşdırıla bilənlik və etibarlı tərəfdaşlıqdır (Brzezinski, Z., 1997). Azərbaycan isə Avropaya enerji resursları, tranzit imkanları, regional sabitlik və strateji coğrafi mövqe təqdim edir. Qarşılığında Avropa investisiya, texnologiya və institusional əməkdaşlıq vasitəsilə Azərbaycanın iqtisadi modernləşməsinə töhfə verir.

Bu qarşılıqlı asılılıq modeli "qazan–qazan" prinsipinə əsaslanan yeni tərəfdaşlıq arxitekturası formalaşdırır və Azərbaycanı Avropa üçün vazkeçilməz aktora çevirir.

NƏTİCƏ

Aparılan təhlil göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi altında formalaşmış çoxvektorlu xarici siyasət modeli Azərbaycanın beynəlxalq sistemdə mövqeyini keyfiyyətcə yeni mərhələyə yüksəltmişdir. Enerji statistikası, siyasi qərarvermə müstəqilliyi və regional sabitliyin təmin olunması Azərbaycanın Avropa ilə münasibətlərində asimmetrik asılılıq deyil, bərabərhüquqlu tərəfdaşlıq modelini reallaşdırmışdır.

Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmiş, enerji və nəqliyyat sahələrində etibarlı tərəfdaş statusunu möhkəmləndirmiş və Avropa üçün strateji əhəmiyyət daşıyan dövlətə çevrilmişdir. Bu model yalnız cari əməkdaşlıq deyil, uzunmüddətli geosiyasi və geoekonomik sinerji üçün möhkəm zəmin yaradır.

ƏDƏBİYYAT

1. Brzezinski, Z. (1997). The Grand Chessboard. New York: Basic Books. 223–240 p.
2. Cornell, S. (2015). Azerbaijan since Independence. London: Routledge. 512 p.
3. Hill, F. (2022). Energy and Security in Europe. Washington: Brookings Institution.
4. Kissinger, H. (2014). World Order. New York: Penguin Press. 432 p.
5. Smith, M. (2023). EU Energy Security after Ukraine War. Brussels: CEPS.
6. Tocci, N. (2021). European Strategic Autonomy. London: Palgrave.
7. Zürcher, C. (2019). The Post-Soviet Wars. New York: NYU Press. 320 p.
8. Wilson, A. (2024). Europe and the South Caucasus. London: ECFR.
9. Azərtac İnformasiya Agentliyi. “Prezident: Azərbaycan öz milli maraqlarına əsaslanan müstəqil siyasət yürüdür”. 24.07.2023 https://azertag.az/xeber/prezident_azerbaycan_oz_milli_maraqlarina_esaslanan_musteqil_siyaset_yurudur-2705944

РЕЗЮМЕ

МНОГОВЕКТОРНАЯ ВНЕШНЯЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНА И ФОРМИРОВАНИЕ НОВОЙ АРХИТЕКТУРЫ СТРАТЕГИЧЕСКОГО ПАРТНЁРСТВА С ЕВРОПОЙ

Элмира Талибзаде

В статье проводится комплексный анализ многовекторной внешней политики Азербайджанской Республики в период президентства Ильхама Алиева и её роли в формировании качественно нового уровня отношений с государствами Западной Европы. Особое внимание уделяется институциональным механизмам балансирования между глобальными и региональными центрами силы, а также способности Азербайджана выступать как суверенный и равноправный партнёр в системе международных отношений. Отдельный акцент сделан на энергетической дипломатии как ключевом инструменте укрепления стратегического диалога с Европейским союзом, особенно в контексте трансформации европейской энергетической безопасности после 2022 года. В статье рассматриваются два взаимодополняющих подхода: первый — согласно которому Азербайджан поставляет природный газ в 14 государств, из которых 11 являются странами ЕС; второй — отражающий расширение географии поставок до 16 государств, включая новые рынки Центральной и Западной Европы. На основе статистических данных, официальных заявлений Президента Азербайджанской Республики и зарубежных аналитических источников обосновывается тезис о том, что успешная реализация многовекторной стратегии позволила Азербайджану не только восстановить свою территориальную целостность, но и занять устойчивую позицию надёжного партнёра Европы в энергетической, транспортной и геополитической плоскостях.

Ключевые слова: *многовекторная политика, энергетическая дипломатия, Европейский союз, стратегическое партнёрство, Южный газовый коридор, геополитический баланс.*

ABSTRACT

AZERBAIJAN'S MULTI-VECTOR FOREIGN POLICY AND THE NEW ARCHITECTURE OF STRATEGIC PARTNERSHIP WITH EIROPE

Elmira Talibzadeh

The article provides a comprehensive analysis of the essence of the multi-vector foreign policy strategy implemented under the leadership of the President of the Republic of Azerbaijan, Ilham Aliyev, and examines the role of this strategy in elevating relations with Western European countries to a qualitatively new stage. The study highlights the political and diplomatic mechanisms that enable Azerbaijan to act as a balancing actor within the international relations system, as well as the state's sovereign decision-making capacity. Energy diplomacy is assessed as one of the main pillars of the strategic partnership with the European Union, particularly in the context of the reconfiguration of Europe's energy security since 2022. The article presents two statistical approaches in parallel: according to the first approach, Azerbaijan exports gas to 14 countries, 11 of which are EU member states; the second approach covers the expansion of the export geography to up to 16 countries, including Germany and Austria. Based on official speeches, international reports, and European analytical sources, the study scientifically substantiates Azerbaijan's status as a reliable and equal partner both in military-political and economic terms.

Keywords: *multi-vector foreign policy, energy security, European Union, strategic partnership, Middle Corridor, geopolitical balance.*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-38
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

AZƏRBAYCANIN YARATDIĞI GEOSİYASİ REALLIQLAR REGİONAL KONYEKTURADA

Nazlı YAQUBOVA
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
**Yazışılan müəllif: nazliyaqubova@ndu.edu.az*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
Azərbayan, münaqişə, reallıq, Cənubi Qafqaz, Qarabağ

XÜLASƏ
Azərbaycanın regionda coğrafi mövqeyi, Qərb və Şərq arasında körpü rolunu oynaması, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılmasında, Böyük İpək yolunun bərpasında fəal iştirak etməsi və qitənin enerji təhlükəsizliyində vacib rol oynayan ölkələrdən biri kimi qloballaşan dünyada ölkəmizi əsas sırasına yüksəldir. Zəngin karbohidrogen ehtiyatları regionda tarixən olduğu kimi, bu gün də böyük dövlətlər arasında regional maraqların formalaşmasına və siyasi-iqtisadi rəqabətə səbəb olan amillər Azərbaycanın potensialını daha da artırır. 2020- ci ildə əks –hücum əməliyyatı ilə dünyaya XXI əsr müharibəsini nümayiş etdirən ölkəmiz bütün dünyaya "dəmir yumruq" və "dəmir iradənin" gücünü göstərmişdir

GİRİŞ

Münaqişə vəziyyətini yaradan amillərdən danışarkən belə bir metodoloji prinsipi qeyd etmək yerinə düşər ki, etnik qruplar və dövlətlər arasındakı müasir münaqişələr böyük tarixi hadisələrin mirasıdır. Bu baxımdan Qarabağ münaqişəsinin də genezisi bariz nümunə kimi götürülə bilər.

Ümumiyyətlə, beynəlxalq münasibətlərin müasir real məntiqi tələb edir ki, iri dövlətlər regional münaqişələri vaxtında birgə səylə tənzimləməlidirlər. Yoxsa, onun fəalları təkcə münaqişə tərəflərinə deyil, regionun digər dövlətlərinə də təsirsiz ötüşməyəcəkdir. Ermənistanın təcavüzkarlıq siyasəti regionda inteqrasiya prosesinə, demokratikləşməyə mane olur və insan hüquqlarını pozur.

Sovet İttifaqının süqutundan sonra Cənubi Qafqazda geosiyasi proseslərin intensivliyi ilə böyük dövlətlərin maraqlarının müəyyən məqamlarda kəsişməsi paralellik təşkil edir. Artıq dünyanın və regionun aparıcı dövlətləri həmin gerçəklikdən çıxış edərək Cənubi Qafqaz siyasətlərini tənzimləyirlər. Bunların fonunda region dövlətlərinin yeritdikləri daxili və xarici siyasətin aktuallığı daha da artır. O cümlədən, Azərbaycanın bölgədəki mövqeyi daha böyük əhəmiyyət kəsb etməyə başlayır. Bunun əsas səbəbi Azərbaycanın Cənubi Qafqazda iqtisadi və mədəni baxımdan potensial lider dövlət olmasıdır.

"Azərbaycanın coğrafi mövqeyi özü onun xarici siyasətini müəyyən edir", – deyən Prezident İlham Əliyev respublikamızın necə həssas və mürəkkəb geosiyasi məkanda yerləşməsinin fərqindədir və özünün xarici siyasət strategiyasını bölgənin xüsusiyyətlərini, özəlliklərini nəzərə almaqla həyata keçirir. (2. S 234)

Ölkəmizin xarici siyasəti son dərəcə düşünülmüş proqram üzərində qurulmuş və uzaq geostrateji perspektivlərin nəzərə alınması ilə həyata keçirilir. Azərbaycan regionda maraqları toqquşan bütün dövlətlərlə əlaqələrini bərabərhüquqlu iqtisadi-siyasi tərəfdaşlıq səviyyəsində qurmağa müvəffəq olmuşdur. Azərbaycan Cənubi Qafqazda, bütövlükdə MDB və Avropa məkanında çox az sayda olan dövlətlərdən biridir ki, Rusiya, ABŞ, Türkiyə, İran və İsrail kimi maraqları toqquşan dövlətlərlə bərabər hüquqlu, qarşılıqlı hörmətə, praktiki əməkdaşlığa əsaslanan münasibətlər qurmağa nail olmuşdur.

Rusiya və Türkiyə arasında yaxınlaşma iqtisadi-siyasi münasibətlərin dərinləşməsi, nəticə etibarilə Cənubi Qafqazdakı siyasi proseslərə də müsbət təsir göstərə bilər.

Cənubi Qafqaz regionunda geostrateji maraqları cəmləşmiş digər güc mərkəzlərindən biri də Türkiyədir. Türkiyə ilə münasibətlərin yeni mərhələyə keçməsi ulu öndər Heydər Əliyevin xarci siyasətinin uğurlarındandır. Bu siyasətin mahiyyəti onun dillər əzbərinə çevrilmiş "bir millət iki

dövlət" formulunda öz əksini tapmışdır. Bu gün Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəfdaşıdır.

Azərbaycanla Türkiyənin regionda sülhün və təhlükəsizliyin qorunması üçün həm ATƏT və BMT başda olmaqla bir çox beynəlxalq və regional təşkilatlar çərçivəsində həm ikitərəfli münasibətlərdə, həm də beynəlxalq aləmdə nümayiş etdirdiyi əməkdaşlıq klassik beynəlxalq münasibətlər nəzəriyyəsinin postulatları ilə üst-üstə düşür.

Hazırda Azərbaycan regionda fəaliyyət göstərən geosiyasi güc mərkəzlərinin, demək olar ki, hamısı ilə dostluq və əməkdaşlıq prinsipləri üzərində qurulan münasibətlər yaratmaqla, eyni zamanda, Qərblə və o cümlədən ABŞ-la strateji əməkdaşlığa yönəldilmiş siyasi xətti uğurla davam etdirməkdədir.(2. S 456)

İri dövlətlərin və region ölkələrinin münaqişənin nizamlanmasına göstərdikləri cəhdlər o zaman konkret və rasional olur ki, münaqişə bilavasitə tərəflərin maraqlarından daha çox iri dövlətlərin və region ölkələrinin mənafelərinə ziyan vursun. Beynəlxalq təcrübə son vaxtlar sübut edir ki, mühüm siyasi münaqişələrin böyük dövlətlərin birgə səyi ilə həlli eyni zamanda, həmin ölkələr arasında kiçik ziddiyyətlərin də aradan götürülməsinə imkan yaradır

Azərbaycan Respublikasının 2020-ci ilə qədər Qarabağ münaqişəsində dəfələrlə həm Ermənistana, həm də dünya siyasi elitasına Qarabağla bağlı tarixi reallıqları rəsmi qaydada sübut etmişdir. Həmin diplomatik uğurların nəticəsini aşağıdakı beynəlxalq sənədlərdə müəyyənləşdirmək olar:

1. BMT-nin Baş Məclisinin geniş iclasında sessiyanın gündəliyində 20-ci bənd kimi öz əksini tapan "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət", 9 bənddən ibarət qətnamənin qəbulu BMT-nin yenidən Ermənistanı işğalçı dövlət kimi tanıması Azərbaycan üçün hər mənada strateji əhəmiyyətli qərardır. (3. S 67)

2. NATO-nun 2008-ci il aprelin 24-də Buxarest zirvə toplantısı və Şimali Atlantika Şurası xarici işlər nazirlərinin dekabrın 2-3-də Brüssel toplantısı da açıq şəkildə Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəstək ifadə etmiş, münaqişənin ərazi bütövlüyü prinsipi əsasında həllini zəruri hesab etmişdir.(3. S 68)

3. Rusiyanın təşəbbüsü və vasitəçiliyi ilə 2008-ci il noyabrın 2-də Azərbaycan və Ermənistan prezidentləri arasında imzalanmış "Mayın Dorf Bəyannaməsi"nin qəbulu mühüm elementləri özündə əks etdirir. İlk dəfə bu bəyannamədə rəsmi Yeravan münaqişə tərəfinin Dağlıq Qarabağ deyil, Ermənistan tərəfi olduğunu hüquqi baxımdan təsdiqləmişdir.

4. Rusiya, Azərbaycan və Ermənistan dövlətləri tərəfindən imzalanmış "Moskva Bəyannaməsi"ndə Ermənistan özü belə münaqişənin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyinə imza atıb. Yəni, artıq İrəvan rəhbərliyi də Dağlıq Qarabağ və ətraf rayonların hamısının Azərbaycanın hüquqi ərazisi olduğunu dərk və qəbul edir.

5. Afinada keçirilən ATƏT-in xarci işlər nazirlərinin toplantısında münaqişənin ərazi bütövlüyü çərçivəsində həllinə ilk dəfə Ermənistanın qol çəkməsi, ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə hüququnun birgə tətbiqi o deməkdir ki, Dağlıq Qarabağa nə qədər yüksək özünüidarə hüququ verilirsə-verilsin, bu hüquq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində reallaşacaq.(1. S 35)

6. 2009-cu il iyulun 10-da ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin prezidentləri Barak Obama, Nikola Sarkozi və Dmitri Medvedevin "Böyük səkkizlərin" İtaliyada keçirilən sammiti zamanı irəli sürülən "Madrid prinsipləri"nin yeni versiyası ilə bağlı bəyanatları münaqişənin tənzimlənməsi prosesinə impuls vermişdir.(1. s 34)

Region dövlətləri və beynəlxalq təşkilatlar Qarakənd faciəsinə, Xocalı soyqırımına və işğal olunan digər rayonlarda baş verən faciələrə göz yumurdular. İşğalçı dövlətlə işğala məruz qalan dövlət arasında fərq qoymadılar və ikili siyasət həyara keçirirdilər. Eləcə də işğalçı dövlətə təzyiq etməkdənsə, əksinə Ermənistan dövlətinə himayədarlıq edirdilər. Bu da Qarabağ münaqişəsinin uzanmasına səbəb olurdu. Nəticədə cəsasızlıq prezumsiyasından istifadə edən Ermənistan yeni revanşa cəhd edirdi.

İkinci Qarabağ müharibəsi 27 sentyabr 2020-ci ildə, Ermənistanın Azərbaycan ərazilərinə hücum etməsi ilə başladı. Azərbaycan, sürətli və effektiv hərbi əməliyyatlarla qarşılıq verdi və bu müddət ərzində strateji əhəmiyyətə malik əraziləri geri aldı. Bir neçə həftə davam edən döyüşlər,

intensiv bombardmanlar və hava hücumları ilə xarakterizə olundu. Azərbaycan ordusu, müasir texnologiyalar və taktikalardan istifadə edərək əhəmiyyətli müvəffəqiyyətlər əldə etdi və nəticədə münaqişə 10 noyabr 2020-ci ildə imzalanan atəşkəs razılaşması ilə sona çatdı. Bölgədə yeni geosiyasi reallıqların ortaya çıxmasına səbəb oldu. Müharibə sonrası yaranan vəziyyət, regional və beynəlxalq səviyyədə bir sıra dəyişikliklərə yol açdı.

44 günlük Qarabağ müharibəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdıqdan sonra da həm müharibədən əvvəlki danışıqlar prosesində, həm müharibənin gedişi prosesindəki qərəzli yanaşmalarda, həm də müharibədən sonrakı regional maraqlarda öz üstün-haqlı mövqeyini qorumaqla beynəlxalq təşkilatlarda da, region və dünya dövlətləri arasında da sabit mövqeyini nümayiş etdirməklə etibarlı tərəfdaş olduğunu bir daha təsdiqlədi. Müharibəyəqədərki danışıqlar dövründə olduğu kimi müharibə dövründə də region dövlətləri- Rusiya, İran və Türkiyənin Azərbaycana münasibətləri müharibənin taleyində bir sıra məqamlara təsir etdi. Azərbaycan qardaş Türkiyənin tam dəstəyi ilə yanaşı digər regional güc mərkəzlərinin də mövqeyini nəzərə alaraq postmüharibə dönəmindəki regional layihələrdə öz mövqeyini möhkəmlətdi.

İkinci Qarabağ müharibəsinin gedişi dövründə qərb dövlətlərinin mövqeyi ilə müharibədəki tam qələbədən sonrakı Qərb dövlətlərinin mövqeyini eyni gözdə görmək olmaz. Belə ki, istər Avropa ölkələri, istərsə də ABŞ Azərbaycanla diplomatik müstəvidəki danışıqlarda ordumuzun qələbəsini və bundan sonrakı regional layihələrdə Azərbaycanın mövqeyini nəzərə almağa başladılar. Azərbaycanın yerləşdiyi əlverişli geosiyasi mövqe, bir sıra beynəlxalq enerji layihələrinin əsas siması olması postmüharibə dövründə də yeni nəqliyyat layihələrinin qurulması zamanı ölkəmizin üstün mövqeyini təmin etmiş olur.

İkinci Qarabağ müharibəsindən sonrakı dövrdəki siyasi münasibətlər birmənalı şəkildə deməyə əsas verir ki, Azərbaycan Cənubi Qafqazda böyük gücə çevrilmişdir. Bu statusun müəyyənləşməsində müharibədən sonrakı dövrdə Azərbaycanın apardığı uğurlu diplomatiyanın payı danılmazdır. Beynəlxalq ipək yolu və bir sıra dünya əhəmiyyətli nəqliyyat layihələrinin həyata keçirilməsində müharibədən sonrakı hərbi-siyasi gücünün qəbul oldunduğu Azərbaycanın mövqeyi beynəlxalq müstəvidə təsbit olundu. Artıq Azərbaycan regionda sabit, əzmli tərəfdaş kimi qəbul olunmuşdur.

İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda geosiyasi maraqlar yenidən gözdən keçirilir, böyük güc mərkəzləri "Güclünün yanında dur!" prinsipini nəzərə alaraq strateji maraqlarını ortaya qoyurlar. Cənubi Qafqazda yeni geosiyasi maraqlarda Azərbaycanın üstün mövqeyi nəzərə alınır. Burada müharibə dövründə Türkiyənin Azərbaycana tam dəstəyinin də payı danılmazdır.

44 günlük vətən müharibəsinin bitməsi, Azərbaycanın tam qələbə əldə etməsi, Ermənistanın məğlub ölkə kimi kapitulyasiya aktı imzalayaraq geri çəkilməsi, əlavə olaraq Ermənistanda artan hərbi, iqtisadi tənəzzül, regional müstəvidə yaradılmış şişirdilmiş ermənistan "mif"inin dağılması Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni geosiyasi rallıqların dünya ölkələri tərəfindən qəbulunu labüdləşdirdi. Diplomatik müstəvidə aparılan danışıqlar, ölkəmizin hərbi olduğu kimi diplomatik sahədə də üstünlük əldə etməsi Azərbaycanı təkcə Cənubi Qafqazın yox bütünlükdə dünya arenasında güc mərkəzinə çevirdi. Müharibə dövründə olduğu kimi postmüharibə dövründə də Türkiyə, Pakistan kimi daimi tərəfdaşlarımızın artan dəstəyi Azərbaycanı beynəlxalq münasibətlər sistemində güclü tərəfdaşa çevirdi. Beynəlxalq və regional enerji, nəqliyyat və bir sıra layihələrdə ölkəmizin üstün mövqe qazanması gələcəkdə Azərbaycanın həm hərbi-siyasi, həm də iqtisadi, diplomatik gücünü təmin edəcəkdir.

Müharibə bitsə də Azərbaycan ordusunun qəhrəmanlıqları, müharibə taktikaları, Azərbaycan diplomatiyasının peşəkarlığı barədə dünya medyası hələ çox danışacaqdı. Çünki İkinci Qarabağ müharibəsinə qədər Ermənilər öz miflərinə özlərini belə inandırmışdı. Nəticədə erməni mifi məhv oldu. Ermənistan isə, müharibə nəticəsində ciddi iqtisadi və siyasi itkilərə məruz qaldı. Ermənistanın iqtisadiyyatı zərər gördü və ölkənin daxili siyasi vəziyyəti qarışdı. Bu, Ermənistanın regional siyasətində dəyişikliklərə və münaqişə sonrası yeni strateji prioritetlərə yönəlməsinə səbəb oldu.

Azərbaycanın Qələbəsinin Geosiyasi Təsirləri

Azərbaycanın qələbəsi, regionda bir sıra geosiyasi təsirlərə səbəb oldu. Birincisi, Azərbaycan, müharibə nəticəsində Qarabağ bölgəsindəki ərazi itkilərini geri aldı və bölgədəki strateji ərazilərin nəzarətini əldə etdi. Bu, Azərbaycanın regional gücünü artırdı və ölkənin ərazi bütövlüyünü təmin etdi. Əlavə olaraq xalqımız "dəmir yumruq " ətrafında dəmir iradə ilə sıx birləşərək dünyaya həmrəylik, xalq –dövlət, xalq –ordu, ordu-dövlət birliyini bir daha nümayiş etdirdi.

Müharibə sonrası, Azərbaycan ilə Ermənistan arasında imzalanan atəşkəs razılaşması, regionda yeni geosiyasi düzəni təsdiqlədi. Razılaşmaya əsasən, Azərbaycanın nəzarət etdiyi ərazilər genişləndi. Ermənistanın regional mövqeyini zəifləti. Həmçinin, Türkiyə, Azərbaycanın müttəfiqi olaraq, müharibə zamanı və sonrasında əhəmiyyətli bir rol oynadı, bölgədəki təsirini artırdı və strateji əlaqələrini gücləndirdi. Eyni zamanda bölgədəki komunikasiyaları blokadadan çıxaran lahiyə-Zəngəzur dəhlizi anlayışı leksikonumuza daxil oldu. Öncə dəhlizin tarixi barədə məlumat verilməlidir.

Tarixi çox qədim olan İpək yolu Çini orta Asiya vasitəsi ilə yaxın Şərq, və Xəzər dənizi ilə birləşdirən karvan yolu olmuşdur.(1 s 40). Lakin bu nəhəng lahiyə yalnız ticarət yolu deyildi. Böyük İpək yoluna həm diplomatiya yolu, həmçinin kəşfiyyat yolu, eləcə də mədəniyyətlərin çuğlaşması, xalqların yaxınlaşmasını təmin edən müstəsna əhəmiyyətli dəhliz kimi baxmaq olar. " Böyük ipək yolu " termini bizim eradan əvvəl məşhur Çin səyyahı Çjan Syanın səfərindən sonra işlədilib (1 s 49). Eramızın II əsrində fəaliyyətə başlayan bu yol XVI əsrə qədər mövcud olub. Çindən başlayaraq Balkan yarımadasına qədər irəliləyib. Bu yolla hərəkət edən karvanların ən dəyərli məhsulunun ipək olduğunu nəzərə alaraq bu məşhur karvan yolunun adını 1870-ci ildə alman fotoqrafı Fon Rixtofen " İpək yolu " qoymuşdur (1 s 59). Azərbaycan ərazisi bu qədim ticarət yolunun əsas keçidlərindən biri olmuşdur. Azərbaycan Asiya ilə Avropa arasında xüsusi körpü roluna malik olub. Böyük İpək yolundakı ən mühüm keçidlərdən biri də Azərbaycanın qədim torpağı Naxçıvandır. Mənfur düşmənlərin düşünülmüş siyasətlərinin nəticəsi olaraq Azərbaycanın əsas hissəsindən ayrı salınan bu qədim diyar strateji coğrafi mövqeyi və əlverişli təbii şəraiti nəticəsində qədim insanların ilk yaşayış məskənlərindən biri olmuşdur. Bütün bu amillər qədim Naxçıvanı hətta Eldənizlər dövlətinin paytaxtına çevirmişdir. Bu tarixi dövrdə Naxçıvan siyasi , iqtisadi cəhətdən daha da inkişaf etmişdir. Həm Atabəylər dövlətinin paytaxtı olması, həmiçinin də dünya ticarət yollarının üzərində yerləşməsi bu qədim diyarı sürətli inkişafa yönəldərək Azərbaycanın digər şəhərləri arasında daha da perspektivli etmişdir. Naxçıvan şəhəri cənubdan şimala uzanan Marağa-Dəbil yolunda əsas keçid rolunu oynayırdı.(4 s 54).

Müasir "İpək yolu"

Azərbaycanın yenidən müstəqilliyini qazanması, müstəqil siyasət həyata keçirən bir tərəfdaş kimi qəbul edilməsi Tarixi İpək yolunun bərpası baxımından Azərbaycanın gələcək perspektivlərindən xəbər verir. Avropa və Asiya arasında əlaqələrin yenidən bərpası və inkişafı fonunda TASİS proqramı meydana gəlmişdir. 1993-cü ilin may ayında TRASEKA (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) proqramı qəbul olunub.(2s 126) . Təsadüfi deyil ki, Tarixi İpək yolunun bərpası istiqamətində ən fəal ölkə Azərbaycan seçildi. Bu cür qlobal bir məsələyə Bakı ev sahibliyi etdi. 1998 - ci ilin sentyabrında tarixi ipək yolunun bərpası üzrə beynəlxalq konfrans keçirildi. 32 dövlətin və 13 beynəlxalq təşkilatın iştirakı ilə keçirilən konfransda xalqımızın ümummilli lideri Heydər Əliyevin çıxışında Avropa və Asiya arasındakı körpü rolu baxımından Azərbaycanın rolu xüsusi vurğulanır. Bu tarixi ticarət yolu istər region, istərsə də dünya üçün yeni perspektiv deməkdir. Bu dəhlizin yeni imkanları maraqlı dövlətləri özünə cəlb edir. Qeyri-region ölkəsi olmasına baxmayaraq Çin dövləti də Zəngəzur dəhlizində maraqlıdır. Çinin "Bir kəmər bir yol" layihəsi çərçivəsində planlanan 3 ticarət yolundan biri olan " Orta yol " nəqliyyat dəhlizi Zəngəzur dəhlizininin önəmini daha da artırır. " Bir kəmər bir yol " Layihəsi üçün xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri ticari-iqtisadi əlaqələrin ucuz, təhlükəsiz, sürətli yolla təşkil edilməsindən ibarətdir. Bu məqsədlə şərti olaraq "Şimal yolu", "Orta yol" və "Cənub yolu" kimi terminlər də daxil edilib. "Şimal yolu" Rusiya ərazisindən keçərək Avropaya uzanan, "Orta yol" Mərkəzi Asiya-Azərbaycan–Gürcüstan–Türkiyəni əhatə edən marşrutu, "Cənub yolu" isə Cənubi Asiya ölkələri ərazisindən keçərək İranı da əhatə edən istiqamətdir. Məsələ burasındadır ki, bu üç əsas yol Cənubi Qafqazda,

Azərbaycan ərazisində kəsişir. Azərbaycan tərəfinin məqsədi və mövqeyi qətiyyətli, eyni zamanda aydındır ki, Zəngəzur dəhlizi, hər şeydən əvvəl, regional əməkdaşlıq qarşısında illərdir dayanan maneələrin aradan qaldırılmasına xidmət etməlidir. Daha sonra regionda dayanıqlı və möhkəm sülh və sabitlik , həmçinin perspektiv imkanlar yaratmalıdır. Dəhlizin mümkün imkanlarını nəzərə alan bir çox dövlət artıq bu reallığı qəbul edərək Zəngəzur dəhlizini dəstəkləyir. Əməkdaşlıq fonunda Azərbaycan " altılıq " platformanı da tam dəstəkləyir. Bu platforma region ölkələrini bir- birinə daha da yaxın edəcək. Azərbaycan, Rusiya, Türkiyə, İran, Gürcüstan və Ermənistanın əməkdaşlıq və təhlükəsizlik sahələrində ortaq fəaliyyət göstərmək üçün xüsusi platformada birləşməsi nəzərdə tutulub. Yəni, bu ölkələr regiondan kənarda olan qüvvələrlə əməkdaşlıq və təhlükəsizlik məsələlərində razılaşdırılmış formada və bir əməkdaşlıq formatının üzvləri kimi iştirak etməlidirlər. Deməli, Zəngəzur dəhlizi həmin altı dövlət üçün geosiyasi və geoiqtisadi aspektlərdə eyni dərəcədə əhəmiyyət kəsb edir və onun təhlükəsizliyi onların hər birinin vəzifəsidir. belə ki, Cənubi Qafqazda hansısa dövlətin hegemon davranışına son qoyulur. Burada Azərbaycan, Rusiya, Türkiyə Gürcüstan və İran bir yerdə aparıcı rol oynamalıdırlar. Digər bir məsələ isə Azərbaycanın istənilən əməkdaşlıq platformasına Ermənistanı da aid etməsidir. Bu humanizm bölgədə uzunmüddətli sülh və əməkdaşlıq baxımından olduqca əhəmiyyətlidir. Beləliklə Azərbaycanın regionda yaratdığı yeni geosiyasi reallıqlar fonunda Zəngəzur dəhlizi tarixi bir inkişaf yolu və çox yaxın reallıqdır. Çinin, Avropanın, eləcə də region dövlətlərinin Zəngəzur dəhlizində ortaq maraqları bu tarixi 300 ilə dayanan qədim yolun bərpasını daha reallaşdırır. Türkiyə dövləti ilə imzalanan, qardaş sevgisini, qardaş dəstəyini dünyaya nümayiş etdirən "Şuşa bəyannaməsi" bölgədə əməkdaşlığın, sülhün, inkişaf persektividir.Analoqu olmayan bu platforma Azərbaycanı regionda və dünyada söz sahibi edir. Zəngəzur dəhlizi ilə bağlı Azərbaycanın qətiyyətli mövqeyi ölkə başçısının Naxçıvan səfərində də özünü göstərmişdir. Prezident İlham Əliyev bu sözləri mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Azərbaycan Televiziyasına müsahibəsində deyib "Mən təsadüfən Ordubad dəmir yolu stansiyası ilə tanışlığa gəlməmişəm. Çünki bunun da çox böyük rəmzi mənası var. Bu yaxınlarda buradan təqribən 50-60 kilometr uzaqlıqda yerləşən Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasında baxış keçirdim. Orada dəmir yolu mövcud deyil. Mənfur düşmən bütün dəmir yolu infrastrukturunu dağıdıbdır, talan edibdir. Orada bir mərkəz olacaq, burada bir mərkəz olacaq. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki, açılmalıdır və açılacaqdır". Nəticə olaraq müzəffər ordu, müzəffər ali baş komandon və müzəffər xalq birliyi sülhün, təhlükəsizliyin, beynəlxalq əməkdaşlığın qarantıdır.

Regional Siyasi və İqtisadi Dəyişikliklər

Müharibə nəticəsində yaranan yeni geosiyasi reallıqlar, regionun siyasi və iqtisadi şəraitini də dəyişdirdi. Azərbaycan, müharibədən sonra bölgədəki infrastruktur və iqtisadi layihələrə sərmayələr yatırmağa başladı. Qarabağ bölgəsinin bərpası və inkişafı üçün müxtəlif layihələr həyata keçirildi. Bu, Azərbaycanın iqtisadi potensialını artırdı və regionda iqtisadi inkişafın sürətləndirilməsinə səbəb oldu. Eni zamanda müttəfiq ölkələr "böyük qayıdışı" təmin etmək üçün Azərbaycana dəstək oldular Azərbaycan isə tarixi komunikasiyaların mərkəzi dövləri olaraq dünyaya inteqrasiyasını gücləndirdi. Həmçinin də görülməmiş humanizm nümayiş etdirdi. İstər Müharibə dövründə, istərsə də sonra atdığı addımlarda beynəlxalq hüquq və konvesiyalara tam əməl etmişdir.

NƏTİCƏ

İkinci Qarabağ Müharibəsi, Azərbaycan və Ermənistan arasındakı uzun müddət davam edən münaqişənin yeni bir mərhələyə girməsinə səbəb oldu. Azərbaycan, müharibə nəticəsində ərazi bütövlüyünü təmin etdi və regional geosiyasi vəziyyəti dəyişdirdi. Ermənistan isə müharibə sonrası çətin bir vəziyyətlə qarşılaşdı. Bu yeni geosiyasi reallıqlar, bölgədəki siyasi və iqtisadi dinamikaları dəyişdirdi və gələcəkdəki regional əməkdaşlıq və münaqişələrin inkişafını təsir edəcəkdir. Azərbaycan Dünyanın aparıcı ökələri və təşkilatları ilə partnyor olaraq siyasi proseslərdə fəallığını artırmışdır. Zəngin karbohidrogen ehtiyyatları ilə Avropaya çıxışı təmin etmişdir. Yaşıl enerji sahəsində Avropa dövlətləri Azərbaycanı partnyor dövlət olaraq görür.Bu sahədə mühüm sənədlər də imzalanmışdır.

İllərdir öz ata-baba yurdlarından qaçqın və köçkün düşmüş xalqımız Dövlət başçımızın uzaqgörən siyasəti nəticəsində "böyük qayıdışı" təmin eymişdir.

Ölkəmiz Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransın (COP29) 2024- cü ilin noyabrında Bakıda keçiriləcək 29-cu sessiyasına sədrlik edəcək. Beynəlxalq tədbirlərə ev sahibliyi etmək sahəsində zəngin təcrübəyə malik olan Azərbaycan bu mötəbət tədbirə ev sahibliyi etməklə əməkdaşlığın ölkələr üçün əhəmiyyətini bir daha vurğulayacaq.

Ümummilli lider Heydər Əliyevin siyasi dəstixəttini davam etdirən dövlət başçısı İlham Əliyev Azərbaycanı Qafqazın lokomotiv dövlətinə çevirmişdir.

ƏDƏBİYYAT

1. Aslanlı Araz . Yeni küresel mücadelede Kafkasya və Qarabağ sorunu. Ankara: 2013. EkoAvrasya yayınları. Səhifə 43
2. Babaoğlu Hikmət. Azərbaycan beynəlxalq münasibətlərin aktoru kimi. Bakı: 2007. Elm nəşriyyatı. Səhifə 515
3. Prezident kitabxanası. Dağlıq Qarabağ münaqişəsi: Tammətnli elektron materiallar məcmuəsi. Bakı 2005. Səhifə 127
4. Şıxəliyev Emin. Erməni iddialarının siyasi mahiyyəti. Bakı: 2006. Nurlan nəşriyyatı. Səhifə 187
5. Şıxəliyev Emin. Rusiya, İran, Türkiyə rekabetleri və Erməni faktoru. Ankara: 2004. Naturel yayınları . səhifə 378

ABSTRACT

THE GEOPOLİTİCAL REALİTİES CREATED BY AZERBAİJAN İN THE CONTEXT OF THE REGİON'S GEOPOLİTİCAL ENVİRONMENT

Nazli Yagubova

Azerbaijan's geographical position in the region, its role as a bridge between the West and the East, its active participation in the creation of the Europe–Caucasus–Asia transport corridor, and its involvement in the restoration of the Great Silk Road elevate the country to a prominent position in the globalizing world. In addition, Azerbaijan has become one of the key states contributing to the energy security of the continent.

The country's rich hydrocarbon resources have historically attracted the interests of major powers in the region and continue to shape regional political and economic competition today. These factors further enhance Azerbaijan's geopolitical and strategic potential.

In 2020, through its counteroffensive operations, Azerbaijan demonstrated to the world the characteristics of twenty-first century warfare and showcased the strength of the "Iron Fist" and the determination often described as the "Iron Will."

Keywords: *Azerbaijan, conflict, reality, South Caucasus, Karabakh*

АННОТАЦИЯ

ГЕОПОЛИТИЧЕСКИЕ РЕАЛИИ, СОЗДАННЫЕ АЗЕРБАЙДЖАНОМ В КОНТЕКСТЕ ГЕОПОЛИТИЧЕСКОЙ СРЕДЫ РЕГИОНА

Назлы Ягубова

Географическое положение Азербайджана в регионе, его роль моста между Западом и Востоком, активное участие в формировании транспортного коридора Европа–Кавказ–Азия,

а также вклад в восстановление Великого Шёлкового пути повышают значение страны в условиях глобализирующегося мира. Кроме того, Азербайджан является одним из государств, играющих важную роль в обеспечении энергетической безопасности европейского континента.

Богатые запасы углеводородных ресурсов исторически выступали фактором, формирующим региональные интересы крупных держав и стимулирующим политико-экономическую конкуренцию в регионе. Эти обстоятельства способствуют дальнейшему укреплению геополитического и стратегического потенциала Азербайджана.

В 2020 году Азербайджан, проведя контрнаступательную военную операцию, продемонстрировал миру особенности войны XXI века, показав силу «железного кулака» и решительность, характеризуемую как «железная воля».

Ключевые слова: *Азербайджан, геополитика, Южный Кавказ, энергетическая безопасность, транспортные коридоры, международные отношения.*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-32
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

BİOLOGİYA

NORBORN-5-EN-2-KARBON TURŞUSU VƏ DİETİLENTRİAMİN ƏSASLI İMİDAZOLİNİN BROMİDLİ KOMPLEKSİNİN H_2S KORROZİYASINA QARŞI İNHİBİTOR KİMİ TƏTBİQİ

Vəfa BABAYEVA, Eldar MƏMMƏDBƏYLİ, Fazil ƏHMƏDOV, Fəridə TAHİROVA, Sevda ƏSƏDOVA
AR ETN Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, Bakı, Azərbaycan
**Yazışılan müəllif: nuraybabayeva2008@gmail.com*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
norborn-5-en-2-karbon turşusu, imidazolin, dietilentriamin, korroziya

XÜLASƏ
Sənayenin müxtəlif sahələrində müşahidə edilən problemlərdən biri də korroziyadır. Korroziya ilə mübarizədə müxtəlif üsul və vasitələr var. Bu üsullardan ən əlverişli üsul korroziya inhibitorlarının tətbiq edilməsidir. Təqdim olunan işdə norborn-5-en-2-karbon turşusu əsasında alınan imidazolinin allilbromidlə kompleksinin alınma üsulu və korroziya inhibitoru kimi tətbiqi əks olunmuşdur. İlk növbədə norborn-5-en-2-karbon turşusu və dietilentriamin əsasında imidazolin sintez edilmişdir. Reaksiya 3-3.5 saat müddətində 240°C temperaturda 2 mol suyun ayrılması ilə gedir. Daha sonra imidazolinin allilbromidlə 1:2 nisbətində kompleksi alınır. Reaksiya 50–60°C temperaturda 3 saat qarışdırılmaqla aparılır. Həlledici kimi 25 ml izopropil spirtindən istifadə edilir. Alınmış kompleksin quruluş və tərkibi spektroskopik üsulla təsdiq edilmiş, xüsusi müqaviməti və xüsusi elektrik keçiriciliyi təyin olunmuşdur. Alınmış NDİ+C_3H_5Br kompleks korroziya inhibitoru kimi sınaqdan keçirilmişdir. Kompleksin yüksək mühafizəetmə qabiliyyətinin olduğu müəyyən olunmuşdur. NDİ+C_3H_5Br kompleksinin mühafizə effektivliyi 300 mq/l-da 97% olmuşdur. Kompleks korroziyanın sürətini 300 mq/l qatılıqda minimuma endirmiş və 0,013 q/m^2·saat-a bərabər olmuşdur. Bu halda ləngitmə əmsalının qiyməti isə maksimum həddə çataraq γ=31.5 olmuşdur.

GİRİŞ

Son dövrlər Dünyada geniş yayılmış problemlərdən biri də sənayenin müxtəlif sahələrində müşahidə edilən korroziya proseslərdir.

Məlumdur ki, boru kəmərləri neft məhsullarının təmizləyici qurğulara, anbarlara və neft emalı komplekslərinə daşınmasını asanlaşdırmaqla neft-qaz sektorunda mühüm rol oynayır [1]. Nəzərə almaq lazımdır ki, bu boru kəmərləri qiymətli və təhlükəli maddələri nəql edir, istənilən potensial nasazlıq böyük maliyyə və iqtisadi itkilər, ekoloji problemlər, o cümlədən fəlakətli risk və insan həyatı üçün təhlükə yaradır [2]. Bu təhlükəni yaradan səbəblərdən biri və ən mühümü istifadə olunan boru kəmərlərinin, avadanlıq və qurğuların xarici amillərin təsiri nəticəsində korroziyaya məruz qalmasıdır. Neft və qaz sənayesində hidrogen sulfid (H_2S) ilə əlaqəli korroziya ən mühüm problemlərdən biridir [3]. İstər Azərbaycanda, istərsə də bir çox Xəzəryanı dövlətlərdə neft və qazın çıxarılması, emalı və nəqli zamanı baş verən korroziya bu ölkələrdə çox ciddi problemlərin meydana çıxmasına səbəb olur. Bir çox sənaye sahələrində eləcə də neft sənayesində istifadə olunan qurğuların təmas etdikləri mühitlərdən asılı olaraq korroziya ilə paralel şəkildə digər proseslər də müşahidə olunur ki, bu hal yaranmış problemin həllini bir qədər də mürəkkəbləşdirir. Belə ki, neft çıxarılan zaman korroziya, mikroorqanizmlərin inkişafı və duzçökmə prosesləri müşahidə edilir. Yüksək qatılıqda H_2S və CO_2-nin, həmçinin yüksək miqdarda SRB-nin olduğu mühitlərdə neft sənayesində istifadə edilən avadanlıqları həm hidrogen-sulfid korroziyasından, həm də biokorroziyadan mühafizə edə bilən, yüksək effektivliyə və çoxfunksiyalı təsirə malik inhibitorların yaradılması mühüm əhəmiyyət kəsb edir. Buna görə də korroziya problemini həll etmək üçün elə çoxfunksiyalı sistem yaratmaq lazımdır ki, sadalanan hər üç korroziya problemini həll edə bilsin. Belə çoxfunksiyalı

korroziya inhibitorlarının hazırlanmasında bir çox çətinliklər olmasına baxmayaraq, bu sahədə çox geniş axtarış və tədqiqat işləri aparılmağa davam edir.

Hidrogen sulfid (H_2S) zəhərli qazdır və onun istehsalı həm insan sağlamlığı, həm də avadanlıq və qurğular üçün zərərlidir [4].

Korroziya prosesləri ilə mübarizədə bir çox müxtəlif üsul və vasitələr var. Lakin bu üsulların içində ən optimal və qoyulan tələbləri ödəyə bilən üsul korroziya inhibitorlarının sintezi və tətbiqidir. Belə ki, korroziyaya qarşı istifadə edilən inhibitorları korroziyanın müşahidə olunduğu mühitə az miqdarda əlavə etdikdə mühitə təmas edən metalın korroziya sürətini kifayət dərəcədə azaltmış olur. Elə bu səbəbdən korroziya inhibitorlarının tətbiqi metal avadanlıqlarda baş verən korroziya prosesinə qarşı ən geniş yayılmış üsullardan sayılır.

Korroziya inhibitorlarının tətbiqi ilə yanaşı onların hazırlanması zamanı səmərəliliyi artırmaq məqsədilə bəzi tələbatların ödənilməsi mütləqdir. Bu tələbatların ən vacibi inhibitorun effektivliyi və korroziyadan mühafizə qabiliyyətidir. Belə ki, hazırlanan inhibitorlar nə texnoloji proseslərin gedişinə, nə də alınan məhsulların keyfiyyət göstəricilərinə təsir etməməlidir.

Müxtəlif sənaye sahələrində istifadə edilən qurğu və avadanlıqlar nə qədər korroziyaya davamlı materiallardan hazırlansa da onların uzunmüddətli istifadəsini tam təmin edə bilmir. Bu səbəbdən korroziyadan qorunmaq məqsədilə yeni-yeni üsul və vasitələrin tətbiq edilməsi lazım gəlir. Bu üsulların ən səmərəlisi sadə texnoloji üsulla alınan, aşağı qatılıqda yüksək effektivliyə malik müxtəlif növ və tərkibli inhibitorların hazırlanmasıdır.

Hidrogen sulfid H_2S, turşu korroziyasını əmələgətirən aqressiv qazdır ki, onun məhlulunun yaratdığı korroziya prosesi də hidrogen sulfid korroziyası adlanır. O suda həll olaraq çox zəif turşu əmələ gətirir ki, bu da oksigen və ya karbon qazının iştirakı ilə nöqtəvari korroziyanı yaradır. Korroziyanın geniş yayılmış növü olan hidrogen sulfid (H_2S) korroziyasının metal səthlərə vurduğu zərər, xüsusilə də neft və qaz sənayesində mühüm problemlərdən biri sayılır. H_2S korroziyasında metallar xüsusən dəmir və polad sərbəst sulfid ionları ilə reaksiyaya girməklə onların strukturunu zədələyir. Nəticə etibarı ilə metalın davamlılığı və istismar müddəti azalmış olur. Bu korroziya tipi yüksək temperatur və təzyiqin təsiri ilə daha da güclənir ki, bu da sənaye sahələrində əlavə çətinliklərə və maliyyə itkilərinin yaranmasına şərait yaratmış olur.

H_2S korroziyasının qarşısının alınması üçün müxtəlif növ və tərkibdə inhibitorlar istifadə olunur. İnhibitor molekulu metal səthə adsorbsiya olunmaqla bir növ orada qoruma təbəqəsi yaradır və korroziya prosesinin qarşısını alır. Molekul nə qədər böyük olsa və onun örtdüyü sahə nə qədər çox olsa inhibitorun effektivliyi də bir o qədər yüksək olur.

Qurğu və avadanlıqların korroziyadan mühafizə edilməsində istifadə olunan ən keyfiyyətli inhibitorlara tərkibində azot saxlayan birləşmələr (aminospirt, nitrobirləşmə, imidazolin, amidoamin, amid və s. birləşmələr) daxildir. Amin birləşmələri korroziya inhibitoru kimi istifadə edilən kation tipli birləşmələrin nümayəndələridir. Həmçinin anion tipli gemini səthi-aktiv maddələrdən də korroziya inhibitoru kimi geniş istifadə olunur [5]. Bu inhibitorlar arasında ən çox istifadə edilənlər amidlər, imidazolinlər və onların müxtəlif modifikasiyalarıdır ki, bunlar H_2S korroziyasına qarşı yüksək effektlik göstərir və bu tip korroziyanın qarşısını almaq üçün ideal seçimlərdən biridir.

Korroziya müşahidə olunan mühitlərdə inhibitorların effektliyi, inhibitorun metal səthə necə bağlandığına və strukturunun elektrostatik qarşılıqlı təsirlərindən asılıdır. İnhibitorlar H_2S-in metal səthindəki təsirini kifayət dərəcədə zəiflədir [6].

Korroziya prosesi neft-qaz sənayesinə daha ciddi ziyan vurur. Buna görə də neft və qaz yataqlarında tətbiq olunacaq korroziya inhibitorlarını seçən zaman çıxarılan neft və qazın, lay sularının tərkib və tempraturu kimi amillər nəzərə alınmalıdır. Yüksək temperaturda inhibitorların effektivliyi daha da aktuallaşır, çünki temperatur artdıqca korroziya prosesi sürətlənir.

Bu sahədə daha geniş tədqiqatların aparılması, inhibitorların xüsusiyyətlərini və tətbiq sahələrini daha da inkişaf etdirə bilər.

Təqdim olunan işdə korroziya inhibitorunun norborn-5-en-2-karbon turşu imidazolinin allilbromidlə kompleksinin alınma üsulu və korroziya inhibitoru kimi tətbiqi təsvir olunmuşdur. Digər inhibitorlardan fərqli olaraq təklif olunan bu birləşmənin struktur tərkibində hepten

fraqmentinin və brom ionlarının olması onun korroziyadan mühafizə qabiliyyətinin təsirini daha da artırır və yüksək effektə malik olub, 97% nəticə göstərir.

TƏCRÜBİ HİSSƏ

Sintez edilən kompleksin quruluş və tərkibi spektroskopik üsulla təsdiq edilmişdir. İQ spektr Almaniyanın "*ALPHA IR FURYE"* firmasına məxsus "*BRUKER*" markalı spektometrlərdə 400-4000 sm^{-1} dalğa uzunluğunda almaz kristalları üzərində çəkilmişdir. Alınmış kompleksin xüsusi müqaviməti və xüsusi elektrik keçiriciliyi təyin olunmuşdur.

Sintez olunmuş norborn-5-en-2-karbon turşu əsaslı imidazolinin allilbromidlə kompleksinin fiziki-kimyəvi göstəriciləri 1 saylı cədvəldə verilmişdir:

Cədvəl 1


Kompleksin fiziki-kimyəvi xassələri

Kompleksin adı	Rəngi	Aqreqat halı	Xüsusi müqavimət, ρ, Om·m	Xüsusi elektrik keçiriciliyi, σ, S/sm
NDİ + C_3H_5Br (izopropil spirtində məhlul)	tünd qəhvəyi	maye	$2.15 \cdot 10^{-2}$	$4.6 \cdot 10^{-3}$

İlk növbədə norborn-5-en-2-karbon turşusu və dietilentriamin əsasında imidazolin sintez edilir. Reaksiya 3-3.5 saat müddətində 240ºC temperaturda 2 mol suyun ayrılması ilə gedir. Alınmış imidazolin bərk halda olub, suda və izopropil spirtində həll olur [7].

Daha sonra imidazolinin allibromidlə 1:1 nisbətində kompleksi alınır [8, 9]. Sintez üçün 1 mol imidazolin izopropil spirtində (ГОСТ 9805–84) həll edilib kolbaya tökülür və üzərinə 1 mol allilbromid (CAS NR 106-95-6) əlavə edilir. Reaksiya 50–60ºC temperaturda 3 saat qarışdırılmaqla aparılır. Həlledici kimi 25 ml izopropil spirtindən istifadə edilir.

Sintez edilmiş kompleksin quruluşu infraqırmızı (İQ) spektroskopik üsulla təsdiq edilmiş və şəkil 1-də verilmişdir.



Şəkil 1. NDİ + C_3H_5Br kompleksinin İQ spektri

Kompleksin İQ spektri aşağıdakı udulma zolaqlarına malikdir:

1372, 1448 sm^{-1} deformasiya və 2929, 2965 sm^{-1} valent rəqsi – CH_2 və CH_3 qruplarının C-H rabitəsinin, 1641 sm^{-1} C=N rabitəsinin valent rəqsi, 1543 sm^{-1} deformasiya və 3270 sm^{-1} valent rəqsi N-H rabitəsinin, 1289 sm^{-1} C-N rabitəsinin valent rəqsi, 2531 sm^{-1} isə ammonium zolağıdır.

Alınmış kompleksin H_2S korroziyasının korroziya sürətinə təsiri, korroziyaya qarşı mühafizə effekti təyin edilmişdir.

Təcrübə aşağıdakı metodika üzrə aparılmışdır:

Polad metalın hidrogen sulfidli mühitdə korroziyası aşağıdakı üsulla tədqiq olunmuşdur. Əvvəlcə 2×4×0,4 sm ölçüdə "Ст - 3" markalı polad lövhələr şlifləyici dəzgah vasitəsilə şliflənir. Onun səthi aseton və spirtlə təmizləndikdən sonra analitik tərəzidə çəkilir. Hər təcrübədə 3 ədəd lövhə istifadə edilir. Kerosinlə 1:9 həcm nisbətindəki hidrogen sulfidli suyun qarışığı bir litrlik ağzı kip bağlanan qablara doldurulur. Hidrogen sulfidin suda olan miqdarı titrləmə yolu ilə müəyyən olunur və əsasən 500 mq/l təşkil etməlidir. Əvvəlcədən şliflənmiş üç ədəd polad lövhələr təcrübə aparılacaq birlitrlik qabdan qarmaqlar vasitəsilə asılır. Hidrogen sulfidli suyun kerosinlə qarışığı maqnit qarışdırıcının köməyi ilə eynicinsli mühit əmələ gətirmək şərti ilə qarışdırılır. Təcrübələr həm inhibitorsuz (boş), həm də inhibitorun iştirakı ilə müqayisəli şəkildə paralel olaraq eyni şəraitdə aparılır. Reagenlərin inhibitorluq xassəsi otaq temperaturunda 6 saat müddətində aparılır.

Təcrübə başa çatdıqdan sonra polad nümunələr mühitdən çıxarılır və üzərindəki korroziya məhsullarından təmizlənir. Bunun üçün lövhələr 10%-li HCl və 40%-li formalindən hazırlanmış məhlulda pambıqla təmizlənir, axar suda yuyulur və asetonda qurudulur. Təcrübədən əvvəl və sonra lövhələr sabit çəkiyə gəlmək üçün eksikatorda 10-12 saat saxlanılır. Daha sonra lövhələr yenidən tərəzidə çəkilir. Metal itkisi aşağıdakı düstur ilə hesablanır:

$$\Delta m = m_2 - m_1$$

Burada m_1 və m_2 "Ст - 3" nişanlı lövhələrin, uyğun olaraq, təcrübədən əvvəlki və sonrakı çəkiləridir. Metal itkisi 3 ədəd lövhəyə görə hesablanır və orta çəki tapılır. Həm boş təcrübənin (inhibitorsuz), həm də inhibitorla aparılan təcrübənin korroziya sürəti aşağıdakı düsturla müəyyən edilir:

$$\rho_{in} = \frac{\Delta m}{S \cdot t}$$

$$\rho_{boş} = \frac{\Delta m}{S \cdot t}$$

Burada S - üç ədəd lövhə üçün hesablanmış orta sahə, t – təcrübə müddətidir. $\rho_{boş}$ - inhibitorsuz təcrübənin, ρ_{in} - inhibitorla aparılan təcrübənin korroziya sürəti olub, q/m^2·saatla ölçülür. Tədqiq edilən maddələrin müdafiə effektivliyi aşağıdakı düstur ilə müəyyən edilir:

$$Z(\%) = \frac{\rho_{boş} - \rho_{in}}{\rho_{boş}} \cdot 100$$

Ləngimə əmsalı isə aşağıdakı düstur ilə tapılır:

$$\gamma = \frac{\rho_{boş}}{\rho_{in}}$$

ƏLDƏ EDİLƏN NƏTİCƏLƏR

Alınmış NDİ+C_3H_5Br komplekinin korroziyaya qarşı mühafizə effekti yoxlanmışdır. Kompleksin yüksək mühizəetmə qabiliyyətinə malik olduğu müəyyən edilmişdir. Nəticələr cədvəl 2-də verilmişdir.

Cədvəl 2

Kompleksin müxtəlif qatılıqlarda H_2S korroziyasına təsirinin nəticələri. Korroziya mühiti: su-kerosin (9:1) + 500 mq/l H_2S; temperatur 20°C

Maddənin qatılığı C, mq/l	Korroziya sürəti ρ, q/m^2·saat	Mühafizə effekti Z, %	Ləngitmə əmsalı γ
İnhibitorsuz mühitdə korroziya sürəti ρ=0.409 q/m^2·saat			
100	0.205	50	2
150	0.103	75	4
200	0.052	87.2	7.9

250	0.026	94	15.7
300	0.013	97	31.5

Cədvəl 2-dən görünür ki, 100 mq/l qatılıqda NKT və DETA əsaslı imidazolinin allil bromidli kompleksinin mühafizə effektivliyi 50% təşkil etdiyi halda, qatılığın 150, 200, 250, 300 mq/l - ə qədər artırılması maddənin mühafizə effektinin müvafiq olaraq, 75; 87.2; 94 və 97%-ə qədər yüksəlməsinə səbəb olur. Deməli, kompleksin qatılığının 300 mq/l-ə qədər artırılması inhibitorun təsir effektinin artmasına səbəb olur. Yəni bu qatılıqda mühafizə effektivliyinin qiyməti 97%-ə qədər artmışdır. Buradan belə nəticəyə gəlmək olar ki, inhibitorun qatılığını 300 mq/l götürmək daha məqsədə uyğundur. Kompleks üçün 100 mq/l qatılıqda korrozoyanın sürəti 0,205 q/m^2·saat olduğu halda, artıq 150 mq/l qatılıqda korroziya sürətinin qiymətində kəskin azalma müşahidə olunur (0,103 q/m^2·saat), 300 mq/l qatılıqda isə bu qiymət minimuma çatmışdır (0,013 q/m^2·saat). Bu halda ləngitmə əmsalının qiyməti maksimum həddə çataraq (γ=31.5) olmuşdur.

Hidrogen sulfid korroziyasına qarşı inhibitorların təsir mexanizmini izah etmək üçün kompleksin struktur quruluşuna diqqət yetirmək lazımdır. İlk növbədə imidazolin yüksək elektron sıxlığı olan və daha dayanıqlı heterotsiklik halqaya malikdir. Bu heterotsiklik quruluş, imidazolin molekulunda müsbət yük mərkəzinin yaranmasına kömək edir ki, bu da hidrogen sulfid korroziyasına səbəb olan sulfid ionları ilə daha güclü elektrostatik qarşılıqlı təsir yaradır. Belə bir qarşılıqlı təsir, inhibitorun səthdə adsorbsiyasını gücləndirir və nəticədə korroziya sürətinin daha effektiv şəkildə azalmasına səbəb olur. Məhz bu səbəbdən, kompleksin hidrogen sulfid korroziyasına qarşı yüksək inhibitor təsirinə malik olduğu müşahidə edilmişdir.

İnhibitorun təsir mexanizmi ilə izah edilərkən, imidazolin kompleksindəki azot atomlarının elektron donorluq qabiliyyətinin də rol oynadığını nəzərə almaq lazımdır. Bu elektron sıxlığı, imidazolin halqasının metal səthə daha güclü bağlanmasına şərait yaradır. Beləliklə, kompleks səthdə daha davamlı bir qoruyucu təbəqə formalaşdırır və bu, korroziya hadisələrinin qarşısını daha effektiv alır.

ƏDƏBİYYAT

1. Muthukumar N, “Petroleum products transporting pipeline corrosion—A review”, In The Role of Colloidal Systems in Environmental Protection; Fanun, M., Ed.; Elsevier: Amsterdam, The Netherlands, 2014; pp. 527–571.
2. Soomro A.A, Mokhtar A.A, Kurnia J.C, Lashari N, Lu H, Sambo C. “Integrity assessment of corroded oil and gas pipelines using machine learning: A systematic review”, Eng. Fail. Anal. 2022, 131, 105810.
3. Mohammadtaghi V, Petr K, Jan K, “Addressing Hydrogen Sulfide Corrosion in Oil and Gas Industries: A Sustainable Perspective”, Sustainability 2024, 16(4), 1661; https: //doi.org/10.3390/su16041661.
4. Saba A, Humaira H, Muhammad Y, “Catalytic Hydrogen Evolution from H_2S Cracking over CrxZnS Catalyst in a Cylindrical Single-Layered Dielectric Barrier Discharge Plasma Reactor”, Materials 2022, 15(21), 7426; https: //doi.org/10.3390/ma15217426.
5. Rahimov R.A., Ahmadova G.A., Isayeva A.M., Rustamova I.V., Agamaliyeva D.B., Zubkov F.I. Anionic cocogem surfactants containing propyl-2-ol groups: Synthesis, surface properties and antibacterial activity against SRB bacteria. Egyptian Journal of Petroleum, 2023, Vol. 32, No.1, pp. 15-21
6. Jones, D. A. (2018). "Principles and Prevention of Corrosion." *Prentice Hall*.
7. Abbasov V.M., Məmmədbəyli E.H., Babayeva V.H., İbrahimli S.İ., Əfəndiyeva K.M., Əzizbəyli A.R., Abbasova X.A. 5-Norbornen 2-karbon turşusu imidazolininin və komplekslərinin sintezi, bakterisid xassələrinin tədqiqi // AMEA Gəncə bölməsi, ”Xəbərlər məcmuəsi”. 2018, N 3 (73), səh. 66-73.
8. Mamadbayli E.H., Babayeva V.H. Investigation of fungicidal properties of hexyl bromide complex of n'-(2,2-bitcyclo[2.2.1]hept-5-en-2-yl-4,5-dihydro-1-h-imidazolin-1-

ylethyl)ethane-1,2-diamine as antimicrobial additive to lubricantcoolant fluids. Chemical problems 2024 no. 2 (22), p. 168-176.
9. Məmmədbəyli E.H., Babayeva V.H., Əfəndiyeva K.M. Bitsiklo[2.2.1]-hept-5-en-2-karbon turşusu və dietilentriamin əsaslı imidazolinin oktilbromid kompleksinin neftyığma və dispersləmə xassələrinin tədqiqi. Gəncə Dövlət Universiteti, Beynəlxalq elmi konfrans, Müasir Təbiət və İqtisad elmlərinin aktual problemləri, Gəncə. 2022. səh. 370-373.

ABSTRACT

EFFECT OF IMIDAZOLINE BROMIDE COMPLEX BASED ON NORBORN-5-EN-2-CARBONIC ACID AND DIETHYLENETRIAMINE AS AN INHIBITOR AGAINST H_2S CORROSION

Vafa Babayeva, Eldar Məmmədbəyli, Fazil Ahmadov, Farida Tahirova, Sevda Asadova

One of the problems observed in various fields of industry is corrosion. There are various methods and means for combating corrosion. The most convenient method of these methods is the application of corrosion inhibitors. The presented work reflects the method of obtaining the complex of imidazoline with allyl bromide, obtained on the basis of norborn-5-ene-2-carboxylic acid, and its application as a corrosion inhibitor. First, imidazoline was synthesized from norborn-5-ene-2-carboxylic acid and triethylenetetramine. The reaction proceeds for 3-3.5 hours at 240ºC with the release of 2 mol of water. Then, a complex of imidazoline with hexyl bromide in 1:2 molar ratio is obtained. For the synthesis, 1 mol of imidazoline is dissolved in isopropyl alcohol, poured into a flask, and 2 mol of hexyl bromide is added to it. The reaction is carried out at a temperature of 50–60ºC for 3 hours with stirring. 25 ml of isopropyl alcohol is used as a solvent.The structure and composition of the obtained complex were confirmed by spectroscopic methods, and its specific resistance and specific electrical conductivity were determined. The obtained NDI+C_3H_5Br complex was tested as a corrosion inhibitor. It was determined that the complex has a high protective ability. The protective efficiency of the NDI+C_3H_5Br complex was 97% at 300 mg/l. The complex minimized the corrosion rate at a concentration of 300 mg/l and was equal to 0.013 g/m^2•h. In this case, the value of the retardation coefficient reached its maximum value and was γ=31.5.

Keywords: *norborn-5-ene-2-carboxylic acid, imidazoline, diethylenetriamine corrosion*

РЕЗЮМЕ

ПРИМЕНЕНИЕ КОМПЛЕКСА БРОМИДА ИМИДАЗОЛИНА НА ОСНОВЕ НОРБОРН-5-ЕН-2-КАРБОННОЙ КИСЛОТЫ И ДИЭТИЛЕНТРИАМИНА В КАЧЕСТВЕ ИНГИБИТОРА ПРОТИВ КОРРОЗИИ H_2S

Вафа Бабаева, Эльдар Мамедбейли, Фазиль Ахмедов, Фарида Тагирова, Севда Асадова

Одной из проблем, наблюдаемых в различных областях промышленности, является коррозия. Существуют различные методы и средства борьбы с коррозией. Наиболее удобным методом из этих методов является применение ингибиторов коррозии. В представленной работе отражен метод получения комплекса имидазолина с аллилбромидом, полученного на основе норборн-5-ен-2-карбоновой кислоты, и его применение в качестве ингибитора коррозии. Спектроскопическими методами подтверждены структура и состав полученного комплекса, определены его удельное сопротивление и удельная электропроводность. Полученный комплекс НДИ+C_3H_5Br был испытан в качестве ингибитора коррозии. Установлено, что комплекс обладает высокой защитной способностью. Защитная эффективность комплекса НДИ+C_3H_5Br составила 97% при концентрации 300 мг/л. Комплекс минимизировал скорость коррозии при концентрации 300 мг/л и был равен 0,013 г/м2•ч. При этом значение коэффициента замедления достигало максимального значения и

составляло γ=31,5.

Ключевые слова: *норборн-5-ен-2-карбоновая кислота имидазолин диэтилентриамин коррозия*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-33
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

AĞIR NEFT EMULSİYALARININ REALOJİ MODELLƏRİNİN İŞLƏNİB HAZIRLANMASINDA MÜASİR YANAŞMALAR

Manaf MANAFOV[1], **Həcər ƏLİYEVA**[1], **Fatma ŞIXIYEVA**[1]
1 *AR ETN akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu, Bakı, Azərbaycan*
**Yazışılan müəllif: mmanafov@gmail.com*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
neft emulsiyaları, realoji modellər, qeyri-nyuton mayelər

XÜLASƏ
Ağır neft emulsiyaları yüksək özlülüyə, mürəkkəb quruluşa malikdir ki, bu da geniş texnoloji proseslərdə, əsasən də neftin nəqliyyat və emalında ciddi problemlər yaradır. Bu səbəbdən də neft sənayesində qarşıya çıxan çətinlikləri həll etmək üçün, onların reoloji modelinin qurulması əhəmiyyətli məsələ hesab edilir. Bu proses əsasən emulsiyaların istismarını optimallaşdırmaq üçün nəzərdə tutulur. Məlum olduğu kimi ağır neft emulsiyaları qeyri-nyuton mayelər kimi qeyri-xətti reoloji xüsusiyyətə malikdir. Onların axıcılıq, özlülük kimi xüsusiyyətləri temperatur, təzyiq və emulqatorların təsirindən asılıdır. Bu xüsusiyyətlərin öyrənilməsi optimal reoloji modelin yaradılmasına imkan verir. Dəqiq reoloji modellər vasitəsilə avadanlıqların işini optimallaşdırmaq, aşınmanı azaltmaq və ətraf mühitə təsiri minimuma endirmək mümkündür. Ağır neft emulsiyalarının reoloji modelinin qurulması, iqtisadi və ekoloji səmərəliliyi artırmaqla yanaşı, elmi biliklərin dərinləşməsinə də xidmət edir. Murdaxanlı və Suraxanı neft yataqlarında emal olunan neft də ağır neft emulsiyalarına şamil olunduğu üçün həm neft sənayesində istehsal və nəqlin optimallaşdırılması, həm də elmi araşdırmaların genişləndirilməsi üçün aktualdır. Məqalədə mövcud modellərin parametrlərinin təyin olunma üsulları və tətbiq sahələri izah olunur. Bu modellərin ağır neftin nəqli və emalında istifadə olunmasının üstünlükləri vurğulanır, eyni zamanda çatışmayan cəhətləri də göstərilir. Həmçinin mövcud modellərin tətbiq sahələri və məhdudiyyətləri müqayisə edərək yeni modellərin hazırlanmasının üstünlükləri vurğulanır.

GİRİŞ

Neft-su emulsiyaları təbii olaraq qeyri-sabit sistemlərdir və enerji baxımından daha əlverişli olan minimal interfeys sahəsi yaratmağa meyllidirlər. Bu səbəbdən, onların təbəqələşərək fazalarına ayrılmasını gözləmək təbiidir. Lakin neft hasilatı zamanı müşahidə edilən şəraitlərdə tez-tez yüksək dayanıqlılığa malik emulsiyalar yaranır. Bu dayanıqlılıq onların sonrakı emalı üçün texnologiyanın seçilməsini və neftdən su fazasının nə qədər tam ayrıldığını müəyyən edir. Emulsiyaların sabitlik müddəti, onları təşkil edən mayelərin tamamilə ayrılmasına qədər davam edən vaxtla ölçülür. Müxtəlif neft növləri üçün bu sabitlik bir neçə saniyədən illərə qədər dəyişə bilər. Dayanıqlığın artmasına təsir edən əsas amillər təbii səthi aktiv maddələrdir. Bunlara neftdə olan asfaltenlər, qatranlar, naftenlər və parafinlər daxildir. Bundan əlavə, quyu istehsalı zamanı əmələ gələn və emulsiyanı stabilizasiya edən bərk hissəciklər (məsələn, gil, kvars, və duzlar) də mühüm rol oynayır. Bu maddələr damcılar arasında baryer yaradaraq onların birləşməsini ləngidir (Farid, S., Abdelhamid S., Abdelbaki, B. 2021 və Kelbaliev, G. I., Tagiev, D. B., Manafov M. R. 2020).

Neftin realoji xassələrinin dəqiq təsvir etmək üçün müxtəlif modellər təklif olunmuşdur (Holm, A., Julius, K., Hongbing, L., Masayuki, N. 2023 və Kelbaliev, G. I., Manafov, M. R., Shikhieva, F. R. 2023). Bununla belə, bu modellər real şəraitdə tez-tez rast gəlinən mikroquruluş dəyişikliklərini və kompleks faza qarşılıqlı təsirlərini nəzərə ala bilmir. Bu, daha dəqiq, mikroquruluş əsaslanan modellərin hazırlanmasının vacibliyini ortaya qoyur. Bu icmal məqalə, ağır neft emulsiyalarının reoloji modellərinin hazırlanması sahəsindəki əsas tədqiqat istiqamətlərini, eksperimental metodları və modellərin praktiki tətbiqlərini işıqlandırır. Məqsəd, həm sənaye sahibləri, həm də tədqiqatçılar üçün faydalı bir məlumat bazası yaratmaqla proseslərin səmərəliliyini artırmaq və enerji sərfiyyatını azaltmaqdır.

Müxtəlif şəraitlərdə ağır neft emulsiyaların mürəkkəb axın davranışını anlamaq və proqnozlaşdırmaq üçün ağır neft emulsiyaları üçün reoloji modellər işlənib hazırlanmışdır. Ağır neft emulsiyaları yüksək özlülük və qeyri-nyuton xasəsinə görə unikal xüsusiyyətlərə malikdir ki, bu da

onların daşınmasını, emalını və təmizlənməsini çətinləşdirir (G. I. Kelbaliev, D. B. Tagiev, S. R. Rasulov, M. R. Manafov, 2023). Reoloji modellər bu çətinliklərə aşağıdakı yollarla kömək edir:

Axın davranışının proqnozlaşdırılması: Ağır neft emulsiyaları tez-tez qeyri-nyuton xassəsini nümayiş etdirirlər, yəni onların özlülükləri sürüşmə sürəti ilə dəyişir. Reoloji modellər bu emulsiyaların müxtəlif sürüşmə sürətləri, temperatur və təzyiqlər altında necə davranacağını proqnozlaşdırmağa kömək edir ki, bu da boru kəmərlərinin, nasosların və separatorların dizaynı üçün vacibdir (Shikhieva, F.R., Karimli, V.I., Manafov, M. R.,2023).

Prosesin optimallaşdırılması: Ağır neft emulsiyalarının reologiyasını analadıqdan sonra onların daşındığı və ya emal edildiyi prosesləri optimallaşdırmağa imkan verir. Düzgün reoloji modellər, temperaturun, təzyiqin və ya kimyəvi qarışıqların tənzimlənməsi vasitəsilə özlülüyün azalmasına və axının yaxşılaşdırılmasına kömək edə bilər.

Boru kəmərlərinin səmərəli layihələndirilməsi: Reoloji modellər boru kəmərləri üçün uyğun materialların, diametrin və axın sürətinin seçilməsinə kömək edir. Bu modellər, ağır neft emalsiyalarının səmərəli şəkildə daşınmasını təmin edir və boru kəmərlərinin tutulması və ya həddindən artıq enerji istehlakı kimi riskləri minimuma endirir.

Reoloji modellər neft emulsiyalarının axın davranışını başa düşmək üçün zəruridir, çünki bu emulsiyalar əvvəldə də qeyd etdiymiz kimi qeyri-nyuton xarakterli mürəkkəb qarışıqlardır. Neft emulsiyaları, adətən, suda dispers olunmuş neftdən və ya əksinə, neftdə dispers olunmuş sudan ibarət olub, fazaların nisbəti, damcı ölçüsü və temperatur kimi amillərə əsaslanan fərqli axın dinamikasına malik iki fazalı sistem yaradır (Kelbaliev, G.I. Tagiyev, D.B. Manafov, M.R., 2022 və Kaveh, K., Malcherek, A. 2023).

Neftin realoji xüsusiyyətləri

Neft anlayışı öz müxtəlif tərkibinə və buna bağlı olan reoloji xüsusiyyətlərinə görə geniş spektri əhatə edir. O, həm axıcılığı yüksək olan mayeləri, həm də çox özlü, demək olar ki, bərk fazalı maddələri özündə birləşdirə bilər. Temperaturun təsiri ilə fərqli növ neftlərin konsistensiyası az dəyişə bilər və ya faza keçidlərinə məruz qalaraq demək olar ki, bərk hala gələ bilər. Temperaturun dövri olaraq artıb-azalması ("istilik-soyutma" tsikli) zamanı müxtəlif neft növləri fərqli reaksiya göstərə bilər. Bu müxtəliflik neftin reoloji xüsusiyyətlərini vahid bir modelə sığışdırmağı çətinləşdirir. Bu materialların davranışını tək tipli bir reoloji təsnifata salmaq qeyri-mümkün görünür. Bununla belə, neft və neft məhsullarının müasir texnologiyalarda əvəzsiz rol oynaması onların standartlaşdırılmış təsnifatına və texnoloji qiymətləndirilməsinə ehtiyac yaradır. Bu, həm elmi, həm də praktiki cəhətdən aktual bir məsələdir (Sudad, A. 2019).

Müasir yanaşmalara əsaslanaraq, neftin, xüsusən ağır neftlərin və su-neft emulsiyalarının reologiyası təhlil edilir. Neft ümumiyyətlə özlü-plastik mühit kimi xarakterizə olunur və onun reoloji xüsusiyyətləri bir çox hallarda Binqham modeli əsasında uğurla təsvir edilir. Bu xüsusiyyətlər əsasən axın və tökülmə nöqtələrinin ölçülməsi ilə və ya müxtəlif axın viskozimetrlərində özlülüyün ölçülməsi ilə müəyyən edilən standart göstəricilərlə təyin olunur.

Lakin reoloji xassələr həm məhsuldarlıq gərginliyindən, həm də plastik özlülükdən asılı olaraq, neftin struktura həssaslığını ortaya qoyur. Neftin reoloji xassələrinin kinetikası, onun tərkibindəki kristallaşan parafinlər və digər komponentlərdən asılıdır (Kerimli,V.I., Manafov, M. R., Shikhieva, F. R., Rasulov, S.R.., 2023).

Bu xüsusiyyətləri dəyişdirmək üçün depressantlar əlavə etmək olar ki, bu da neftin axıcılığını artırır. Boru kəmərləri ilə neftin nəqli kontekstində, xüsusən də kəmərin işə salınması mərhələlərində, reoloji xüsusiyyətlər və keçici strukturlaşma proseslərinin kinetikası ilə bağlı biliklərdən istifadə olunur. Bu yanaşma nəql zamanı əmələ gələn problemlərin idarə olunmasında mühüm rol oynayır (Rafael, M.P., María L. M., Beatriz, Z.R., 2011).

Hazırda bir çox tədqiqatçı, yüksək özlü neftlərin nəqlinin və istifadəsinin səmərəliliyinin artırılması məsələsini araşdırır. Bu məqsədlə bir neçə əsas metod tətbiq olunur. Həmin metodlara dair neftin qızdırılmasını göstərmək olar ki, bu proses neftin özlülüyünü azaltmaqla axıcılığı artırmaq üçün geniş istifadə olunur. Magistral boru kəmərlərində əvvəlcədən qızdırılan neft müəyyən məsafələrdə quraşdırılan istilik stansiyaları vasitəsilə nəql edilir. Digər bir metod karbohidrogen durulaşdırıcıların istifadəsidir ki, burada daha az özlü maddələrin əlavə edilməsi neftin axıcılığını

artırır. Bundan başaq, infrastrukturun təkmilləşdirilməsi metodunda əlavə boru kəmərlərinin tikintisi, nasos stansiyalarının (NS) sayının artırılması ilə məhsuldarlığının gücləndirilməsi həyata keçirilir. Sonuncu olaraq əlavələrin tətbiqi metodunu da qey edə biləri ki, burada kimyəvi reagentlərin əlavə edilməsi ilə neftin reoloji xüsusiyyətləri yaxşılaşdırılır (Lorena, A.S., Daniel, C. R. 2020).

Reoloji tədqiqatların əsas məqsədi mühitə təsir edən qüvvələr və bu təsirin yaratdığı deformasiyalar arasındakı əlaqəni müəyyənləşdirməkdir. Qeyd etmək lazımdır ki, kifayət qədər vaxt və qüvvə tətbiq edilərsə, bütün maddələr (bərk cisimlər, mayelər və qazlar) axmağa meyilli olur. Reologiya materialların axma davranışını sürət, vaxt və məkan baxımından öyrənir. Temperatur, təzyiq və axma sürətinin müddəti isə materialların reoloji xüsusiyyətlərinə əhəmiyyətli dərəcədə təsir edir.


Realoji modellərin inkişaf tarixi

Ağır neft emulsiyaları, qeyri-nyuton xassələrə malik olan mürəkkəb mayelərdir və enerji sənayesində geniş istifadə olunur. Bu emulsiyaların effektiv idarəolunması və nəqli sənayenin qarşılaşdığı əsas problemlərdən biridir. Ağır neft emulsiyaları yüksək özlülük, qeyri-xətti axın davranışı və temperatur dəyişikliklərinə həssaslıq kimi xüsusiyyətlər nümayiş etdirir ki, bu da onların emalını çətinləşdirir. Bu səbəbdən, onların reoloji xassələrinin düzgün təsviri üçün dəqiq modellərin yaradılması böyük əhəmiyyət kəsb edir. Realoji modellərin inkişafı bir neçə mərhələni əhatə edir ki, bu mərhənin əvvəlki dövrü təcrübəyə əsaslanır, yəni bu mərhələdə neft yataqlarının işlənməsi əsasən təcrübə və müşahidələrə əsaslanırdı (Юшков, И.Р., Хижняк, Г.П., Илюшин, П.Ю., 2013). Quyuların məhsuldarlığını artırmaq üçün yataqların quruluşu və neftin axın xüsusiyyətləri əsasən empirik metodlarla qiymətləndirilirdi. Bu dövrdə fiziki modellər – laboratoriya şəraitində yataqların kiçik miqyaslı analoqları araşdırmalar üçün istifadə olunmağa başlandı. Növbəti mərhələdə artıq neft yataqlarının işlənməsi zamanı axın dinamikasının dəqiqliyi üçün riyazi modelləşdirmə tətbiq edilməyə başlandı. İlk dəfə neft axınını təsvir etmək üçün sadə riyazi tənliklər istifadə edilərək fiziki modellərin inkişafı ilə laboratoriyalar təkmilləşdirildi (Holm, A., Julius, K., Hongbing, L., Masayuki, N., 2023).

Növbəti dövrdə kompüterlərin meydana gəlməsi ilə neft yataqlarının realoji modellərinin kompleks riyazi təsvirləri mümkün oldu, ikiölçülü və üçölçülü modellər hazırlanmağa başlandı ki, bu modellər yatağın strukturunu və maye axınını daha dəqiq təsvir edirdi. İlk realoji proqramlar, məsələn, neft axını simulyasiyaları, sənayedə tətbiq edilməyə başlandı. Souncu dövrü müasir dövr kimi adlandırmaq olar ki, bu dövrdə üçölçülü modellərin inkişafı ilə geoloji modelləşdirmə vasitəsilə yataqların tam miqyaslı təsvirləri yaradılmağa başlandı. Süni intellekt və maşın öyrənməsi isə böyük verilənlər bazası və süni intellekt alqoritmləri modellərin daha dəqiq olmasına imkan verdi (Maitreya, M.S., Bhatu, K.P., 2017).

Ağır neft emulsiyalarının modelləri

Məlum olduğu kimi, sürüşmə gərginliyi τ, sürüşmə deformasiyası $\dot{\gamma}$ və onların zamanla dəyişməsi ($d\tau / dt$ və $d\dot{\gamma} / dt$) arasındakı əlaqə reoloji tədqiqatların əsasını təşkil edir. Neft dispersiya sistemlərinin reoloji tədqiqi, axınının əksər hallarda qeyri-Nyuton xarakteri daşıdığı hallarda, reoloji axın əyrilərinin τ - $\dot{\gamma}$ koordinatlarında qurulması və müvafiq olaraq onların η - τ koordinatlarında asılılıqlarının təsvir edilməsi ilə həyata keçirilir (şəkil 1).




Şəkil 1. Neft dispersiya sistemlərində strukturun dağılması zamanı sürüşmə gərginliyi ilə sürüşmə sürəti arasında asılılıq.

Neft emulsiyaların tətbiq olunan reoloji modellərin ümumi təsnifatını aşağıdakı kimi verə bilərik:

Nyuton modeli. Neft emulsiyaları tərkibində suyun miqdarı az olduqda Nyuton davranışını göstərir, lakin suyun tərkibi artdıqca bu davranışdan uzaqlaşaraq qeyri-nyuton davranışı nümayiş etdirirlər (Келбалиев, Г.И., Тагиев, Д.Б., Расулов., С.Р., 2022). Bu model, axma gərginliyi ilə axma sürəti arasında xətti asılılıq olduğunu nəzərdə tutur (Jabbari, M., Bulatova, T., Mitsoulis, E., Hattel, J.H., 2016).

$$\tau = \mu \cdot \frac{du}{dy} = \mu\dot{\gamma} \quad (1)$$

Burada, τ - sürüşmə gərginliyi (Pa), μ - Mayenin dinamik özlülüyü (Pa·s), $\frac{du}{dy}$ - sürüşmə sürətinin gradientidir (s^{-1}).



Şəkil 2. İki paralel lay arasında mayenin sürüşməsinin sxematik təsviri [26].

Neft emulsiyaları,adətən qeyri-nyuton mayelərdir, çünki onların özlülüyü axma sürətindən asılı olaraq dəyişə bilər. Buna səbəb emulsiyanın tərkibindəki damcıların bir-biri ilə qarşılıqlı təsiri, damcıların ölçüsü və paylanması, həmçinin emulsiyanı təşkil edən fazaların reoloji xassələri ola bilər.

Neft sənayesində nyuton modeli bəzi sadə analizlərdə ilkin təxminlər üçün istifadə olunur, lakin praktikada emulsiyaların əksəriyyəti qeyri-nyuton davranış göstərdiyindən digər modellərlə təsnif olunur (Келбалиев, Г.И., Расулов, С.Р., Тагиев, Д.Б., Мустафаева, Г.Р., 2017).

Qeyri-nyuton modelləri. Qeyri-Nyuton mayeləri, Nyuton mayeləri üçün xarakterik olan sürüşmə gərginliyi ilə sürüşmə sürəti arasındakı xətti əlaqədən fərqli olan axın xüsusiyyətlərini göstərir. Bu mayelər reoloji xüsusiyyətlərinə əsasən bir neçə alt kateqoriyaya bölünür. Onların arasında sürüşmə gərginliyi və sürüşmə sürətinə uyğun fərqli özlülük reaksiyaları ilə seçilən psevdoplastik (kəsmə-incəlməsi), dilatant (kəsmə-qalınlaşma), Binkam plastik və viskoplastik davranış növləri var. Bu təsnifatlar qeyri-nyuton mayelərinin müxtəlif xüsusiyyətlərini anlamaq üçün struktur təqdim edir və müxtəlif sahələrdə proseslərin dizaynı və təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır (Langevin, D., 2022).

Binqham plastik modeli. 20-ci əsrin əvvəllərində bir çox qeyri-nyuton mayelərinin xüsusiyyətləri professor Yuken Binkam (Euqene Binqham) “reologiya” terminini işlətməyə və onu maddənin deformasiyası və axını elmi kimi təyin etməyə sövq etdi. Binqham plastik modeli qazma sənayesində istifadə edilən ən geniş yayılmış reoloji modeldir. Bu model iki parametrli bir modeldir və mayenin axma gərginliyini və plastik özlülüyünü ehtiva edir. Maye ilkin olaraq kəsmə gərginliyi müəyyən bir dəyəri keçənə qədər axmağa müqavimət göstərir. Maye axmağa başladıqdan sonra kəsmə gərginliyi və kəsmə sürəti arasında xətti əlaqə var.

$$\tau = \varphi_p\gamma + \tau_y \quad (2)$$

Burada, μ_p - plastik özlülük, τ_y - məhsuldarlıq gücüdür. Göründüyü kimi, Bingham plastik modeli xətti bir modeldir və aşağı kəsilmə sürəti sahəsində mayenin axın davranışını təsvir etmir.

Modelin parametri məhsuldarlıq gərginliyi (τy) mayenin gel gücünü (τs) yüksək qiymətləndirir (Karimli,V. I., Shikhieva, F.R., 2024).

Herşel-Balkley (HB) modeli, qeyri-nyuton mayeləri üçün istifadə edilən reoloji modeldir və qazma sənayesində də geniş tətbiq edilir. Bu model Bingham plastik modelindən daha çox parametri daxil edir və mayelərin davranışını daha dəqiq əks etdirə bilir. HB modeli üç parametrə əsaslanır: Axma gərginliyi (τ_0) – mayenin axmağa başlaması üçün tələb olunan minimal gərginlik; Konsistensiya indeksi (K) – mayenin özlülüyünü göstərən parametr; Axın indeksi (n) – mayenin qeyri-nyuton davranışını göstərir. HB modeli aşağıdakı tənliklə ifadə olunur:

$$\tau = \tau\gamma + K\dot{\gamma}^n \quad (3)$$

Burada: τ – sürüşmə gərginliyi, $\tau\gamma$ – axma gərginliyi, K – konsistensiya indeksi, $\dot{\gamma}$ – sürüşmə sürəti, n – axın indeksi (Guo B., 2021).

HB modelinə görə, maye ilkin axma gərginliyini keçdikdən sonra axmağa başlayır. Bingham plastik modelindən fərqli olaraq, HB modeli qeyri-xətti davranışı göstərə bilir və n-nin dəyərinə görə kəsmə gərginliyi ilə kəsmə sürəti arasındakı əlaqəni təsvir edir. Bununla yanaşı bu modelin tətbiq sahəsinə bəzi məhdudiyyətləri var. HB (Herschel-Bulkley) modeli yüksək dərəcədə mürəkkəb mayelərin, məsələn, viskoelastik mayelərin, çoxfazalı sistemlərin və ya zamanla dəyişən xassələrə malik materialların (məsələn, tiksotropik və ya reopektik materiallar) davranışını təsvir etməkdə çətinlik çəkir. Heterogen strukturlu mayelər, məsələn, hissəciklərlə yüklənmiş suspenziya və ya emulsiyalar bu model tərəfindən dəqiq əks olunmaya bilər. Eyni zamanda HB modeli sırf özlü davranışı nəzərdə tutur, yəni bəzi qeyri-Nyuton mayelərində müşahidə olunan elastik effektləri təsvir edə bilməz. HB modelində axma sərhədi (τ_y) sabit olaraq qəbul edilir, lakin bəzi materiallarda axma sərhədi kəsilmə sürətindən və ya temperatur və yaşlanma kimi digər şərtlərdən asılı ola bilər. Model, material parametrlərinə (τ_y, K və n) temperaturun təsirini daxili olaraq nəzərə almır. Realda tətbiqlər tez-tez temperaturdan asılı modellərlə uyğunlaşdırma və ya dəyişikliklər tələb edir (Magnon, E., Cayeux, E., 2021).

Qüvvət qanunu modeli (Ostvald de Vale): Bu model axın zamanı özlülüyün azalması (mayeləşmə) və ya artması (qalınlaşma) davranışını təsvir edir, yəni özlülük axın sürətinə görə azalır və ya artır. Bu modeli tətbiq etmək üçün iki parametrdən — konsistensiya indeksi və axıcılıq indeksindən istifadə olunur. Bu parametrlər özlülüyün sürüşmə altında necə dəyişdiyini göstərir. Bir çox neft emulsiyaları, xüsusilə aşağı gərginlikli mühitlərdə, bu modelə uyğun gəlir (Zhang, J., and Xu J. 2016).

$$\tau = mK\dot{\gamma}^n \quad (4)$$

Quemada modeli qeyri-yuton mayelərinin reoloji xassələrini təsvir etmək üçün istifadə olunan yarı empirik bir modeldir. Bu model əsasən dispers sistemlər (süspenziyalar, emulsiyalar və digər heterogen mayelər) üçün nəzərdə tutulub və mayenin özlülüyü ilə hissəciklərin qatılığı arasındakı əlaqəni təsvir edir. Quemada modeli aşağıdakı kimi təsvir edilir:

$$\eta_r = \left(1 - \frac{\emptyset}{\emptyset_m}\right)^{-2} \quad (5)$$

Burada: η_r nisbi özlülük, $\emptyset$ dispers fazanın həcm fraksiyası (partikulların həcm qatılığı), $\emptyset_m$ maksimum həcm fraksiyasıdır (sistem daxilində hissəciklərin ən sıx qablaşdırılması). Bu model dispers fazanın konsentrasiyasının artması ilə özlülüyün kəskin artımını təsvir edərək sistem daxilində dispers fazanın mikroquruluşunu sadə şəkildə nəzərə alır. Modelin əsas üstünlüyü hissəciyin qatılığının özlülüyə təsirini yaxşı təsvir edir, parametrləri aydın və fiziki baxımdan mənalıdır. Əsas məhdudiyyətləri sistem daxilində hissəciklərin qeyri-sferik formalarını və qarşılıqlı təsirlərini nəzərə almır (Rehm, B., Haghshenas, A., Paknejad, A., Al-Yami, A., Hughes, J., Schubert, J. 2012).

Kasson modeli, müəyyən viskoelastik və plastik davranışlı mayelərin axın xüsusiyyətlərini təsvir etmək üçün istifadə olunan reoloji modellərdən biridir. Bu model əsasən dispers sistemlər, məsələn, boya, şokolad, mürəkkəb və bəzi qeyri-nyuton mayelərinin davranışını təsvir etməkdə effektivdir.

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-34
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

AZƏRBAYCANIN ŞİMAL SƏRHƏD RAYONLARINDA ƏHALİNİN NİKAH VƏZİYYƏTİ

Gülnarə ABDULLAYEVA
AR ETN Coğrafiya İnstitutu, Bakı, Azərbaycan
**Yazışılan müəllif: gulnare-78@mail.ru*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
ailə, əhali, nikah, boşanma, qadın, kişi.

XÜLASƏ
Məqalədə dünyada və Azərbaycanın şimal sərhəd rayonlarında nikah və boşanmaların müasir vəziyyətindən bəhs olunur. Əldə olunan statistik məlumatlar və aparılan tədqiqatlar nəticəsində dünyada və ölkəmizdə nikah və boşanmaların müasir vəziyyətləri təhlil edilmişdir. Hər bir ölkənin davamlı iqtisadi inkişafı və sosial rifahı yalnız təbii sərvətlərlə deyil, eyni zamanda onun mövcud demoqrafik vəziyyətindən, yəni əhalinin təkrar istehsalı prosesi ilə əlaqəli olan insan resurslarından da asılıdır. Çünki demoqrafik proseslər sosial-iqtisadi amillərin təsiri altında dəyişikliyə məruz qalır və əhalinin təbii artımında özünü göstərir. Əhalinin təbii artımına cəmiyyətdə baş verən siyasi və iqtisadi dəyişikliklər, o cümlədən insanların həyat tərzi, həyat şəraiti, sosial infrastrukturla təminatı, mədəni dəyərlərin qorunub saxlanılması və digər bir çox başqa amillər təsir göstərir. Eyni zamanda nikah və boşanmalar da demoqrafik amilləri formalaşdıran təbii artımın azalmasında və ya çoxalmasında mühüm rol oynayır.

GİRİŞ

Müasir dövrdə nikahların sayı azalmaqda, boşanmalar isə artmaqda davam edir. Bu dəyişikliklər bir sıra amillərlə-urbanizasiya, qadınların iqtisadi müstəqilliyi, təhsil səviyyəsinin yüksəlməsi, ailə dəyərlərindəki dəyişikliklər və hüquqi mühitin liberallaşması ilə sıx bağlıdır. Ailə fərdlə cəmiyyət arasında əlaqə, sosial icmanın ilkin formasıdır. Bulatova və Abrarovaya görə nikah ailənin formalaşmasının təməlidir. Nikahın məqsədi ailə qurmaq və uşaq sahibi olmaqdır və buna görə də nikah həyat yoldaşı və valideyinin hüquq və vəzifələrini müəyyən edir (Булатова & Абрарова, 2024).

Nikah, kişi və qadın arasında tarixən müəyyən edilmiş və sosial cəhətdən tənzimlənən münasibət forması olan unikal bir sosial institutdur. Ailə daxilində insanın ilkin sosiallaşması baş verir və kollektiv varlığa ehtiyac formalaşdırılır. Lakin təəssüf ki, müasir dövrdə boşanma və onunla əlaqəli hər şey ailə-nikah məsələlərində ilk yerli yeri tutur. Boşanma da öz növbəsində bir çox özünəməxsus xüsusiyyətlərə malikdir və buna görə də bu məsələ elm adamları tərəfindən geniş şəkildə araşdırılır. Klassik rus mülki hüquq alimi A. İ. Zaqorovski bu mövzuda yaxşı yazıb və qeyd edib ki, "boşanma məsələsi haqlı olaraq qanunvericilikdə ən çətin məsələlərindən biri hesab olunur. Həqiqətən də, qanunverici onu həll edərkən, birincisi, nikahın mahiyyət etibarilə ömürlük bir birlik olduğunu və buna görə də onun pozulmasının bir növ anomaliya olduğunu; ikincisi, boşanmaların uşaqların taleyinə xüsusilə mənfi təsir göstərdiyini və üçüncüsü, boşanmada boşanmış valideynlərdən hansının uşaqlarına sahib olacağını müəyyən etmək xüsusilə çətindir"(Загоровский, 1909).

Azərbaycanda da son illərdə nikah və boşanma statistikasına nəzər saldıqda ciddi dəyişikliklərin olduğunu görmək mümkündür. Bu məqalədə nikah və boşanma anlayışlarının tarixi-sosialoji aspektləri, mövcud statistik vəziyyət, səbəblər və nəticələr araşdırılır. Eyni zamanda Azərbaycanın şimal sərhəd rayonlarında da əhalinin nikah vəziyyəti tədqiq olunmuşdur.Azərbaycanın strateji əraziləri hesab edilən Balakən, Zaqatala, Qax, Şəki, Qəbələ, Oğuz, Xaçmaz, Qusar inzibati rayonlarının sahəsi 11,4 min kv.km, əhalisi 905,3 min (2024-ci il) nəfərdir. Şimaldan Rusiya Federasiyası, şimal-qərbdən Gürcüstan Respublikası ilə həmsərhəd olan bu region özünün milli-etnik tərkibi ilə də respublikamızın digər rayonlarından fərqlənirlər.

MATERİAL VƏ METODLAR

Tədqiqatın əsasını Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin əhali və boşanma nisbətləri üzrə statistik məlumatları, eləcə də nikah və boşanma nisbətləri üzrə beynəlxalq metrik

sistemlər və məlumat bazaları, bu sahədə tədqiqat aparmış alimlərin elmi əsərləri və müəllifin şəxsi tədqiqatı təşkil edir. Məqalənin hazırlanmasında həmçinin demoqrafiya sahəsində tədqiqat aparan xarici və yerli alimlərin əsərlərindən istifadə olunmuşdur.

MÜZAKİRƏ

Ailənin əsasını qadın və kişi arasında olan nikah birliyi təşkil edir. Dünyada nikah və boşanmalar qanunvericiliklə tənzimlənir. Bir sıra ölkələrin qanunvericiliyinə nəzər saldıqda məlum olur ki, nikah yaşı qadınlarda 9-12 yaşdan 20 yaşa qədər, kişilərdə isə 14 yaşdan 22 yaş aralığında dəyişir (Şerbakov at al., 2017). Qanun yerli adət-ənənələrə görə bəzi istisnaları da nəzərə alır. Avropa ölkələrində nikah yaşı qadınlarda və kişilərdə ya bərabər olur, ya da bəzilərində kişilərin nikah yaşı daha yuxarı olur. Məsələn, Macarıstanda və Polşada nikah yaşı qadınlar üçün 16, kişilər üçün 18 müəyyən edilmişdir. İngilislərdə 16 yaşına çatan hər kəs, Fransada isə 15 yaşında qadınların, 18 yaşında kişilərin nikaha girməsinə icazə verilir. Asiya ölkələrinə gəldikdə Yaponiyada 18 yaşında kişilər, 16 yaşında qadınlar Çində 22 yaşında kişilər (bu dünya ölkələri arasında nikah üçün ən yüksək yaş həddidir), 20 yaşında qadınlar, Hindistanda 21 yaşında kişilər, 18 yaşında qadınlar nikaha girə bilər.

Amerika qitəsində məsələn, ABŞ-da minimal nikah yaşı ştatlara görə dəyişir. Kişilər üçün bu 14-18 yaş, qadınlar üçün 13-17 yaş müəyyən edilmişdir. Kanadada (Kvebek əyalətində) minimal nikah yaşı qadınılar üçün 12-16 yaş, kişilər üçün 14-16 yaş, Argentina, Kolumbiya və Peruda kişilər 16, qadınlar 14, Venesuela, Paraqvay, Çili və Ekvadorda minimum yaş kişilərdə 14, qadınlarda 12 yaş müəyyən edilmişdir.


Afrika ölkələrinə gəldikdə isə burada Misir və Əlcəzairdə minimal nikah yaşı kişilərdə 18, qadınlarda 16, Nigeriya və Keniyada qadınlarda 9, kişilədə 6-18 yaş müəyyən edilmişdir. Avstraliyada minimal nikah yaşı kişilər üçün 18, qadınlar üçün 16-dır. Ölkələrin əksəriyyətində nikah yaşı çatmayanların nikaha daxil olmaları üçün valideyinlərin icazəsi tələb olunur.

Azərbaycan Respublikasında nikah yaşı 18 yaş müəyyən edilmişdir. Üzürlü səbəblər olduqda nikaha daxil olmaq yaşı 1 ildən çox olmayaraq azaldıla bilər (Ailə məcəlləsi, 2011).

Hazırda bir çox ölkələrdə olduğu kimi, tədqiq etdiyimiz Azərbaycanın şimal sərhəd rayonlarında da əhalinin nikah səviyyəsini 1995-2023-cü illər üzrə təhlil etsək görərik ki, azalma baş vermişdir. 1995-ci ildə nikah əmsalı əhalinin hər min nəfərinə 7,3 olmuşdursa, 2024-cü ildə bu azalaraq 4,5-ə düşmüşdür. Boşanmaların sayında isə əksinə artım baş vermişdir. Onların sayı 0,7-dən 1,6-ya yüksəlmişdir (cədvəl 1). Ən çox nikah 2005-ci ildə, hər min nəfərə 9,0, ən az isə 2020-ci ildə hər min nəfərə 3,3 qeydə alınmışdır. 2020-ci ildə nikah göstəricisinin aşağı olmağının əsas səbəbi bütün dünyada olduğu kimi Azərbaycanda da COVİD-19 pandemiyasının mövcud olmasıdır. Şimal sərhəd rayonlarında boşanma əmsalı isə ən çox 2023-cü ildə əhalinin hər min nəfərinə 1,7 nəfər olmuşdur.

Nikahların inzibati rayonlar üzrə əmsalına gəldikdə isə ən yüksək göstərici 2005 (hər 1000 nəfərə 10,5) və 2010-cu illərdə (hər 1000 nəfərə 10,2) Qəbələ rayonunda qeydə alınmışdır. Boşanma əmsalı isə 2019-cu ildə Oğuz inzibati rayonunda daha yüksək olmuşdur. Burada hər min nəfərə 2,2 boşanma qeydə alınmışdır. Azərbaycan Respublikasında nikah əmsalı ən yüksək 2005-ci ildə (hər 1000 nəfərə 8,5), boşanma əmsalı isə ən yüksək 2023, 2024-cü illərdə (hər 1000 nəfərə 2,1) olmuşdur.

Şimal sərhəd rayonlarında nikah və boşanmaların 1995-2024-cü illər üzrə tendensiyasına baxsaq nikahın illər keçdikcə azalan, boşanmanın isə artan temp ilə davam etdiyini görmək mümkündür (Şəkil 1). Tendensiyanın bu cür davam etməsi bir neçə ildən sonra nikah və boşanmaların sayının bərabərləşməsinə gətirib çıxaracaq.



Şəkil 1. Azərbaycanın şimal sərhəd rayonlarında 1995-2024-cü illər ərzində nikah və boşanmaların tendensiyası, (hər min nəfərə)
Mənbə: ADSK, Azərbaycanın regionları-Bakı-2023, 2024.

Cədvəl 1

Azərbaycanın şimal sərhəd rayonlarında rəsmi qeydə alınmış nikah və boşanmaların ümumi əmsalları, hər 1000 nəfərə

	1995		2000		2005		2010		2015		2019		2020		2021		2023		2024	
	nikah	boşanma	nikah	boşanma	nikah	boşanma	nikah	boşanma	nikah	boşanma	nikah	boşanma	nikah	boşanma	nikah	boşanma	nikah	boşanma	nikah	boşanma
Balakən	6,3	0,4	4,6	0,3	7,4	0,8	8,1	0,8	7,4	1,2	6,0	1,5	2.8	1,4	5,1	1,5	5,0	1,9	4,3	1,4
Qax	8,3	0,5	5,7	0,3	8,4	0,8	7,4	0,5	7,9	0,8	6,4	1,0	2,9	1,1	6,1	1,2	5,0	1,9	4,5	1,2
Qəbələ	9,3	0,4	6,6	0,4	10,5	0,8	10,2	0,7	7,1	0,8	7,2	1,3	3,4	1,0	7,2	1,1	6,0	1,6	5,4	1,5
Oğuz	9,0	0,9	6,1	0,5	8,6	0,9	9,4	0,7	7,9	1,3	7,6	2,2	3,6	1,5	6,6	1,5	6,0	1,6	4,7	1,8
Zaqatala	6,0	0,5	6,1	0,5	9,8	0,8	7,9	0,8	6,9	1,1	6,5	1,4	3,4	1,5	5,6	1,3	4,9	1,5	3,9	1,5
Şəki	6,2	0,4	5,8	0,4	8,7	0,6	8,5	0,7	7,5	1,2	6,9	1,4	3,4	1,1	6,8	1,4	5,2	1,5	4,6	1,7
Xaçmaz	6,3	0,8	5,6	0,8	9,5	1,1	8,9	0,8	6,4	1,3	6,6	1,6	3,6	1,6	6,3	1,6	5,2	1,7	4,6	1,9
Qusar	7,1	1,3	5,3	0,8	9,2	1,4	10,0	1,3	6,6	1,2	5,3	1,6	3,3	1,4	5,2	1,2	4,7	1,6	4,3	1,8
Şimal sərhəd rayonları	7,3	0,7	5,7	0,5	9,0	0,9	8,8	0,8	7,2	1,1	6,6	1,5	3,3	1,3	6,1	1,4	5,3	1,7	4,5	1,6
Azərbaycan Respublikası	5,7	0,7	5,0	0,7	8,5	1,1	8,0	1,0	7,2	1,3	6,4	1,7	3,5	1,5	5,6	1,7	5,3	2,1	4,9	2,1

Əvvəllər ailə qurmaq ictimai gözləntiyə çevrildiyi halda müasir dövrdə fərdi seçimlər daha ön plana çıxır. Fərdi inkişaf, səyahət, sosial həyat, şəxsi azadlıqlar kimi meyarlar ailə qurmaqdan önə keçir. Gənclər ailə qurmaq qərarını daha düşünülmüş şəkildə və daha gec yaşlarda verirlər. Kişilər kimi qadınların da son dövrlərdə karyera qurmağa önəm vermələri nikah qərarının daha gec verilməsinə səbəb olur. Uyğun həyat yoldaşı axtarışı və qarşılıqlı gözləntilərin artması nəticəsində nikahların sayı azalmış, nikaha daxil olanların orta yaşı isə artmışdır.

Azərbaycan Respublikasında nikaha daxil olanların orta yaşına nəzər saldıqda 1990-ci ildən 2024-cü ilə qədər əldə etdiyimiz məlumatlarda bu göstəricilərin yüksəldiyini görmək mümkündür (cədvəl 2).

Cədvəl 2

Azərbaycan Respublikasında rəsmi qeydə alınmış nikaha daxil olanların orta yaşı.

İllər	Nikaha daxil olanların orta yaşı	
	Kişilər	Qadınlar
1990	27,4	24,3
1995	27,5	23,0
2000	28,4	23,6
2005	28,4	23,7
2010	27,9	23,4
2015	28,6	24,1
2020	30,0	25,2
2021	29,7	24,9
2022	29,8	24,9
2023	30,2	25,2
2024	30,2	25,1

Mənbə:ARDSK, Azərbaycanın əhalisi-2024

1990-1995-ci illərdə respublikamızda nikaha daxil olan kişilərin yaş həddi 27 idisə 2024-cü ildə bu göstərici 30-a yüksəlmişdir. Qadınların yaşında isə bir o qədər də dəyişiklik baş verməmişdir. Onların orta yaşı 0,8 yaş artaraq 24,3-dən 25,1-ə qalxmışdır. Orta yaş həddinin artması bir çox səbəblərdən baş verir. Bura iqtisadi problemlər, insanların həyat tərzi, sosial dəyərlər, təhsil və s. aid etmək olar. Müasir dövrdə gənclər arasinda aili təhsilə meylin artması magistr, doktorantura və digər ixtisasartırma mərhələləri gənclərin əmək bazarına daxil olmasını gecikdirir. Təhsilin uzanması həm iqtisadi, müstəqilliyin gecikməsinə, həm də ailə qurmaqla bağlı qərarların təxirə salınmasına səbəb olur. Bndan başqa karyera qurmaq, peşəkar təcrübə qazanmaq, sabit gəlir mənbəyi əldə etmək istəyi, işsizlik, mənzil problemi, yüksək yaşayış xərcləri və gələcək ailənin təminatı ilə bağlı narahatlıqlar kişilərin nikaha daxil olma yaşını artırır.

Dünya üzrə son illərin demoqrafik göstəricilərinə nəzər saldıqda aydın olur ki, respublikamızda olduğu kimi bir çox ölkələrdə də nikahların sayı azalıb, boşanmaların sayı isə artmışdır. Hər bir ailədə boşanma səbəbləri fərqli olur. Boşanma səbəbləri arasında maddi problemlər, cütlüklərin xarakter uyğunsuzluğu, mənzil problemləri, pis vərdişlər, ailədə uşağın olmaması kimi səbəblər üstünlük təşkil edir. Dünya ölkələrinin 2022-ci ildəki boşanma statistikasına nəzər salsaq görərik ki, ən az boşanma Şri-Lankada, ən çox isə Maldiv Respublikasında olmuşdur (cədvəl 3). Bu sirada 2-ci yeri Qazaxıstan, 3-cü yeri isə Rusiya tutur. Azərbaycan burada 22-ci, siyahıda olan 10 MDB dövləti arasında isə 8-ci yerdə qərarlaşıb.

Cədvəl 3

Ölkələrin boşanma statistikaları, hər 1000 nəfərə

1. Maldivlər-5,52	12. İran-2,1	23. İtaliya-1,4
2. Qazaxıstan-4,6	13. Fransa-1,9	24. Ermənistan-1,1
3. Rusiya-3,9	14. Niderland- 1,7	25. Özbəkistan-0,8
4. Belarus-3,7	15. Böyük Britaniya-1,7	26. Qətər-0,7
5. Belçika- 3,7	!6. Almaniya-1,7	27. İrlandiya-0,7
6. Moldova-3,3	17. Yaponiya-1,7	28. BƏƏ-0,7
7. Çin-2,9	18. Dünyada-1,7	29. Car-0,6
8. ABŞ-2,7	19. Türkiyə-1,6	30. Peru-0,5
9. Gürcüstan- 2,1	20. Qırğızıstan-1,4	31. Qvatemala-0,2
10. Kanada- 2,1	21. Tacikistan-1,4	32. Vyetnam-0,2
11. Koreya-2,1	22. Azərbaycan-1,4	33. Şri-Lanka-0,1

Mənbə: Economic Research İnstitute

Şəhər əhalisi arasında boşanma intensivliyi kəndlərə nisbətən daha çoxdur. Boşanmaların intensivliyi evli insanların yaşından və ailədəki uşaqların sayından da asılı olur. Yaş artdıqca boşanmaların sayı aşağı düşür, ailədə uşaqların olması isə nikahı daha da möhkəmləndirir. Uşaqsız ailələr arasında boşanmalar daha çox olur. Boşanma göstəricilərinə ailə ənənələri də əhəmiyyətli dərəcədə təsir göstərir. Müasir dövrümüzdə nikahın pozulması daha çox qadınların təşəbbüsü ilə baş verir. Bir zamanlar boşanma halları nadirən olurdu və bu proses insanların qınaq mənbəyinə də çevrilirdi. Son illər isə bu belə deyil, hər il minlərlə ailə dağılır. Əldə etdiyimiz məlumatların təhlili göstərir ki, münasibətləri rəsmiləşdirmək istəyənlərin sayı azalıb, nikahı pozanların sayı isə çoxalıb. Bütün dünyada olduğu kimi Azərbaycanda da boşanma halları nikahın müəyyən bir dövründə və müəyyən yaş qrupunda daha çox olur. Tədqiqatlar göstərir ki, 5 ildən 9 ilə qədər evli olanlar daha çox boşanırlar.

Boşanmalar və qeyri-rəsmi nikahdan dünyaya gələn uşaqlar ailələrin dağılmasına, gələcəkdə nəslin artırılmasına (ailədə ikinci və ya üçüncü uşağın olmasına) birbaşa təsir edir. Kənd yerlərində qeyri-rəsmi nikahdan dünyaya gələn uşaqlar say etibarilə şəhər yerlərindən daha yüksəkdir. Bu erkən nikahların kənd yerlərində daha çox olması ilə əlaqədardır. Kənd yerlərində isə qız uşaqlarının erkən yaşlarında ailə qurmaları həm qanun pozuntusu, həm də gələcəkdə bir sıra digər problemlərin (ailənin sosial-iqtisadi vəziyyəti, təhsil və s.) yaranmasına səbəb olur (Abdullayeva, 2025).

NƏTİCƏLƏR

Sonda deyilənləri yekunlaşdıraraq belə nəticəyə gəlmək olur ki, 1995-ci ildən 2024-cü ilə qədər olan dövrdə Azərbaycanın şimal sərhəd rayonlarında əhalı arasında nikaha daxil olanların sayı hər min nəfərə 2,8 nəfər azalmış, boşanmalar isə 1000 nəfərə 0,9 nəfər artmışdır. Bununla yanaşı Azərbaycan Respublikasında nikaha daxil olan qadın və kişilərin orta yaş həddi də yüksəlmişdir. Bu göstərici kişilərdə 2,8, qadınlarda isə 0,8 yaş artmışdır. Azərbaycanın bəzi bölgələrində hələ də erkən nikahlar mövcuddur. Ailə və qohum təzyiqi ilə qurulan evliliklər daha zəif təməl üzərində qurulduğu üçün boşanma riski yüksək ola bilir. Nikahların azalıb boşanmaların artmasını tək bir səbəblə əlaqələndirmək olmaz. Bu çoxfaktorlu və mürəkkəb bir prosesdir. Cəmiyyətin ümumi inkişaf tendensiyalarının və dəyişən sosial strukturların təzahürü, gender münasibətlərindəki yeni modellər bütün dünyada olduğu kimi ölkəmizdə də nikah və boşanmaların səviyyəsinə təsir edən əsas amillərdir.

Bu tədqiqatın nəticələri Azərbaycanın şimal sərhəd rayonlarında əhalinin nikah və boşanmaların ümumi vəziyyətini və buna təsir edən amilləri aşkara çıxarmışdır. Apardığımız tədqiqatlar və sorğular nəticəsində əldə edilən məlumatlara əsasən deyə bilərik ki, nikah və boşanmalara təsir edən əsas faktorlar aşağıdakılardır:

- İqtisadi (işsizlik, maddi çətinliklər, gəlir bərabərsizliyi);
- Təhsil səviyyəsi (təhsil səviyyəsi artdıqca nikaha daxil olma yaşı yüksəlir, lakin eyni zamanda tərəflər bir-birini yaxşı başa düşdüyü üçün boşanma riskini də azalda bilər);
- Sosial-mədəni (ənənəvi dəyərlər, ailə təzyiqləri və cəmiyyətin nikah və boşanma ilə bağlı yanaşması);
- Psixoloji və emosional (tərəflər arasında emosional uyğunluq, ünsiyyət, güvən və hörmət);
- Qanunvericilik və hüquqi (nikah və boşanma proseslərinin hüquqi asanlığı, aliment və uşaq hüquqları kimi məsələlər də qərarlara təsir edir)

ƏDƏBİYYAT

1. Abdullayeva G.İ. (2025) Azərbaycanın şimal sərhəd rayonlarının demoqrafik və məskunlaşma problemləri. Bakı:Avtoreferat s.12.
2. Azərbaycan Dövlət Statistika Komitəsi (2025). Azərbaycanın əhalisi. Bakı:Narıncı, s.82-83
3. Azərbaycan Dövlət Statistika Komitəsi (2022). Azərbaycanın demoqrafik göstəriciləri. Bakı:

4. Azərbaycan Dövlət Statistika Komitəsi (2023). Azərbaycanın regionları. Bakı: Çaşıoğlu E.İ s. 400-423.
5. Azərbaycan Dövlət Statistika Komitəsi (2024). Azərbaycanın regionları. Bakı: Azmega group MMC, s. 659-714
6. Azərbaycan Respublikasının ailə məcəlləsi (2011), maddə 10.
7. Булатова Я. П., Абрарова З. Ф. (2024) Современные тенденции брака и развода в российском обществе. Социальная политика и социальное партнерство. 6, https://doi.org/10.33920/pol-01-2406-04
8. Economic Research İnstitute (2022). https://www.erieri.com/contact
9. Загоровский А. И. (1909), Курс семейного права. 2-е издание, Одесса: Типография Акционерного Южно-Русского Общества печатного дела, 73
10. Щербаков А. И, Мдинарадзе М.Ф, Назаров А.Д & Назарова Е.А (2017). Демография. Москва İnfra-M. стр. 61

SUMMARY

MARITAL PATTERNS OF THE POPULATION IN THE NORTHERN BORDER DISTRICTS OF AZERBAIJAN

Gulnara Abdullayeva

This article examines the current trends in marriage and divorce both globally and within the northern border regions of Azerbaijan. Drawing on statistical data and recent research findings, the study analyzes the current dynamics and patterns of marital and divorce rates in the world and in the national context. The sustainable economic development and social well-being of any country depend not only on its natural resources but also on the existing demographic situation, particularly the human resources associated with the population reproduction process. Demographic processes are subject to changes under the influence of socio-economic factors and are reflected in the natural population growth. Political and economic transformations in society, people's lifestyles and living conditions, access to social infrastructure, preservation of cultural values, and many other factors influence the natural increase of the population. At the same time, marriage and divorce also play a significant role in shaping demographic indicators, contributing either to the decline or to growth of natural population increase.

Keywords: *family, population, marriage, divorce, woman, man.*

РЕЗЮМЕ

БРАЧНОЕ СОСТОЯНИЕ НАСЕЛЕНИЯ В СЕВЕРНЫХ ПРИГРАНИЧНЫХ РАЙОНАХ АЗЕРБАЙДЖАНА

Гюльнара Абдуллаева

В статье рассматриваются современные тенденции браков и разводов как в мире, так и в северных приграничных районах Азербайджана. На основе статистических данных и результатов проведенных исследований проанализированы актуальные особенности и динамика брачно-разводных процессов как на глобальном, так и на национальном уровне. Устойчивое экономическое развитие и социальное благополучие каждой страны зависят не только от природных ресурсов, но и от существующей демографической ситуации, то есть от человеческих ресурсов, связанных с процессом воспроизводства населения. Демографические процессы изменяются под воздействием социально-экономических факторов и отражаются на естественном приросте населения. На естественный прирост населения, влияют политические и экономические изменения в обществе, образ жизни и условия жизни людей, обеспеченность социальной инфраструктурой, сохранение культурных ценностей и многие другие факторы.

При этом браки и разводы также играют важную роль и формировании демографических показателей, способствуя либо снижению, либо увеличению естественного прироста.

Ключевые слова: *семья, население, брак, развод, женщина, мужчина.*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-35
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

STİBİUM SELENİD ƏSASLI BƏRK FAZALARDA TERMOELEKTRİK HADİSƏLƏRİNİN ÖYRƏNİLMƏSİ

Pərvin QULİYEV, İlkanə AĞALAROVA, Gülnur TAĞIYEVA
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
**Yazışılan müəllif: pervinquliyev@ndu.edu.az*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

AÇAR SÖZLƏR:
elektrod, yarımkeçirici, müqavimət, səviyyə, qadağan olunmuş zona.

XÜLASƏ
Müasir elektrotexnikanın tələblərinin ödənməsi üçün daha geniş temperatur intervalında işləyən yarımkeçirici materialların sintezi və optofiziki xassələrinin optimallaşdırılması tədqiqatçılar üçün əsas məsələlərdəndir. Stibium xalkogenidlər bu yarımkeçiricilərdəndir. Elektrokimyəvi yolla müxtəlif mühitlərdə sintez edilmiş Sb-Se sistemlərinin kinetik xarakteristikası tərəfimizdən öyrənilmişdir. Sintez prosesinə müxtəlif amillərin təsiri öyrənilmişdir. Təqdim edilən tədqiqat işində əsasən stibium selen sistemlərinin termoelektrik xarakteristikası işlənmişdir. Stibium selen sistemlərinin bərk məhlullar və stexiometrik formula uyğun olan birləşməsinin elektrik keçiriciliyinin temperatur assılılığı öyrənilmiş, xüsusi müqavimətin temperaturun tərs qiymətindən asılılıq əyrisi qurulmuşdur. Məlum olmuşdur ki, temperaturun artması ilə stibium selenidin elektrik keçiriciliyi artır. Elektrik keçiriciliyinin temperaturdan asılı olaraq dəyişməsinin səbəbi birləşmənin qadağan olunmuş zona enerjisinin qiymətinin azalması ilə əlaqədardı. Elektrik keçiriciliyinin temperaturdan asılılığı öyrənilərək məlum olmuşdur ki, stibium selenid geniş temperatur intervalında işləmə oblastına malikdir.

GİRİŞ

Elektrotexnikanın sürətli inkişafı yeni yarımkeçirici materialların sintezi məsələlərini meydana çıxarır. Bunun üçün müxtəlif sintez üsulları və sintez şəraitlərinin işlənib hazırlanması tədqiqatçılar qarşısında dayanan məsələlərdəndir.

Əsas tədqiqat məqsədlərinin qlobal tələblərindən biri biokütlə enerjisinin yığılması və enerjinin çevrilməsi kimi texnologiyalara nail olmaqdır. Stibium xalkogenidləri, aşağı və otaq temperaturu diapazonunda nəzərəçarpacaq dərəcədə termoelektrik üstünlüklərinə malik olduqlarına görə termoelektrik generatorlar və Peltier soyuducuları üçün effektiv materiallardır. Stibium xalkogenidlərinin stexiometrik tərkibə uyğun və ya stexiometriyadan kənara çıxan bərk fazalar şəklində ərintilərinin alınması onların elektrik və istilik daşıma xüsusiyyətlərində əhəmiyyətli dərəcədə dəyişikliyə səbəb olur. Stibium xalkogenidlərdə müşahidə olunan yüksək termoelektrik üstünlük romboedrik kristal quruluşun mövcudluğu, daha aşağı effektiv kütlə, aşağı istilik keçiriciliyi və böyük zolaq degenerasiyası ilə əlaqədardır. Müasir tədqiqatların bu istiqamətdəki hədəfləri stibium xalkogenid birləşmələrinin və ya aşqar kimi müxtəlif komponentlər daxil edilmiş bərk fazaların termoelektrik xüsusiyyətlərini effektiv şəkildə yaxşılaşdırmaq və bunun üçün müxtəlif üsulları müəyyən etmək, eyni zamanda kəmiyyətləndirmək məqsədi daşıyır. Həmçinin top frezeləmə, qığılcım plazma metodu (Majidzade VA et. al 2019), birbaşa elementlərindən yüksək temperaturlu sintez, yumşaq kimyəvi reaksiya, hidrotermal reaksiya, ərintidən monokristal alınması (Ganesh Sh. At. ol. 2022) kimi metodlarla bu qəbildən olan materialların sintezi həyata kerilə bilmişdir.

Termoelektrik materialların, enerjinin istilik şəkilindən elektrik enerjisinə çevrilməsində istifadə imkanlarına əsaslanaraq qlobal tədqiqatçıların marağını cəlb etmişdir. Kommersiya məqsədli termoelektrik texnologiya termoelektrik soyuducularında və stabilizatorlarında effektiv şəkildə tətbiq olunur. Son iki onillikdə, əsasən tullantı materiallarının potensialına əsaslanan enerjinin toplanmasına və çevrilməsinə artan tələbat səbəbindən termoelektrik texnologiyaya diqqət genişlənməkdədir. Termoelektrik materialların effektivliyi aşağıdakı tənlik ilə hesablanır.

$$ZT = \frac{S^2\sigma}{K} T$$

Burada S Zebbek əmsalı, T verilməsi mümkün olan temperatur, σ elektrik keçiriciliyidir.

Stibiumun sintez edilmiş xalkogenidləri arasında effektiv birləşmələrindən olan stibium selenidin kristal quruluşunun tetradimit kristal quruluşunda kristallaşdığı müəyyən edilmişdir (A. Parbatani at. ol. 2019). Sb və Se arasında xörək duzunun kristal strukturuna bənzər quruluşu da müşahidə edilmişdir, bu da alınan materialların kristallaşması üçün optimal mühitin seçilməsi ilə əlaqədardır.

Stibiumun selenidinin tellurla aşqarlanması zamanı materialda heç bir əhəmiyyətli struktur dəyişikliyi müşahidə olunmur. Lakin, tərkibdə Se atomlarının miqdarının artması ilə daha yüksək bucaq əmsalına malik ola bilir.

TƏCRÜBİ HİSSƏ

Ədəbiyyatlardan məlumdur ki, fazaların keçiriciliyini aşağıdakı tənliklə hsablamaq olur (Majidzade VA et. al 2017).

$$\sigma = enU$$

Verilmiş riyazi modelə əsaslanaraq komponenlərin keçiricilik tiplərini müəyyən etmək olur. p və n tip keçiricilərin istər məxsusi, istərsə də qarışıq oblastda keçiricilik nümayiş etdirməsi materialın təbiətindən asılıdır və hər bir keçiricilikdə özünəməxsus xarakteristika göstərir. Həm p, həm də n tip keçiriciləyə malik, müqayisə edilə bilən performansa sahib mükəmməl, optimallaşdırılmış termoelektrik material hazırlamaq üçün yüksək yarımkeçirici və termoelektrik xassələr tələb olunur.

Bir sıra tədqiqatçılar (Majidzade VA et. al 2020) müəyyən etdilər ki, deformasiya yolu ilə qəfəsə daxil olan əlavə sərbəst elektronlar donor olmasa da ona bənzər effektə səbəb olur. Se-nin kristal sahələrinin donor boşluqlarını tutan Sb atomlarına məxsus elektronlar qəfəsin alt sahələrinə doğru yayıla bilir və nəticədə Se-nin elektron sferasında boşluqlar yaranır. Bu boşluqlar stibium selenidin topoloji izalyatora bənzər qurluş yarada bilməsinə əsaslanır. Əslində isə bu bənzərlik tam şəkildə topoloji xarakter daşıyan izalyator deyildir. Elektronların deformasiya effekti Sb_2Se_3 stexiometrik formula cavab verən birləşməsində də öyrənilmişdir. Soyuq preslənmiş nümunələrin elektrik müqavimətində qeyri-adi bir azalma olduğu müşahidə edilmişdir. Lakin Zebbek əmsalının aşağı daşıyıcı konsentrasiyası səbəbindən daxili diapazonda olduğu aşkar edilmişdir (A. Parbatani at. ol. 2019).

Termoelektrik xüsusiyyətlərini təyin edərkən zonalı əritmə üsulu külçənin tam təmiz olmadığı halda aşqardan təsirləndiyi müəyyən edilmişdir (Majidzade VA et. al 2019). Külçənin tərkibi təmiz olmadıqda materialın termoelektrik xüsusiyyətləri bir çox mənbələrdən elektronaktiv qarışıqların yaranması nəticəsində yükdaşıyıcı konsentrasiyasının dəyişməsi baş verə bilir. Nümunənin tərkibində Se kütləcə 4 %-dən az olduqda, ən yüksək termoelektrik dəyər göstəricisi 0,3 olduğu müəyyən edilmişdir. Bu stexiometrik formuldan kənara çıxan bərk fazalar və ya bərk məhlular şəkilində mövcud ola bilər. Kvazi bərk məhlul formasında olan Sb-Se sisteminin 300 K-də ZT kəmiyyətinin qiyməti 1,1 tərtibində olmuşdur. Belə kompozit sistem nəzərə alınmayan çox kiçik daxili həyəcanlanma səbəbindən aşağı yükdaşıyıcı qatılığına malik olur. Sb_2Se_3-ün tərkibində bipolyar keçiriciliyin basdırılması səbəbindən elektrik keçiriciliyi və Zebbek əmsalları artır (K. Tittes at.al. 2003). Bu səbədən qəfəs keçiriciliklə baş verən istilik keçiriciliyində azalma müşahidə olunur.

Qəfəs parametrlərinin mümkün ola bilən qüsurlarına əsaslanaraq stibium selenid sistemlərinin temperaturun aşağı qiymətlərində elektrik keçiriciliyində azalma müşahidə oluna bilir. 350 K-dən yüksək temperaturda qəfəsi əmələ gətirən atom və ya ionlarda güclü daxili həyəcanlanma baş verir ki, bu da elektrik keçiriciliyinin artan oblastda dəyişməsinə səbəb olur (D.D.L. Wijingaards at.al. 2000 and M. Takahashi 2004). Bu isə nisbətən yuxarı temperaturlarda stexiometriyadan kənar olan Sb-Se sistemlərində stibium atomlarının aktiv donor xarakterə malik olmasına səbəb olur, bir sözlə aktiv elektrodonor aşqar rolunu oynayır.

Elektrokimyəvi yolla sintez olunan stibium selenid n-tipkeçiricilik nümayiş etdirir.

NƏTİCƏLƏRİN TƏHLİLİ

Temperatur cərəyan asılılıqlarının öyrənilməsi üçün təqdim olunan işdə hazırlanmış bütün nazik təbəqələrin 300-400 K arasında müxtəlif temperaturlarda elektrik xarakteristikaları ilə xarakterizə edilmişdir. Müxtəlif temperaturlarda volt-amper əyrilərinin temperaturdan asılılığının

qurulması ilə materialın yarımkeçirici xarakteri və termoelektrik xarakteristikası təsdiq edilmişdir. Elektrik müqaviməti və keçiricilik dəyərləri məlumatların təhlilindən müəyyən edilmiş və müvafiq əyrilər ölçülmüş diapazon üçün temperaturun funksiyası kimi qrafik şəklində göstərilmişdir. Bundan əlavə, təklif olunan nazik təbəqələrdə qeyd olunan parametrlərin temperaturdan asılılığının müəyyənləşdirilməsi üçün aşağıdakı tənliklər əsasında hesablamalar aparılır. Eksperimental məlumatlara nəzəri uyğunluqdan istifadə etməklə keçiriciliyin temperatur asılılığını hesablamaq olar. Keçiriciliyin temperaturdan asılılığı xüsusi müqavimətin temperaturdan asılılığının tərs qiyməti olduğundan əvvəlcə xüsusi müqavimətin hesablanması tələb olunur. Ommetrlə təchiz olunmuş sistem təbəqələrin və ya külçələrin elektrik müqavimətini ölçür. Nümunənin qalınlığı (en kəsiyinin sahəsi) və uzunluğu məlum olduğu halda xüsusi müqavimətin qiyməti hesabalana bilir.

$$\rho = R\frac{S}{l}$$

Sb_2Se_3 stexiometrik tərkibə uyğun gələn yarımkeçirici materialların xüsusi elektrik müqaviməti ilə temperatur asılılığı aşağıda verilən çıxarışla hesablana bilir (K. Tittes at.al. 2003).

$$\rho = \rho_0 \times e^{B/T}$$

Tənlikdə verilmiş ρ- nümunənin xüsusi elektrik müqaviməti (Om×sm), ρ_0-temperatur asılılığı nəzərə alınmayan əmsaldır. Digər yarımkeçirici sistemlərdə olduğu kimi Sb_2Se_3 birləşmələrində də istiliyin artması xüsusi müqavimətin zəifləməsinə səbəb olur. Temperatur mütləqsıfır qiyməti həddində olduqda Sb_2Se_3 əsaslı nümunələrdə xüsusi müqavimətin ifadəsi maksimal qiymətə çatır. $T=\infty$ olanda, $\frac{1}{T} = 0$ olar, bu zaman $\rho = \rho_0$ olur. Disturda verilmiş B- sabit kəmiyyətdir və araşdırılan sistemin xarakterizəsinə uyğun gələn əmsaldır. Stibium selenid sistemlərinin xüsusi müqavimətinin temperaturdan asılılığının hesablamalar nəticəsində əldə olunan bir neçə qiymətləri cədvəl 1-də verilmişdir.

Cədvəl 1

Elektrokimyəvi yolla sintez olunmuş stibium selenid sistemlərində xüsusi müqavimətin temperatur asılılığını əks etdirən hesablama nəticələri.

ρ *Om×sm*	$1,5\times10^3$	$1,45\times10^3$	$1,4\times10^3$	$1,35\times10^3$	$1,3\times10^3$	$1,25\times10^3$	$1,1\times10^3$
U, *mV*	1,22	1,34	1,47	1,59	1,64	1,76	1,89
T, *K*	300	330	360	390	400	430	460

Bildiyimiz kimi, xüsusi müqavimət elektrik keçiriciliyindən tərs mütənasib asılıdır. Belə ki, $\sigma = 1/\rho$ olduğundan xüsusi müqavimətin təcrübələrdən alınmış qiymətlərə əsaslanaraq lgσ-nın və temperaturdan asılılığını ifadə edən nəticələr müəyyən olunmuşdur.

Sistemin enerji dəyişməsi $E>>2kT$ olduğu yarımkeçirici materialda xüsusi elektrik keçiriciliyi ilə temperatur arasında mövcud olan asılılıq aşağıda verilmiş çıxarışla xarakterizə olunur.

$$\sigma = \sigma_0 \times e^{-\Delta E/2kT}$$

σ- nın xüsusi elektrik keçiriciliyi (məxsusi keçiricilik) ($Om^{-1}\times sm^{-1}$), σ_0 - isə $T=\infty$ olarsa, belə ki, valent zonasında yerləşən elektronların hamısının həyəcanlanması nəticəsində yarımkeçirici nümunənin elektrik keçiriciliyi, k - Bolsman sabiti ($1,381 \times 10^{-23}$ $C\times K^{-1}$); ΔE – yükdaşıyıcı sıxlığının elektrik keçiriciliyindəki aktivləşmə enerjisini ifadə edir. Verilmiş şərtlərə əsasən yarımkeçirici nümunədə elektrik keçiriciliyi baş verərkən valent zonada yerləşən elektronların hamısı keçiriciliyi təmin edir. Verilmiş şərtlərə əsasən xüsusi müqavimətinin hesablanması tənliyi və bunun əsasında hesablananan məxsusi keçiriciliyin qiymətinin tapılmasını logarifmik ifadələr şəklində verilmiş tənliklərlə hesablaya bilirik:

$$\lg\rho = \lg\rho_0 + 0,43\frac{B}{T}$$

$$\lg\sigma = \lg\sigma_0 - 0,43\frac{\Delta E}{2kT}$$

Verilmiş riyazi çıxarışlara əsaslanaraq yarımkeçirici sistemlər üçün ΔE və B sabitlərinin qiymətini tapmaq olar. Tənliklərin riyazi ifadəsindən düz xəttin tənliyi olduğu anlaşılır və ρ_0 ilə σ_0 – düz xəttin 1/T koordinat oxundakı tangens bucağını ifadə edir.

$$tg\alpha=0,43B; \quad tg\beta=0,43\frac{\Delta E}{2k}$$

Verilmiş tənliklərdən ΔE və B kəmiyyətlərini hesablaya bilərik.

$$B=\frac{tg\alpha}{0,43}$$

$$\Delta E=\frac{2k}{0,43}tg\beta$$

B və ΔE kəmiyyətlərinin qiyməti qrafik asılılıqlar əsasında 1/T kordinatoxuna meyl bucağı olan α və β bucaqlarının tapılmasına da əsaslnaır.


$$\lg\rho=f\left(\frac{1}{T}\right) \quad \text{və} \quad \lg\sigma=f\left(\frac{1}{T}\right)$$

Eyni zamanda $\lg\sigma_0$ və $\lg\rho_0$ asılılıqlarının hesablanması ekstropolyasiyaya da əsaslanır. B və ΔE üçün qiymətlər məlum olduqda temperaturun hər hansı qiymaətində olursa olsun keçiriciliyi hesablamaq olar.

Hətta B-nin qiyməti məlum olduqda yarımkeçirici birləşmələr və ya sistemlər üçün xüsusi müqavimətin temperatur əmsalı olan α-nın da qiymətini hesablamaq mümkündür:


$$\alpha=\frac{B}{T^2}$$

Şəkil 1-də çaxır turşusu elektrolitində həll olmuş stibium oksi xlorid və selenit turşusundan elektroreduksiya ilə alınan Sb_2Se_3 yarımkeçirici təbəqələrində xüsusi müqavimətin temperaturdan qrafiki asılılığı verilib. Elektrokimyəvi proseslər qalvanostatik və potensiostatik yolla Pt və Ni lövhələri üzərində həyata keçirilmişdir.



Şəkil 1. Sb_2Se_3 yarımkeçirici sistemlərinin xüsusi müqaviməti və temperatur asılılığının qrafiki

Elektroreduksiya metodu ilə çökdürmədə Ni lövhənin səthində çökmüş təbəqələrin qalınlığı 6 - 9 mkm tərtibindədir. Qrafiki asılılıqdan da aydın başa düşülür ki, temperatur artdıqda Sb_2Se_3 təbəqələrində xüsusi müqavimət azalmağa meyl edir. Bununla da temperaturun istənilən qiymətində xüsusi müqavimətin qiymətinin yarmkeçirici yarımkeçirici xarakterə malik olduğu müəyyən olunur. Gəlinən nəticələrdən lgσ-1/T asılılığının qrafiki də qurula bilər. Bu asılılıq şəkil 2-də göstərilmişdir. Qrafikə diqqət yetirsək iki düz xətti asılılığın olduğunu görə bilərik. Qrafikdə sınan və ikinci düz xətti yaradan asılılıq qarışıq keçiricilik oblastının xarakterizəsidir. Müəyyən temperatur qradienti olan sahələrdə keçiricilik temperatur artdıqca dəyişə bilir. Temperaturun artması nəticəsində Sb_2Se_3 yarımkeçirici sistemlərində məxsusi keçiricilik aşqar keçiriciliyə dəyişir.



Şəkil 2. Sb_2Se_3 yarımkeçirici sitemlərində keçiriciliyinin temperatur asılılığının qrafiki təsviri

Əldə olunan nəticələr ədəbiyyat nəticələri ilə uzlaşdırılmış və eyniyyət təşkil etdiyi məlum olmuşdur. Belə ki, elektrokimyəvi yolla Sb_2Se_3 stexiometrik tərkibdə sintez edilmiş yarımkeçirici təbəqələrdə elektrik keçiriciliyi digər yollarla sintez edilmiş nümunələrdən əhəmiyyətli dərəcədə fərqlənmiş olur. Bunu sintez üsulu və şəraitindən asılı olaraq təbəqəni təşkil edən kristal quruluşların ölçülərinin müxtəlifliyi ilə əlaqələndirmək olar.

Təcrübi nəticələrə əsaslanaraq, təbəqələrdə bəzi yarımkeçirici xassələri müəyyən edən temperatur əmsalını B tyapmaq olar. $\alpha=B/T^2$ tənliyinə əsasən (B-nin qiyməti məlum olduqda) müqavimətin temperatur əmsalı α məlum olduqda məxsusi keçiricilik sahəsində qadağan olunmuş zona enerjisinin və qarışıq keçricilik sahəsində komponentlərin hissəciklərinin aktivləşmə enerjisinin hesablanması mümkün olur. Şəkil 2-də verilmiş bucaq əmsalını $tg\alpha=\Delta E/2kT$ düz xəttin tənliyindən ΔE-ni tapmaq olar.

$$\Delta E= 2kT\ tg\alpha$$

400 və 500 K temperatur intervalında B; ΔE_m; ΔE_q və α-nın qiymətləri cədvəl 2-də verilmişdir.

Cədvəl 2

Elektroreduksiya ilə tartrat məhlulundan alınan stibium selenid yarımkeçirici sistemlərində bəzi fiziki sabitlərin qiyməti

Birləşmə	ΔE_m eV	ΔE_q eV	B, K	α^{400} K^{-1}	α^{500} K^{-1}
Sb_2Se_3	1,2	0,32	3200	2×10^{-2}	$1,28\times10^{-2}$

Alnmış fiziki sabitlərin qiymətlərinə əsaslanaraq stibium selenidin yarımkeçiricilər texnikasında əhəmiyyətli tətbiqə malik olduğunu qeyd etmək olar.

ƏDƏBİYYAT

1. Majidzade VA, Aliyev ASh, Qasimogli I, Quliyev PH, Tagiyev DB (2019) Electrical properties of electrochemically grown thin Sb_2Se_3 semiconductor films. Inorg Mater 55:979–983. https://doi.org/10.1134/S0020168519100108
2. VA Majidzade, PH Guliyev, AS Aliyev, M Elrouby, DB Tagiyev Electrochemical characterization and electrode kinetics for antimony electrodeposition from its oxychloride solution in the presence of tartaric acid. Journal of Molecular Structure 1136, 7-13 https://doi.org/10.1016/j.molstruc.2017.01.082
3. VA Majidzade, AS Aliyev, PH Guliyev, YN Babayev, M Elrouby, ... Electrochemical behaviour of selenite ions in tartaric electrolytes. Journal of Electrochemical Science and Engineering 8 (3), 197-204. https://doi.org/10.5599/jese.490, 2020.

4. Ganesh Sh. H., A. N. Prabhu A Review on Doped/Composite Bismuth Chalcogenide Compounds for Thermoelectric Device Applications: Various Synthesis Techniques and Challenges. / Published online: 14 March 2022
5. A. Parbatani, E.S. Song, J. Claypoole, and B. Yu, High performance broadband bismuth telluride tetradymite topological insulator photodiode. Nanotechnology 30, 165201 (2019).
6. K. Tittes, A. Bund, W. Plieth, A. Bentien, S. Paschen, M. Plotner, H. Grafe, and W.-H. Fischer, J. Solid State Electrochem. 7, 714 (2003). doi:10.1007/s10008-003-0378-8.
7. D.D.L. Wijingaards, S.H. Kong, M. Bartek, and R.F. Wolffenbuttel, Sens. Actuators 85, 316 (2000). doi:10.1016/S0924-4247(00)00417-9.
8. M. Takahashi, M. Kojima, S. Sato, N. Ohnisi, A. Nishiwaki, K. Wakita, T. Miyuki, S. Ikeda, and Y. Muramatsu, J. Appl. Phys. 96, 5582 (2004). doi:10.1063/1.1785834.

SUMMARY

STUDY OF THERMOELECTRIC PHENOMENA IN SOLID PHASES BASED ON STIBIUM SELENIDE

Parvin Guliyev, Ilkana Aghalarova, Gulnur Taghıyeva

The synthesis of semiconductor materials operating in a wider temperature range and optimization of optophysical properties are among the main issues for researchers to meet the requirements of modern electrical engineering. Antimony chalcogenides are among these semiconductors. We have studied the kinetic characteristics of Sb-Se systems synthesized electrochemically in various environments. The influence of various factors on the synthesis process has been studied. The presented research work mainly deals with the thermoelectric characteristics of antimony selenium systems. The temperature dependence of the electrical conductivity of solid solutions of antimony selenium systems and their stoichiometric formula compounds has been studied, and a curve of the dependence of the specific resistance on the inverse value of temperature has been constructed. It has been found that the electrical conductivity of antimony selenide increases with increasing temperature. The reason for the change in electrical conductivity depending on temperature is due to the decrease in the value of the forbidden band energy of the compound. By studying the dependence of electrical conductivity on temperature, it was found that antimony selenide has a wide operating range over a wide temperature range.

Keywords: *electrode, semiconductor, resistance, level, band gap*

РЕЗЮМЕ

ИЗУЧЕНИЕ ТЕРМОЭЛЕКТРИЧЕСКИХ ЯВЛЕНИЙ В ТВЕРДЫХ ФАЗАХ НА ОСНОВЕ СЕЛЕНИДА СУРЬМЫ

Парвин Гулиев, Илькана Агаларова, Гулнур Тагиева

Синтез полупроводниковых материалов, работающих в более широком диапазоне температур, и оптимизация оптофизических свойств являются одними из основных задач исследователей для удовлетворения требований современной электротехники. К таким полупроводникам относятся халькогениды сурьмы. Изучены кинетические характеристики систем Sb-Se, синтезированных электрохимическим способом в различных средах. Изучено влияние различных факторов на процесс синтеза. Представленная исследовательская работа посвящена, в основном, термоэлектрическим характеристикам систем сурьма-селен. Изучена температурная зависимость электропроводности твердых растворов систем сурьма-селен и их соединений стехиометрического состава, а также построена кривая зависимости удельного

сопротивления от обратной величины температуры. Установлено, что электропроводность селенида сурьмы увеличивается с повышением температуры. Причина изменения электропроводности в зависимости от температуры заключается в уменьшении значения энергии запрещенной зоны соединения. Изучая зависимость электропроводности от температуры, было установлено, что селенид сурьмы имеет широкий рабочий диапазон в широком диапазоне температур.

Ключевые слова: *электрод, полупроводник, сопротивление, уровень, запрещенная зона*

No: 01 2026
https://doi.org/10.64400/ea26-01-22
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

TƏBİİ-TURİZM EHTİYATLARININ QİYMƏTLƏNDİRİLMƏSİNƏ YANAŞMALAR

Aynur HÜSEYNZADƏ
AR ETN Coğrafiya İnstitutu, Bakı, Azərbaycan
**Yazışılan müəllif*: *aynur.huseynzade@atmu.edu.az*

NƏŞR TARİXİ:
Qəbul edilmə tarixi: 03.03.2026
Nəşr edilmə tarixi: 17.03.2026

Açar sözlər:
turizm, turizm ehtiyatları, region, destinasiya, rekreasiya

XÜLASƏ
Turizmin inkişafı mövcud ehtyatlardan çox asılıdır. Bir regionda turizm kompleksinin formalaşması, həmin ərazinin turistlər arasında cəlbediciliyi ilə müəyyən edilir. İqtisadi-coğrafi baxımdan, turizm fəaliyyəti üçün əlverişli olan ehtiyatlar və təbii şəraitin ərazi məcmusu vacibdir. Bu ehtiyatların və təbii şəraitin diapazonu isə genişdir. Buraya regionun təbii, tarixi, mədəni və sosial-iqtisadi xüsusiyyətlər daxildir. Hər hansı bir əraziyə aid olan müxtəlif obyekt və təzahürlər regionun turizm potensialı kimi səciyyələndirilir. Məqalədə bu sahə ilə məşğul olan alimlərin yanaşmaları təhlil edilmişdir.

GİRİŞ

Turizmlə əlaqəli Elmi nəşrlərdə və dərsliklərdə hər hansı bir ərazidə turizm fəaliyyətinin həyata keçirilmə imkanlarını daha dolğun ifadə edən "turizm ehtiyatları" və "turizm potensialı" anlayışlarından geniş istifadə olunur. Turizmin inkişafı ehtiyatların müxtəlifliyindən asılı olduğu üçün uzun müddətdir ki, tədqiqatçılar onun mahiyyəti, strukturu və qiymətləndirilməsi ilə bağlı məsələlərə böyük maraq göstərirlər. Turizm ehtiyatlarının ilk tədqiqinə rekreasiya coğrafiyasının çərçivəsində başlanılmış və "rekreasiya ehtiyatları" anlayışı işlənib hazırlanmışdır. Bu anlayışa və onun mahiyyətinə yanaşmalar bir sıra sovet tədqiqatçıların əsərlərində öz əksini tapmışdır [1, s. 64].

Belə tədqiqatçılardan olan N.S.Mironenko və I.T.Tverdoxlebovun əsərində rekreasiya ehtiyatlarının aşağıdakı təyini verilir. Rekreasiya ehtiyatları - istirahət, turizm və müalicə üçün istifadə edilə bilən təbii və antropogen mənşəli obyekt və təzahürlərdir. Müəlliflər qeyd edirlər ki, rekreasiya ehtiyatları ərazidə rekreasiya fəaliyyətinin təşkilinə, rekreasiya zonalarının və mərkəzlərinin formalaşmasına, onların ixtisaslaşmasına və iqtisadi səmərəliliyinə təsir göstərir (Mironenko & Tverdoxlebov, 1981).

L.A.Bagrova və başqaları bu anlayış daha da inkişaf etdirmişlər. Onlar "rekreasiya ehtiyatları" adı altında təbii, təbii-texniki və sosial-iqtisadi geosistemləri və onların elementlərini başa düşmüşlər. Anlayışın belə təyini, rekreasiya fəaliyyəti üçün əlverişli xüsusiyyətlərə malik təbii və təbii-texniki geosistemlərin yalnız istirahət məqsədli istifadəyə cəlb edildiyi halda rekreasiya ehtiyatları hesab edilə biləcəyini nəzərdə tutur (Baqrova, Baqrov & Preobrajenskiy, 1977)

I.I.Pirojnik rekreasiya ehtiyatları kimi turizm xidmətlərinin istehsalı üçün istifadə edilə bilən, həmçinin müalicəvi, idman-sağlamlıq və ya ekskursiya turizmi ehtiyaclarını ödəyə biləcək təbii və antropogen (mədəni) landşaftların elementləri və müxtəlif birləşmələrini qeyd edir. Onun fikrincə, "rekreasiya ehtiyatları" anlayışı "təbii şərait" və "turizmin inkişafı üçün mədəni-tarixi zəmin" anlayışları ilə eyni deyil. Rekreasiya ehtiyatları, müəyyən dərəcədə təbii şərait və tarixi-mədəni obyektlərdir ki, onlar da sosial ehtiyacların təsiri və rekreasiya xidmətlərində birbaşa istifadə olunma ehtimalı ilə istehsal qabiliyyətinə gətirilir (Pirojnik, 1985).

TƏHLİL VƏ MÜZAKİRƏ

Coğrafiya elmində rekreasiya ehtiyatları anlayışı ilə yanaşı, "turizm ehtiyatları" anlayışından da geniş istifadə edilir. Ölkəmizdə bu anlayışdan istifadə edərkən bir çox tədqiqatçılar, ilk növbədə, "Turizm haqqında" Azərbaycan Respublikası Qanununa istinad edirlər. Qanuna görə "turizm

ehtiyatları – səyahət edilən ölkənin (yerin) mədəni, tarixi və təbii irsi, infrastruktur obyektləri və turistlərin tələb və ehtiyaclarını təmin edə bilən digər obyektlərin məcmusu"dur [15].

Sovet tədqiqatçıları Y.S.Putrik və V.V.Sveşnikova görə "Turizm ehtiyatları – turizm-ekskursiya fəaliyyəti üçün əlverişli olan ətraf mühitdəki təbii və insan əməyi ilə yaradılan obyektlərin və təzahürlərin məcmusudur". Bu fəaliyyət turistlərin sağlamlığını, onların emosional vəziyyətini yaxşılaşdırmaq və mənəvi inkişafını təmin etməyə istiqamətlənmişdir. Müasir turizmi ehtiyatların yerləşmə xüsusiyyətləri və keyfiyyətini nəzərə almadan təsəvvür etmək mümkün deyil. Müəlliflər, rekreasiya və turizm ehtiyatları anlayışının üst-üstə düşdüyünü qeyd etsələr də, turizmin rekreasiyaya tabe olduğunu və turizm ehtiyatlarının rekreasiya ehtiyatlarının tərkib hissəsi kimi çıxış etdiyini vurğulayırlar(Putrik & Sveşnikova, 1986).

Rusiyalı tədqiqatçı M.B.Birjakov turizm fəaliyyətində insan ehtiyaclarını ödəyə bilən təbii-iqlim, sosial-mədəni, tarixi, memarlıq və arxeoloji, elmi və sənaye, tamaşalar, dini və digər obyekt və ya təzahürləri turizm ehtiyatları adlandırır. Müəllifin fikrincə, turizm turizm ehtiyatlarından məqsədli və ağlabatan istifadyə əsaslanır(Birjakov,2004). Turizm ehtiyatlarının mahiyyəti - turist marağı obyektləridir ki, bunlar potensial olaraq turizm prosesində yaranan insanların ehtiyaclarını ödəyə bilirlər. Turist marağı və turist təsüratı turizm ehtiyatlarından və obyektlərindən turizm məqsədləri üçün istifadənin əsasını təşkil edir.

N.P.Kraçiloya görə, turizm ehtiyatları insanın ehtiyaclarını ödəyən təbii komponentlərin, sosial-iqtisadi şəraitin və mədəni dəyərlərin məcmusudur. Müəllifin qeyd etdiyi kimi, turizmin inkişafı üçün əlverişli turizm ehtiyatlarına malik olan müəyyən ərazilərin olması mühümdür. Onları şərti olaraq turizm üçün bir növ xammal adlandırmaq olar. Turizm ehtiyatları və obyektlərinin dəyəri onların bənzərsizliyi və spesifikliyi hesab edilir(Kraçilo,1987).

Turizm ehtiyatlarının öyrənilməsinin ən vacib cəhətlərindən biri onların təsnifatıdır. Y.S.Putrik və V.V.Sveşnikov turizm ehtiyatlarını 2 qrupa bölürlər: təbii və sosial-iqtisadi ehtiyatlar. Təbii turizm ehtiyatları təbii mühitin müəyyən komponentlərinə - iqlim, su, meşə mənsubiyyətinə görə səciyyəvidir; onların funksional məqsədi sağlamlıq, idraki və idmandır (Putrik & Sveşnikova, 1986). Sosial-iqtisadi turizm ehtiyatlarına tarixi və mədəni obyektlər (abidələr və xatirə yerləri, muzeylər və s.), təzahürlər (etnoqrafik, siyasi, sənaye və s.), həmçinin maliyyə, maddi və əmək ehtiyatları daxıldir.

Turizm ehtiyatlarının spesifikliyi onların xüsusiyyətlərində özünü göstərir. Turizm ehtiyatlarını xarakterizə edən və onların inkişaf ehtimalını təyin edən ən vacib göstəricilər həcmi və paylanma sahəsidir. Turizm ehtiyatları, onların mənimsənilməsindən asılı olan bir sıra spesifik xüsusiyyətlərə görə də fərqlənir: mövsümilik, əlçatanlıq, cəlbedicilik, rahatlıq, unikallıq, tipiklik [8]. Bundan əlavə, turizm ehtiyatlarının xarakterik xüsusiyyətlərinə bütövlük, dinamizm, tutum, sabitlik, etibarlılıq [6], həmçinin öyrənilmə dərəcəsi, ekskursiya dəyəri, landşaft xüsusiyyətləri, istifadə üsulu [9] və digərləri daxildir.

Azərbaycanlı alim N.C.Qafarova görə "ən ümumi mənada, konkret regionda turizm fəaliyyəti və turistlərin cəlb olunması üçün istifadə oluna bilən hər bir mövcudiyyat turizm ehtiyatları hesab edilə bilər". Müəllif qeyd edir ki, "turizm ehtiyatı" anlayışı çox vaxt "rekreasion ehtiyat" anlayışı ilə eyniləşdirilir ki, bu da turizmin – rekreasiyanın bir hissəsi kimi başa düşülməsiylə şərtlənir. Rekreasiya ehtiyatları adı altında insanın rekreasiya tələbatlarının ödənilməsinin şərti kimi çıxış edən təbiət, sosial-iqtisadi və mədəni dəyərlərin ahəngdarlığını başa düşmək lazımdır(Qafarov,2015).

Turizm ehtiyatlarının müxtəlifliyi, onların keyfiyyət və xüsusiyyətlərinin meydana çıxması turizmin daima dəyişmə və inkişafda olmasına imkan verir. Yeni, əvvəllər inkişaf etdirilməmiş ərazilərin və təbii obyektlərin cəlb edilməsi səbəbindən böyüyür. Turizm ehtiyatları yeni turizm növlərinin ortaya çıxması nəticəsində, əvvəllər istifadə edilməmiş bütün təbii, tarixi və mədəni obyektlərin turist dövriyyəsinə daxil olması səbəbindən artır.

Beləliklə, müxtəlif müəlliflərin araşdırmaları nəzərə alınmaqla, qeyd etmək olar ki, "turizm ehtiyatları" anlayışı kifayət qədər işlənilmiş və onun bütün tərkib hissələri olduqca tam və obyektiv şəkildə təqdim edilmişdir. Bu anlayışla paralel olaraq, turizmin resurs bazasını xarakterizə etmək üçün "turizm potensialı" anlayışından da tez-tez istifadə olunur.

Məlumat xarakterli nəşrlərdə "potensial" anlayışı hər hansı bir problemi həll etmək, müəyyən bir məqsədə çatmaq üçün istifadə edilə bilən mənbələr, vasitələr, ehtiyatlar kimi təqdim edilir [17]. Bu anlayış çoxtərəfli və çoxşaxəlidir. Turizm sektoru da daxil olmaqla müxtəlif sahələrdə tətbiq edilir. Turizm potensialı anlayışına rekreasiya coğrafiyası çərçivəsində rast gəlinir ki, bura da da əvvəlllər daha çox "rekreasiya potensialı", "təbii-rekreasiya potensialı", "turizm-rekreasiya potensialı", "rekreasiya-resurs potensialı" kimi anlayışlar istifadə edilirdi.

Rekreasiya potensialı adı altında, müəyyən bir ərazidə rekreasiya fəaliyyətinin təşkili üçün təbii və sosial-mədəni zəminlərin məcmusu başa düşülür. Çox vaxt rekreasiya potensialı adı altında, ərazidə olan nadir və ya nisbətən əlçatan olan təbii obyektlər başa düşülür [12].

Turizm potensialı anlayışı elmi nəşrlərdə 2000-ci illərin əvvəllərində meydana çıxmış və hələ kifayət qədər inkişaf etdirilməmişdir. Ancaq buna baxmayaraq, bu anlayışı təhlil edən əsərlər vardır. Bu tərifi rusiyalı tədqiqatçı Y.A.Xudenkix inkişaf etdirmişdir. O, əsərlərində turizm potensialını, ərazinin hərtərəfli xarakteristikası üçün əlverişli olan turizmin resurs bazasının müəyyənləşdirilməsində əsas anlayışlardan biri kimi təqdim etmişdir. Turizm potensialı yalnız turistlərin maraq obyektlərini (aktual və perspektivli) deyil, həm də sektor baxımından fəaliyyətin həyata keçirilməsi üçün bütün zəruri şərtləri nəzərə almağa imkan verir. Müəllif turizm potensialının quruluşunu aşağıdakı bloklar şəklində təqdim edir: təbii; tarixi-mədəni; sosial-iqtisadi; məlumat; demoqrafik; əmək; maliyyə; texnoloji; idarəçilik (Xudenkix,2006).

Ərazinin təbii və mədəni irsi turizm üçün resurs bazası hesab olunur, çünki turizm qorunan dəyərlərin kütləvi qavranılmasını təmin etdiyi üçün mirasdan istifadənin ən təsirli forması kimi tanınır. İrs - dərketmə, estetik qavrayış və yaradıcılıq baxımından ən yüksək turist ehtiyaclarının reallaşdırılması üçün resurs bazası yaradır. Ərazinin turizm resurslarının, potensialının və irsinin nisbəti turizm potensialının müəyyən edilməsi üçün əsas ola bilər. Yeri gəlmişkən qeyd edilməlidir ki, ölkəmizdə bəzi tədqiqatçılar turizm resurslarını xarakterizə edərkən onu turizm ehtiyatları ilə eyniləşdirirlər. Məsələn, azərbaycanlı mütəxəssislər C.A.Məmmədov və S.H.Rəhimova görə "turizm resursları təbii, sosial-mədəni, sağlamlıq resurslarının məcmusu. Turizm resursları insanın istirahəti zamanı müxtəlif rekreasiya tələbatlarının ödənilməsinə xidmət etməlidir" (Məmmədov & Rəhimov, 2003).

Polşalı iqtisadçı M.Truasi hələ 1960-cı ildə turizm resurslarını iki hissəyə bölmüşdür: a) İnsan tərəfindən yaradılan resurslar; b) insan tərəfindən yaradılmayan resurslar. O, həmçinin təbii resursları:- flora və fauna, landşaft, dağlar, göllər, çaylar, dənizlər, iqlim və s. sonuncu hissəyə əlavə etmişdir: M.Truasinin bölgüsündə mədəni və tarixi dəyərləri olan obyektlər İnsan əməyi nəticəsində meydana gələn resurslara daxil edilir. Həmçinin, turizm infrastrukturu, səfər müddətində turistin bütün maddi texniki baza ilə təmin edilməsi bu hissəyə aid edilir [16].

Fransız iqtisadçısı P.Defer də turizm resurslarının təsnifatını vermiş və bu resursları dörd hissəyə ayırmışdır: hidrom, fitom, litom və antropom. P.Defer hidrom qrupuna su resurslarını(mineral bulaqlar, göllər, çaylar, dənizlər, d\niz sahili zonalar, buzlaqlar, şəlalələr və s.), fitom qrupuna landşaft (dağlar, vulkanlar, meşələr), həmçinin milli parklar, botanika bağları və s., litom qrupuna insanın əməyinin nəticələri: incəsənət abidələri, arxitektura, mədəniyyət, memarlıq nümunələr, etnologiya (məs. etnoqrafik kəndlər və yaxud açıq səma altında olan muzeylər), müasir orijinal qurğular (körpülər, hündür binalar, idman və mədəniyyət mərkəzləri, aeroportlar, teleqüllələr və s.), antropom qrupuna insanın özü, eyni zamanda onun işi, adət-ənənəsi, folkloru, bayramları, milli geyimləri, musiqisi və digərlərini daxil etmişdir [16].

